where f is frictional stress, m is friction coefficient and k is shear flow stress. In this paper, to study the effect of lubricant on the extrusion process, a wide range of friction coefficients are applied to the model. In addition, to verify the obtained results, comparison between the simulation results and experimental data was performed to ensure the accuracy of the simulation results. The experimental data for this purpose has been extracted from the data presented at the International Benchmark Extrusion Conferences 2009(ICEB 2009) [9, 10]. Also, all specification of the extrusion process such as material type of billet and equipment, extrusion rate, heat transfer coefficients, friction model and etc. are similar with the model given in the ICEB 2009.

In Fig. 1, the size of each part and the bearing shape of the dies are shown. It should be noted that, all dimensions in this figure are in millimeter. The other specifications of the extrusion process are listed in Table 1.

Table 1 Characteristics of aluminum extrusion process

unit	value		Parameter
°C	420		Initial billet temperature
°C	400		Initial die temperature
°C	400		Initial container temperature
°C	380		Initial ram temperature
(mm/s)	10		Extrusion speed
N/(s. mm. °C)	11		Heat transfer coefficient between work piece an equipment
N/(s. mm. °C)	0.02		Heat transfer coefficient between parts an air
N/(s. °C)	210 24.33	AA 6082 AISI H-13	Thermal conductivity
N/(mm². °C)	2.94 4.63	AA 6082 AISI H-13	Heat capacity



a) simple profile | b) heat- sink

Fig. 1 Geometry of model and bearing shape of dies

3. Results and discussion

In this section, firstly the obtained results from the finite element simulation and the available experimental data have been compared.

Fig. 2-a shows the maximum extrusion force for profile Fig.1-a. As shown in this figure, in experimental model the maximum extrusion force is 8 MN and the maximum extrusion force predicted by the finite element method is 8.19 MN. The difference between these forces is 2.37% which shows the values are in good agreement. Fig. 2-b shows the average output speed of the profile Fig.1-a during the process. The difference in the output speed between experimental results and simulation for the first profile is 9.33% and for the second profile is 10.27%.

As discussed in previous sections, in this study the effects of lubricant have been investigated by applying different friction coefficients. For this purpose, a wide range of coefficients of friction from 0

to 1 are applied on profile Fig.1-b. The maximum load in the unlubricated condition, friction coefficient 1, is 1.87 MN. This value has been reduced to 0.996 MN (46.7% reduction) by applying the friction coefficient 0.1 (Fig. 3), which means that 53% of total extrusion load is used to overcome friction force between the surfaces.



a) Load b) Profiles speed

Fig. 2 Comparison of experimental data and simulation results for ICEB 2009 model

Another crucial parameter in extrusion process is temperature and if it reaches the melting point or recrystallization temperature, the product will be deformed in the die output or it can contain various grain sizes in different regions. Fig. 4 shows the maximum temperature in the work piece during the extrusion process for profile Fig.1-b. According to Fig. 4, the maximum temperature with friction coefficient 1 is 489 ˚C, while with friction coefficient 0.01 is 451 ˚C. The difference between these two temperatures indicates the conversion of energy lost by friction into heat. Moreover, as shown in this figure, the increase in temperature in the sticking condition is much higher than the case in which the lubricant effect is considered.



Fig. 3 Extrusion load for different friction coefficients



Fig. 4 Maximum temperature of billet for different friction coefficients

The output profile shapes by changing the coefficient of friction in heat- sink profile are shown in Fig. 5. As shown in this figure, the undesirable curvature of the output profile is reduced by reducing the amount of friction coefficient. Which means that the frictional resistance against the flow of materials in the profile wings reduces as friction reduces.



Fig. 5 Shape of the output profile with (a) *m*=1, (b) *m*=0.5, (c) *m*=0.1

The velocity distribution on the cross-sectional area of the profile Fig. 1- b is shown in Fig. 6. As shown in this figure, by decreasing the amount of friction coefficient, the velocity distribution in the different points of the profile cross section is more uniform. Therefore, using a suitable lubricant to reduce the friction between the surfaces, especially in the bearing area, could result in producing the profiles with less distortion.



Fig. 6 Velocity distribution on the cross section of the profile with (a) *m*=1, (b)) *m*=0.5, (c) *m*=0.1

4. Conclusion

The results of this paper show that the finite element method for simulation of extrusion process is a practical method and accuracy of numerical results is acceptable in comparison to the experimental data. Investigating the effect of lubricant in the extrusion process shows that the amount of extrusion load decreases with decreasing the friction. In addition the results show that, by reducing the amount of friction between the surfaces, the maximum temperature of work piece decrease. Consequently, the reduction of the maximum temperature reduces the risk of reaching the work piece's temperature to the melting point. Furthermore, the lubrication has a significant effect on the shape of the output profile. In regions that the thickness of profile is less, the output speed is usually lower and this phenomenon makes unwanted curvature in the output profile. By reducing the amount of friction, the frictional resistance to the flow of materials in these areas is reduced and the profile would be produced with less curvature. Besides, the velocity distribution at the cross section of the profile could be more uniform in the cases with lower friction coefficient.

REFERENCES

[1] N. V. Sagar, K. Anand and A. Mithun , "Friction factor of CP aluminum and aluminum-zinc alloys," Bulletin of Materials Science, vol. 29, no. 7, pp. 685, 2006.

[2] H. Sofuoglu and J. Rasty, "On the measurement of friction coefficient utilizing the ring compression test," Tribology International, vol. 32, no. 6, pp. 327-335, 1999.

[3] M. Bakhshi-Jooybari, "A theoretical and experimental study of friction in metal forming by the use of the forward extrusion process," Journal of materials processing technology, vol. 125, pp. 369-374, 2002.

[4] T. Nakamura, N. Bay and Z.-L. Zhang, "FEM Simulation of a Friction Testing Metliod Based on Combined Forward Conical Can-Backward Straight Can Extrusion," Journal of tribology, vol. 120, no. 4, pp. 716-723, 1998.

[5] R. Velu and M. Cecil, "Quantifying Interfacial Friction in Cold Forming using Forward Rod Backward Cup Extrusion Test," Journal of The Institution of Engineers (India): Series C, vol. 93, no. 2, pp. 157-161, 2012.

[6] S. Hafis, M. Ridzuan and R. Farahana, "Paraffinic mineral oil lubrication for cold forward extrusion: Effect of lubricant quantity and friction," Tribology International, vol. 60, pp. 111-115, 2013.

[7] L. Wang, J. Zhou and J. Duszczyk, "Friction in aluminum extrusion—Part 1: A review of friction testing techniques for aluminum extrusion," Tribology International, vol. 56, pp. 89-98, 2012.

[8] L. Wang and H. Yang, "Friction in aluminum extrusion—part 2: A review of friction models for aluminum extrusion," Tribology International, vol. 56, pp. 99-106, 2012

[9] L. Donati, N. B. Khalifa and L. Tomesani, "Comparison of different FEM code approaches in the simulation of the die deflection during aluminum extrusion," International Journal of Material Forming, vol. 3, no. 1, pp. 375-378, 2010.

[10] B. Reggiani, L. Donati and L. Tomesani, "Evaluation of different FE simulation codes in the stress analysis of extrusion dies," International Journal of Material Forming, vol. 3, no. 1, pp. 395-398, 2010.

KLAPANLARI İDARƏETMƏ MEXANİZMİNİN KİNEMATIKASININ TRİBOLOJİ BAXIMDAN QİYMƏTLƏNDİRİLMƏSİ

FƏRHAD MƏHƏMMƏD OĞLU ŞIRZADOV, EŞQIN RIZVAN OĞLU QULUZADƏ

(Bakı Mühəndislik Universiteti)

E-mail: fashirzadov@beu.edu.az; equluzade1@std.beu.edu.az

Xülasə. Məqalədə yumruqlu idarəetmə mexanizmlərinin yumruqlu vallarının kinematik xüsusiyyətləri analiz olunaraq, bu xüsusiyyətlərin tribotexniki baxımdan nə dərəcədə səmərəli olması analiz olunmuşdur. Analiz əsasında məlum olmuşdur ki, yumruqların yeyilməsinin azaldılması məqsədi ilə kontakt sahəsinin artırılması, zərbəli yüklənmələrin qarşısının alınması üçün yumruğa səmərəli formanın verilməsi, cütlər arasındakı minimal yağ təbəqəsinin təminatı və s. vacibdir.

Açar sözlər: yumruq, kinematika, tribologiya, yağ təbəqəsi.

Klapanları idarəetmə mexanizminin bütün xüsusiyyətləri kinematik, qüvvə, dinamik və triboloji nöqteyi - nəzərdən qiymətləndirilə bilər. Kinematik xüsusiyyətlərdə heç bir qüvvə nəzərə alınmır və kinematik şərtlər daxilində mexanizm qabaqcadan ona verilmiş hərəkət trayektoriyasını yerinə yetirməlidir. Klapanları idarəetmə mexanizmini kinematik qiymətləndirmə zamanı növbəti amillər nəzərə alınmaqla, effektif layihələndirmə mümükündür [1-4]:

- Konstruktiv tələblərdən asılı olaraq, mexanizmin növü seçilir;
- Ötürmənin modelləşdirilməsi, həndəsi, kütlə və kinematik parametrlərin statik hesablanması:
  - Yumruğun forması;
  - Ötürmənin ümumi həndəsəsi;
  - Kütlə və kütlə momenti;
  - Ağırlıq mərkəzinin yerləşməsi;
  - Kontaktda əyrilik radiusunun minimal qiyməti;
  - „Zaman-kəsiyi“ diaqramının maksimal qiyməti;
  - Klapanın qalxması;
  - Maksimal sürət;
  - Maksimal təcil;
  - Silindr formalı itələyicinin fırlanma tezliyi;
  - Hers təzyiqi;
  - Yağ təbəqəsinin qalınlığı.

Mühərrikin mümkün qədər yüksək dövrlər sayına nail olmaq üçün, hər şeydən əvvəl bütün sistemin sərtliyinin yüksəldilməsinə və sonra isə hərəkətli kütlənin azaldılmasına cəhd etmək, nəhayət səmərəli yumruq forması seçmək lazımdır. İdarə olunan hissələrin hərəkət qanunauyğunluğunu seçdikdən və klapanları idarəetmə mexanizminin əsas parametrlərini müəyyən etdikdən sonra yumruğun profili təyin olunur [2, 5, 6].

Yumruq formaları üçün əyri qövslü (tangensial, qabarıq və çökük yumruqlar), polinom, harmonik (multi-sinus qövslü), polidin (dinamik xüsusiyyətlər nəzərə alınmaqla polinom yumruğun modifikasiyası) yumruqlar fərqləndirilir. Çökük yumruqlar burucu momenti, mühərrikin gücünü artırır və ixrac qazlarının emissiasını azaldır. Belə yumruqlarda yan səth xətti deyil, çökük olub, klapanın tez açılıb bağlanmasına səbəb olur [7, 8, 9].

Klapanların qalxma hərəkətinin qanunauyğunluqları silindrlərin dolma dərəcəsinə əhəmiyyətli dərəcədə təsir edir. Klapanların maksimal qalxmasına qədər mümkün sürətli açılması (yumruğun açma yan səthi mümkün qədər sərt yoxuşlu və qısa olmalıdır), belə vəziyyətdə mümkün qədər çox saxlanılması („Zaman-kəsiyi“ diaqramının maqksimal qiymətinə nail olmaq üçün) və klapanın mümkün qədər tez bağlanması (yumruğun bağlama yan səthi mümkün qədər sərt enişli və qısa olmalıdır) ideal hal hesab olunur. Amma, belə bir hal yüklərin səmərəsiz paylanmasına, yüksək

təcillənməyə, yay və kütlə qüvvələrinə və bütün mexanizmin rəqsi hərəkətinə səbəb olur. Belə vəziyyətdə „zərbəsiz“ yumruq (polidin yumruq) tətbiq olunur ki, burada təcillənmə az sıçrayışlı olur. „Zərbəsiz“ yumrucuğun bir mənfi cəhəti yumruğun təpəsində yan səth təcillənməsinin daimi olaraq pozitiv qiymətdən neqativ qiymətə keçməsidir. Belə hal da triboloji baxımdan səmərəsiz hesab olunur [10, 11].

Yumruğun əsas radiusu, yan səthinin radiusu, təpə radiusu, eni, itələyicinin konstruksiyası və yumruğun konusluğu yumruq-ling cütünün sürət və qüvvə xarakteristikasına belə ki, firlanma sürətinə, hidrodinamik sürətə, təcillənmə və ətalət qüvvələrinə, Hers təzyiqinə və nəhayət onun tribologiyasına əhəmiyyətli dərəcədə təsir edir [9].

Bir çox maşınlarda klapanların qalxması, sürəti və təcillənməsi əsasdır və bununla hər hansı bir yumruq formasının istismar üçün səmərəliliyinin müəyyən olunması və mühərikin yanacaq sərfinə təsirini qiymətləndirməyə nail olmaq olar (şək. 1.). Klapanın qalxma, sürət və təcillənmə əyrilərinin analizi əsasında zərbə, səs-küy, yeyilmə, vibrasiya və nəhayət yumruq-itələyici-sisteminin dinamikası haqda qabaqcadan məlumatlar əldə etmək olar. Müəyyən olunmuşdur ki, təcillənmə əyrisi pilləsiz və təcillənmənin maksimal qiyməti mümkün qədər kiçik olduqda ən yaxşı nəticələr əldə olunur [8].

Təcillənmə əyrisində hər bir sıcrayış bir zərbə deməkdir ki, bu da mexanizmin detallarında güclü elastiki deformasiyalara səbəb olur. Bu hal yalnız mühərrikin istismarında deyil, həmçinin yumruğun pardaqlanması zamanı da təsir edir [7, 8].

Bütün kalpanları idarəetmə mexanizmlərində itələyicinin qalxması analitik olaraq növbəti bərabərliklə ifardə oluna bilər:

$$s = f(\varphi_N)\,;\ \varphi_N = \omega_N t \qquad \textbf{(2.5)}$$

burada t – zaman, φ_N - yumruğun dönmə bucağı, ω_N - yumruğun bucaq sürətidir.



Şəkil 1. Klapanın qalxması, sürəti və təcillənməsinin yumruğun dönmə bucağından aslılığı.

Klapanın sürəti kimi onun qalxmasının zamana görə dəyişmə anı başa düşülür:

$$V = \frac{ds}{dt} \quad \textbf{(1)}$$

Klapanları idarəetmə mexanizminin müasir üsulla layihələndirilməsində klapanın təcillənməsi əsas rol oynayır. Klapanın təcili kimi onun sürətinin zamana görə dəyişmə anı başa düşülür:

$$b = \frac{d^2 s}{dt^2} = \frac{dV}{dt} \qquad \textbf{(2)}$$

Titrəyişlərin azaldılması üçün maksimal sürətdə klapanın qalxmasının üçüncü tərtib törəməsi – zərbə və yaxud sürət qradientinin impulsu (s''') uyğun qiymətə görə məhdudlaşdırılmalıdır [2]:

$$s''' = \frac{d^3 s}{dt^3} = \frac{db}{dt} \qquad \textbf{(3)}$$

Aşağıdakı şəkildə verilmiş yumruq və silindr formalı qarşı cütün həndəsi parametrləri əsasında, onun həndəsi parametrlərini hesablamaq olar.



Şəkil 2. Yumruq və hamar səthli silindr formalı itələyicinin kontakt həndəsəsi.

Şək. 2.- yə əsasən yumruğun ani əyrilik radiusu:

$$\rho_N = s + R_g + \frac{b}{\omega_N{}^2} \qquad \textbf{(4)}$$

burada b/ω_N^2 - klapanın gətirilmiş təzyiqi; R_g - yumruğun əsas radiusudur.

İtələyicinin fırlanma hərəkəti onun simmetriya oxuna nəzərən e məsafədə ekssentrik təsir edən normal qüvvənin səbəbindən yaranır [12].

İtələyicinin fırlanma sürəti üçün yazmaq olar:

$$V_S = r \cdot \omega_S \qquad \textbf{(5)}$$

Yuxarıdakı tənliklərə əsasən itələyicinin bucaq sürəti üçün yazmaq olar:

$$\omega_S = \frac{e}{\frac{b_N^2}{12} + e^2} \cdot V_S \qquad \textbf{(6)}$$

burada b_N – yumruğun eni; e - ekssentriklikdir.

Yumruğun minimal radius şərti:

$$R_S \geq \sqrt{\left(\frac{V_{\max}}{\omega_N}\right)^2 + \left(\frac{b_N}{2} + e\right)^2} \qquad \textbf{(7)}$$

Yumruqlar üçün həndəsi ölçü məhdudiyyəti verilsə də onların materialı seçilmiş kontakt gərginliyində yeyilməyə davamlılığı təmin etməlidir. Əks halda yumruğun kontakt sahəsini artırmaq və daha da yüksək Hers təzyiqinə malik materialın seçilməsi tövsiyyə olunur.

Nəticə. Analiz əsasında məlum olmuşdur ki, yumruqların yeyilməsinin azaldılması məqsədi ilə kontakt sahəsinin artıeılması, zərbəli yüklənmələrin qarşısının alınması üçün yumruğa səmərəli formanın verilməsi, cütlər arasındakı minimal yağ təbəqəsinin təminatı vacibdir. Məqalədə qeyd olunan bu amillər konstruktiv və texnoloji baxımdan müzakirə olunmuş və bəzi parametrlər qrafiki və riyazi ifadələrlə təqdim olunmuşdur.

ƏDƏBIYYAT

[1] Халилов Р.А. Системный анализ кулачковых механизмов автомобилей. //Баку 2001, 258 ст.

[2] Н.И. Левитский. Кулачковые механизмы. Машиностроение 1964. 288 ст.

[3] Mario Berg, Peter Kuhn, Helmut Schön.: Ein neues Getriebe zur variablen Ventilsteuerung in Hubkolbenmotoren. MTZ 53 (1992) 10. S.484-488.

[4] Günther Mendl, Greding. Motordynamik und ihre Interaktion zu Festigkeit, Ladungswechsel und Akustik. VDI Verlag GmbH Düsseldorf 2002.

[5] Wolf-Dieter Bensinger. Die Steuerung des Gaswechsels in schnell laufenden Verbrennungsmotoren. Konstruktion und Berechnung der Steuerelemente. Springer – Verlag. Berlin/Heidelberg/New York 1968. 256 S.

[6] Günther Mendl, Greding. Motordynamik und ihre Interaktion zu Festigkeit, Ladungswechsel und Akustik. VDI Verlag GmbH Düsseldorf 2002.

[7] Percin Ayanoglu. Experimentelle Erfassung des elastohydrodynamischen Kontaktes in Zahnradgetrieben und Nocken/Flachstößel-Paarungen. D82 (Diss. RWTH Aachen). Aachen 1993. 192 S.

[8] Rudolf Flierl, Karl-Heinz Oehling, Josef Hösl. Ventiltriebauslegung moderner Motoren. MTZ 54 (1993) 9. S. 231-247.

[9] Klaus Heck. Einfluss der Prozessführung beim Umschmelzhärten auf die Randschichteigenschaften von Nockenwellen aus ledeburitischem Gusseisen.// Technische Universität München 1983, 137 S.

[10] Theodor Stipek. Neue Gesichtspunkte bei der Auslegung von Nocken fuer Dieseleinspritzpumpen. MTZ 41 (1980) 1. S. 13-18

[11] Jürgen Kirschner. Tribologische und kinematische Untersuchungen an einem Nocken – Rollenstößel – Trieb. Karlsruhe 1988.

[12] Holland J., Schmidt A., Clausthal-Zellerfeld. Stößel-Rotation im Nocken-Flachstößel-System. Technologie Schmierungstechnik 40 Jahrgang 1/1993. S. 10-15.

TRİBOLOGİCAL EVALUATİON OF THE KİNEMATİCS OF THE VALVE TRAİN MECHANİSM

FARHAD SHİRZADOV, ESHQIN GULUZADE

(Baku Engineering University)

E-mail: fashirzadov@beu.edu.az; equluzade1@std.beu.edu.az

Summary. İn the articl has been analysed the kinematic properties of the cam follower mechanisms and evaluated the tribological properties of them. It was revealed that to decrease the wear rate of the mechanism must be increased the contact area, decreased the impact forces via the optimal cam designe, providing the minimal oil thickness between the contact pair etc. are important.

Key words: cam, kinematic, tribology, labrication.

YÜKSƏK TEZLİKLİ MAQNİT SAHƏSİNDƏ FORMAVERMƏ VƏ ƏRİTMƏ ƏMƏLİYYATLARI

Xülasə. Məqalədə maqnit sahəsinin təsiri altında maye və bərk halda olan materiallara formavermə əməliyyatları analiz olunaraq, prosesə təsir edən parametrlər qiymətləndirilmişdir. Analiz olunmuş informasiya maqnit sahəsi ilə materialın müxtəlif temperatur rejimlərində qarşılıqlı əlaqəsinin tədqiqində və formavermə əməliyyatlarında baza informasiya olaraq tövsiyyə oluna bilər.

Açar sözlər: Maqnit sahəsi, formavermə, əritmə, induksiya, qaynaq.

Müasir dövrdə insan cəmiyyətini və kainatı elektrik cərəyanı və maqnit sahəsi olmadan təsəvvür etmək mümkün deyildir. Belə ki, materiya və enerji toplumundan ibarət olan kainatımızda baş verən bütün fiziki və kimyəvi proseslərdə və bundan tam asılı olan canlı varlıqlarda maqnit təsirləri qaçılmazdır və belə təsirlərin mövcudluğu kainatın varlığının atributudur. Maqnit sahəsi materiallar arasında enerji və informasiya mübadiləsi yaratmaqla onlarda dəyişikliklər yaradır. Materiallar texnologiyası sahəsində tətbiq və tədqiq olunmuş maqnit sahəsi nəyinki, bu sahədə həmçinin elmin digər sahələrində də maraq doğurur. Bir sahədə aparılan dərin elmi araşdırmalar bir çox hallarda digər elm sahələri üçün əhəmiyyətli ola bilir. Məsələn, elektrik mühərriklərində maqnit sahəsinin tədqiqi, informasiya texnologiyasında, materialların emalında və digər texnoloji proseslərdə maraqlıdır.

Bərk vəziyyətdə olan maşın hissələrinə formavermə texnoloji əməliyyatlarından biri də elektromaqnit formavermə əməliyyatı olub, üsul pəstah materialını əritmədən maqnit puls qüvvəsinin köməyi ilə reallaşdırılır. Bu texnologiya özünəməxsus xüsusiyyətlərə və üstünlüklərə malikdir və xüsusən o yerlərdə tətbiq olunur ki, adi üsullarla detala lazım olacaq formanın verilməsi mümkün deyildir.

Bərk materiala elelktromaqnit formavermə zamanı enerji mənbəyində olan kondensatorların enerjisinin detalı əhatə edən induktorlara boşaldılması qısa müddətdə baş verir və detalda gərilmə qüvvələri çox yüksək alınır. Yüklənmənin tətbiqi zamanı induktordan detala induksiya olunan maqnit enerjisi sonda Lorens qüvvəsinin tətbiqi ilə kinertik enerjiyə çevrilərək, detalı deformasiyiaya uğradır. Enerjinin eyni qiymətlərində deformasiyanın yüksəldilməsi detalla induktorun qarşılıqlı əlaqəsinin və induktorların forma və tərkibinin səmərəliliyinin yüksəldilməsini tələb edir.

Misal üçün deformasiyaya uğradılacaq ixtiyari boru ilə dolaq arasındakı müxtəlif mövqelər şək. 1.- də təsvir olunmuşdur [1].

Şək. 1- də verilmiş sxem əsasında deformasiyaya uğradılmış borular şək. 2- də təsvir olunuş və eksperimentlər əsasında aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Detal və induktor arasındakı maqnit intensivliyinə iki amil təsir edir: biri dolaq parametrləri; digəri isə detal və dolaq arasında nispi yerləşmədir;

2. Detala təsir edən maqnit puls qüvvəsi detalla dolaq arasındakı maqnit intensivliyinə mütənasübdür. Maqnit puls qüvvəsinin yayılmasını detalın dolağa nisbətən oxboyu yerdəyişməsi ilə dəyişmək olar. Bununla da müxtəlif formalı nümunələri deformasiya etdirmək mümkündür;

3. Elektromaqnit qüvvələri kvazistatik deyildir, çünki daxili qüvvələrin təsiri mövcuddur.



Şəkil 1. Aparılmış eksperimentlərdə induktorla detalın qarşılıqlı vəziyyət sxemi:
1- aşağı gərginlik həlqəsi, 2- dolaq, 3- yuxarı gərginlik həlqəsi, 4,5,6- məmullar.

İnduktorla detal arasındakı qarşılıqlı yerləşmə, induktorun qoşulması üsulu metal əritmə zamanı maye metalın stabilliyinin təminatında yeni induktor formasının və qoşulma sxeminin tərtib olunması üçün əhəmiyyətlidir.

Ərimiş materiala maqnit sahəsində formavermə zamanı, pulsla formavermə üsulundan fərqli olaraq, materialın tremperaturu və bununla da onun stabilliyinə təsir edən parametrlər dəyişərək maqnit qüvvəsinin dəyişməsinə və mayenin qeyri-stabilliyinə səbəb olur. İki tezlikli induktorların eyni zamanda tətbiqi ilə əritmə prosesinin səmərəliliyinin yüksəldilməsinə nail olunmuşdur [2]. Belə ki,

detalı əridən 350kHs və ona forma verən 50kHs tezlikli iki induktorun eyni zamanda tətbiqi, vahid tezlikli induktorun tətbiqinə nisbətən mayenin daha yüksək stabilliyini təmin edir (şək. 3 və şək. 4).



Şəkil 2. Deformasiyaya uğradılmış nümunələrin təsviri.



Şəkil 3. İkitezlikli elektromaqnit sahəsində formavermənin sxemi.



Şəkil 4. Formaverilən mayenin stabilliyi və iki induktor vasitəsiylə paylanan EM təzyiqi: a- stabil, b- stabil, c- qeyri-stabil. P_h, P_{m1}, P_{m2} uyğun olaraq maye metalın statik təzyqi, yuxarı və aşağı induktorların EM təzyiqidir. P_m superpozisiya prinsipinə əsasən hesablanmış ikitezlikli EM təzyiqidir.

Maqnit sahəsində əridilmiş materialın stabilliyinə, temperaturun təsirini nəzərdə tutmaqla mayenin maqnit mühitində asılı vəziyyətdə qalmasını nəzərdən keçirək. Elektromaqnit qüvvəsinin köməyi ilə əridilmiş metal mayeni asılı vəziyytdə saxlayaraq, əritmə temperaturunu daha da yüksəltmək və materialı buxarlandırmaq mümkündür. Digər hallarda bu vəziyyətin yaradılması ilə enerji itgilərinin azaldılmasına, maye metala tiqeldən qarışa biləcək elementlərin qarşısının alınmasına, mayeyə tələb olunan formanın verilməsinə, fəza ilə kontakt sahəsinin artması hesabına ərimiş materialın qazlardan qısa müddətə və daha çox miqdarda azad edilməsinə və s. nail olmaq mümkündür [3-6].

Nəzəri və praktiki biliklərin tədqiqi ilə müəyyən olunmuşdur ki, induksiya sistemində elektrik keçiriciliyinə malik damcının asılı saxlanmasını stabilləşdirmək mümkündür. Bunun üçün sistem bir-birlərinin üzərində olan iki koaksial dolaqdan ibarət olmalı və dolaqlardan axan cərəyan əks istiqamətə yönəldilməlidir. Bu asqı sistemi çox səmərəli hesab olunur.

Maye metalın asılı vəziyyətdə stabil qalmasına təsir edən əsas konstruksiyalardan biri induktordur. Metalı elektromaqnit sahəsində asılı saxlayan bir çox induktor konstruksiyalar- məsələn selenoidin qövsü üzrə əyilmiş və ya düz formada, mayenin fırlanmasını təmin edən dolaq sistemli, qeyri-maqnit içliyə malik dolaq və s. induktorlar mövcuddur (şək. 5) [7].

Azsaylı dolaqdan ibarət, az gərginlik və yüksək cərəyanla qidalanan induktorların vakuum şəraitində tətbiqi yüksək etibarlılığa malikdir (şək. 6). Bu induktorlara induktor-qayıq, əks dolaqlı induktor və qısaqapanmış dolağa malik induktorlar daxildir. İnduktor-qayıq tipli induktorlar bir-birlərinə yanaşı yerləşmiş iki dolaq sistemindən ibarətdir. Əks dolaqlı induktorlarda iki qonşu məftildən əks istiqamətli cərəyan axır.



Şəkil 5. Metalın asılı vəziyyətdə saxlanılaraq əridilməsi üçün induktorların qoşulma sxemi: a- iki koaksial dolaq, b- müstəvi selenoid, v- metalın fırlanmasını təmin edən selenoidlər sistemi, q- qeyri-maqnit içliyə malik dolaq.



Şəkil 6. İnduktor-qayıqda (a) və əks dolaqlı induktorda (b) asılmış vəziyyətdə metal əritmə induktoru ilə əridilmiş metalın qarşılıqlı vəziyyəti.

Örtükçəkmə əməliyyatları zamanı elektromaqnit qüvvəsini qaynaq vannasına tətbiq etməklə, örtükçəkmə prosesinin səmərəliliyinə və örtüyün qalınlığına əhəmiyyətli dərəcədə təsir edir, başqa sözlə örtüyün formasını, qalınlığını, mikrostrukturunu və səthin topoqrafiyasını məqsədli şəkildə dəyişirlər. Bu zaman qaynaq gedişlərinin sayının, material itgilərinin, mexaniki emal xərclərinin, tikişdə baş verə biləcək fiziki-həndəsi qüsurların, əməliyyat vaxtının azaldılmasına, qaynaq tikişində sıxıcı qalıq gərginliklərin, əlavə induksiya enerjisi hesabına qaynaq sürətinin yüksəldilməsinə və nəhayət örtükçəkmə əməliyyatına çəkiləcək xərclərin azaldılmasına nail olunur [8]. Prosein tətbiqinə aydınlıq gətirmək üçün, aşağıdakı şəkildə lazer şüası ilə dəyişən (*a*) və sabit (*b*) maqnit sahələrində örtükşəkmə əməliyyatları təsvir olunmuşdur.

Nəticə. Məqalədə maqnit sahəsinin təsiri altında müxtəlif üsullarla formavermə əməliyyatları konstruktiv və texnoloji baxımdan analiz olunmuş və prosesə təsir edən əsas parametrlər qiymətləndirilmişdir. Əsas diqqət maye və bərk halda olan materiallarda baş verən proseslərə yönəldilmişdir. Təklif olunan məqalə maqnit sahəsinin təsiri altında plastik deformasiya ilə hissələrə formavermə, kontaktsız əritmə, əridərək materiala formavermə və qaynaq əməliyyatlarında ilkin informaiya olaraq tövsiyyə oluna bilər.



Şəkil 7. a-dəyişən, b-sabit maqnit sahəsində lazerlə səthə örtükçəkmə.

ƏDƏBIYYAT

[1] F.M. Song, X. Zhang, Z.R. Wang, L.Z. Yu . A study of tube electromagnetic forming. Journal of Materials Processing Technology 151 (2004) 372–375.

[2] Keisuke Fujisaki, Kiyoshi Wajima, Tsutomu Ohki. 3-D Magnethydrodynamics Analysis Method for Free Surface Molten Metal. IEEE Transaction on magnetics, VOL. 36, No. 4, JULY 2000. pp. 1325-1328.

[3] F.M. Şirzadov. Maqnit sahəsinin təsiri altında səthə örtükçəkmə əməliyyati. AzTU, Elmi əsərlər. Bakı 1/2013, №4. Səh. 22-26.

[4] F.M. Şirzadov. Maqnit sahəsinin qaynaq vannasi ilə qarşiliqli təsirinin səmərəliliyinin yüksəldilməsi. AzTU, Maşınşünaslıq, 3/2013. Səh. 30-35.

[5] F.M. Şirzadov. Səthə örtükçəkmə zamani tətbiq olunan yüksək tezlikli maqnit induktorlarinin layihələndirilməsi. AzTU, Elmi əsərlər. Bakı 1/2014, №1. Səh. 118-124.

[6] Şirzadov F.M. Maqnit sahəsində üstəəritmə əməliyatının tədqiqi. AzTU, Elmi əsərlər. Bakı 1/2014, №3. Səh. 115-121.

[7] Л.Л. Тир, Н.И. Фомин. Современные методы индукционной плавки. М:. Энергия, 1975. – 112 с.

[8] Ф.М. Ширзадов, А.И. Садыхов Л.А. Гасимова. Наплавка поверхности под действием магнитного поля. Вестник машиностроения 3/2015. ст. 50-52

MELTİNG AND SHAPİNG PROCESSES İN HİGH FREQUENCY MAGNET FİELD

FARHAD MAHAMMAD OGLU ŞIRZADOV, ALI HIDAYAT OGLU SADIKHOV

(Baku Engineering University; Aserbaijan Technical University)

E-mail: fashirzadov@beu.edu.az; a_sadixov05@rambler.ru.

Summary. In the article were analised the shaping processes under high frequency magnetic field and evaluated the influence parametrs to the operations. The analized informations can be useful for the researching the interaction of the materials with the magnetic field in different temperature rejimes and in the shaping proseses as the base information.

Key words: Magnit field, shaping, melting, induction, welding.

YUMRUQLU İDARƏETMƏ MEXANİZMLƏRİNİN KONSTRUKSİYASININ TRİBOLOJİ ANALİZİ

Xülasə. Məqalədə yumruqlu idarəetmə mexanizmlərinin elementləri – xüsusən, yumruqlu val və qarşı cüt nəzərə alınmaqla burada baş verən triboloji proseslərə müxtəlif konstruksiyaların təsir amilləri analiz olunmuşdur. Məlum olmuşdur ki, tətbiq olunan müasir konstruksiyalar heç də tribotexniki baxımdan optimal layihələndirilməmiş və mühərrikin yanacaq qənaətliliyi və digər amillər əsas götürülmüşdür. Tədqiqat obyekti ilə maraqlanan oxucular onun triboloji problemləri haqqında ilkin məlumat əldə edəcəklər.

Açar sözlər: daxili yanma mühərriki, yumruqlu val, tribologiya, tribotexniki səth, klapanları idarəetmə mexanizmi.

Yumruqlu idarəetmə mexanizmlərinin əsas elementlərindən biri yumruqlu vallardır. Yumruqlu vallar mühərrikin funksional çıxış parametrlərinin səmərəliliyini təmin edir və proqram daşıyıcı funksiyasını yerinə yetirən yumruqların formasına yüksək tələblər qoyulur. Hərəkət dəqiqliyinin təmin olunması üçün yumruq və onun qarşı cütünün həndəsəsi istismar dövründə təmin olunmalıdır [1, 2]. Qarşı cüt olaraq əsasən koromıslolar, linglər və silindr şəkilli klapan itələyiciləri geniş tətbiq olunur. Koromıslolar əsasən daxili yanma mühərriklərində klapanları idarəetmə mexanizmlərində istifadə olunmaqdadır. Koromısloların səthi ilə yumruq arasında yüksək sürüşmə sürətinin azaldılması məqsədi ilə diyircəkli koromıslolar tətbiq olunmasına baxmayaraq, koromıslonun çəkisinin və səthə düşən kontakt gərginliyinin artması ilə əlavə çətinliklər yaranır (şək. 1). Kütlənin artması klapan yayının sərtliyinin artırılmasını tələb edir ki, bu da mexanizmdə əlavə sürtünmə itkilərinə və səthə düşən kontakt gərginliyinin artmasına səbəb olacaqdır. Koromıslonun konstruksiyasında diyircəyin tətbiqi kontakt əyriliyinin və sonda gətirilmiş kontakt sahəsinin azalmasına və materialın səthində gərginliyin artmasına səbəb olacaqdır.



a) b)

Şəkil 1. Sürüşməyə (a) və diyirlənməyə (b) işləyən barmaq itələyicinin təsviri.

Yumruq qarşı tərəf cütü arasında səmərəli triboloji şərait kontakt sahəsinin mümkün qədər yüksək qiymətində və diyirlənmə sürətinin mövcud olduğu halda mümkün olduğundan bu şəraitə uyğun konstruksiya yumruq və silindr tipli itələyicidir (şək. 2.,*a*).



a) b)

Şəkil 2. Silindr tipli itələyiciyə (a) və açıcı – sıxıcı yumruqlara (b) malik yaysız yumruqlu idarəetmə mexanizmləri.

Yumruğun itələyicinin mərkəzindən bir qədər sürüşdürülməsi ilə silindrin yuvasında onun fırlanma hərəkəti təmin olunur ki, bu da sürüşmə sürətinin diyirlənmə sürtünməsi ilə əvəz olunmasına səbəb olur. Diyirlənmə hərəkəti cütlər arasında yağ təbəqəsinin təmin olunmasına və triboloji gərgin vəziyyətin azaldılmasına səbəb olur. Üsulun əsas mənfi cəhəti qazpaylama fazasının seçilməsi çətinliyi və yumruqaltı kütlənin çəkisinin artmasıdır.

Yumruğun səthində sıxıcı yayın yarada biləcəyi kontakt gərginliyinin azaldılması məqsədi ilə açıcı və sıxıcı yumruğa malik yaysız idarəetmə mexanizmləri də bəzən rast gəlinir (şək. 2.,*b*). Bu mexanizmlər mürəkkəb konstruksiyaya malik olub, onların yeyilməsi ilə silindrlərin lazımi kipliyinin təminatı mümkün olmur.

Yumruqlu valı mühərrik blokunun altında yerləşdirdikdə valdan hərəkəti klapanlara ötürmək üçün ştanqlı idarəetmə mexanizmləri tətbiq olunur (şək. 3). Belə mexanizmlərdə klapanla yumruqlu val arasında əlavə elementlərin mövcudluğu səmərəsiz layihə olub, hərəkətli hissələrin sayının və kontakt səthlərinin artırılmasına səbəb olur. Qeyd edək ki, artan kontakt sahələrində yağın yüklənmə miqdarının artması ilə onun köhnəlməsi intensivləşir.

Şəkil 3. Yumruqlu valı silindrlər blokunda yerləşdirilmiş klapanları idarəetmə mexanizminin təsviri.

Adi klapanları idarəetmə mexanizmlərinin triboloji səthləri arasında hərəkətliliyin istənilən temperatur şəraitində təminatı üçün ara boşluqları nəzərdə tutulmuşdur. Belə boşluqlar mühərrikin soyuq vəziyyətində kontakt səthlərində zərbələrə səbəb olduğundan müasir idarəetmə sistemlərində hidravlik üsulla tənzimlənən ara boşluqsuz mexanizmlər geniş tətbiq olunmaqdadır. Belə sistem texniki qulluğun həcmini azaltmasına və mühərrikin sakit işləməsini təmin etməsinə baxmayaraq, konstruksiyanın mürəkkəbliyi, təmir xərclərinin artması, daimi kontakt hesabına səthlərdə temperaturun artması kimi mənfi təsirlər yaradır.

Mühərrikin dövrələr sayından asılı olaraq, klapanların qalxma hündürlüyünün dəyişdirilməsi buna imkan verən mürəkkəb idarəetmə mexanizmi vasitəsi ilə reallaşdırılır. Belə mexanizmlər silindrlərdə baş verən termodinamiki proseslərə müsbət təsir edərək, mühərrikin funksional parametrlərinə müsbət təsir edir (şək. 4). Üsulun əsas mənfi cəhəti onun hərəkətli hissələrinin sayının çox olması ilə tribotexniki kontakt sahələrinin artması və konstruksiyanın mürəkkəbliyidir.

Yuxarıda qeyd olunmuş yumruqla mexaniki idarəetmə sistemlərində mürəkkəb yumruqlardan imtina edərək, elektromaqnit və elektrohidravlik idarəetmə sistemləri mühərriklərə tətbiq olunduqda 10%- ə qədər yanacağa qənaət olunmuş, ixrac qazlarının miqdarı azaldılmış və funksional göstəricilər yaxşılaşdırılmışdır. Belə sistemlərdə dirsəkli valın dövrlər sayından asılı olaraq, klapanların qalxma hündürlükləri və hərəkəti elektron sistem vasitəsi ilə elektromaqnit aktuatorlara siqnalların ötürülməsi ilə aparılır. Üsulun mənfi cəhəti sistemin mürəkkəbliyi, əlavə elektrik və hidravlik itkilərin baş verməsidir [3].

Şəkil 4. Yumruqlu valı silindrlər blokunda yerləşdirilmiş klapanları idarəetmə mexanizminin təsviri.

Nəticə. Adları çəkilən qazpaylama mexanizmlərində müsbət və mənfi tərəflərin olmasına baxmayaraq, bu mexanizmlərin hər biri müxtəlif firmalar tərəfindən tətbiq olunmaqdadır. İstehsalçı ilk növbədə yanacaq qənaətliliyini əsas götürmüş və materialın yüklənməsini nəzərə almamışdır. Bu baxımdan, yanacaq qənaətliliyinə səbəb ola biləcək istənilən mexanizmin tribotexniki göstəricilərinin yüksəldilməsi mütəxəssislərin diqqət mərkəzində olacaqdır. Tədqiq olunmuş məqalə bu sahədə işləyən mütəxəssislərdə tribotexniki problemlərin həlli üçün baza yaradılmasına tövsiyə oluna bilər.

ƏDƏBIYYAT

[1] Shirzadov F. M. Erhöhung der Verschleißbeständigkeit von Ventiltrieb-Werkstoffpaarungen mittels unters-chiedlicher Randschicht-modifika-tionen. Dissertation/Technische Universität Berlin, 2012, 178 S.

[2] Czichos H., Habig K.-H. Tribologie-Handbuch. Reibung und Verschleiß; Prüftechnik, Werkstoffe und Konst ruktionselemente. Braunschweig; Wisbaden: Vieweg, 2001, 562 S.

[3] Hans Hermann Braess, Ulrich Seiffert. Vieweg Handbuch Kraftfahrzeugtechnik. ATZ/MTZ – Fachbuch 2007.

TRİBOLOGİCAL ANALYSIS OF THE CONSTRUCTİON OF THE CAM FOLLOWER MECHANİSMS

FARHAD MAHAMMAD OGLU SHIRZADOV, ULVI EMIL OGLU GULUM

(Baku Engineering University)

E-mail: fashirzadov@beu.edu.az; ugulum@std.beu.edu.az

Abstract: The current paper focuses on the cam follower mechanism elements, especially camshaft and cam follower on which there occurring tribological processes that has impact on various mechanisms are analyzed. It is observed that, although fuel efficiency has become the main consideration of the manufacturers, modern applied constructions are not of optimal design in terms of tribology. This paper will present a preliminary introduction to the tribological issues of the mentioned topics.

Keywords: internal combustion engine, camshaft, tribology, contact areas, valve follower mechanisms.

KLAPANLARI İDARƏETMƏ MEXANİZMİNİN QÜVVƏ ANALİZİ

Xülasə. Məqalədə yumruqlu idarəetmə mexanizmlərinin qüvvə analizi aparılmış, bu əsasla səthdə təsir edən gərginlik təqdim olunmuş və sistemin imitasiyası üçün Maksvel simulasiya modelinin qısa təsviri verilmişdir. Analiz olunmuş materiallar əsasında klapanları idarəetmə sistemində zərərli titrəyişlərin azaldılması üçün tədbirlər təklif olunmuşdur.

Açar sözlər: yumruq, klapan yayı, simulasiya, titrəyiş.

Detalların ölçülərinin, material seçiminin əsaslandırılması, yay və yastıqların qabaqcadan seçilməsi, optimal sürət və tələb olunan enerjinin təyin edilməsi üçün uzunömürlülüyü nəzərə alınmaqla qüvvə analizinin aparılması çox vacibdir. Yumruğa təsir edən yüklənmə qüvvələri dövrlər sayından asılı olanlara və olmayanlara bölünə bilərlər. Ağırlıq qüvvələrini nəzərə almadan təsir edən qüvvələr şək. 1.- də təqdim olunmuşdur [1]:

Yumruqlu valın və ötürmə elementlərinin kontakt sahəsinin yüklənməsi yay (F_F), kütlə (F_{MV}), sürtünmə (F_L) və qaz qüvvələri (F_B) hesabına ola bilər ki, bunu ümumi şəkildə aşağıdakı kimi yazmaq olar [1, 2]:

$$F_{res} = F_F \pm F_{MV} + F_L + F_B = -F_N \qquad \textbf{(3)}$$

Hərəkətli hissələrin kütləsinin artması ilə yumrucuğun təpə nöqtəsinin yüklənməsi onun yan tərəfinə köçürülür (eyni dövrlər sayında), müsbət təcillənmə sahəsində yumruğun yan səthinə təsir edən qüvvələr artır və yumruğun təpəsi yayın elastik qüvvəsinin əksinə yönələn ətalət qüvvələri hesabına yükdən azad olunur.



Şəkil 1. Yumruq və silindr formalı itələyici cütünün kontakt qüvvələri.

Klapan yayının təsir qüvvəsi - F_F dövrlər sayından asılı olmayıb, yayın elastiklik əmsalından asılı olaraq, klapanın maksimal qalxmasına qədər xətti artır, klapanın bağlanması zamanı isə ilkin gərilmə güvvəsinə qədər azalır

$$F_F = F_0 + c \cdot s \qquad \textbf{(4)}$$

burada F_0 - klapanın tam bağlı vəziyyətində yayın ilkin gərilmə qüvvəsi, c - yayın elastiklik əmsalı, s - klapanın qalxma hündürlüyüdür.

Klapan yayı ətalət qüvvələrini, ağırlıq qüvvələrini, zərbələri söndürmə qüvvələrini, dinamik qüvvələri, digər kənar yüklənmələri və sürtünmə qüvvələrini üstələməli və yaxud klapanın yayının elastiki qüvvəsi klapanın gecikmə qüvvəsindən (və ya təcillənmədən) böyük olmalıdır.

Klapanın hərəkət sürəti nə qədər böyük olarsa, yayın elastiklik qüvvəsi bir o qədər yüksək olmalıdır. Əgər klapan yayı kontaktın təminatı üçün kifayət deyilsə, onda böyük sürətlərdə „atlanmalar“ baş verir. Amma, qeyd etmək lazımdır ki, yayın yüksək elastiklik qüvvəsi kontakt səthlərində yüksək təzyiqə səbəb olur ki, bu da klapanın açılması üçün əlavə güc itgilərinə və nəhayət kontakt səthlərinin dağılmasına (əsasən pitting yeyilməsinə) gətirib çıxarır [3,4].

Klapanın real qalxma hündürlüyü onun hesablanmış qiymətindən fərqlənir. Buna görə də klapan yayı kifayət qədər rezervlə layihələndirilməlidir. Baş verən təcillənmədən, verilmiş elastiklik modulundan və mümkün ola biləcək dövrlər sayı artımından asılı olaraq, yay rezervi əsasən 30%- dən 50%- ə qədər və bəzən 100% seçilir [2].

Yumruqlu valın dövrlər sayından asılı olan yüklənmə qüvvəsi **hərəkətli hissələrin ağırlıq qüvvəsi** hesabına yaranır. Ətalət qüvvələri kütlənin təcilə olan hasili ilə təyin olunur və təcil vektorundan asılı olaraq, istiqamətlərini dəyişirlər

$$F_{MV} = m \cdot b \qquad \textbf{(5)}$$

burada m - klapan milinə gətirilmiş kütlə, b - klapanın təcillənməsidir.

Silindr formalı itələyiciyə malik klapanları idarəetmə mexanizmində hərəkətli kütlə klapanın, yayın yuxarı şaybasının və pazının, silindr formalı itələyicinin, nizamlayıcı lövhənin və yayın yarım kütləsinin cəmindən ibarətdir.

Müasir dövrdə konstruktorlar mühərrikin dövrlər sayının yüksəldilməsinə cəhd edirlər ki, bu da sistemin dinamiki vəziyyətinə mənfi təsir edə bilər. Bu mənfi təsirin azaldılması üçün hissəni yüngül materialla istehsala və ya konstruktiv cəhətdən nisbətən kiçik ölçülü çox klapanlı sistemlərə üstünlük verilir. Yumruqaltı hərəkətli kütlənin azaldılmasına baxmayaraq, çox klapanlı mühərriklərdə klapanları idarəetmə mexanizminin cəm kütləsi artır. Klapanları idarəetmə mexanizminin kütləsinin azaldılması üçün 3 sahə nəzərdən keçirilməlidir [5, 6]:

- Adi material tətbiq etməklə detalların həndəsəsinin optimallaşdırılması;
- Alternativ materialın tətbiqi (məsələn, aluminium, titan, keramika);
- Çox klapanlı mexanizmlərin tətbiqi ilə hər bir yumruğa düşən kütlənin azaldılması.

Müasir klapanları idarəetmə mexanizmlərində adi materiallarla yüngül istehsal konseptini tətbiq etməklə, klapan yayının tələb olunan elastiklik qüvvəsi 30%-ə qədər, alternativ materialların tətbiqi ilə (məsələn, dolu polad klapanın titan aluminidlə və ya keramika ilə əvəz olunması, poladdan olan klapan yayının şaybasının aluminium şayba ilə əvəz olunması) 50%- ə qədər azaldıla bilər. Bu hal xüsusən aşağı dövrlər sayında yayın elastiki qüvvəsindən nəticələnən sürtünmə işinin, yeyilmələrin əhəmiyyətli dərəcədə azaldılmasına, mühərrikin yanacaq qənaətliliyinə səbəb olur. Eyni zamanda titrəyişlərin azalması hesabına mexanizmin istismar dinamikası yaxşılaşır və bunun hesabına yumruqlu valın dövrlər sayını 30%- ə qədər yüksəltmək mümkün olmuşdur [2, 5, 7].

İstiqamətləndirmə qüvvəsi - F_{MV} itələyicinin və klapanın istiqamətləndiricilərində baş verən sürtünmə qüvvəsi hesabına yaranır. Digər qüvvələrlə müqayisədə bu qüvvələr çox kiçik olduğundan dinamik hesabatlar zamanı nəzərə alınmaya bilər.

Qaz qüvvəsi yalnız xaricetmə klapanında, onu açma anında təsir edir:

$$F_B = \frac{\pi D_V^2}{4} P_A \qquad \textbf{(6)}$$

burada D_V - klapanın böyük diametri, P_A - klapanı açma anında silindrdəki təzyiqdir.

Daxili yanma mühərriklərinin vibrasiyalara hesabatı zamanı qaz qvvələri - F_B nəzərə alınmır, çünki bundan yaranan xəta çox kiçikdir.

İtələyiciyə zərbə qüvvəsi

$$S_N = V_N \sqrt{m_N c_N} \qquad \textbf{(7)}$$

burada V_N - ara boşluğunu keçdikdən sonra yumruğun səthində sürət, m_N - yumruq üzərinə gətirilmiş hərəkətli kütlə, c_N - yumruğun səthində idarəetmə sisteminin elastiklik sabiti.

Maksimal qüvvələr klapanın ən yüksək təcillənmə sahələrində baş veriri ki, (klapanın açılma və bağlanması anında) bu da ağırlıq qüvvələri tərəfindən yaradılır. Səthə tətbiq olunmuş qüvvənin qiymətindən, materialın xüsusiyyətlərindən və kontakt həndəsəsindən asılı olaraq səthdə yaranan kontakt gərginliyini Hers-Balayev ifadəsinə əsasən belə təyin olunur [4, 5]:

$$Hp = 0,418\sqrt{\frac{F_N E_{red}}{b_N r_{red}} k_{H\beta} k_{HV}} \qquad \textbf{(1)}$$

burada F_N - normal qüvvə, $E_{red} = 2E_N E_R/(E_N + E_R)$ - gətirilmiş elastiklik modulu, $k_{H\beta}$ - yükü konsentrasiya əmsalı, k_{HV} - dinamiki yüklənmə əmsalı. $r_{red} = \left(\frac{r_N r_R}{r_N + r_R}\right)$ - gətirilmiş əyrilik radiusu, r_R - diyircəyin radiusu, r_N - yumruğun kontaktda əyrilik radiusudur.

İstismarda hansı yumruq formasının ən böyük kontakt sahəsi yaratması və bununla da ən kiçik yeyilməyə məruz qalması praktikada mühüm əhəmiyyətə malikdir. Həmçinin, hansı yumruq formalarının elastohidrodinamik (EHD) yağ təbəqəsinin əmələ gəlməsi üçün səmərəli olması və yumruğun hansı formalarından imtina olunmasının tədqiqi də vacib məsələlərdən biridir [8].

Sərhəd təbəqəsi nəzərə alınmaqla yağ təbəqəsinin qalınlığı aşağıdakı ifadə ilə təyin olunur [9]:

$$h_0 = h_{kr} + h_{\Gamma p} \qquad \textbf{(2)}$$

burada $h_{\Gamma p}$ və h_{kr} - uyğun olaraq absorpsiya və kritik təbəqənin qalınlığıdır.

Real səth absorpsiya qabiliyyətinə malikdir və o bir neçə absorpsiya təbəqəsi ilə örtülür. Belə təbəqələr sürtünməni və yeyilmə intensivliyini azaldır.

Titrəmələrin amplitudunun azaldılması üçün söndürmə təsirlərinin artırılmasına diqqətlə yanaşmaq lazımdır. Çünki, söndürmə qüvvələri dinamiki qüvvələri artıra bilər. Titrəmələri kiçik söndürmə cəhtlərində belə söndürmə qüvvələri ətalət qüvvələrindən böyük alınır. Yüksək sürətli daxili yanma mühərriklərində ən yaxşı söndürmə parametrlərinin əldə olunması üçün mühərrikin real işini imitasiya edən eksperimentlərin aparılması gərəklidir.

İstismar zamanı baş verən dinamik titrəyişlərin hesabi analizi və optimallaşdırılması, „çox kütləli titrəyiş modeli“nin köməyi ilə əldə olunur [6]. Belə bir prosesin rəqsi hərəkətinin modellə təsviri Maksvell-elemetinə əsaslanır ki, bu da yaydan (*K*) və söndürmə elementindən (*C*) ibarətdir (şək. 2).



Şəkil 2. Yumruq - ling idarəetmə cütünə Maksvell simulasiya modelinin tətbiqi.

Aşağı hərəkət sürətlərində söndürmə elementinin müqaviməti azdır. Bunun təsirindən demək olar ki, yay deformasiyaya uğramır. Bunun əksinə olaraq, yüksək sürətlərdə söndürmə elementi yüksək müqavimət göstərir və demək olar ki, bütün hərəkət yay tərəfindən qəbul olunur [8]. Şəkilə əsasən, $\dot{\gamma} = \dot{\gamma}_1 + \dot{\gamma}_2$və $\dot{\gamma}=\frac{\dot{\tau}}{G}+\frac{\tau}{\eta}$ - mayenin kəsilmə təhlükəsi; G - kəsmə modulu, τ - kəsmə gərginliyi, η - yağın dinamik özlülüyüdür.

Nəticə. Qüvvə analizi əsasında klapanları idarəetmə mexanizmində zərərli titrəyişlərin azaldılması üçün növbəti tədbirlər təklif olunur:

- Klapanları idarəetmə mexanizminin bütün hissələri mümkün qədər sərt hazırlanmalı;
- İstehsal dəqiqliyinin yüksəldilməsi;
- Materialın zədələnmələrinin azaldılması və həndəsi dəqiqliyin saxlanılması;
- Klapanın qalxmasının, sürətinin və təcilinin optimallaşdırılması;
  - Yumrğun maksimal təcillənməsi mümkün qədər kiçik olmalıdır;
  - Təcillənmə diaqramında müsbət sahə mənfi sahəyə bərabər olmalıdır.
- Klapanları idarəetmə mexanizminin konstruksiyasının optimallaşdırılması;
- Hərəkətli hissələr mümkün qədər yüngül olmalıdır (titan, maqnezium, aliminium, keamik və s. materialların tətbiqi);
- Sürtünmə itgilərinin azaldılması və yağlama keyfiyyətinin yüksəldilməsi.

ƏDƏBIYYAT

[1] Percin Ayanoglu. Experimentelle Erfassung des elastohydrodynamischen Kontaktes in Zahnradgetrieben und Nocken/Flachstößel-Paarungen. D82 (Diss. RWTH Aachen). Aachen 1993. 192 S.

[2] Wolf-Dieter Bensinger. Die Steuerung des Gaswechsels in schnell laufenden Verbrennungsmotoren. Konstruktion und Berechnung der Steuerelemente. Springer – Verlag. Berlin/Heidelberg/New York 1968. 256 S.

[3] Jobst H. Kerspe. Aufgaben und Verfahren in der Oberflächenbehandlung. Expert Verlag 2000, 248 S.

[4] Heinrich Uhe, Vlotho. Zur Reibung von Nockentrieben mit Flachstößeln. Konstruktionstechnik/Maschinenelemente Nr.129. VDI-Verlag GmbH Düsseldorf 1985. 134 S.

[5] Халилов Р.А. Системный анализ кулачковых механизмов автомобилей. //Баку 2001, 258 ст.

[6] Manfred Arnold, Jörg Ross, Friedrich-Wilhelm Speckens. Analyse und Optimierung von Ventil- und Steuertrieben in Verbrennungsmotoren. MTZ 54/3, 1993. S. 142-148.

[7] Günther Mendl, Greding. Motordynamik und ihre Interaktion zu Festigkeit, Ladungswechsel und Akustik. VDI Verlag GmbH Düsseldorf 2002.

[8] Klaus Spiegel. Beiträge zur Elastohydrodynamik bei Nocken-Stößel-Paarungen. Technische Universität Clausthal 1982. 196 S.

[9] Бурьянов В.А. Повышение долговечности газораспределительного механизма двигателей ВАЗ: Дис. канд. техн. наук. Тольятти, 1982. – 143.

DİŞLİ ÇARX ÖTÜRMƏLƏRİNDƏ GÜC İTKİLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Ə.İ. MİRZƏ
Azərbaycan Texniki Universiteti
E-mail: alimirzaibrahim@gmail.com

Xülasə: Məqalədə dişli çarx ötürmələrində yaranan itkilərin mənbələri araşdırılmış, onların təsnifatı aparılmış və istismar parametrlərinə təsiri qiymətləndirilmişdir. Dişli çarx ötürmələrində yaranan itkilərin ötürülən yükdən asılı və asılı olmayan hissələri fərqləndirilmişdir. Gələcək tədqiqat istiqamətləri kimi güc itkisinin dişli çarxların çevrəvi sürətindən, dişlərinin sayından, sürüşmə sürtünməsi əmsalından və tutduğu həcmdən asılı olaraq qiymətləndirilməsi müəyyən edilmişdir.

Açar sözlər: *dişli çarx, güc itkisi, faydalı iş əmsalı, müqavimət qüvvələri,*

ESTIMATION OF THE ROWER LOSSES IN THE GEARING TRANSMISSIONS

Abstract: In the article investigated the source of power lost in the gearing transmissions, its classification had been worked and estimated the influence on the operating parameters. Power losses of the gearing transmissions was divided into two groups: depending and not depending on the loads. Determined the future investigation directions as the estimation of power losses depending on peripheral velocity of the gears, number of the gear teeth, coefficient of friction and volume of the transmission.

Key words: *gear, power lost, efficiency, resistance forces*

Giriş. Dişli çarx mexanizmlərinin işgörmə qabiliyyətinə və istifadə səmərəliliyinə onlarda yaranan itkilər çox böyük təsir edir. Bu xüsusilə yüksək fırlanma sürəti ilə işləyən dişli mexanizmlər üçün aktualdır. Məsələn, müasir qaz turbinlərində istifadə olunan mexanizmlərdə bəzi dişli çarxların çevrəvi sürəti hətta 120 m/s-yə çatır, ötürülən güc isə 100 MVt və daha çox olur. Nəzərə alınsa ki, dişli çarx mexanizmlərinin faydalı iş əmsalı orta hesabla 98% təşkil edir, onda bu halda belə yüklənmənin reallaşdırılması üçün güc itkisi 1 MVt-dan çox olur [1 – 3].

Buna görə əsas faktorların dişli çarx mexanizmlərində güc itkisinə təsirinin dürüst qiymətləndirilməsi rasional dizayn həlləri – konstruksiya etmə məsələləri və yüksək sürətlə işləyən dişli çarxlar üçün optimal iş şəraitinin seçilməsi, yeni konstruktiv həllərin işlənib hazırlanması və mövcud dişli mexanizmlərin təkmilləşdirilməsi üçün əhəmiyyətlidir. Bu isə nəticə etibarı ilə maksimal faydalı iş əmsalı ilə mexanizmlərin işləmə imkanlarını daha da reallaşdıracaqdır.

Dişli çarx ötürmələrində yaranan itkilər.

Dişli çarx ötürmələrində yaranan itkiləri şərti olaraq iki qrupa ayırmaq olar:

1. Ötürülən yükdən asılı olan itkilər. Bu itkilər adətən dişli çarx cütlərinin və diyirlənmə yastıqlarının kontakt səthlərində yarana sürüşmə sürtünməsi və diyirlənmə sürtünməsi itkilərilərindən ibarət olur;

2. Ötürülən yükdən asılı olmayan itkilər. Bu itkilərə isə dişli çarxların, yastıq və kipləşdirici elementlərinin fırlanmasına hidroaero-hidrodinamik müqavimət, dişlərin ilişmə sahəsində yağ-hava qarışığının dövrü olaraq sıxılıb-genişlənməsi nəticəsində yaranan itkilər aid edilir.

Aparılmış tədqiqatların analizi göstərir ki, *n* ədəd dişli çarxlardan ibarət mexanizmlərdə yaranan ümumi aerodinamik müqavimət momenti onların hər birində yaranan dörd müqavi-mət momentinin cəmindən ibarətdir [4 – 5]. Bu müqavimət momentləri aşağıdakılardır:

1) Aerodinamik müqavimət qüvvələrinin momenti;

2) Fırlanma zamanı dişli çarxların profil səthlərində yaranan mühitin özlülüklü sürtünmənin müqavimət qüvvələrinin momenti;

ABŞERON YARIMADASINDA YARANAN ÇİRKAB SULARIN TƏMİZLƏNƏRƏK YENİ SALINACAQ MEŞƏ MASSİVLƏRİNİN SUVARILMASINDA İSTİFADƏ

N.İ.ƏLİYEVA
Milli Aviasiya Akademiyası
Email: nikali_il@yahoo.com

Annotasiya. *Məqalədə Bakı şəhəri və ətraf yaşayış məntəqələrində yaranan çirkab suların təmizlənməsi və bu su ehtiyatından Abşeron yarımadasında yerləşən boş ərazilərdə əkiləcək meşə massivlərinin suvarılmasında istifadə yolları araşdırılmışdır. Qlobal iqlim dəyişikliyi nəticəsində Samur Abşeron Kanalı sistemini qidalandıran çayların da su ehtiyatlarının azalması fonunda yarana biləcək su çatışmazlığının aradan qaldırılması üçün ərazidə yaranan çirkab sulardan istifadə nəzərdə tutulur.*

Açar sözlər: *çirkab suyu, su təminatı, çaylar, su təmizləyici qurğu, meşe massivi.*

Giriş. Abşeron yarımadası su ehtiyatları baxımından Respublikanın ən zəif bölgələrindən hesab olunur. Yarımadanın ərazisinə düşən yağıntının illik miqdarı 200-250 mm olmaqla həddən azdır, yerüstü su ehtiyatları yoxdur, yeraltı sularının əsas hissəsi duzludur. Bu səbəbdən Bakı şəhəri və Abşeron yarımadasının su təminatı bütünlüklə kənardan gətirilən sular hesabına aparılır. Hal hazırda yarımadada yerləşən yaşayış məntəqələrinin, sənaye sahələrinin və əkin sahələrinin su təminatı əsasən Samur- Abşeron kanalı ilə Taxtakörpü və Ceyranbatan su anbarlarına toplanan su ehtiyatı hesabına aparılır. Dünyada baş verən Qlobal İqlim dəyişikliyi Azərbaycan ərazisində də hiss olunmağa başlamışdır.

Son 5 ilin kəskin şəkildə quraq keçməsi daxili və tranzit çayların su ehtiyatlarına ciddi təsir etmişdir. Samur Abşeron kanalı sisteminin əsas qida mənbəyi olan Samur çayının su ehtiyatında da ciddi azalmalar baş vermişdir. Aparılmış hidroloji araşdırmalar göstərir ki, dünyada baş verən qlobal iqlim dəyişikliyi təsirindən Samur çayının su ehtiyatlarında da 20-25%-ə qədər azalma müşahidə olunur. Orta illik axımın 1970-ci illərdən başlayaraq aşağı düşdüyü və bu prosesin azalan trendlə davam etdiyi görünür. Qlobal İqlim Dəyişiklikləri ilə məşğul olan dünya alimlərinin gəldiyi son nəticələrdə 2050-ci ilə qədər Cənubi Qafqaz ərazisində su ehtiyatlarının 25-30%-ə qədər azalacağı proqnozlaşdırılır/1/.

Bu göstərilən faktlar fonunda Abşeron yarımadasında yerləşən yaşıllıqların suvarılmasında və bəzi sənaye sahələrinin suya artan tələbatının qarşılanması üçün təmizlənmiş çirkab sulardan istifadə aktuallıq kəsb edir. Ölkə əhalisinin təqribən 40%-i və sənaye potensialının 70%-i Abşeron yarımadasında cəmləşdiyindən həlli vacib olan ekoloji problemlərin əksər hissəsi bu ərazidə mövcuddur. Abşeron yarımadasının başlıca ekoloji problemlərindən biri torpaqların və atmosfer havasının çirklənməsi ilə bağlıdır. Ümumi sahəsi 222 min hektar olan Abşeron yarımadasının yararsız torpaqlarının ümumi sahəsi 33,3 min ha, o cümlədən neftlə çirklənmiş torpaqların sahəsi 10 min ha qədər təşkil edir. Son illər inşaat materialları, müxtəlif sənaye və tikinti tullantıları ilə çirklənən sahələr də xeyli artmışdır.

Yarımadanın tam sənayeləşməsi və mövcud yarımsəhra təbii şəraiti torpaqların özünü bərpa imkanlarını sıfıra endirmişdir. Burada ekoloji problemləri yaradan əsas səbəblər uzun illər ərzində neft-qaz hasilatı və qazma işləri zamanı torpaqların neft və lay suları ilə çirkləndirilməsi, lay sularının idarə olunmaması səbəbindən neftlə çirklənmiş süni göllərin və gölməçələrin əmələ gəlməsi, neft emalı zamanı əmələ gələn tullantların ərazilərdə toplanmasından ibarətdir.

Bakının əsas ekoloji problemlərdən biri də atmosfer havasının çirklənməsidir. Beləki, son illər əsasən köhnə avtomobillərin hesabına nəqliyyat vasitələrinin sayının artması, poliqonlarda tullantıların yandırılması səbəbindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının artması atmosfer havasını çirkləndirməklə ətraf mühit və insanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Respublika üzrə 2008-ci ildə atmosferə 923 min ton zərərli maddələr atılmışdır ki, bunun da 281 min tonu sənayenin, 642 min tonu isə avtonəqliyyatın payına düşüb. Bakı şəhəri üzrə isə atmosferə atılan tullantıların 451,8 min tonu avtonəqliyyatın payına, 194,5 min tonu isə stasionar mənbələrin payına düşüb.

Regiondakı mövcud ekoloji problemlərin planlı surətdə həll edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 28 sentyabr tarixində «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı» işlənərək həyata keçirilmişdir. Bakı və Abşeron yarımadasının ekoloji durumunun sağlamlaşdırılmasında bu tədbirlər planı çərçivəsində bir çox işlər görülmüşdür. Lakin şəhər infrastrukturunun genişlənməsi və əhalinin artımı səbəbində bir çox əlavə problemlər yaranmışdır.

Tikinti sektorunun sürətli inkişafı ilə əlaqədar olaraq Abşeron yarımadasında yerləşən təbii daş yataqlarından istifadə geniş vüsət almışdır ki, bu da ətraf ərazilərdə toz fonunun kəskin artmasına səbəb olmuşdur. Daş emalı müəssisələrinin ətrafında yerləşən Güzdək, Korgöz, Qızıldaş, Buta, Qobu və Lökbatan qəsəbələrində toz fonunun daha çox olması və küləkli havalarda havada tozun miqdarının kəskin artıraq buraxıla bilən həddən qat- qat artıq olması müşahidə olunur.

Abşeron yarımadasında ekoloji şərait. Son illər Abşeron yarımadasında mövcud daş ehtiyatlarından istifadə geniş vüsət almışdır. 1980-cı illərlə müqayisədə daş emal edən ərazilər 10-15 dəfəyə qədər genişlənmişdir. Hal-hazırda yarımadanın şərqində Türkan və Qala qəsəbələri arasındakı 3000 ha-a qədər ərazilərdə daş karxanaları fəaliyyət göstərir. Bu ərazilərdə bəzi karxanalar fəaliyyətini dayandırsa da ətrafa yığılmış tullantılar küləkli havada ciddi toz mənbəyi rolunu oynayır. Güclü küləklərin əsdiyi zaman yarımadanın şərq hissəsində atmosferdə toz fonunun normadan 15-20 dəfədən artıq olması müşahidə edilir ki, bu da ətrafda yaşayan əhalinin sağlamlığı üçün ciddi problemlər yaradır. Bu şəkildə problemlər Qaradağ rayonunun Lökbatan, Qobu, Güzdək, Qızıldaş, Qobustan, Səngəçal və Sahil qəsəbələri ətrafında da baş verir. Hal-hazırda bu ərazidə yerləşən daş karxanalarının sayı 100-qədərdir və bu karxanaların ümumi sahəsi təxminən 1000 ha qədərdir. Karxanalardan ətrafa atılmış tullantılar ətraf mühit üçün ciddi toz mənbəyidir. Müşahidələr göstərir ki, karxanaların təsir zonasında yerləşən Güzdək və Qızıldaş qəsəbələrində ekoloji durum daha ağırdır. Kiçik küləklər əsən zaman belə bu qəsəbələrdə toz fonu normadan bir neçə dəfə artıq olur. Güclü küləklər əsən zaman qəsəbədə toz fonu normadan 100 dəfə artıq olur və bu daş karxanaların təsiri nəticəsində yarımadanın qərb hissəsində də toz fonu normadan yüksək olur.

Ümumən Abşeron yarımadası və ona bitişik ərazilərdə bitki örtüyü zəif olduğundan külək eroziyası sürətli gedir və bu da şəhərdə toz fonunun yüksək olmasına səbəb olur.

Təklif olunan əsas tədbirlər. Abşeron yarımadasında yaranmış ekoloji durumun yaxşılaşdırılması üçün yarımadadakı karxanaların ətrafında və ləğv olunmuş karxanaların yerində yaşıllıq zonaları yaradılmalıdır. Aparılan araşdırmalar göstərir ki, bu məqsədlə daha çox toz saxlayan iynəyarpaqlı ağaclardan meşə massivini əkmək daha məqsədəuyğundur. Ciddi su çatışmazlığı problemi olan bu ərazidə meşə massivinin əkilməsi və suvarılması üçün yarımadada yaranan çirkab su ehtiyatlarından geniş istifadə etmək olar. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2035-ci ilədək inkişaf nəzərə alınmaqla Abşeron yarımadasında yaranacaq çirkab suların toplanması və təmizlənməsi ilə bağlı Master Plan hazırlanmışdır. Master Plan çərçivəsində kanalizasiyalı və kanalizasiyasız sahələr üzrə araşdırmalar aparılmış və kanalizasiya sisteminin tələbatı ilə əlaqədar təkliflər təqdim edilmişdir. Əhalinin sıxlığı haqqında xəritələrdən istifadə edərək kanalizasiya sistemi olmayan yerlərə aid debitlər hesablanmış, (cədvəl 1) paralel olaraq tələb olunan kanalizasiya xətlərinin, kollektor və tunellərin, tullantı sularının təmizləyici qurğularının yerləri müəyyən edilmişdir.

Abşeron yarımadasındakı tullantı suların 107 təbii hövzələri və 11ədəd tullantı su hövzələrinin sərhədləri müəyyənləşdirilmişdir. Master Plan çərçivəsindəki yaşayış sahələrə və 2035-ci il planlaşdırılmasına görə yaşayış sahəsi olacaq yerlərə kanalizasiya şəbəkəsinin inşasına təklif verilmişdir. Bu təkliflər hər hövzə (11 hövzə) daxilində ayrı-ayrılıqda dəyərləndirilmişdir. Planlaşdırılan tullantı suların təmizləyici qurğuları cədvəl 2-də verilmişdir /2/.

Abşeron yarımadasının tullantı sularının proqnozu. Cədvəl 1.

	HÖVZƏ ADI	MASTER PLAN SAHƏSİ	
	HÖVZƏ SAHƏSİ	247 min ha	
		ƏHALİ	Tullantı sularının həcmi (m3/g)
İLLƏR	2010	2 567 200	510 262
	2015	3 076 164	688 400
	2020	3 396 334	851 405

	2025	3 749 827	986 250
	2030	4 140 112	1 126 549
	2035	4 571 018	1 287 674

Planlaşdırılan tullantı suları təmizləyici qurğuları. Cədvəl 2.

S/s	Tullantı Suların Təmizləyici Qurğuları (TSTQ)	Məhsuldarlıq m3/gün
1.	Hövsan TSTQ №1 və TSTQ № 2	560 000
2.	Sumqayıt TSTQ	200 000
3.	Şüvəlan TSTQ	60 000
4.	Pirallahı TSTQ	15 000
5.	Pirşağı TSTQ	60 000
6.	Türkan TSTQ	25 000
7.	Səngəçal (Sahil) TSTQ	150 000
8.	Lökbatan TSTQ	260 000
9.	Qobustan TSTQ	10 000
10.	Ələt TSTQ	20 000
11.	Müşfiqabad TSTQ	15 000
	CƏMİ	1 375 000

Master Planın hazırlanması dövründə təmizləyici qurğular, dənizə axıdılmalar, lilin kənarlaşdırılması, tullantı sularının təmizləyici qurğularının təkmilləşdirilməsi üçün məqsədəuyğun hesab edilən plan təqdim olunmuşdur. Nəticə etibarilə Master Planın təklifi təmizlənmiş tullantı sularının yaxın və orta perspektivdə sənaye sahələrində təkrar istifadəsini nəzərdə tutur. Cədvəl 2 göründüyü kimi Abşeron yarımadasında dənizin sahil boyu yerləşdiriləcək çirkab sutəmizləyici qurğularda gün ərzində 1,375 milyon m3 çirkab suyun təmizlənərək dənizə buraxılması nəzərdə tutulur.

Apardığımız araşdırmalar göstərir ki, Hövsan Aerasiya Stansiyasında yaranan bərk tullantılardan gübrə kimi istifadə etməklə Türkan, Dübəndi və Hövsan ətrafında yerləşən ümumi sahəsi 18000 ha çatan daş karxanalarının istifadəsiz qalan ərazilərini bərpa etmək və yaşıllıq ərazilərinə çevirmək olar. Bu ərazilər karxanalardan atılmış tullantılardan təmizlənməli, düzlənməli, təmizləyici qurğularda yaranan bərk tullantılardan istifadə etməklə meşə massivinin əkilməsi üçün hazırlana bilər. Bu göstərilən ərazidə əkiləcək ağacların suvarılması üçün Hövsan Aerasiya Stansiyasında emal olunan sudan istifadə etmək mümkündür.

Ümumən Hövsan Aerasiya Stansiyasında təmizlənmiş çirkab sulardan Abşeron yarımadasında yaşıllıqların və zeytun bağlarının suvarılmasında istifadə olunması ilə bağlı hələ 1980-cı illərdə geniş tədqiqat işləri aparılmışdır /3/.

Bu sahədə aparılmış digər tədqiqatlarda təmizlənmiş çirkab sulardan təkrar olaraq ağac və kolların suvarılmasında istifadə olunmasının məqsədəuyğun olduğunu göstərir /4/.

Təmizlənmiş çirkab sulardan istifadə etməklə yarımadanın şərq hissəsində Zirə və Gürqan qəsəbələri ətrafında Şah dilinə doğru yerləşən və hal-hazırda istifadə olunmayan 3000 ha qədər ərazini yaşıllıq və istirahət parkına çevirmək olar.Bu ərazi hər iki tərəfdən dənizlə əhatə olunduğundan əhalinin istirahəti və çimərlik üçün istifadə məqsədi ilə daha əlverişlidir. Ərazidə əkiləcək ağacların suvarılması üçün, əlavə olaraq Türkan çirkab sutəmizləyici qurğusunda emal olunacaq sudan da istifadə etmək olar. Şəhərin Şüvəlan və Dübəndi qəsəbələri arasında yerləşən sahəsi 1500 ha qədər olan daş karxanalarının yerində meşə massivi əkmək və bu yaşıllıq zonasını Şüvəlan çirkab sutəmizləyici qurğuları ilə emal olunmuş su ilə suvarmaq olar.Ümumilikdə yarımadanın şərq hissəsində ümumi sahəsi 20 min ha qədər yaşıllıq zonası yaratmaq və hal-hazırda istifadə olunmayan təmizlənmiş çirkab sulardan istifadə etməklə yaşıllıqları suvarmaq olar.

Bu göstərilən ərazilərdə əkiləcək yaşıllığı suvarmaq üçün gün ərzində təxminən 600 000 m^3 qədər su tələb olunur. Ərazidə bu qədər şirin su ehtiyatına qənaət etmək olar və bu məqsədlə Hövsan, Şüvəlan, Pirallahı və Türkan qəsəbələri yaxınlığında tikiləcək çirkab sutəmizləyici qurğularda emal

olunacaq 660 000 m3/gün su ehtiyatlarından istifadə etmək daha məqsədəuyğun və iqtisadi baxımdan səmərəli variantdır. Eyni zamanda bu qədər çirkab suyun suvarma məqsədilə istifadə edilməsi dənizə çirkab suların axıdılmasının qarşısını almağa, dənizin sahilində, çimərlik zonasında ekoloji tarazlığı bərpa etməyə imkan verəcəkdir. Yarımadanın şərq hissəsində yaradılacaq böyük yaşıllıq zonası atmosferdə yaranan tozların miqdarını kəskin azaltmaqla yanaşı şəhər əhalisinin istirahət zonasına çevrilə bilər.

İşlənmiş Master Plandan göründüyü kimi şəhərin qərb hissəsində, Sulutəpə və Biləcəri qəsəbələrində yaranacaq çirkab suların bir hissəsi Lökbatan qəsəbəsi yaxınlığında tikiləcək, məhsuldarlığı sutkada 260 min kub metr olacaq çirkab sutəmizləyici qurğulara yönəldiləcəkdir. Sahil qəsəbəsi və ətraf yaşayış məntəqələrində yaranan çirkab suların təmizlənməsi məqsədi ilə Sahil qəsəbəsində yerləşən mövcud qurğunun genişləndirilərək məhsuldarlığının sutkada 150 min kub metrə çatdırılması nəzərdə tutulmuşdur.

Qeyd etyimiz kimi, qəsəbənin yaxınlığında yerləşən Korgöz, Qızıldaş, Buta, Qobu, Güzdək qəsəbələri daş karxanaları ilə əhatə olunub və ekoloji cəhətdən kəskin durumdadır. Lökbatan və Sahil qəsəbələrində tikiləcək çirkab sutəmizləyici qurğularda emal olunacaq 410 000 m3/gün sudan təkrar istifadə etməklə bu qəsəbələr ətrafında yerləşən ləğv olunmuş karxanaların yerində və ətrafında təxminən 15 min ha qədər yaşıllıq zonası yaratmaq olar. Bu yaşıllıq zonasının yaradılması Sahil, Lökbatan,Güzdək,Qobu və Qızıldaş qəsəbələrində yaranmış ekoloji gərginliyi aradan qaldırmağa imkan verəcəkdir.

Hazırlanmış Master Planda Müşviq qəsəbəsi yaxınlığında 15000m3/gün məhsuldarlığı olan çirkab sutəmizləyici qurğularının tikintisi nəzərdə tutulub. Bu qurğularda emal olunacaq sudan istifadə etməklə Bakı-Şamaxı avtomobil yolu ətrafında əkilmiş meşə massivini suvarmaq və daha da genişləndirmək mümkündür (Şəkil 1.).



Şək.1. Abşeron yarımadasında yaranan çirkab sulardan yeni salınacaq meşə massivlərinin suvarılmasinin sxemi

Master Plan sənədinə əsasən Səngəçal, Qobustan və Ələt qəsəbələrində ümumi məhsuldarlığı 108 000 m^3/gün olan çirkab sutəmizləyci qurğuların tikintisi planlaşdırılır. Bu qurğularda emal olunacaq sulardan istifadə etməklə Bakı-Ələt avtomobil ətrafında, Qaradağ sement zavodunun ətrafında və Qobustan qoruğu ərazisində kifayət qədər yaşıllıq zonaları yaratmaq olar. Bu yaşıllıq zonalarının yaradılması əhalinin istirahəti, ətraf mühitin qorunması və yaxşılaşdırılması istiqamətində mühüm addım olar. Beləki, meşə massivinin yaradılması ilə dənizə atılan çirkab suların qarşısını almaq və su ehtiyatlardan maksimum istifadə etmək mümkün olacaqdır. Çirkab sulardan təkrar istifadə yarımadaya daxil olan şirin su ehtiyatlarından daha səmərəli istifadə etməyə imkan verəcəkdir.

Nəticə

1.Abşeron yarımadasında küləkli havalarda yaranan toz fonunu azaltmaq və ekoloji şəraiti yaxşılaşdırmaq üçün fəaliyyətini dayandırmış daş karxanalarının yerləri bərpa olunaraq yaşıllıqlar salınmalıdır.

2.Qaradağ rayonu ərazisində yerləşən və hal hazırda fəaliyyət göstərən daş karxanalarının ətrafında toz tutan iynəyarpaqlı ağaclardan yaşıllıqlar salınmalıdır.

3.Bakı şəhəri və ətraf qəsəbələrdə gün ərzində yaranacaq 1375 min kub metr təmizlənmiş çirkab sulardan damcılı suvarma texnologiyasından istifadə etməklə ümumi sahəsi 100 min hektara qədər olan (qış aylarında yaranan suları toplayaraq yayda istifadə etməklə) yaşıllıq zonası yaratmaq olar.

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATLAR.

1. Иманов Ф.А. “Водные ресурсы и их использование в трансграничном бассейне р.Куры ” Санкт-Петербург – 2016, стр.148
2. Ağayev T.S. “Abşeron yarımadasının su təhizatı, kanalizasiya və yağış suları sisteminin inkişafının Master Planı” 2-ci Xəzər Beynəlxalq Su Texnologiyaları konfransının materialları. Bakı – 2014. səh. 271-276
3. Асадов М. Я. Использование сточных вод на промывку и орошение (в условиях Апшерона). Автореферат диссертации на соискание ученый степени кандидата технических наук. Баку – 1987 . 22 ст.
4. Зейналова О.А. Экологически безопасное использование сточных вод для орошения. (На примере Азербайджанской Республики). Баку – 2014. 359 ст.

ОЧИСТКА ЗАГРЯЗНЕННЫХ ВОД АПШЕРОНСКОГО ПОЛУОСТРОВА И ИСПОЛЬЗОВАНИЕ ИХ В ОРОШЕНИИ ПРЕДПОЛАГАЕМЫХ НОВЫХ ЛЕСНЫХ МАССИВОВ

Аннотация. В статье разработаны методы очищения загрязненных вод, образовавшихся в городе Баку и прилегающих населенных пунктах, а также способы использования этих водных ресурсов в орошении лесных массивов, насаждения которых планируется в пустых территориях Апшеронского полуострова. Предполагается использование загрязненных вод территории в целях устранения в дальнейшем дефицита воды, который может возникнуть на фоне уменьшения водных ресурсов рек, питающих систему Самур-Апшеронского Канала в результате глобальных климатических изменений.

Ключевые слова: *загрязненные воды, водоснабжение, водоочистительное оборудование, лесной массив*

PURIFICATION OF THE POLLUTED WATERS OF ABSHERON PENINSULA AND USING THEIR IN IRRIGATION OF THE PROPOSED NEW FORESTS

Annotation. The article developed methods for the purification of polluted water formed in the city of Baku and adjacent settlements, as well as methods of using these water resources in irrigating forests, plantations of which are planned in the empty territories of the Absheron Peninsula. It is intended to use the polluted waters of the territory in order to eliminate in the future water shortages that may occur against the background of a decrease in the water resources of the rivers that feed the Samur-Apsheron Canal system as a result of global climate change.

Keywords: polluted water, water supply, water purification equipment, woodland

LƏNKƏRAN FIZIKI-COĞRAFI VILAYƏTI ÜZRƏ APARILAN ELMI-TƏDQIQAT IŞLƏRI

ŞƏKƏR[1] İDAYƏT QIZI MƏMMƏDOVA
ÜLKƏR[2] ALLAHYAR QIZI BABAYEVA
Bakı Dövlət Universiteti[1]; Lənkəran Dövlət Universiteti[2]
babayevauka@gmail.com

Azərbaycan Respublikasının ərazisi bir neçə fiziki-coğrafi vilayətə ayrılır. Bu fiziki-coğrafi vilayətlər ərazilərinin coğrafi mövqeyi, geoloji inkişafı, relyefi və iqlimi ilə bir-birindən fərqlənirlər. Respublikamızın zəngin fiziki-coğrafi vilayətlərindən biri də Lənkəran fiziki-coğrafi vilayətidir.Lənkəran fiziki-coğrafi vilayəti qlobal buzlaşma dövrünü keçmədiyindən çox zəngin torpaq və bitki örtüyünə malikdir. Bu zənginlik istər yerli alimlərin, istərsə də dünya alimlərinin diqqətini cəlb etmişdir. Bunun nəticəsidir ki, vilayətdə müxtəlif istiqamətli elmi-tədqiqat işləri aparılmışdır.

Geoloji quruluşu. Lənkəran fiziki-coğrafi vilayətinin geoloji quruluşu zaman baxımından Kaynozoy erasından başlanılır. Böyük və Kiçik Qafqaz dağlarının yüksək və orta dağlıq zonasında buzlaq relyef formaları geniş yayıldığı halda, Talış dağlarında relyefin belə bir forması məlum deyildir. Talış dağlarında IV dövr vulkanik örtükləri müşahidə olunmadığı halda, Kiçik Qafqaz dağlarında bu çox geniş yayılmış və onun relyefinə xüsusi forma verir. Bölgə oroqrafik xüsusiyyətlərinə və geomorfoloji quruluşuna görə bir-birindən fərqlənən iki hissəyə bölünür: 1) denudasiya zonası – vulkanogen və çökmə süxurlardan təşkil olunmuş Talış dağ sistemi. 2) akkumulyasiya zonası – III dövr çöküntülərindən təşkil olunaraq, IV dövrün dəniz və kontinental fasiyalı çöküntülərlə örtülmüş Lənkəran düzənliyi. Ərazi haqqında ilk məlumatlar 1907-ci ildə A.F.Ştalyan, 1910-cu ildə F.K.Osvald, 1936-cı ildə P.P.Abdusin, F.A.Mixaylov, A.İ.Priobracenski,1940-cı ildə Y.D.Kozin tərəfindən verilmişdir. Lakin ədəbiyyat materialları ilə tanış olduqda görürük ki, ərazi haqqında daha dolğun materiallar B.P.Reqnarterin (1947), Ş.F.Mehdiyevin (1950), M.Ə.Qaşqayın (1952), A.S.Bayramovun (1953), N.V.Paşolenin (1959) və b. alimlərin əsərlərində öz əksini tapmışdır.M.İ.Rüstəmova görə bu ərazi Elbrus – Kiçik Qafqaz okean-qırışıqlı geosinklinal sistemi daxilində təbaşir dövrü qövsarxası riftogen strukturlarını və eosen əsri vulkanik qırışığının qraben və horstlar silsiləsini və eləcə də dağarası və öndağlıq molass çökəkliklərini əhatə edir. Geodinamik inkişaf şəraiti ilə əlaqədar olaraq bu ərazi Azərbaycanın başqa dağlıq ərazilərindən fərqlənir. Relyefin geodinamik inkişafında həlledici rol oynayan relyef əmələgətirici proseslərin intensivliyi və təzahürü ilk növbədə relyefin morfometrik xüsusiyyətlərindən, ərazinin parçalanma dərəcəsindən və meyilliyindən asılıdır. Ş.F.Mehtiyev və A.S.Bayramov ərazidə olan Pliosen çöküntülərini ən qədim çöküntülər hesab edirlər vəonları üç horizonta (alevrotuffit, alevrolit və tuflu qumdaşlara) ayırırlar [1]. N.V.Paşolenin fikrincə, Lənkəran ovalığı bir neçə dəfə Xəzər transqresiyasına məruz qalmış və bu proses indi də davam etməkdədir. Çöküntülər içərisində ən qədim dəniz çöküntüləri isə Xvalın transqresiyası nəticəsində toplanılmışdır. Talış vilayəti geomorfoloji cəhətdən və geoloji kompleksinə görə Kiçik Qafqazın bilavasitə cənub-şərqə doğru davamı hesab edilirdi. Lakin buradakı effuziv və intruzivlərin xarakteri, habelə buradakı spesifik litoloji tərkibdə daha cavan III dövr törəmələrinin olması, Lənkəran fiziki-coğrafi vilayətini geoloji tektonik cəhətdən müstəqil sahə kimi qəbul etməyə imkan verir. Cənub-Şərq istiqamətində bu sahə Gilan əyalətinə qədər uzanır, qarışıqlarının bir hissəsi isə qırılaraq Xəzər dənizinə doğru irəliləyir [2]. Ümumiyyətlə, Lənkəran fiziki-coğrafi vilayəti ərazisi tektonik quruluşuna görə mürəkkəb bir xüsusiyyətə malikdir. Ş.F.Mehtiyev və A.S.Bayramov hesab edirlər ki, Lənkəran fiziki-coğrafi vilayətinin ərazisi I dərəcəli antiklinor olub, öz növbəsində II dərəcəli antiklinor və bunların arasında yerləşən sinklinorilərdən ibarətdir.

İqlimi. Lənkəran fiziki-coğrafivilayətinin iqlimi İ.V.Fiqurovski, Ə.Mədətzadə, Ə.Şıxlinski, Ə.Əyyubov və bir sıra başqa alimlər tərəfindən öyrənilmişdir. İ.V.Fiqurovskiyə görə hələ III dövrdə dənizin içərisindən adalar kimi yüksələn Talış dağları zəngin subtropik bitkilərlə örtülü idi. Dənizin tədricən geri çəkilməsi nəticəsində sudan azad olan indiki düzənlik rayonlar isti və quru iqlimə malik olmuşdur. Düzənlik rayonların isti və quru iqlimi bunlarla yanaşı olan dağətəyi zonanın zəngin

subtropik bitki örtüyünə öz mənfi təsirini göstərmiş və bu rayonların iqlimi tədricən müair şəklə dümüşdür. Lənkəran və Astara rayonlarında subtropik iqlim və zəngin bitki örtüyü indiyə qədər qalmışdır. Bundan başqa, Talış dağlarının iqliminin az dəyişilməsi yerli oroqrafik xüsusiyyətlər və Xəzər dənizinin təsiri ilə əlaqədardır. Ə.M.Şıxlınskinin tədqiqatına əsasən ərazidə günəşli saatların illik miqdarı 2200-2500 saat arasında dəyişir. Ərazinin ovalıq hissəsində ümumi günəş radiasiyasının miqdarı 135, dağətəyində 120, orta dağlıq sahədə 140, 2000 m-dən yuxarı isə 145-150 kkal/sm-ə bərabərdir. Radiasiya balansının kəmiyyəti dəniz sahilindən yüksək dağlıq sahələrə doğru azalır. Belə ki, il ərzində ovalıq sahələrdə radiasiya balansı 58-50, orta dağlıq sahələrdə 50-55, yüksək dağlıq sahələrdə 40-45 kkal/sm təşkil edir. Lənkəran fiziki-coğrafi vilayətinin iqlimini A.Ə.Əliyev və H.K.Həsənov rütubətli subtropik iqlimə aid edirlər. Ərazinin orta illik temperaturu 14,5-6ºC arasında tərəddüd edir. Yay aylarında orta aylıq temperatur 15-26ºC-dək dəyişir. Maksimum yağıntı Talış dağlarına düşür. Burada ən çox yağıntı ərazinin cənub-şərq hisəsində (1700 mm-ə qədər), ən az isə Burovar silsiləsinin şimal-qərbinə 350 mm düşür. Talışdağlarında maksimal yağıntılar 300-800 m, minimal 700-800 m hündürlüklərdənbaşlayaraq düşür. Lerikdə (1100 m) yağıntılar 400 mm-ə qədər azalır. Deman və Diabar çökəklikləri 300 mm yağıntı alır. Talışdağlarında maksimum yağıntı payız aylarında düşür və illik yağıntının 50%-ni təşkil edir [3].

Torpaq örtüyü. Azərbaycanda əsl torpaq tətqiqatları rus alimlrinin adı ilə bağlıdır. onlardan V.R.Koyalyov Lənkəran subtropiklərinin torpaqlarına dair XX əsrin 50-60-cı illərində əsərlər yazmış, torpaq xəritələri tərtib etmişdir. Lənkəran fiziki coğrafi vilayətinin torpaqlarını r.V.Kovalyev (1966), M.E.Salayev və başqa alimlər geniş tədqiq etmişlər. Talışın istər ovalıq, istərsə də dağlıq sahələrində müxtəlif topaq tipləri və yarımtipləri əmələ gəlmişdir. R.V.Kovalyev bölgənin torpaqlarını 4 qrupa bölmüşdür : Sarı, qəhvəyi, qonur, bozqır torpaqlar. O torpaqların relyefdə (oroqrafiyada) tutduğu mövqeyə görə də torpaqəmələgəlmə prosesini 3 sırada avtomorf, avtomorf-hidromorfvə hidromorf kimi ayırır. Lənkəran təbii vilayətinin bioiqlim şəraitindən asılı olaraq aşağıdakı torpaq tipləri yayılmışdır. Rütubətli subtropik meşələrin sarı torpaqəmələgəlmə şəraitində 3 torpaq tipi fərqləndirilir. Sarı, podzol-sarı, sarı-qleyli. M.E.Salayev öz tədqiqatlarında bu bölgüyə dəyişiklik edərək , vilayətdə sarı dağ-meşə, podzollu-sarı və podzollu-qleyli-sarı torpaqların yayıldığını göstərir. Sonuncu buzlaşmaya məruz qalmama və Hirkan tipli floranın öz təbii-tarixi strukturunu saxlaması, Xəzər dənizi sahillərinin dövri dinamikası, qlobal iqlim dəyişmələri, vilayətin şimal hissəsinin aridləşməsi, düzən və dağətəyi ərazilərdə vaxtilə böyük sahəyə malik meşə örtüyünün qırılması da belə səbəblərdəndir. Ərazidə dörd əsas bioiqlim tipini ayırmaq mümkündür; rütubətli subtropik meşələr, kserofit subtropik meşələr və çöllər, rütubətli subboreal meşələr, subboreal çöllər. Bu bioiqlim şəraitlərindən asılı olaraq ərazidə müxtəlif torpaq tipləri yayılmışdır[4]. Lənkəran təbii vilayətinin ərazisində ən geniş yayılmış torqaq tipi sarı torpaqlardır. Azərbaycanda sarı torpaqlar əsasən Lənkəran ovalığında və Talış dağlarının ətəklərində daha geniş yayılmışdır. Bəzi tətqiqatçılar sarı torpaqları quru subtropiklərin boz torpaqları sırasından subtropiklərin qırmızı torpaqlarına keçid mövqedə duran torpaqlar hesab edirlər. Tətqiqatlar nəticəsidə sarı torpaqların 500-600 m yüksəkliyə qədər yayılması müəyyən edilmişdir [5].

Bitki örtüyü. Lənkəran fiziki-coğrafi vilayətinin bitki örtüyünün öyrənilməsində A.A.Qrosshey-min böyük rolu olmuşdur. Sonralar İ.S.Səfərov Talışın və Azərbaycanın relikt meşə bitkilərini tədqiq etmişdir. Lənkəran fiziki-coğrafi vilayəti Azərbaycan endemik və relikt bitki növlərinin vətəni sayılır. Bu cəhətdən Talış rayonu böyük əhəmiyyət kəsb edir. Burada 4000-dən artıq çiçəkli bitki növünə rast gəlmək olur. Lənkəran rayonu relikt və endemik bitkilərin (Lənkəran soğanı, Talış soğanı, Hirkan xıncılotu, Hirkan süsəni, Talış qərənfili, dəmirağac, Şabalıdyarpaq palıd, Lənkəran ipək akasiyası,azat, vələs, danaya, qaraçöhrə,şümşad, Qafqaz xurması və s.) məskəni sayılır [6]. Azərbaycan ərazisində bitki örtüyü əsasən yüksəklik qurşaqları üzrə paylanmışdır. Yalnız Lənkəran fiziki-coğrafi vilayətində yüksəklik bitki zonallığı düzənlik meşələrindən başlanır. Vilayətin botaniki-coğrafi xüsusiyyətlərindən ən başlıcası ortadağlıq qurşağın yuxarı sərhəddində və yüksək dağlıqda arid vilayətləri üçün xarakterik olan dağ kserofitlərinin yayılmasıdır. Azərbaycanda 435 ağac və kol növü yayılmışdır (onların 107 növü ağac, 288 növü isə kollardır). Azərbaycanda müasir meşə massivlərinin ümumi sahəsi 863700 ha-dır. Bundan 145204 ha-sı Talış dağlarının payına düşür [2]. Bu meşələrdə epifitlər zəif inkişaf etmiş (məsələn, ayidöşəyi), lianlar isə (mərəvcə, gürmə,daşsarmaşığı) alçaqdağ və düzənlik meşələri üçün səciyyəvidir. Burada rast gəlinən həmişəyaşıl kolların üç növü (hirkan bizotu, danaya, hirkan pirkalı) dağların və düzənliklərinin III dövrdə həmişəyaşıl bitkilərlə zəngin olmasını sübut edir.

Lənkəran sahəsində Qədim Tuqayflorasına aid edilən və müasir alçaqdağ meşələrinin tərkibində geniş yayılmış ağac növlərinə İpək akasiyası,hirkan əncili, məxməri ağcaqayın, ürəkyarpaq qızılağac, qalınyarpaq göyrüş, iriyarpaq murdarça və bir çox başqa ağac və kol bitkiləri aid edilir. Q.Məmmədov və M.Xəlilovun Talış dağlarında əkin sahələri əldə etmək və kəndlər salmaq məqsədilə meşəsizləşdirmə ən çox orta dağ meşə qurşağında aparılmışdır. Burada meşənin müasir yuxarı sərhəddi 1500-1800 m yüksəklikdən keçir, bəzi yerlərdə (Alar, Lerik və Sori yaşayış məntəqələri ətrafında) 1100-1300 m-ə endirilmişdir[7]. Qeydedilməlidir ki, subtropik bitkilərin fenoloji şəraitini Rəcəbli (1936), Axundzadə (1953), Əmirşah (1959), Əlizadə (1964), Məmmədov (1965), Əyyubov (1975), Quliyev (1993) və b. alimlər geniş tədqiq etmişlər.

Heyvanat aləmi. Lənkəran fiziki-coğrafi vilayətində yaşayan heyvanların bioloji xüsusiyyəti, onların əmələgəlmə tarixi və yaşayış tərzi bir çox tədqiqatçılar tərəfindən öyrənilmişdir. Bunlardan R.Raddeni (1884), K.M.Qənbərovu (1942) və s. misal göstərmək olar. Vilayətdə dəniz sahili ərazilərdən başlamış yüksəkdağlıq qurşağadək fiziki-coğrafi amillərin dəyişməsi heyvanlar aləminin bioloji xüsusiyyətlərinə görə yerləşməsinə böyük təsir göstərmişdir. Vilayətdə istər dağlıq və istərsə də ovalıq sahələrdə yaşayan heyvanlar fiziki-coğrafi şəraitdən asılı olaraq bir-birindən kəskin surətdə fərqlənirlər. Lənkəran ovalığının şərq hissəsi bataqlıqla zəngindir. Ovalığın şimal hissəsi üçün səciyyəvi olan heyvanlara kirpi, xirda tülkü və dovşan aiddir. Qamışlıq və bataqlıqlarda yaşayan heyvanlardan qabanı, suda-quruda yaşayan heyvanlardan Xəzər bağasını, çanaxlı bağanı, bataqlıq ilbizinivə başqalarını qeyd etmək olar. Lənkəran ovalığı, xüsusilə dənizkənarı rayon 180 növ quşla zəngindir. Bu quşların bir hissəsi ilin fəsillərindən asılı olaraq, müvəqqəti yaşayan quşlar, digər hissəsi isə daimi məskən salmış quşlardır. Bu quşların əksəriyyəti qamışlıq bataqlıqlarda və həmçinin dənizdə xırda balıqlar və sahildə müxtəlif həşaratlarla qidalanır. Bunlardan martı quşunu, qızılqaz, qaşqaldaq, boz qazı, qu quşunu, ovalığın meşəli-kollu sahələrində isə qara leyləyi, tutu-quşunu, cüllütü, payız bübülünü, sultan toyuğunu, sığırçını və başqa quşları göstərmək olar.

Lənkəran ovalığının dağ ətəyinə yaxın olan sahələr üçün səciyyəvi olan heyvanlardan tülkü, çaqqal, oxlu kirpi, süleysin və meşə pişiyidir. Bu heyvanlar xırda heyvan və quşları ovlamaqla yaşayır. Gəmiricilərdən meşə siçanı, radde yer eşəni, adi kirpi, sürünənlərdən meşəaltı kolluqlar içərisində gürzə, cılız ilan və yaşıl kərtənkələdir. Qanadlı pərdəlilərdən burada müxtəlif növlü yarasalar geniş yayılmışdır. Ovalıq meşəliklərdə quşlardan çalı quşu, şəraitinə və zəngin meşə örtüyünə malik olduğundan burada müxtəlif heyvanların yaşaması üçün yaxşı bioloji şərait yaranmışdır. Belə bir şəraitdə inkişaf etmiş heyvanlardan tülkü, çaqqal, oxlu kirpi, süleysin və meşə pişiyi yaşayır. Bəzən qış aylarında ov axtarmaq məqsədi ilə yüksəkdağ sahələrdən buraya canavar və nadir hallarda isə ayı gəlir. Dağətəyi qurşağın düzənlik qurşağa həmsərhəd olduğu rayonlarda bu sahələr üçün səciyyəvi olan sürünənlər və gəmiricilər yaşayır, bunlardan kolluqlar içərisində Radde yer eşəni, meşə siçanını, kirpini, çanaxlı bağanı, xırda kolluqlarda gürzəni, çılız ilan və kərtənkələni göstərmək olar. Bu qurşaqda müxtəlif növlü yarasalar gün batandan sonra havada uçaraq xırda həşaratları ovlamaqla qidalanır. Dağətəyi qurşağın zəngin və gözəl meşəliklərində Hirkan sərçəsi, ağboyun bülbül, kəklik torağay, meşə çüllütü, göyərçin və başqa quşlar yaşayır. Ortadağlıq qurşaq sıx palıd, vələs meşələrindən ibarət olub, meşə heyvanlarının yaşaması üçün əlverişli şəraitə malikdir. Ərazi üçün səciyyəvi olan heyvanlardan meşəaltı kolluqlarda çöl donuzu, göstəbək, meşə süleysini, meşə pişiyi, dələ, meşənin yuxarı sərhədlərində silə qış fəslində bu meşələrdə bəbirə də təsadüf edilir, çox ehtimal ki, bu heyvanlar vilayətə İran Respublikası ərazisindən daxil olur. Böyük Qafqaz ərazisində olduğu kimi bu ərazi üçün ən səciyyəvi heyvanlardan biri maraldır. XIX əsrin axırlarına qədər bölgə ərazisində maral müşahidə edilirdi.Sonuncu maral 1922-ci ildə ovlanmışdır. Orta dağlıq qurşaq üçün səciyyəvi olan qurşaqlardan yalançı bülbülü, meşə torağayını, şinəbubulu, bağrıqaranı və başqa quşları göstərmək olar. Dəniz səviyyəsindən 2000 m yüksəklikdəyerləşən ərazi heyvanlar aləminə görə yuxarıda səciyyələndirdiyimiz digər qurşağa nisbətən kasıbdır. Burada əsasən sürünənlər və gəmiricilər çoxdur. Gəmiricilərdən kor siçan, Kiçik Asiya qum siçanı, Satunin yereşəni,qayalıqlarda dağ siçovulu, sürünənlərdən gürzə, müxtəlif növlü kərtənkələlər yaşayır. Quşlardan isəboz kəkliyə, qırqovula, yapalağa və torağaya rast gəlinir. Ev heyvanlarından at, donqarlı öküz, inək, qoyun və keçi saxlanılır[8]. Lənkəran vilayətində suda-quruda yaşayanların öyrənilməsində S.Q.Qmelin (1773), E.Menetrie (1830), Qebel (1863), Q.İ.Radde (1867), K.M.Ber(1877), A.Kaznakov (1888), A.B.Şelkovnikov (1893), A.N.Kuçuçenko (1910), N.İ.Sobolevski (1929), D.Rəhimov (1954),

A.M.Ələkbərov (1978), Z.D.Vəliyeva (1975) və s. alimlər iştirak etmişlər. F.Darlinqtona(1966) görə ümumdünya suda-quruda yaşayanların beş yayılma xüsusiyyəti vardır. A.Ələkbərovun 1978 məlumatlarına görə Azərbaycanın müxtəlif coğrafi rayonlarında cəmi 57 növ müxtəlif sürünən aşkar edilmişdir. Onlardan 39 növü Lənkəran vilayətində də qeydə alınmışdır. Həmin məlumatlar göstərir ki, respublikamızın sürünən növlərinin 68,4%-inə Lənkəran vilayətində təsadüf edilir.

Su ehtiyatları. Azərbaycan əraisindən 8359çayaxır. Bunların 2056-sı Lənkəran fiziki-coğrafi vilayəti ərazisinə düşür. Bu çayların uzunluğu 10 km-dən az olan 1989 çay, 11 km-dən 50 km-dək 64 çay, 51 km-dən 100 km-ə qədər olan bir çay və 101 km-200 km-ə qədər uzunluğu olan 2 çay vardır. Bölgənin çay şəbəkəsi çox sıxdır. Hər km^2 əraziyə 0,84km çay düşür,bu da respublika səviyyəsindən3 dəfə çoxdur. M.İ.Lvoviçin təsnifatına görə Lənkəran fiziki-coğrafi vilayəti çayları başlıca olaraq yağış suları ilə qidalanan çaylar qrupuna aiddirlər. Çayların qidasının 55-75%-ni yağış suları təşkil edir. Yeraltı sular illik axımın 21-40%-i, qar suları isə 4-13%-i qədərdir [9]. S.H.Rüstəmov ərazi çaylarının su rejimində iki faza ayırır. M.Ə.Məmməmdova görə ərazi çaylarında yağış daşqınları orta hesabla 4-9 gün davam edir. Ən qısa müddətli daşqınlar cəmi bir neçə saat, ən uzunmüddətlilər isə 21 gün müşahidə olunur. S.H.Rüstəmov və R.M.Qaşqaya görə təbii vilayətin çaylarının suyu cod (6-9 mq–ekv) və çox coddur (>9 mq–ekv). Müasir dövrdə çaylara tərkibində müxtəlif çirkləndirici maddələr olan tullantı suları atılır və bu çay sularının keyfiyyətini kəskin pisləşdirir. Bununla əlaqədar suların keyfiyyətini yalnız təbii göstəricilərə görə qiymətləndirmək kifayət deyildir. Çirkləndiricilər çox müxtəlifdir: orqanoleptik parametrlər, toksik maddələr, mikrobioloji parametrlər və s.Hazırda çay sularının keyfiyyətinin ən yaxşı inteqral göstəricisi kimi bir sıra komponentləri eyni zamanda nəzərə alan kompleks təsnifatlar tətbiq olunur. Belə təsnifatlardan birini X.Mançaq və başqaları təklif etmişdir. Bu təsnifatı Lənkəran təbii vilayətinin dörd çayı üçün F.Ş.Əliyev tətbiq etmişdir. Lənkərançay (Sifidor məntəqəsində) və Təngərud çayı (Vaqo kəndində) təmiz, Viləşçay (Şıxlar kəndində) və İstisuçay (Alaşa kəndində) mülayim çirklənmiş kimi qiymətləndirmişlər [10].

Göllər. Lənkəran təbii vilayətində orqanogen göllərə rast gəlmək olur. Bu göllər Xəzər dənizi sahilində uzunsov formada yerləşirlər. Bunlar qumdan və çınqıldan ibarət olan xırda tirələr vasitəsi ilə dənizdən ayrılırlar. Yaxın vaxtlara qədər bu göllər dənizin bir hissəsi idilər və hazırda da dənizlə müəyyən qədər əlaqələri var. Buna baxmayaraq bu göllərin suyu müəyyən qədər şirindir. Bunun səbəbi yağıntıların çox olması və çayların bu göllərə axmasıdır. Lənkəran düzənliyində olan belə göllərə "murdov" deyilir. Bunların ən böyüyü Göyşaban, Cil, Zövlə, Kələdəhnə və s.dir. Lənkəran vilayətinin düzən hissəsində belə göllər bataqlıq xarakterli olur. Məsələn: Mahmudçala və Göytəpənin cənub şərqində olan bataqlıqlar.

Təbii fəlakətlər. Azərbaycanda sürüşmələri Y.V.Kozin, M.A.Qoşqay, M.D.Zairi, N.K.Kərimov, B.Ə.Budaqov, A.Ş.Qayıbov, F.S.Səndəliyev, N.A.Babaxanov, N.Ə.Paşayev və başqaları öyrənmişlər. Sürüşmələrin yayılmasını və intensivliyini əldə əsas tutaraq Azərbaycanın ərazisinin rayonlaşdırılması təklif olunur. B.Ə.Budaqovun təklif etdiyi rayonlaşdırmaya əsasən Azərbaycanı iki çox aktiv, dörd orta, iki aşağı dərəcəli sürüşmə rayonlarına bölür. B.Ə.Budaqovun rayonlaşdırılma prinsipinə əsasən seysmikliyi 8 balla səciyyələnən Talış dağlıq zonası Paleosen-Neogenin vulkanogen və vulkanogen-çökmə süxurlarından ibarət olub sürüşmələrin orta fəallıq dərəcəsi ilə təmsil olunur. Azərbaycan ərazisində sürüşmələr əsasən Böyük Qafqaz, Kiçik Qafqaz, Abşeron yarımadasında, Quba, Qusar, Dəvəçi, Siyəzən, Xızı, İsmayıllı və s. inzibati rayonlarında, Talış dağlarının dağətəyi və dağlıq sahələrində müşahidə olunur [11,12]. Sürüşmə hadisəsi Talış dağlıq zonasında qravitasion proseslərin geniş yayılmış formasıdır. Sürüşməyə başlıca olaraq süxur kütlələrinin və bloklarının yamacda dayağını itirməsi, süxurların nəmlənməsi, aşınma və s. nəticəsində onların fiziki vəziyyətinin dəyişilməsi və davamlılığının zəifləməsi səbəb olur. Burada başlıca şərt yamaclarda toplanmış kövrək çöküntülərin dabanında su keçirməyən layın olmasıdır. Qravitasion sürüşmə proseslərinin inkişafı üçün əlverişli şəraitin Talış dağları ərazisində yaranmasına səbəb kifayət qədər atmosfer yağıntılarının düşməsi və gil süxurlarının olmasıdır. Onlar Lənkəran vadisində, Burovarın şimal-şərq yamacının uzununa hissəsində, Yardımlı depressiyasında, Peştəsərin yamaclarında müşahidə edilir. Yardımlı çökəkliyinin cənub-qərb hissəsi, Lerik sinklinoriumu, Alaşar-Burovar silsiləsinin şimal-şərq hissəsi, Talış dağlarının suayrıcısına yaxın sahələr, Lənkərançay dərəsi sürüşmə prosesinin geniş yayıldığı ərazilərdir. Xəzər dənizi sahilində torpaq sürüşməsi sahildə dəniz dalğalarının abrazion fəaliyyəti ilə formalaşır. Sürüşmələrin, xüsusən səthi sürüşmələrin əmələ gəlməsi, inkişaf etməsində atmosfer

çöküntüləri, texniki və suvarma suları ilə qidalanan qurunt suları da mühüm rol oynayır. Yardımlı 15, Lerik 22, Lənkəranda 7, Astaranın isə 6 məntəqəsi daimi sürüşmə zonasına aiddir [13]. Bunlar Qarqulu, Zəhmətabad, Odraqan, Viləş, Ostayir, Gorana, Yelcək, Bozaryan, Ünəç, Sorus, Əlabad, Noda, Vəliçala, Şovu, Çayrud, Veri, Xanbulan, Pamarat, Türkoba, Burzubənt, Dilbənd və s. yaşayış məntəqələridir.

Ədəbiyyat materiallarının təhlili və aparılan araşdırmalar göstərir ki, Lənkəran fiziki-coğrafi vilayəti gec öyrənilməyə başlanılsa da ərazidə bir sıra fundamental tədqiqatlar həyata keçirilmişdir. Lakin müasir zamanda qlobal və regional miqyasda ətraf mühitə kəskin təsir göstərəcək proseslər sürətlənmişdir. Xüsusilə antropogen amillərin təsir miqyası və həcminin genişlənməsi bu proseslərdə önəmli rol oynayır. Müxtəlif istiqamətli tədqiqatların aparılması nəticəsində təbii ekosistemlərin genişmiqyaslı çirklənməsi müəyyən olunmuşdur. Bu hal Lənkəran fiziki-coğrafi vilayətindən də yan keçməmişdir. Burada əhalinin sayının sürətli artımı, kənd təsərrüfatının ekstensiv inkişafı və başqa faktorlar təbii ekosistemlərin ayrı-ayrı komponentlərinin çirklənməsinə gətirib çıxarmışdır. Məsələn, meşə massivlərinin qırılması, suların müxtəlif mənbələrdən çirkləndirilməsi və s. Bunlar isə öz növbəsində digər göstəricilərin pozulmasına gətirib çıxarmışdır. Bunu nəzərə alaraq hesab edirik ki, bölgədə yenə tədqiqatların aparılması zəruridir.

ƏDƏBIYYAT

1. M.A.Müseyibov, B.Ə.Budaqov, N.Ş. Şirinov Ümumi Geomorfologiya. Bakı: Bakı Dövlət Universiteti, 2012, 304 s.
2. M.A.Müseyibov Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarif, 1998, 400 s..
3. F.Ş.Əliyev Azərbaycan Respublikasının suvaılan ərazilərində yeraltı suların monitorinqi və onlardan istifadə, Bakı-1988, s.325.
4. Q.Ş.Məmmədov, M.Y. Xəlilov Azərbaycan meşələri "Elm" Bakı-2002 472 s.
5. S.Z.Məmmədova Azərbaycanın Lənkəran vilayəti torpaqlarının ekoloji qiymətləndirilməsi və monitorinqi. "Elm" Bakı-2006, 213 s.
6. Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Konstruktor texnoloji bürosunun elmi hesabatı. Lənkəran 2002.
7. A.A.Qurbanzadə Azərbaycanın kənd təsərrüfatı coğrafiyası. Bakı 2011,s.215.
8. Azərbaycanın ensiklopediyası. Fiziki coğrafiya.I cild. Bakı-2015,s. 395.
9. F.Məlikov, N.Qrozdetski "SSR-nin fiziki coğrafiyası Avropa hissəsi Qafqaz". Bakı 1990, 362 s.
10. T.Y.Məmmədli Azərbaycan ərazisinin zəif seysmikliyi və onun müasir geodinamika ilə əlaqəsi. Bakı. Təhsil.2010, 252 s.
11. N.A.Babaxanov, N.Ə.Paşayev Təbii fəlakətlərin iqtisai və sosial-coğrafi öyrənilməsi. Bakı "ELM"2004,s.199.
12. F.Ə. İmanov Hidroloji hesablamalar. Bakı-2011, s.264.
13. www.apa.az.

Xülasə: Təqdim olunan məqalədə Lənkəran təbii vilayətinin öyrənilmə tarixi, vilayətin geoloji quruluşu, tektonikası, oroqrafiyası və s. nin öyrənilməsində hansı alimlərin tədqiqat apardığı, aparılan tədqiqatların istiqaməti və nəticələrinin qısa şəkildə təhlili verilmiş və əsaslı elmi nəticələr öz əksini tapmışdır.

Summary: The presented article reflects the substantial scientific results and a brief analysis of the directions and results, the studies carried out in the study of the history of the Lankaran natural region, its geological structure, tectonics, orography, and so on, which scientists were engaged in research on this field.

Açar sözlər: Lənkəran təbii vilayəti, tədqiqat, kontinent, transqresiya, bitki örtüyü, iqlimin komfortluluğu

Keywords: Lankaran natural region, research, continent, transgression, vegetation cover, climate comfort

QOŞQARDAĞ FİLİZ SAHƏSİNİN TEKTONİK QURLUŞU

ELNUR İBİŞ OĞLU SƏFƏROV
Bakı Dövlət Universiteti
elnur_pasha@bk.ru

Murovdağ antiklinoriumunun şimal-qərb batımında yerləşən Qoşqardağ filiz sahəsinin geoloji quruluşu haqqında məlumatlar Ə.Ş.Şıxəlibəyli, R.N.Abdullayev, T.Ab.Həsənov və başqalarının tədqiqatlarında öz əksini tapmışdır. Qoşqardağ filiz sahəsində qırışıqlıq strukturlarından başqa, uzununa və eninə istiqamətli qırılma pozulmaları da geniş inkişaf tapmışdır. Bunlara missal olaraq Murovdağ qırılıb-qalxma üstəgəlməsi, Alxançallı və Çanaxcı qırılmalarını göstərmək olar.Murovdağ qırılması haqqında ilk məlumatlar K.N.Paffenhols (1929) tərəfindən verilmişdir. Onun fikrincə həmin qırılma Türkiyədən başlayaraq, fasilələrlə Azərbaycan ərazisində Araz çayına qədər davam edir. Sonralar bu qırılma haqqında məlumat verən R.N.Abdullayev (1947) onu Kiçik Qafqaz üstəgəlməsi, Ə.Ş.Şıxəlibəyli (1966) isə Murovdağ üstəgəlməsi adlandırılmışdır. T.Ab.Həsənovun fikirincə, bu struktur heç də hər yerdə üstəgəlmə xarakteri daşımır və şimal-qərb istiqamətində tez-tez özünü normal qırılıb-qalxma kimi aparır. Bu səbəbdəndə bu struktur üçün «Murovdağ qırılıb-qalxma üstəgəlməsi» termini işlətmişdir. Bu qırılmanın ən böyuk əhəmiyyəti, onun geotektonik inkişaf tarixinə görə fərqli olan Löh-Qarabağ və Göyçə-Həkərə struktur formasion zonalarını bir-birindən ayırmasıdır[1,2].

Qırılıb-düşmə xüsusiyyəti daşıyan Alaxançallı qırılması şimal-qərb istiqamətində paralelə yaxın uzanmaya və şimal-şərqə doğru 75-85^0 bucaq altında düşümə malikdir. Alaxançallı qırılması boyunca Böyük və Balaca Qoşqarçayların birləşdiyi sahədə tektonik blok formasında ultraəsasi süxurlar yer səthinə çıxır və onun asılı yanına qabbro-diorit intruziyasının layvari çıxışları söykənir. Bu qırılma iki müxtəlif struktur olan Murovdağ antiklinoriumunu və Daşkəsən sinklinoriumunu bir-birindən ayırır.

Ərazidə yuxarıda göstərilən dərinlik qırılmalarından başqa, müxtəlif istiqamətli yerli qırılmalar da kifayət qədər inkişaf etmişdir. Bunlardan ən əhəmiyyətlisi Qoşqarçay meridional qırılmasıdır.Bu qırılma ilk dəfə R.A.Fətəliyev və A.A.İbrahimov tərəfindən qeyd olunmuşdur (1986). Bu qırılma Qoşqarçay çay boyunca yerləşərək Ocaqdağ silsiləsinə qədər uzanır. Qırılma pozulmaları dəyişmiş süxurların çıxışları ilə əks olunur.Yaşlarna görə eninə və en dairəsinə yaxın isiqamətli qırılmalar qədim, meridionalayaxın istiqamətli qırılmalar isə onlara nisbətən cavan yaşlıdırlar. Həmin sahələrdə eninə və en dairəsinə yaxın istiqamətli qırılmaların meridionala yaxın qırılmalarla kəsildiyi və müxtəlif amplitudalarla müxtəliif istiqamətlərdə sürüşmüş olduğu aydın görünür. Alaxançallı eninə və Balaca Qoşqarçay meridionalayaxın uzanmaya malik qırılmaların kəsişmə sahəsində Qoşqarçay mis-porofir təzahürü və eyni adlı intruziv süxurlar kompleksi yerləşmişdir.

Şərqdən Şəmkir antiklinorisini Daşkəsən sinklinorisindən ayıran Xanlar-Xoşbulaq eninə dərinlik qırılması, cənub-qərb istiqamətində Qoşqardağdan keçməklə Qoşqarçay filiz sahəsinin (Qoşqarçay yatağı və Qoşqardağ təzahürü arasında) mərkəzi hissəsindən keçən əraziləri əhatə edir. Ə.Ş.Şıxəlibəyli bu struktur haqqındaqeyd etmişdir ki, struktur batın əvvəlində baş vermişdir və Şəmkir-Göy-göl geoantiklinallarının sərhədləndirilməsində iştirak etmişdir[3].

Murovdağ-Zod eninə dərinlik qırılması Murovdağın zirvəsindən keçməklə şimal-şərq istiqamə-tində Tourağaçaya tərəf istiqamətlənir və Murovdağ antiklinorisinin cənub-qərb qanadında pilləvari düşüşlə xarakterizə olunur. Bu qırılmaya bir sıra qranitoid intruziyasının çıxışları uyğunlaşmışdır.

Yuxarıda qeyd olunan regional əhəmiyyətli qırılmalarla yanaşı çoxsaylı kiçik tərtibli qırılmalarda iştirak edir. Qırılmalar şimal-qərb meridionalayaxın və meridional, şimal-şərq, enəyaxın və eninə istiqamətə malikdirlər. Şimal-qərb, meridionalayaxın və meridional istiqamətli qırılmalar qədim yaşlıdırlar və onların yaşı yura və yuraya qədər qəbul olunmuşdur.

Şimal-şərq, enəyaxın və eninə qırılmalar nisbətən qədim yaşlıdırlar və yaşları tabaşir və qismən də paleogen qəbul olunmuşdur. Onlar genetik cəhətcə atılma, atılıb-düşmə, üstəgəlmə və atılıb-üstəgəlmə və yerdəyişmə tiplərinə bölünürlər. Adətən qırılma zonaları süxurların intensiv çatlılığı, bəzən əzilməsi və həmçinin hidrotermal-dəyişilmələri ilə xarakterizə olunurlar.

Şimalı-Murovdağ atılması (T.Ab. Həsənova görə Qalakənd-Çanaxcı) bayos çöküntüləri üzrə (və ya Somxito-Ağdam struktur-formasiyon zonasının şimal və cənub sərhədləri üzrə) cənub-qərb istiqamətində (bütün sahə üzrə) Tourağaçayın mənbəyindən keçməklə izlənilir.Şimal istiqamətində yerləşir və yatımı sərtdir. Yanşaq-Göy-göl atılması aerofotoşəkillərdə yaxşı deşifrə olunur baxmayaraq ki görünüş çox zəifdir və qismən açılışlarla əks olunmuşdur.

Atılma və fleksura ilə təmsil olunan ərazidə şimal-şərq, enəyaxın və eninə qırlmalar gəks olunmuşdur. Onlar səthdə əzilmiş süxurlarlara və adətən hidrotermal-dəyişilmələrlə tamamlanmış 50-100 m-dən (Qoşqardağ) 2 km-ə qədər (Buzluğ) enində zolaqla xarakterizə olunur. Əksər hallarda bu qırılmalar da ümumiqafqaz istiqamətli qırılmalar kimi örtülmüşdür və açılışlarda pis qeyd olunurlar. Bu halda onlar ya layların fleksuravari əyilmələri ilə xarakterizə olunurlar, ya da vulkanitlər üzrə keçərək deformasiyaya pis məruz qalırlar. Əsas eninə regional fleksura-atılmalar Qoşqardağda, Cəmilli-Bulağ-Qızılarxac təzahürlərində, Murovdağ dağı rayonunda, Qoşqarçay yatağında qeyd olunurlar. Onlar səthdə həm filiz sahəsi daxilində, həm də ondan kənarda qırılma seriyaları ilə əks olunmuşlar[4,5].

Qoşqardağ filiz sahəsi və ona yaxın ərazilər intruziv və effuziv maqmatizimin intensiv fəaliyyəti ilə xarakterizə olunur. Ərazinin əsas struktur elementi sayılan Murovdağ antiklinoriumu Alp geosinklinal rejiminin ilk mərhələsində inkişaf tapmış bayos yaşlı bazalt-andezit-diorit formasiyasının məhsullarından təşkil olunmuşdur. Qoşqardağ filiz sahəsinin hüdudlarında isə əsasən alt bayos bazalt-andezit subformasiyasının süxurları yayılmışdır. Alt bayos yaşlı süxurlar kompleksi içərisində qeyd olunan bazalt, andezit-bazalt tərkibli lava axınlarında kürəvi ayrılmalar müşahidə olunur.

Qeyd etmək azımdır ki, qızıla perspektivliyi hesab edilən Şərqi Qoşqardağ təzahürü və qızıl minerallaşması daşıyan digər dəyişmə zonaları eninə və meridionalayaxın istiqamətli uzanmaya malik olan qırılmaların kəsişdiyi sahələrdə yerləşirlər. Kəsişmə sahələrinin əksəriyyətində qızılın və gümüşün miqdarının yüksək olduğu müşahidə olunur.

Yuxarıda qeyd olunanlardan aşağıdakı nəticələrə gəlmək olar.

1. Qoşqardağ filiz sahəsi tektonik cəhətdən Murovdağ antiklinoriumunun şimal-qərb batımı hissəsində yerləşir. Qoşqardağ filiz sahəsində qırışıqlıq strukturlarından başqa, uzununa və eninə istiqamətli qırılma pozulmaları da geniş inkişaf tapmışdır.

2. Murovdağ üstəgəlməsinin ən böyuk əhəmiyyəti, onun geotektonik inkişaf tarixinə görə fərqli olan Löh-Qarabağ və Göyçə-Həkərə struktur formasion zonalarını bir-birindən ayırmasıdır.

3. Alaxançallı qırılması boyunca Böyük və Balaca Qoşqarçayların birləşdiyi sahədə tektonik blok formasında ultraəsasi süxurlar yer səthinə çıxır və onun asılı yanına qabbro-diorit intruziyasının layvari çıxışları söykənir

4. Əsas eninə regional fleksura-atılmalar Qoşqardağda, Cəmilli-Bulağ-Qızılarxac təzahürlərində, Murovdağ dağı rayonunda, Qoşqarçay yatağında qeyd olunurlar. Onlar səthdə həm filiz sahəsi daxilində, həm də ondan kənarda qırılma seriyaları ilə əks olunmuşlar.

ƏDƏBİYYAT

1. Абдуллаев Р.Н., Рустамов М.И., Мустафаев Г.В., Основные черты магматизма Азербайджана, Баку, 1981. 230с.
2. Баба-заде В.М., Мамедов М.Н., Рамазанов В.Г., Имамвердиев Н.А., Мансуров М.И. и др.Петролого-геохимические сособенности фомрированияпикритов и пикробазальтовМуровдагскогоантиклинория (Малый Кавказ).//Вестник Бакинского Университета. 2008, № 1, с.105-116.
Traits	*Triticum aestivum* ♀ Parent	*Aegilops markgrafii* ♂ Parent	F_1 hybrid
	Average	*Average*	*Average*
Plant height, cm	141	47	92
Spike length, cm	15	16.5	17
Flag leaf length, cm	31	6	17
Peduncle length, cm	22	5	15
Wax	+	-	-
Plant shape	dressed	rosette	rosette

Cytogenetic study of meiosis in F_1 was carried out according to the standard methods. Pollen mother cells (PMCs) for studies of meiotic chromosome behavior were prepared by means of the standard Carnoy fixative and acetocarmine squash method. During the meiosis process in F_1 plants observed 28 chromosomes, as expected. There were approximatedly 3 ring, 6 rod bivalents and 10 univalents. In crosses *Ae. markgrafii* with *T. aestivum*, about 2 bivalents were found by Muramutsu (1959), Riley and Law (1965) and Upadhya (1966), while Kihara and Lilienfeld (1935) detected about 4 bivalents with 0-2 trivalents [7,9,11,14].

Upathya (1966) reported that particular genotypes of *Ae. caudata* may increase chromosome pairing in hybrids with *T. aestivum*. The low value of bivalents in the hybrid indicates that the three genomes of this hybrid are not related to each other as was expected, since *Ae. caudata* brings the C genome and *T. aestivum* the A, B and D genomes.

SUMMARY

This article deals about information of hubrid plant derived between bread wheat line 172ACS and *Ae. markgrafii*, which is resistant to the adverse environmental conditions, various disease and pest resistance.

Key words: *Ae.markgrafii* L., *T. aestivum* L.,*intergeneric hybridization, hybrid plant, meiosis.*

XÜLASƏ

Bu məqalədə ətraf mühitin əlverişsiz şəraitinə, müxtəlif xəstəliklərə və zərərvericilərə davamlı olan *Ae. markgrafii* -nin yumşaq buğdanın 172ACS xətti ilə cinsarası hibridlərinin alınmasından bəhs edilir.

REFERENCES

1. N. Əminov, A. Əliyeva (2012) *Aegilops* L. və *Triticu*m L. cinsləri arasinda qarşılıqlı genetik münasibətlər. Bakı, səh.94-95
2. B.Friebe, J.Jiang, W.Raupp, R.McIntosh, B.Gill (1996) Characterization of wheat–alien translocations conferring resistance to diseases and pests: current status. Euphytica 91: 59–87;
3. B.S.Gill, H.C.Sharma, W.J.Raupp (1985) Evaluation of Aegilops species for resistance to wheat powdery mildew, wheat leaf rust, hessian fly, and greenbug. Plant Dis. 69, 314–316;
4. E.R.Sears (1956) The transfer of leaf rust resistance from *Aegilops umbellulata* to wheat. Brookhaven Symp. Biol., p. 1–21
5. F.Baldauf, V.Schubert, M. Metzlaff (1992) Repeated DNA sequences of *Aegilops markgrafii* (Greuter) Hammer var. markgrafii: cloning, sequencing and analysis of distribution in Poaceae species. Hereditas, p. 71–78.
6. G.Wenping, R.Han, Li.Haosheng, J.Song (2017) Agronomic Traits and Molecular Marker Identification of Wheat–*Aegilops caudate* Addition Lines;
7. H.Kihara and F.Lilienfeld (1935) Genom.analysis between Triticum und Aegilops. VI: Weitere Untersuchungen. Cytologia 6, 195—216;
8. J.Valkoun, K.Hammer, D.Kucerova, P.Bartos (1985). Disease resistance in the genus Aegilops L.-stem rust, leaf rust, stripe rust, powdery mildew. Kulturpflanze 33, 133–153;
9. M.Muramatsu (1959) Homology of chromosomes of Ae. caudata with common wheat. Wheat Inf. Serv. 9-10, 32-33
10. M.W.Van Slageren (1994) Wild wheats: a monograph of Aegilops L. and Amblyopyrum (Jaub. & Spach) Eig (Poaceae): a revision of all taxa closely related to wheat, excluding wild Triticum species, with notes on other genera in the tribe Triticcae, especially Triticum, Wageningen, The Netherlands: Wageningen Agricultural University Papers
11. M.D.Upadhya, (1966) Altered potencv of chromosome 5B in wheat-caudata hybrids. Wheat Inf. Serv. 22, 7—9.
12. N. Iqbal, F.Eticha, E.Khlestkina, A.Weidner, M.Roder, A.Borner (2007) The use of simple sequence repeat (SSR) markers to identify and map alien segments carrying genes for effective resistance to leaf rust in bread wheat. Plant Genetic Resources: Characterization and Utilization, 5(2):100–103;
13. P.L.Dyck, E.R.Kerber, J.W.Martens (1990) Transfer of a gene for stem rust resistance from *Aegilops caudata* to common wheat. Can.J. Plant Sci. 70l, 931–934;
14. R Rilev, and G. N. Law, (1965) Genetic variation in chromosome pairing. Adv. Genet. 13, 57—114.

NƏQLİYYAT SEKTORUNDA TƏHLÜKƏSİZLİYİN TƏMİNİ MƏSƏLƏLƏRİ

MƏMMƏDLI RƏŞAD ŞÖHRƏT OĞLU
Fövqəladə Hallar Nazirliyinin Akademiyası.
AZ 1089, Bakı ş. Suraxanı r., Hövsan qəs., E. Qasımov küç., 8
E-mail: r_mammadli@list.ru

Xülasə: Məqalədə fövqəladə halların növləri və baş vermə səbəblərinin geniş şərhi verilir, nəticələri göstərilir, fövqəladə hallar zamanı nəqliyyat sistemindəki qəza, bədbəxt hadisələr və fəlakətin statistik uçotu, təhlükəli nəqliyyat obyektləri kompleksində fövqəladə halların təsirindən qurtarmaq üçün profilaktik tədbirlər və s. təhlili verilir.

Açar sözlər: texnogen faktorlar, psixoloji dayanıqsızlıq, qlobal fövqəladə hallar, hidrodinamik qəzalar, məqsədli diversiya, piratçılıq, qeyri-adekvat əxlaq.

Аннотация: В статье приводятся широкие описания типов и причин возникновения чрезвычайных ситуаций, отображаются их последствия. Анализируются статистический учет катастроф, несчастных случаев и аварий в транспортной системе во время чрезвычайных ситуаций, а также рассматриваются меры для избегания от последствий чрезвычайных ситуаций в комплексе опасных транспортных объектов и т.д.

Ключевые слова: техногенные факторы, психологическая неустойчивость, глобальные чрезвычайные ситуации, гидродинамические аварии, предумышленная диверсия, пиратство, неадекватная мораль.

Summary: In this article are resulted wide descriptions of types and the reasons of occurrence of emergency situations, displayed their consequences. The statistical account of accidents and failures in transport system are analyzed during emergency situations, and also considered measures for avoiding from consequences of emergency situations in a complex of dangerous transport objects etc.

Key words: technogenic factors, psychological instability, global emergency situations, hydrodynamic failures, premeditated diversion, a piracy, inadequate morals.

Nəqliyyatda həyat fəaliyyətinin təhlükəsizliyinə ancaq təbii və texnoqen faktorlar təsir etmir, həm də qeyri-hərbi fövqəladə hallar da təsir göstərir. Fövqəladə hadisə- müəyyən ərazidə qəza nəticəsində, təbii fəlakətin baş verdiyi hallarda, faciəli vəziyyətdə, qarşısı alına bilməyən hadisələr və s. hallarında, insanların kütləvi məhvi və sağlamlığa əks təsirin yarandığı, ətraf mühitə dağıdıcı təsir hallarına səbəb olan hadisələrin baş verdiyi və bu kimi şərait başa düşülür.

Nəqliyyat müəssisələrində istehsalat qəzalarının baş verməsi fövqəladə hal hesab olunur və belə hadisələrin yaranmasına əsasən obyektlərdəki işin texnoloji xarakteri, nəqliyyat vasitələrinin texniki vəziyyəti, işçilərin psixoloji dayanıqsızlığı, peşəkarlıq dərəcəsinin az olması, müəssisənin yerləşdirilməsində normativlərin pozulması (sosil-məişət və yaşayış zonası arasındakı məsafələrin normalara uyğun olmaması), mühafizə qurğularının olmaması səbəb olur.[3]

Dövlətlərarası fövqəladə hallar bir neçə dövlət ərazisində yayılır, burada əsasən dövlətlərarası hərbi konfliktlər baş verir, ölkə daxilindəki FH bütün ölkəni əhatə edir, buna səbəb münaqişəli ərazi sahəsi, müxtəlif etnik çəkişmələr və ya siyasi partiyalar vəqrupların hakimiyyətə keçmək uğrundakı mübarizələridir, yerli FH şəhər və ya yaşayış məntəqəsinin ərazisini əhatə edir, bu əsasən zəlzələ, suyun basması və qasırğa zamanı müşahidə olunur, belə FH texnogen qəzalar, dəmir yolu ilə təhlükəli kimyəvi yüklərin daşınması zamanı dəmir yolunun dağılması hallarında (evakuasiya lazım gəldiyi halda) müşahidə olunur, obyektlərarası FH isə konkret obyektlərdə baş verir. Nəqliyyat qəzaları, stasionar mənbələrdəki partlayışlar və s.- gözlənilməyən FH-dir. Yanğının baş verməsi və yayılması, hidrodinamik qəzalar və s. tələsik baş verən FH-dir (burada insan və xüsusi materialların ani vaxtda xilası əhəmiyyət kəsb edir). Mülayim FH-lər tədricən təsir etdiyindən onu proqnozlaşdırmaq və nəzarətdə saxlamaq olur (məs., suyun basması, vulkan püskürməsi, daşqın hallarında). Quraqlıq, epidemiyanın yayılması, təmizləyici qurğuların qəzası və s. ətraf mühütə tədricən zərər verdiyindən səlis FH –yə aid edilir.

Ona görə də dövlət səviyyəsində FH –in qarşısının alınması məqsədi ilə xüsusi xidmət təşkilatının məqsədi ilə yaradılmış Dövlət sisteminin qarşısında aşağıdakı məqsədlər qoyuldu: fövqəladə hallarda bütün ölkə ərazisində insanların sağlamığı və həyatının, maddi dəyərlərin və ətraf mühitin mühafizəsi üçün iqtisadi və hüquqi cəhətdən təmin edəcək siyasətinin həyata keçirilməsi; ümumdövlət

və ərazi üçün uzunmüddətli-məqsədli proqramın işlənməsi və həyata keçirilməsinin təmin edilməsi; təbiət hadisələri və təhlükəli obyektlərin vəziyyətinə etibarlı nəzarətin təmini; müxtəlif fəlakətlərin baş verməsi mümkünlüyünün və təhlükəli obyektlərin üzə çıxarılması və proqnozlaşdırılması; təhlükəsizlik normalarına cavab verməyən istehsalat sahələrinin yenidən bərpası (işlənməsi) və ya bağlanması üçün lazımi ölçünün götürülməsi; fövqəladə hallara təsir edə biləcək vasitə, güc vəidarə sisteminin yüksək hazırlığının təmini; fövqəladə halların aradan qaldırılması üzrə axtarış- xilasetmə, qəza-bərpaedici və s. təxirəsalınmaz işlərin həyata keçirilməsi.

1960-1980-cı illərdə ölkəmizdə terrorizm yox dərəcəsində idi. 1988-ci ildən etibarən ermənilərin siyasi ambisiyası və ərazi zəbt etmək xülyası nəticəsində Respublikamızda terrorizm hadisələri geniş vüsət aldı, qanunsuz silahlanma, qeyri-qanuni silahlı dəstələr yarandı, oğurluq, quldurluq hadisələri baş verdi. Xarici ölkələrdən resursunu başa vurmuş avtomillər axını ölkəyə daxil oldu, avtomobil qəzalarının sayı artı, ölən və yaralananlaın sayı intensiv olaraq artdı. Dini- sektant qruplar, fundamentalist meyllər təzahür etdi, öldürmə, qəsd etmə halları, metroda və avtobuslarda partlayışlar və bu kimi hadisələr adi hala çevrildi.

1999-cu ildən etibarən terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunları (18 iyun 1999-cu ildən başlayaraq) qəbul olundu, terrorizmə qarşı Beynəlxalq sazişlərə qoşulduq və s. Terrorizmin müxtəlif növləri arasında nəqliyyat terrorizmi də xüsusi yer tutur. Dəmir yolu, təyyarə və avtomobillərdə partlayıcı qurğular yerləşdirilməsi, qaz və neft qovşaqlarında partlayışlar törədilməsi, məqsədli diversiya (təxribat) halları baş verir. Nəqliyyat obyektlərinin əksəriyyəti terrorist və təxribatçılar üçün strateji vacib və potensial təhlükəli sahələr hesab olunur. Nəqliyyat daşımalarında təhlükəli yüklərin daşınması da terrorizmdən mühafizə olunmalıdır. Dünyada piratçılıq (dəniz quldurluğu) və gəmilərin zəbt olunması hallarına qarşı mübarizə ən çətin məsələlərdəndir və onunla mübarizə ölkələr üçün böyük problem sayılır. Piratçılıq ən çox 1991- 2001-ci illərdə baş vermişdir.

Aviasiyada terrorizm hadisələri daha çox olur, təkcə 2001-ci ildə Rusiyada 180 belə (hava nəqliyyatında) aktlar baş vermişdir. Təyyarələrin qaçırılmasında iştirak edən terroristlərin cəzalandırılması kəskinlik dərəcəsinə görə müxtəlif ölkələrdə müxtəlifdir, məsələn, Fransa, İsveç, Hollandiya və Almaniyada 10 ildən çox, ABŞ-da 20 il, Kanadada isə ömürlük həbs nəzərdə tutulur.19 yanvar 2003-cü ildən Avropa ölkələrində aviasiyada təhlükəsizlik üzrə Avropa sisteminin ümumi Qanununun yeni reqlamenti (2320 / 2002) fəaliyyətdədir.

2001-ci ildə dünya aviasiyası kompaniyasının ümumi itkisi 11 milyard dollar, 2002 -ci ildə isə 7-8 milyard dollar olmuşdur. 2001-ci ildə (11 sentyabr 2001-ci il hadisəsinə görə) Amerika aviasiya kompaniyasının itkisi 8 milyard dollar olmuşdur. ABŞ milli aviasiyasındakı krizis ümummilli problem kimi hələ də qalmaqdadır.[5]

Avtomobil nəqliyyatındakı terrorizm təhlükəsi əsasən sərnişin daşıması obyektlərində gözlənilir: avtovağzal, avtostansiya, dayanacaq məntəqələri və bu kimi əhalinin sıx olduğu yerlərdə gözlənilir. Bununla əlaqədar olaraq hər bir avtonəqliyyat texnoloji məntəqəsində (avtomobilin yola salınması, salonun yığışdırılması, yuyulması, mühafizəsi, xəttə buraxılması və s.) məsul şəxs olmalıdır. Nəqliyyatda işləyən sürücü, kondukror, dispetçer, nəzarət – buraxma məntəqəsi mexaniki və digərləri xüsusi təlim keçməli və nəzarəti gücləndirməlidir. Avtomobil dayanacaqları və doldurma məntəqələri tam işıqlı olmalıdır. Müəssisədə yanğından mühafizə drujinası olmalıdır, avtomobildəki yanğından mühafizə vasitələrinin sazlığı yoxlanmalıdır. Nəqliyyat Nazirliyindəki federal xidmət qrupu müəssisəni yeni təlimatlarla təmin etməli və vaxtaşırı nəzarət keçirməlidir.

Avtonəqliyyatda da kriminal hadisələr çoxalmışdır – sürücülərə xətər yetirilir, avtomobillər qaçırılır, avtomobillərlə narkotik maddələr daşınır, avtomobillər oğurlanır, onların aqreqat və hissələri sökülərək satılır və s. Avtomobilin qaçırılmasına görə həbs müddəti 3 – 6 aydan 3 – 5 ilə qədər nəzərdə tulur və artırılacağı da gözlənilir.

Nəqliyyatda həyat fəaliyyətinin təhlükəsizliyi müəyyən dərəcədə psixi faktorlardan da asılıdır. Psixi faktorlar- insanın fəaliyyəti və əxlaqına təsir edən faktorlar (düşüncə, diqqət, sərbəstlik, qıcıqlandırma, emosiya və s.) başa düşülür. İnsanın həyatına təsir edən psixi faktorlar yığımı onun şəxsiyyəti anlayışını əmələ gətirir. İstənilən psixi faktorun yayınması şəxsiyyətin qeyri- adekvat əxlaqına səbəb olur. Əksər insanın psixikasının ən çox pozulma halı sosial – siyasi və iqtisadi çevriliş

dövrünə təsadüf edir. Bu zaman insanlar yaxın gələcəyə belə ümidini itirir, həyəcanı artır, yəni psixoloji balansı pozulur, informasiya stresləri keçirir. Uzunmüddətli streslər isə insanda müxtəlif xəstəliklərə səbəb olur. Stres hallarında əksər insan öz hərəkətini cilovlaya bilmir və hətta hadisə törədir. Stres və emosional hallar insanın vaxtından əvvəl məhvinə səbəb olur. Kəskin stres keçirən insan özünü də öldürə bilər. Özünəqəsdlə ölüm halları aclıqdan ölənlərdən sonra ikinci yeri tutur. 20-ci əsrin 80-ci illərinin hesabatına görə SSRİ-də hər bir milyon adama düşən özunəqəsd - 300, Finlandiyada -260, Yaponyada -190, İsveçdə -180, Kanadada -140, ABŞ –da 120, İtalyada – 80 ədəd olmuşdur. Maraqlıdır ki, Rusiyada 1917-ci ilə qədər bu rəqəm (hər bir milyon adama görə) 30 – 40 adam olmuşdur.[4]

Müəyyən hallarda özünəqəsd məqsədi ilə insanlar özünü avtomobil altına atmağa çalışır və bu zaman nəqliyyat hadisəsi baş verir, sürücü və sərnişinlər üçün təhlükə yaranır. Sürücü ani halda hadisədən qaçmağa səy göstərir və daha ağır hadisə törədə bilir- o, saniyyə ərzində qərar qəbul edir: ya kəskin tormozlamalı, ya da hərəkət trayektoriyasını dəyişməli. Birinci halda, sürücü və sərnişinlər zədə ala bilər, avtomobil isə hərəkət istiqamətini dəyişər (yana sürüşər). İkinci halda avtomobil yana qaçırdılır, səkiyə qalxır, ya da əks hərəkət xəttinə çıxır, avtomobil aşa bilər, piyadanı vurar, qarşıdakı avtomobillə toqquşar, dirək və ya maniələrə çırpıla biər, nəhayət, insan həyatına, sağlamlığına xətər yetirə bilər, lakin sürücünün psixoloji durumu normaldırsa hadisə zamı ən səmərəli variant seçə bilir və xətanın sovuşmasına səbəb ola bilir.[6]

Təhlükəli hallarda psixi faktorların təsirindən gözlənilməyən hallar baş verir. Sürücü psixofiziolji vəziyyətin qeyri- normal halında əvvəlcədən vəziyyəti qiymətləndirə bilmir və onun bu hadisəyə hazır olmadığına görə nəticənin xətası böyük olur. Sürücü heç vaxt nəzarəti itirməməlidir və ayıq olmalıdır. Nəqliyyat müəssisəsində (zavod, TX və s. şöbə və sexlərində) işləyən hər bir insanın psixofizioloji durumu normaları aşmamalıdır. Stres, xəstəlik, iş yerindəki qeyri – normal şərait, sərxoşluq, özünə qapılmaq, qeyri- peşəkarlıq, iş zamanı kənardan maneçilik və s. hadisələrin baş verməsinə səbəb ola bilir. Avtonəqliyyatdakı təhlükəli hadisələrin əksəriyyəti spirtli içkilər və narkotik maddələrin təsirindən baş verir. Siyasi nümayişlərdə iştirak edənlər (problemini həll edə bilmədiyindən), azarkeşlər (komandası uduzduqda) psixi müvazinətini cilovlaya bilmir, nəqliyyat vasitələrini aşırır və ya yandırırlar. Gənc sərnişinlərin bəzisi xuliqanlıq edir, gur musiqi səsləndirir, ucadan danışır, oturacaqları zədələyir, işıqlandırma avadanlıqlarını sıradan çıxarır və bu kimi hərəkətləri ilə sürücü və sərnişinlərin psixofizioloji vəziyyətinə əks təsir göstərir. Ona görə də hazırlanır və bu proqramlar insanların depressiyası, stresi, psixofizioloji vəziyyətinin mühavizəsinə xidmət etmək üçün tətbiq olunur.[1]

Nəqliyyat təhlükəsizliyinin təmini əsasən dövlətin federal, ərazi və yerlərdə fəaliyyət göstərən təşkilatlarından asılı olur. Son on illər ərzində ölkəmizdə avtomobillər sayının artması yol hərəkətində intensivliyin artmasina səbəb olmuşdur ki, bu da tıxacların yaranmasına, həyat və sağlamlığın zəifləməsinə, ətraf mühitin təhlükəsizliyinə təsir göstərir.

Respublikada avtomobil və dəmiryol nəqliyyatı probleminin həlli qənaətbəxş deyildir, yeni yolların inşası çox gec gedir, yollar nəqliyyat vasitələri sayı və axınına uyğun deyil, yolların keyfiyyəti standartlara cavab vermir, avtomobil qəzalarının sayı da durmadan artır. Ölkəyə çoxsaylı avtomillər daxil olur ki, bunların da əksəriyyəti köhnədir və ekoloji tələblərə cavab vermir. Bunların hamısı dövlət nəzarətindədir və xüsusi tədbirlər görülür, YHQ-nın pozulması hallarına qarşı və Beynəxalq daşıma normalarının pozulması ilə əlaqədar cəzalar tətbiq edilir, cərimələrin miqdarı vaxtaşırı artırılır və s.

Nəqliyyatda həyat fəaliyyətinin təhlükəsizliyi üzrə dövlət və idarə nəzarətinə aşağıdakılar daxildir: nəqliyyat vasitələri və müxtəlif növ stasionar avadanlıqların texniki vəziyyəti; təhlükəsizliyə təsir göstərə biləcək qovşaq və aqreqatlara malik nəqliyyat vasitələrinin texniki qulluq təmirinin keyfiyyəti; ətraf mühitin mühafizəsi baxımından nəqliyyatda təbiətin qorunması proqramı; sürücü tərkibi hazırlığının təşkili və səviyyəsi; nəqliyyat-yol qovşağı, yol örtüyü, üfüqi və şaquli yolların nişanlanması, yol nişanlarının düzgün qoyulması və s.[2]

Nəqliyyatda dövlət nəzarətinin ümumi sistemində ən vacib məsələ NV –nin texniki vəziyyətinə nəzarət hesab olunur. Bu məqsədlə avtomobil nəqliyyatında avtomobil və onun qoşqularına dövlət texniki baxışı icra olunur. Texniki baxış zamanı nəqliyyatda təhlükəsizlik normativlərinə uyğunluq prosesləri yoxlanılır.

Nəqliyyatın inkişafı sahəsində dövlət nizamlamasının əsas istiqamətləri bunlardır: nəqliyyatın müasir normativ- hüquqi bazasının işlənməsi (burada ən aktualı Avropa iqtisadi birliyində mövcud olan hüquqi normalara yaxınlaşmaqdır); nəqliyyatda xüsusi sahibkarlığın inkişafı üçün iqtisadi şəraitin yaradılması; nəqliyyat və onun ayrı-ayrı növlərinin yeni idarəetmə sisteminin yaradılması; ən vacib nəqliyyat fəaliyyətinə məqsədli dövlət yardımının təşkili; nəqliyyat sahələri üçün kadr hazırlığının təmin edilməsi; təbiətin mühafizəsi tədbirlərinin həyata keçirilməsinə nəqliyyat təşkilatlarının maraqlandırılması.

Avtomobil nəqliyyatında baş verən qəzaların azaldılması məqsədi ilə (xarici ölkələrin bu sahədəki təcrübələrini nəzərə almaqla) ölkəmizdə avtonəqliyyat vasitələrinin təhlükəsizliyinin informasiyalı- analitik təmini sisteminin yaradıması məsələsi həll olunur. Bu sistem avtonəqliyyat vasitələrinin qəbul olunmuş tələblərə cavab vermədiyi haqqında informasiya axını toplamağı, sərnişin və yük daşımasını lisenziyalaşdırmağı, YNH-ni təhlil etməyi və s. həll etməlidir.[3]

Avtonəqliyyat vasitələrinin təhlükəsizliyi üzrə verilənlər bankının təşkili vacib məsələlərdən sayılır. Verilənlər bankına ilkin məlumatlar aşağıdakilardan daxil olmalıdır: avtonəqliyyat vasitələrinin sertifikatlaşdırılması orqanlardan; avtomobillərin TQ və təmirinin sertifikatlaşdırılması üzrə orqanlardan; avtonəqliyyat vasitələrinin dövlət texniki baxışının keçirilməsinin diaqnostik postlarından; daşıma prosesi və NV-nin texniki vəziyyətinin yoxlanması üzrə ərazi texniki nəzarət orqanından; YHT uçotunu həyata keçirən orqanlardan; avtonəqliyyat vasitələrinin sahibləri, fiziki və hüquqi şəxslərdən.

Avtomobil nəqliyyatında təhlükəsizliyin vəziyyəti haqqında illik analitik məruzənin hazırlanması verilənlər bankındakı informasiyaların təhlili əsasında aparılır. Bu məruzə əsasıda ünvanlı arayış hazırlanır və maraqlanan təşkilatlara göndərilir.

Nəqliyyatda təhlükəsizlik üzrə qarşılıqlı əlaqə ancaq marağı olan ölkələr arasında deyil, həmçinin Beynəlxalq təşkilatlarla da həyata keçirilir. Nəqliyyar Nazirliyi bir çox Beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin Avropa İqtisadi Komissiyasının daxili nəqliyyat üzrə Komitəsi ilə, Beynəlxalq Avtomobil Təşkilatı ilə, Nəqliyyat Nazirliyinin Avropa Konfransı ilə və s. əməkdaşlıq edir.

ƏDƏBİYYAT

[1]. Бурлаев Ю.В. Безопасность жизнедеятельности на транспорте: учебн.для вузов.- М.:«Академия», 2010, 288с.

[2]. Гомзиков Э.А. Безопасность жизнедеятельности: Учеб. пособие. Ч.1.-СПб. Мин-во транспорта РФ, 1995.

[3]. Куперман А.И. Безопасное управление автомобилем.- М.: Транспорт, 1989, 160 с. [4].НоздринВ. И. Борьба с международным терроризмом на воздушном транспорте. – М.: ВИНИТИ, 2001.

[5]. Крутяков В.С. и др. Охрана труда на железнодорожном транспорте: Справочник.М.:Транспорт, 1987, 312 с.

[6]. Allahverdiyev A.M. Avtomobil nəqliyyatı – ekologiya (monoqrafiya). Bakı, Elm, 2007,səh.195

NEFT VƏ NEFT MƏHSULLARI SAXLANILAN REZERVUARLAR PARKINDA YANĞINLARIN SÖNDÜRÜLMƏSİ

[1]MAYA ƏKBƏR QIZI QURBANOVA, [2] FUAD MAHMUD OĞLU HACIZADƏ, [3]ЛОБЧЕНКО ВАЛЕНТИНА МИХАЙЛОВНА

[1]Fövqəladə Hallar Nazirliyinin Akademiyası., [2]AMEA-nın Geologiya və geofizika İnstitutu.,

[3]Университет Граждансково Защиты Украины

E-mail: mqmaya@mail.ru

Xülasə. Neft çıxarma və neft sənayesi inkişaf etmiş ölkəmizdə baş verə biləcək yanğın təhlükəsizliyinin təmin edilməsi həmişə aktual problem olaraq qalır. Belə obyektlərdə yanğınların inkişaf xarakteri adi sənaye müəssisələrində baş verən yanğınlardan əsaslı surətdə fərqlənir. Neft sənayesində baş vermiş yanğınların su ilə sondürülməsi mümkün deyil, belə ki, söndürmədə istifadə olunan su, neft və neft məhsulları üzərində təbəqə yarada bilmədiyindən havanın oksigeni ilə yanan maddənin əlaqəsini kəsə bilmir. Bu səbəbdən də bu növ yanğınları söndürmək üçün yanmayan səthi aktiv köpükəmələgətirici maddələrdən istifadə edilir.

Açar sözlər: yanğın – partlayış, neft və neft məhsulları, hava – mexaniki köpüklər, yanğın lokallaşdırılması.

Abstract. Providing fire safety that can take place in the oil extraction and oil industry is an urgent problem. The nature of the development of fires in these facilities differs significantly from the fires occurring in ordinary industrial enterprises. It is not possible to extinguish the fires in the oil industry, because the water used for extinguishing does not cut oil and oil products. For this reason, the non - flammable surface active foaming agents are used to extinguish these types of fires.words

Key words: fire - explosion, oil and oil products, air - mechanical foams, fire localization

Giriş. Neft sənayesində ən iri miqyaslı yanğınlar karbohidrogen tərkibli məhsulların hasilatı, nəqli, emalı və saxlanması ilə əlaqəli müəssisələrin texnoloji sxeminə daxil olan rezervuarlarda baş verən yanğınlar olaraq qalır, ilk növbədə bu "domino" prinsipi ilə bağlıdır. Karbohidrogenlərin yerüstü saxlanması daha təhlükəli hesab olunur. Azərbaycandakı RVS tipli yerüstü rezervuarlarda 10 il ərzində statistik göstəricilərə əsasən 18 yanğın və qəza halları baş verib. Saxlanılan məhsulların növünə görə yanğınlar belə paylanmışdır: 53,8 % - benzinlə doldurulmuş rezervuarlar, 32,4 % - xammal neftlə dolu rezervuarlar və 13,8% - digər neft məhsulları olan rezervuarlar. Baş vermiş yanğınlar paylayıcı neft bazalarının rezervuarlarında – 48,3%, NEZ rezervuarlarında -27,7%, neft mədənlərində - 14%, neft boru rezervuarlarında 10% təşkil edib.

Respublikamızda və xarici ölkələrdə polad rezervuarlardan istifadə edilməsi daha geniş yayılmışdır. Polad çənlərin aşağıdakı növlərindən istifadə edirlər:

- şaquli silindrik çənlər stasionar konusşəkilli və ya sferik dam örtüklü, tutumu 20000 kub metrə qədər (TAM-lər saxlanıldıqda) və 50000 kub metrə qədər (YM-lər saxlanıldıqda);
- şaquli silindrik çənlər stasionar örtüklü və üzən pontonla, tutumu 50000 kub metrə qədər;
- şaquli silindrik çənlər üzən örtüklü, tutumu 120000 kub metrə qədər.

Çənlərdə yanğınlar mürəkkəb inkişaf prosesləri ilə səciyyələnir, uzunsürən xüsusiyyətə malikdirlər və onların ləğv edilməsi üçün çoxlu sayda qüvvə və vasitələr tələb edilir. Rezervuarlarda yanğınların söndürülməsi üçün hərəkət edən yanğın texnikasının və yarımstasionar sistemlərin köməyilə verilən odsöndürücü maddələri tətbiq edirlər:

- çiləyici şırnaqlar şəklində suyu;
- odsöndürücü tozları və təsirsiz qazları;
- yanar mayelərin (çəndə) qarışdırılması üsulunu;
- orta və aşağı artımlı hava - mexaniki köpükləri.

Əsas hissə. Çən parklarında - yanğının sahəsi, alov məşəlinin hündürlüyü, istilik axınının sıxlığı, mayenin yanıb qurtarma və qızma sürəti yanğınların əsas parametrləridir. Çənlərdə yanğınların əsas söndürmə vasitələrinə, yanar mayelərin səthinə verilən orta artımlı hava-mexaniki köpük aiddir. Köpüklərin əsas odsöndürmə xüsusiyyətləri - təcridetmə qabiliyyətidir, yanma zonasını yanar buxar və

qazlardan, habelə yanar materialın yanan səthini reaksiya zonasından şüalanan istilikdən təcrid edir. Yanar buxar və qazların yanma zonasına daxil olmasını təcrid edən köpük, yanan səthin üzərində kifayət edən qat kimi toplanmazdan əvvəl istiliyin təsirindən parçalanır və maddəni soyudur. Bu zaman köpük alınan məhlul buxarlanaraq yanma zonasına daxil olan yanar buxar və qazları qarışdırır [1].

Kimyəvi köpüyün əsas xüsusiyyətləri, yəni sıxlığı 0,15 - 0,25 q/m3, artımı isə təxmini beşə bərabərdir. Kimyəvi köpük almaq üçün çoxlu zəhmət və kifayət qədər yüksək maddi xərc tələb olunur. Bundan başqa, köpük generatorunda tozun su ilə qarışdırıldığı prosesdə şəxsi heyətin nəfəs orqanlarına zərərli təsir göstərir. Bu və ya digər çatışmazlığı onun praktiki istifadəsini məhdudlaşdırır. Hava - mexaniki köpük (HMK) xüsusi lülə və ya generatorda köpükəmələgətiricinin sulu məhlulunun hava ilə mexaniki qarışdırılması nəticəsində alınır. Hava - mexaniki köpük artımlarına görə fərqlənir. HMK-yin artımı alındığı lülənin (generatorun) konstruksiyasından asılıdır.

Orta artımlı hava - mexaniki köpük TAM və YM-in söndürülməsi üçün əsas vasitə sayılır, aşağı artımlı HMK-dən isə stasionar söndürmə sistemləri ilə təchiz edilmiş çənlərdəki yanğınların söndürülməsi üçün istifadə etmək mümkündür.

TAM - in söndürülməsi üçün odsöndürücü maddələrin normativ verilmə intensivliyi 0,08 l/(m^2 san), YM - in və neftin isə 0,05 l/(m^2 san) təşkil edir. TAM və YM - in daha dəqiq siyahısı və onların söndürülməsi üçün odsöndürücü maddələrin verilmə intensivliyi cədvəl 1-də verilmişdir.

Cədvəl 1.Çəndə yanğının söndürülməsi üçün orta artımlı köpüyün verilməsinin normativ intensivliyi

Neft məhsulunun Növü	Köpükəmləgətirən məhlulun verilməsinin normativ intensivliyi, l/(m^2· san)	
	Ftorlaşdırılmış köpük əmləgətirən maddələr	Ümumi təyinatlı köpükəmələgətirən maddələr
$T_{a.}$= 28°C və aşağı olan neft və neft məhsulları, həm də $T_{a.}$- dan yuxarı qızmış YM	0,05	0,08
$T_{a.}$-u 28°C-dən yuxarı olan neft və neft məhsulları	0,05	0,05
Sabit qaz - kondensatı	0,12	0,30
Qaz - kondensatından alınmış benzin, kerosin, dizel yanacağı	0,10	0,15

Qüvvə və vasitələri hesablayarkən normativ verilmə intensivliyi (cədvəl 1 üzrə), yanğının sərbəst inkişafı müddəti nəzərə alınmaqla götürülür. Yanğının sərbəst inkişafı müddəti dedikdə, yanğının baş verdiyi andan odsöndürücü maddələr verilənə qədər müddət başa düşülür.

Hazırkı dövrdə yanğından mühafizənin iş təcrübəsində odsöndürücü köpüklərin çənlərə, əsasən üç üsulla verilməsi tətbiq edilir:

- çənin xüsusi avadanlıqlarının köməyilə yanacaq qatından;
- köpük lülələrinin və köpükboşaldıcıların köməyilə çənin bortundan asma şırnaq şəklində;
- təbəqəaltı (layaltı) üsul ilə.

Aşağı artımlı HMK - yün çənin xüsusi avadanlıqlarının köməyi ilə yanacaq qatından verilməsi sxeminin səmərəli işləməsi üçün avtonasosu və ya nasos stansiyasını sistemə qoşmaq, siyirtməni açmaq, hava - köpük lüləsinin deşiklərini bağlamaq və 0,2 MPa təzyiq yaratmaq lazımdır, kapsul dayağa çatdıqda və polietilen şlanq yanar mayenin səthinə çıxdıqda isə, hava - köpük lüləsinin deşiklərini açmaq və təzyiqi 0,7 - 0,8 MPa - a qədər yüksəltmək lazımdır. Odsöndürücü maddəni aşağıdan yanacaq qatına kapsulsuz və şlanqsız da vermək olar [3].

Köpük, "yanacaq qatından verilmə" üsulunda, yanan mayenin səthinə düşdükdə yüksək temperaturun təsirindən az parçalanır, çünki "çən bortundan verilmə" üsulunda olduğu kimi alov zonasından (yuxarıdan aşağıya) keçmir. Lakin bu üsul çəndə, aşağıdakı parametrləri təmin edən xüsusi avadanlığın quraşdırılmasını tələb edir.

Söndürmə zamanı köpüyün verilməsi üsulları ilə yanaşı, yanma zonasına onun verilməsi yerinin düzgün müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir. Bir qayda olaraq, köpüyü elə yerlərdən yeridirlər ki, orada istiliyin ona olan təsiri ən azdır və oradan köpük yanan mayenin səthi üzrə

maneəsiz axıb yayıla bilir. Köpüyü bir neçə istiqamətdən güclü axınlarla yeritmək daha məqsədəuyğundur, çünki bu zaman o, az parçalanır (dağılır), tez irəliləyir və maneələri yaxşı ötüb keçir. Çənə köpüyü, bir qayda olaraq, külək əsən tərəfdən yeridirlər [2].

Nəticə. Baş vermiş yanğınlar zamanı yanğın söndürülməsinin effektivliyi həm də odsöndürücü köpüyün keyfiyyət göstəricilərindən asılıdır. Odsöndürücü vasitələr ilk olaraq stabil tərkibə malik olmalı, dəniz və şirin sularda yaxşı həll olmalıdırlar. Bununla bərabər istifadə olunan köpükəmələgətiricilər ekoloji problem yaratmamalı və istifadə olunan zaman korroziya problemi olmamalıdır. Müasir dövrdə ekoloji şəraitlərin tələblərinə əsasən bioloji cəhətdən bərkköpükəmələgətiricilərin yumşaq köpükəmələgətiricilərlə əvəz edilməsi üzrə üzrə işlər aparılır. Buna görə də yanğınsöndürmə xidmətinin əsas vəzifələrindən biri də yeni növ köpükəmələgətiriciləri işləyib hazırlamaq və normativ intensivliyə uyğun məhlulların verilməsini təmin etmək hesab edilir.

ƏDƏBIYYAT

1. İ. İsmayılov «Neft, neft məhsulları və sıxılmış qazlar saxlanılan çən və çənlər parkında yanğınların söndürülməsi», Bakı-2003, 206 səh.
2. S.E. Abdullayev , S.A. Məmmədova. SAM - ların köpükəmələgətiricilərin səthi gərilmə əmsalından asılılığı. BDU – nun 90 illiyinə həsr olunmuş Respublika Elmi konfransın materialları. Bakı 2009, səh.116 - 117.
3. В.А. Грачев, В.В. Теребнев, Д.В. Поповский “Газодымозащитная служба” Москва - 2009, 328 стр.

AGRICULTURAL WASTES, GENERATION AND UTILIZATION

ŞAHRUZ VƏLIYEVA ELXAN
Bakı Mühəndislik Universiteti
s.veliyeva@std.beu.edu.az

INTRODUCTION

Agriculture is related to the production of food material and related goods through farming. Agricultural waste is the material obtained for crop production or from plant growth. About 70 percent of the population live in rural villages and mostly deal with agriculture. According to this situation agricultural sector has an important role at country’s economy. The recycling and utilization of agricultural wastes are considered to be the important step in environmental protection, energy structure and agricultural development. Wastes generated from agricultural sectors such as plant residues after harvesting and cattle manure include hydrocarbons, proteins, lipids, and some other organic compounds.

Key-words: Agriculture, agricultural waste, generation, environment, utilization.

1. Agricultural waste

Agricultural wastes are the by – products and residues of different agricultural activities. They are the residues from the growing and processing of raw agricultural materials such as fruits, vegetables, crops, dairy products, poultry and meat. [1] Agricultural wastes have become an increasing concern as they may cause significant environmental problems; however, they may also be used for several beneficial purposes. [2] Their quantity and composition are identified by geographical and cultural aspect of a country and also extent of land used for agriculture. Table 1 presents the list of general agricultural wastes composition. Agricultural waste also called agro – waste consist of animal waste (manure, animal carcasses), food processing waste (80% of maize is waste), crop waste (corn stalks, sugarcane bagasse, drops and culls from fruits and vegetables, prunings) and hazardous and toxic agricultural waste (pesticides, insecticides and herbicides). They can be in the form of liquids, slurries or solids. The types of agricultural wastes are indicated in Figure 1. [3]

TABLE 1 Composition of Agricultural waste

S.No	Source	Composition
1	Rice*	Husk, Bran
2	Wheat†	Bran, straw
3	Oat†	Straw
4	Maize*	Stover, Husk, Skins trimming, Cobs
5	Millet*	Stovers
6	Pineapple*	Outer peel, crown, bud ends, fruit trimming
7	Sugarcane*	Sugarcane tops, bagasse, molasses

Source: Waste: A handbook for Management

* *Phonbumrung and Khemsawas*

† *Arvanitoyannis and Tserkezou*

Figure 1. Types of Agricultural wastes.



Source: Waste: A handbook for Management

2. Generation of Agricultural wastes

The increased population level will require more food supply and this contribute agricultural waste generation. There is an increase in the amount of agriculture waste generated from agricultural process must be treated also as a by-product. The importance of agricultural waste as an alternative resource base has to be emphasized. [4]. Agricultural wastes are commonly generated from a number of sources including cultivation, livestock and aquaculture.

2.1 Wastes from Cultivation activities

In agricultural waste generation, cultivation activities have significant role if country's economy is based on agriculture. While tropical climate is suitable for growing crops, it also supports the generation and development of insects and weeds. This situation creates a high demand for pesticides to kill insects and protect against the spread of epidemic diseases; but farmers do not use pesticides efficiently. Inorganic fertilizer is low-priced and characterized by high productivity. This leads many farmers to apply more fertilizer to their crops than the right amount that can be absorbed by the plants. They also throw most of the bottles and packages containing these pesticides into ponds or fields. According to data made by the Plant Protection Department (PPD), about 1.8% of the chemicals remain in their packaging.The unused pesticides and pesticide packages with residue can be stored or buried in the wrong way at different areas for a long time thereby it may cause negative effect on the environment. These effects can be such as food poisoning, unsafe food hygiene and contaminated farmland due to their potentially lasting and toxic chemicals. A portion of excess fertilizer is retained in the soil, a portion enters ponds, lakes as a result of either rain flows or the irrigation system, causing in the pollution of surface water, a portion enters the ground water and a portion evaporates or becomes denitrated, causing air pollution. In addition, nitrogen emissions from the soil to the environment need to be avoided in order to reduce the impacts of greenhouse gases. [5]

2.2 Wastes from livestock production

Livestock wastes include a number of different wastes: a) fresh excrement including both the liquid and solid portions; b) total excrement but with bedding added to adsorb the liquid portion; c) the material after liquid drainage, evaporation of water, or leaching of soluble nutrients d) only the liquid which has been allowed to drain from the total excrement or, e) material following aerated or anaerobic storage. With both swine and poultry, the diets are highly digestible. Livestock wastes are solid, semisolid, or liquid depending upon how the production operation is designed and operated. The feces of livestock consist of undigested food, mostly cellulose fiber, waste mineral matter, bacteria, foreign matter such as dirt consumed along with the food. Animal feces also contain inorganic feed additives such as founded large amounts of copper salts in feed supplements. [6]. Air pollution caused from livestock production is serious problem. It contributes pollutants such as H_2S, CH_4 and odors. Air pollution includes odors emanating from cages resulting from the digestion process of livestock wastes; The burning of manure and straw will generate a lot of harmful gas, smoke, dust, contribute greenhouse gases, seriously polluting our air environment, spreading diseases to humans. [1] Animal manure also contains many pathogens, parasite eggs, heavy metals and so on. [7]

2.3 Waste from Aquaculture

A part of agricultural residues has even been directly discharged into water, leading to serious contamination of aquatic environment. [7] One of the major wastes generated in aquaculture is metabolic waste which could be dissolved or suspended. In a properly managed farm, approximately 30% of the feed used will become solid waste. Feeding rates are dependent on the ambient temperature. Increase in temperature results in increased feeding which gives rise to increased generated waste. In production units, water flow pattern is important for waste management because a proper flow will minimize the fragmentation of fish feces and allow for rapid settling and concentration of the settleable solids. This can be critical because a high percentage of non-fragmented feces can be quickly captured which will greatly reduce the dissolved organic waste. [1]

3. Utilization of Agricultural wastes.

Agricultural wastes are widely available, renewable and free, hence they can be an important resource. They can be converted into heat, steam, methanol, ethanol, bio diesel as well as raw materials (animal feed, composting, energy and biogas construction etcetera). However, many of the agricultural wastes are still largely under-utilized, and left to decay or openly burned in the field, especially in developing countries. [8] The random abandon and unreasonable utilization would also result in air pollution, soil contamination, and so on. The occurrence of agricultural wastes was unique in the different area. [7]

3.1 Biomass combustion byproducts.

In the past this biomass and agricultural waste were either burnt or naturally converted into organic fertilizer under favorable condition. But now in these days biomass produced from agricultural waste are used to generate energy because it carries great potential to convert into energy. Utilization of agricultural waste is very important concern especially when the world's energy demand is increasing. Some of these crops may compete for land and other resources with traditional crops, while other crops may be grown on marginal lands or even ecologically degraded areas and thus have a positive effect on the environment. It has also advantage for economy as converting the biomass into some commercial products. [9] There are heavy metal emissions, like Hg, can be released from biomass burning. [2]

3.2 Adsorption capacities of agricultural waste (Reuse and recycle)

Adsorption capacities of corn straw, indicating that plant residue can act as very effective sorbents. Compared the co-adsorption of Cr (VI) and cyanide from electroplating wastewater using powdered pistachio hull (PHP) and powdered activated carbon (PAC). With 2 g/L of PHP and 60 min of contact, PHP could completely remove Cr (VI) and cyanide (maximum adsorption capacity of 117.6 and 151 mg/g). In contrast, PAC could only remove 69.2 and 77.8% of Cr (VI) and cyanide, respectively, under the same conditions (maximum adsorption capacity of 47.6 and 39.4 mg/g) [2].

3.3 Composting (Treatment)

Compost made from livestock manure is an effective material for improving the physical and chemical condition of soil. In order to reduce environmental pollution, sago bagasse and chicken

manure slurry can be co-composted to obtain high quality organic fertilizers. This may lead to production of a co-compost that is rich in plant nutrients. [10] Total NPK in feedstock amended with manure satisfied, but pathogen concentrations exceeded United States Environmental Protection Agency standards. Manure-amended feedstock performed better than feedstock amended with kitchen wastes and agricultural wastes at a C/N of 30. Kitchen waste-amended feedstock exhibited high ammonia emissions, while agricultural waste-amended feedstock showed significantly decreased free air space in the early stages of composting. [2]

3.4 As a resource for construction material

Agricultural wastes could be used as resource materials in many engineering applications. Agricultural waste ashes are used as resource materials to synthesize new glass and glass-ceramics. The addition of sugarcane leaves ash in rice husk ash promotes the glass formation. Additionally, it prevents the cristobalite phase formation. The present glass-ceramics exhibit lower losses than similar materials synthesized using conventional minerals. The dielectric permittivity is independent to a wide range of temperature and frequency. The glass-ceramics developed with adequately devitrified phases can be used in microelectronic devices and other dielectric applications. [11]

REFERENCES

[1] F. O. Obi, B. O. Ugwuishiwu and J. N Nwakaire. *AGRICULTURAL WASTE CONCEPT, GENERATION, UTILIZATION AND MANAGEMENT.* Nigerian Journal of Technology (NIJOTECH).

[2] Z. Zhang, A. M. Gonzalez, Evan G. R. Davies, Y. Liu. *Agricultural Wastes.* Department of Civil & Environmental Engineering, Markin/CNRL Natural Resources Engineering Facility, University of Alberta, Edmonton, AB, T6G 2W2, Canada;

[3] Trevor. M., Letcher& Daniel A. Vallero. *Waste: A handbook for management.* First edition 2011 Elsevier.

[4] E. T. Quartey, J. CHÝLKOVÁ. *Challenges and opportunities in managing agricultural waste in Ghana.* Faculty of Economic and Administration University of Pardubice.

[5] Hai, H. T. and Tuyet, N. T. A.. *Benefits of the 3R approach for agricultural waste management (AWM) in Vietnam. Under the Framework of joint Project on Asia Resource Circulation Policy Research Working Paper Series.* Institute for Global Environmental Strategies supported by the Ministry of Environment, Japan, 2010.

[6] Raymond C. Loehr. *Agricultural waste management – Problems, Processes, Approaches.* Department of Agricultural Engineering. Cornell University. Ithaca, New York.

[7] B. Wanga,b, F. Donga,b, M. Chena,b, J. Zhua , J. Tana , X. Fua , Y. Wangc , S. Chena,b. *Advances in recycling and utilization of agricultural wastes in China: Based on environmental risk, crucial pathways, influencing factors, policy mechanism.* School of Environment and Resource, Southwest University of Science and Technology, Mianyang , Sichuan, People's Republic of China, Key Laboratory of Solid Waste Treatment and Resource Recycle of Ministry of Education, Southwest University of Science and Technology, Mianyang, Sichuan, People's Republic of China, Shude Huaiyuan middle school, Chengdu, Sichuan, People's Republic of China.

[8] Prof. Sabiiti EN. *UTILISING AGRICULTURAL WASTE TO ENHANCE FOOD SECURITY AND CONSERVE THE ENVIRONMENT.* Department of Agricultural Production, School of Agricultural Sciences, College of Agricultural and Environmental Sciences, Makerere University, Kampala, Uganda.

[9] K. Harshwardha and K. Upadhyay. *Effective Utilization of Agricultural Waste: Review.* Journal of Fundamentals of Renewable Energy and Applications. Department of Chemical Engineering, Ujjain Engineering College, Ujjain, Madhya Pradesh, India

[10] H. ARUNAKUMARI N. GOUTAMI M. VENKATA LAKSHMI, *AGRO WASTE MANAGEMENT AND REUTILIZATIONA REVIEW.* International journal of multidisciplinary advanced research trends. Ph.D Scholar,Department of Agronomy, Agricultural college, Bapatla.

[11] S.S.Danewalia., G. Sharma, S.Thakur, K.Singh. *Agricultural wastes as a resource of raw materials for developing low-dielectric glass-ceramics.* Scientific Reports. https://www.nature.com/articles/srep24617

XƏZƏR DƏNİZİNİN EKOLOJİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLL YOLLARI HAQQINDA

RZAYEVA SALATIN NEYMƏT
Bakı Mühəndislik Universitetinin magistrantı
salatinrzayeva551@gmail.com

XÜLASƏ

Məqalədə Xəzər dənizinin ekoloji problemləri, onların yaranma səbəbləri araşdırılır və bu problemlərin həlli yolları təqdim olunur. Belə ki, istər Azərbaycan, istərsə də digər Xəzər sahili dövlətlərin bu problemlərin həlli ilə bağlı gördüyü tədbirlər vacib məsələlərdəndir.

Açar sözlər: Xəzər dənizi, Xəzər dənizinin ekoloji problemləri

I.GİRİŞ

Hazırda Xəzərin ekoloji vəziyyəti olduqca gərgindir. Dənizin şelf zonasında problem daha kəskindir, artıq bu ərazilərdə ölü zonalar yaranmışdır. Bəzi yerlərdə çirkləndiricilərin qiyməti normanı 10-20 dəfə artır.

Xəzər dənizi qapalı su hövzəsi olduğu üçün sənayenin inkişafı, təbii sərvətlərinin mənimsənilməsi və sahilyanı ərazilərində məhsuldar qüvvələrin yerləşdirilməsi bütövlükdə Xəzəryanı regionda ekoloji vəziyyəti müəyyən edir. Təbii şəraitin fərqli olması, təbii sərvətlərin qeyri-bərabər paylanması və sahilboyu ayrı-ayrı ərazilərdə əhalinin sıxlıq dərəcəsi "ekoloji cəhətdən gərgin" zonaların yaranmasına səbəb olmuşdur. Lakin Xəzərin dəniz cərəyanları çirkab maddələri su hövzəsinə yaydığı üçün burada yalnız nisbətən təmiz zonaların qalması haqqında mülahizə irəli sürmək mümkündür.

II.Xəzər dənizinin ekoloji problemlərinin səbəbləri.

Çaylar vasitəsilə hər il Xəzərə 40-45 km çirkab daxil olur ki, onun da 60 faizi Volqa çayının payına düşür. Əgər bu çirkli sular dənizin üst qatında bərabər paylansaydı, onda il ərzində həmin qatın qalınlığı 10-11 sm-ə çatardı. Xəzər sularının çirklənməsində Kür və Ural çayları da az rol oynamır. Xəzər dənizi problemləri içərisində səviyyə tərəddüdü ilə yanaşı, dəniz sularının çirklənməsi və bununla əlaqədar ekoloji şəraitin korlanması son dövrün ən mühüm problemidir. Zəngin təbii sərvətləri və müalicə əhəmiyyəti tarixən onun ətrafında çoxlu sayda insanların məskunlaşmasına səbəb olub. Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyalarında yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilərdir. Hazırda Xəzər sahili zonalarda 15 milyona qədər əhali yaşayır ki, onların da həyat fəaliyyəti bilavasitə bu dənizlə (əsasən də balıqçılıqla) bağlıdır. Dünyanın ən məhsuldar su sahəsi olan Xəzər yeganə dənizdir ki, nərə balıqlarının böyük ehtiyatı (təxminən 95%) burada cəmləşib. Məlumdur ki, nərə balığı dünya bazarında çox qiymətli sayılan qara kürünün "istehsalçısıdır". Ona görə də həmin balıqların Xəzərdəki genofondu ciddi şəkildə qorunur. Neft-qaz ehtiyatı potensialına görə də o, dünyanın ən iri karbohidrogen xammalı mərkəzlərindən biridir. Ekoloji xarakteristikasına görə Xəzər dənizi çox vaxt digər qapalı hövzələr kimi öyrənilir. Qapalı hövzələrin isə müvafiq problemləri var. Xəzər dənizini çirkləndirən əsas mənbələrə gəldikdə isə qeyd edək ki, bura təmizlənməmiş sənaye məhsulları və kənd təsərrüfatı tullantıları, çay və dəniz gəmiçiliyi, quru və su sahillərində qaz və neft buruqlarının istismarı, dəniz dibinin dərinləşdirilməsi işləri zamanı ikinci çirklənmə, atmosfer və su vasitəsilə uzaq zonalardan çirkli maddələrin gəlməsi daxildir. Xəzər dənizi sahillərində yerləşən şəhərlərdən Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt, Ənzəli şəhərlərindən dənizə axıdılan çirkab suları onun əsas çirkləndiricilərindən hesab edilir. Bununla yanaşı dəniz neft yataqlarının istismarı və neft məhsullarının daşınması, dəniz nəqliyyatı da Xəzər sularını xeyli çirkləndirir. Xəzər gölünün çirklənməsindən danışarkən aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır: birincisi, çirkabın qeyri- bərabər paylanması dənizin ayrı-ayrı sahələrinin ciddi şəkildə çirklənməsinə gətirib çıxarır. İkincisi, sahilboyu yaranan çirklənməni bir zonadan başqasına aparır və oranı da çirkləndirir. Nəzərə alsaq ki, tullantılar əsasən suyun üzündə -üst qatında toplaşaraq "su-atmosfer" zonası yaradır, onda məhz burada yığılmış çirkablar hesabına daha çox dənizin bioloji

əhəmiyyətli sahələrinin çirkləndiyini qeyd etmək lazım gəlir. Xəzər dənizi üçün ən təhlükəli çirklənmə tərkibində zərərli kimyəvi maddələr olan tullantılarla çirklənmədir. Xəzərin ekoloji vəziyyəti indi bütün dünyanı narahat edir. Bakı isə Xəzərin ən çirkli hissəsidir. Təsadüfi deyil ki, o, bioloji cəhətdən "ölü buxta" statusunu qazanıb. Dənizin şərq-qərb hissələri ilə müqayisədə şimal tərəfində çirklənmənin səviyyəsi nisbətən azdır. Xəzər gölünün mühitinin qorunmasında, xüsusilə çirkablardan mühafizədə Volqa və digər çay-su anbarlarının rolu böyükdür. Cənub və orta sahələrdə Xəzər daha çox hidrodinamiki təhlükəyə məruz qalır. Bunlardan başqa, Xəzərin dibi palçıq vulkanlarına meyllidir. Kükürd tərkibli neft çıxarılan sahələr daha təhlükəlidir. Güclü zəlzələ baş verərsə, havaya 1000 atmosfer təzyiqlə milyon ton kükürd tərkibli karbohidrogen daxil ola bilər ki, bu da qlobal fəlakətdir. İri tankerlərlə neftin daşınması da Xəzərin çirklənməsinə səbəb olur. Xəzər qapalı ekosistem olduğu üçün onun neft axınları vasitəsilə çirklənməsi kifayətdir ki, "canını tapşırsın" - "ölsün". Xəzərə yalnız bir ölkənin yox, 5 sahilyanı ölkənin qayğı göstərməsi vacibdir. Hər bir Xəzərsahili ölkə dənizə öz şəxsi prizmasından yanaşsa, onun sonrakı taleyi daha tutqun ola bilər. Xəzərin statusu tam müəyyənləşmədikcə dənizin nərə balığı ehtiyatı, canlıların rəngarəngliyi, ekosistemi tənəzzülə uğrayacaq.

III.Problemin həllində Xəzər sahili dövlətlərin rolu

İllər boyu külli miqdarda sənaye tullantıları Xəzərə atılmışdır ki, bu da dənizin ekologiyasına əhəmiyyətli zərər vurmuşdur. Həmçinin, Xəzəryanı dövlətlər imkanı daxilində təbii sərvətlərdən istifadə etmiş və ətraf mühitin mühafizəsi məsələlərinin həllinə lazımi dərəcədə diqqət yetirilməmişdir. Nə qədər paradoksal olsa da, Xəzər dənizində və onu əhatə edən ərazilərdə sənaye istehsalının kəskin surətdə aşağı düşməsi bölgədə ekoloji vəziyyəti mürəkkəbləşdirmişdir. Düzdür, dənizə axıdılan sənaye tullantılarının və çirkab sularının həcmi azalmışdır, lakin bununla yanaşı, dənizdə ekoloji tarazlığı pozan ən güclü amillərdən biri qanunsuz balıq ovu-brakonyerlik dəhşətli dərəcədə artmışdır. Qanunsuz balıq ovu, demək olar, bütün dəniz akvatoriyası üzrə yayılmışdır. Brakonyerlərlə mübarizədə dövlətlərarası əməkdaşlıq hələ ki, qənaətbəxş sayıla bilməz. Bu sahədə dövlətlərarası tam anlaşma əldə olunmayıb. Buna görə də Xəzəryanı dövlətlər tərəfindən süni balıqartırma təsərrüfatının inkişafı istənilən nəticəni vermir. Xəzər dənizinin ekoloji problemlərinin həlli ilə bağlı Xəzəryanı dövlətlər arasında bir çox görüşlər və müzakirələr keçirilmişdir.

[1]Bunun ilk nəticəsi kimi 2003-cü il noyabrın 4-də Tehranda beş Xəzəryanı dövlətin nümayəndələri tərəfindən "Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında ÇƏRÇİVƏ KONVENSİYASI" imzalanmışdır. Əldə edilmiş dövlətlərarası razılaşmanın əsas müddəalarından olan "Çirklənmənin qarşısının alınması, azaldılması və ona nəzarət" və "Dəniz mühitinin mühafizəsi, qorunub saxlanması və bərpası" bölmələri tərəflərin öz aralarında konstruktiv əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır. "Çərçivə konvensiyasında" diqqəti cəlb edən maddələrdən biri də "Dənizin yaxınlığının təsiri altında olan qurunun idarə edilməsi" bəndidir. Həmin bənddə qeyd edilir ki: "Razılığa gələn tərəflər dənizin yaxınlığının təsiri altında olan quru hissənin planlaşdırılması və idarə edilməsi istiqamətində milli strategiyaların və planların hazırlanması və yerinə yetirilməsi üzrə zəruri tədbirlərin görülməsinə cəhd göstərirlər ". Xəzər dənizinin mühafizəsi ilə bağlı sahil ərazilərin strateji inkişaf planlarının tərtib edilməsinin vacibliyinin ayrıca maddədə göstərilməsi sahil ərazilərinin idarə edilməsinin əhəmiyyətini qabarıq şəkildə əks etdirir.

[2]Ümumiyyətlə, 37 maddədən ibarət "Çərçivə konvensiyası" Xəzəryanı dövlətlər arasında Xəzər dənizinin mühafizəsi ilə bağlı ilk iri anlaşma sənədi kimi əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradır. Belə ki, Xəzər dənizinin hüquqi statusu haqqındakı danışıqlarda yaranmış mövcud anlaşılmazlığın aradan qaldırılmasında "Çərçivə konvensiyasının" bəzi müddəalarından istifadə etmək məqsədəuyğun hesab oluna bilər.

Xəzər dənizinin nadir ekosistem olduğunu və onun mühafizəsinin vacibliyini nəzərə alaraq Avropa İttifaqı və iri beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə 1995-ci ildə "Xəzər ekoloji proqramı" həyata keçirilməyə başlandı. Proqramın reallaşdırılması üçün Xəzəryanı ölkələrin müvafiq dövlət və qeyri-dövlət təşkilatları işə cəlb olunmuşlar.

Azərbaycan təbii sərvətlərin səmərəli istifadəsi və ətraf mühitin mühafizəsi ilə bağlı bir çox konvensiyalar qəbul etmişdir. Onlardan Xəzər dənizinin problemləri ilə bağlı daha əhəmiyyətli olanlar aşağıdakılardır:

- ✓ "Bioloji müxtəliflik haqqında" konvensiya;
- ✓ "Transsərhəd su axınlarının və beynəlxalq göllərin istifadəsi və mühafizəsi haqqında" konvensiya;
- ✓ "Yoxolma və təhlükə altında olan nadir fauna və flora növlərinin beynəlxalq ticarəti haqqında" konvensiya;
- ✓ "Quraqlıq və səhralaşma ilə mübarizə haqqında" BMT-nin konvensiyası;
- ✓ "Gəmilərdən çirklənmənin qarşısının alınmasına dair" konvensiya;
- ✓ "Beynəlxalq əhəmiyyətli su-bataqlıq sahələri haqqında" YUNESKO-nun konvensiyası;

Azərbaycanın yuxarıda sadaladıqlarımızla yanaşı, digər beynəlxalq konvensiyalara qoşulması və ölkə daxilində ətraf mühitlə bağlı 20-yə yaxın qanun qəbul etməsi çox əhəmiyyətli məsələdir. Bu qanunların təxminən yarısının Xəzər dənizinin və onu əhatə edən ərazilərin problemlərinə birbaşa aidiyyatı var. Qəbul olunmuş qanunlardan Xəzər dənizi üçün ən vacibləri aşağıdakılar hesab oluna bilər:

- ✓ Ətraf mühitin mühafizəsi haqqında qanun (08.06.1999).
- ✓ Ekoloji təhlükəsizlik haqqında qanun (08.06.1999).
- ✓ Yeraltı sərvətlər haqqında qanun (13.02.1998).
- ✓ Balıqçılıq haqqında qanun (27.03.1998).

Xəzəryanı ölkələr regionda ətraf mühitin mühafizəsi ilə bağlı əməkdaşlığı bir neçə vacib istiqamətdə aparırlar. Bunlardan ən əsasları aşağıdakılardır:

- ✓ balıq ehtiyatlarının istifadəsi və mühafizəsi;
- ✓ neft-qaz ehtiyatlarının istifadəsi və mühafizəsi;
- ✓ nəqliyyat-iqtisadi əlaqələrin inkişafı;
- ✓ rekreasiya ehtiyatlarının inkişafı;
- ✓ dənizə axıdılan çirkab sularının və başqa tullantıların azaldılması istiqamətində birgə əməkdaşlıq.

Respublikamızda hazırda Xəzər dənizini öyrənən alimlərimiz çoxdur və bunlar ayrı-ayrı elmi mərkəzlərdə çalışırlar. AMEA-nın H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, "Xəzər Dənizinin Problemləri" şöbəsinin müdiri prof. R.M.Məmmədovun rəhbərlik etdiyi kollektiv bu istiqamətdə araşdırmalar aparan əsas elmi mərkəzdir.

IV.Problemin aradan qaldırılması işləri.

Xəzər dənizini neftlə çirklənmədən, eləcə də torpaq əsaslı mənbələrdən törəyən dəniz neft çirklənmələrindən qorumaq məqsədi ilə 2011-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində beş Xəzəryanı ölkə tərəfindən protokol imzalanmışdır. Sənəddə çirklənmə təhlükələrinə hazırlıq, eyni zamanda, çirklənməyə qarşı cavab tədbirləri və bu sahədə birgə əməkdaşlıq üçün regional tədbirlər əksini tapmışdır.

Bu sənədə əsasən, razılığa gələn tərəflər fərdi və ya birgə şəkildə neftlə çirklənmə hallarına hazırlıq və cavab tədbirləri məqsədi ilə bütün lazımi işləri həyata keçirəcəklər. Bu protokolun həyata keçirilməsi üçün neftlə çirklənməyə qarşı mübarizədə regional əməkdaşlıq üzrə Xəzər dənizi Planı yaradılacaqdır.

ƏDƏBİYYAT

1. Çingiz İsmayılov: Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası.
2. https://azertag.az/xeber/Xezer_denizinin_chirklenmesinin_qarsisinin_alinmasi_sahesinde_birge_emekdasliga_dair_Protokol_tesdiqlenmek_uchun_Milli_Meclisin_muzakiresine_chixarilmisdir-195329
3. http://gsaz.az/articles/view/79/Xazar-danizinin-ekologiyasi

TULLANTILARI SƏMƏRƏLİ İSTİFADƏSİ

LEYLA ZEYNALLI RUFAN QIZI
Bakı mühəndislik Universiteti, magistr
lzeynalli@yahoo.com

Böyük şəhərlərdə tullantıların miqdarı her il artmaqda davam edir,lakin onları düzgün idarə etməklə iqtisadi səmərə əldə etmək həmçinin ekoloji problemlərdən azad olmaq mümkündür.Tullantılardan səmərli istifadə etməklə ucuz xammal və temiz ətraf-mühit qazanmış olarıq.

Açar sözlər:emal,istehsalat,tullantı, xammal,ekoloji mühit,iqtisadi səmərə

Tullantı nədir?

Tullantı əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşya, maddə və materiallar toplusudur . Tullantı bilavasitə insan faktoru ilə bağlıdır. Bu tullantılara antropogen tullantılar deyilir. Antropogen tullantının müxtəlif növləri var: istehsal, məişət, nəqliyyat və başqa sahələrdə əmələ gələn və bilavasitə yerində istifadə edilməyən tullantılar. Tullantıların məhv edilməsinin müxtəlif yolları vardır. Bunlara yandırma, təbii gübrəyə çevirmə, yenidən emal etmə, açıq üsulla tullama və torpaqda basdırma. Regionların inkişaf səviyyəsindən asılı olaraq tullantıların məhv edilməsində müasir texnologiyaların tətbiqi payı dəyişir.

Mərkəzi və Şərqi avropa ölkələrində yandırma 6 %, təbii gübrəyə çevirmə 5 %, təkrar emal etmə 5 %, açıq üsulla tullama 0 %, torpaqda basdırma isə 84 %-dir.

Şimali Amerika: yandırma 7 %, təbii gübrəyə çevirmə 0 %, təkrar emal etmə 29 %, açıq üsulla tullama 0 %, torpaqda basdırma isə 65 %

Avstraliya: yandırma 0 %, təbii gübrəyə çevirmə 18 %, təkrar emal etmə 28 %, açıq üsulla tullama 0 %, torpaqda basdırma isə 54 %

Qərbi Avropa: yandırma 20 %, təbii gübrəyə çevirmə 17 %, təkrar emal etmə 24 %, açıq üsulla tullama 0 %, torpaqda basdırma isə 39 %

Asiya : yandırma 4 %, təbii gübrəyə çevirmə 25 %, təkrar emal etmə 3 %, açıq üsulla tullama 54 %, torpaqda basdırma isə 15 %

Afrika : yandırma 0 %, təbii gübrəyə çevirmə 0 %, təkrar emal etmə 0 %, açıq üsulla tullama 78 %, torpaqda basdırma isə 12 %

Cənubi Amerika : yandırma 1 %, təbii gübrəyə çevirmə 9 %, təkrar emal etmə 24 %, açıq üsulla tullama 74 %, torpaqda basdırma isə 12 %



Hal-hazırda dünyada ümumi plastik tullantının miqdarı 4.9 milyard tona çatır. 2050-ci ilə qədər bu rəqəmin 12 milyard tona çatacağı təxmin edilir. Bütün dünya üzrə tullantıların təkrar emalı sahəsində ixtisaslaşmış əsas ölkələr ABŞ və Almaniyadır.

Tullantıların enerjiyə çevrilməsi yolları:

Tullantılardan müxtəlif yollarla enerji alınır. İlk üsul xam tullantının yandırılaraq istilik enerjisinə çevrilir və istilik enerjisi də elektrik enerjisinə.

Tullantıdan enerji alınmasının digər növü tullantının çürüdülərək metan qazı alınmadır. Bu qaz sonradan yanacaq kimi istifadə edilir. Avropda yüzlərlə ABŞ-da isə 90- yaxın tullantıları enerjiyə çevirən zavod fəaliyyətdədir.

Tullantıların təkrar emalı.

Tullantıların idarə edilməsi sisteminin təşkili zamanı təkrar xammal əldə etmək mümkündür ki, bu da, öz növbəsində, ekoloji və iqtisadi baxımdan əhəmiyyətlidir. Ən əsası isə təkrar emal təbii resurslardan istifadəni minimuma endirir. Təkrar istifadəyə yararlı tullantılara biotullantılar, polietilen, metal, şüşə, kağız, karton və s. daxildir. Təkrar istifadəyə yararlı tullantılara biotullantılar, polietilen, metal, şüşə, kağız, karton və s. daxildir. Biotullantılara əsasən qida qalıqları, quru və ya xarab olmuş məhsullar, meyvə və tərəvəzlərin qabıqları aiddir. Makulaturaya isə qəzet və jurnallar, ofis kağızları, yumşaq cildli kitablar və s. daxildir.

Tullantıların idarə edilməsi:

Tullantıların idarə edilməsi sistemi onların yığılması, daşınması, təkrar emalı, ikinci dəfə istifadəsi və ya utilizasiyası (səmərəli istifadəsi) və bütün prosesə nəzarətdən ibarət kompleks tədbirdir. Hazırda dünyada zibil və tullantıların utilizasiyası üçün iki başlıca üsul mövcuddur. Utilizasiyaya başlamazdan əvvəl, müxtəlif kateqoriyalı bərk məişət tullantıları ayrıca yığılmalıdır. Çünki sənaye tullantılarının utilizasiyası ilə məişət tullantılarının utilizasiyası texnologiya və xərc baxımından fərqlənir Utilizasiyanın digər növü tullantıların yandırılmasıdır. Lakin bu üsulla bağlı da bəzi mübahisələr mövcuddur. Belə ki, yandırma nəticəsində əmələ gələn maddələr ətraf mühitin çirklənməsinə səbəb olur.

Nəticə olaraq, tullantılardan yararlı istifadə etdikdə iqtisadi səmərə ilə birlikdə ətraf mühitlə bağlı məsələlərdə ciddi irəliləyiş əldə etmək olar.Daha az xammal daha çox və təmiz məhsul!

ƏDƏBIYYAT:

1. Məmmədov Q.Ş. Xəlilov M.Y. Ensiklopedik ekoloji lüğət Bakı 2008

2. Bərk Sənaye Tullantıllarının Təkrar Emalının İqtisadi Səmərəliliyi-..\Desktop\berk-senaye-tul (1).pdf

Xarici keçidlər:

1. https://www.statista.com/statistics/239666/waste-disposal-worldwide/

2. http://www.azadinform.az/news/a-26350.html

3. https://cosmosmagazine.com/society/global-plastic-waste-totals-4-9-billion-tonnes

4. https://ww2.kqed.org/quest/2014/11/14/how-is-waste-converted-into-energy/

With the Joint Organization by the Ministry of Education Azerbaijan Republic and Baku Engineering University

1st INTERNATIONAL SCIENCE AND ENGINEERING CONFERENCE

Baku Engineering University, 29-30 November 2018, Baku, AZERBAIJAN

PROCEEDINGS

SECTION 5

Computer Science and Engineering

VEB SERVERLƏRDƏ NÖVBƏLILIK MODELLƏRININ VƏ ARTIQ YÜKLƏNMƏ PROBLEMININ HƏLLI YOLLARININ TƏHLILI

MISIRLI CAVID RIZVAN
BMU, Bakı Mühəndislik Universiteti
KİT kafedrasının müəllimi
camisirli@beu.edu.az

t.f.d. ABBASOV BABƏK QƏHRƏMAN
BMU, Bakı Mühəndislik Universiteti
KİT kafedrasının müdiri
babbasov@beu.edu.az

XÜLASƏ

Son illərdə veb texnologiyasının İT sahəsində sürətli inkişafı bu texnologiyanın gündəlik iş dünyasının vacib hissəsinə çevrilmişdir. Veb serverlərin optimal istifadəsi daha yaxşı növbəlilik modellərini olmasını tələb edir. Veb serverə çoxlu sayda sorğuların gəlməsi ilə artıq yüklənmə problemləri yaranır. Yüklənmənin balanslaşdırılması üzrə mövcud modellər yenə də özünü tam şəkildə yaxşı tərəfdən göstərə bilməmişdir.

Bu məqalədə veb serverlərdə mövcud növəlilik modellərinin müasir vəziyyəti və artıq yüklənmə kimi problemlər araşdırılmış və inkişaf prespektivləri öyrənilmişdir. Nəticə kimi ən yaxşı performans göstərən alqoritmlər araşdırılaraq və analiz edilərək tədqiq olunmuşdur.

Açar Sözlər: Veb serverlər, virtual maşınlar, yüklənmənin balanslaşdırılması, artıq yüklənmə

ANALYSIS OF QUEUEING MODELS AND OVERLOADING PROBLEMS ON WEB SERVERS

ABSTRACT

Rapid developments in recent years around the world have altered the structure of states and states have directed from their classical structure to the new structure which procedures are done more rapidly, easily and less costly. That structure is e-government structure known as Electronic Government.

In this paper, given the contemporary state of queueing models and overloading problems have been investigated and its development prospects have been explored. This paper also presents the best algorithms which performs the best results.

Keywords: Web servers, virtual machines, load balancing, overloading

GİRİŞ

Son illərin statistikası onu göstərir ki, veb trafikdə nəzərə çarpan dərəcədə inkişaf vardır. Bugünki dünyanı internetsiz təsəvvür etmək olmur. İnternetin burada rolu əsas etibarı ilə veb serverin fəaliyyəti ilə bağlıdır. İnsanların hədsiz istifadəsi nəticəsində veb serverdə müəyyən yüklənmələr yaranır. Əsas qeyd olunmalı hissə isə veb səhifələrə fasiləsiz olaraq daxil olan sorğulardır. Veb server administratorları sistemin cavab zamanını stabil saxlamaq üçün çox vaxt eyni anda açıq əlaqələri məhdudlaşdırırlar. Sorğu sayı limiti keçəndə, sonra daxil olmaq istəyən bütün istifadəçilərə server tərəfindən inkar cavabı gəlir.

Veb server üçün müəyyən yüklənmə limiti təyin olunur. Çünki server yalnız məhdud sayda olan müştəri əlaqələrini hər bir İP adres üzrə idarə edəbilir və yalnız hər saniyə üzrə gələn müəyyən edilmiş maksimum sayda sorğulara xidmət edir. Burada hər saniyəyə düşən sorğular aşağıdakılardan asılıdır:

- öz sazlamalarından,
- HTTP sorğu tipindən,
- Məzmunun statik və ya dinamik olmasından,
- Veb server istifadə edən əməliyyat sisteminin tətbiqi və texniki təminatı üzrə məhdudiyyətindən.

Son zamanlar internet istifadəçilərinin artması ilə veb serverlərə düşən yük həddindən artıq artmaqdadır. Xüsusən electron ticarət tacirləri və təminatçıları veb səhifələrə gələn çoxlu sayda

sorğuların veb serverlərdə artıq yüklənləmələri səbəbindən xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə azalmışdır. Cavab vaxtını qəbul ediləbilən limit çərçivəsində saxlamaq üçün, veb server administratorları tez-tez açıq əlaqələrə məhdudiyyətlər qoyurlar. Nəticədə ya gözləmə müddəti yüksək olur, ya da istifadəçi sorğusu ümumilikdə icra olunmur.

I. CARİ VƏZİYYƏT

Halhazırda yüksk tutumlu veb serverlərin mövcud olmasına baxmayaraq, veb serverdə həddindən artıq yükləmələrin qarşısını almaq kimi tədbirlərin görülməsi tam olaraq öz həllini tapmamışdır. Bunun nəticəsində istifadəçinin sorğuları uğursuzluqla nəticələnir və xidmətin mümkünsüzlüyü haqqında mesajlar qəbul edir. Əlavə olaraq, istifadəçilərə yenidən cəhd eləmək kimi geri dönüş mesajlarının gəlməməsi müştəri məmnuniyyətinin aşağı səviyyəyə düşməsinə səbəb olur.

Növbəlilik böyük həcmli və yüksək paylanmış tətbiqetmələrdə geniş istifadə edilməkdədir. İT sənayesində bulud texnologiyasının istifadəsində əməliyyat və insan xərclərinin azaldılması böyük rol oynayır. Bir sıra xidmət təminatçıları halhazırda ictimai növbələşmə əməliyyatından istifadə edir. Bunlara Amazon SQS, Windows Azure Queue daxildir. Bu şirkətlər elə bir xidmət təmin edir ki. Burada mümkün mesaj itkisi, dublikasiya və çatdırılma sırasının bitməsi kimi bəzi problemlərin qarşısını alır. Bu həll müəyyən vəziyyətlərdə özünü doğruldur.

Hazırda bunu həll edən bəzi modellər mövcuddur. Məsələn, First Come First Serve, Shortest Job First, EASY, Combinational Backfill. Bulud texnologiyası hesablama modellərinə əsaslanaraq paylanılır və bunun nəticəsində istifadəçi mərkəzi idarəetmə mənbələrinin köməkliyi ilə enerjiyə qənaət etmiş olur.

Bu mövzuyla bağlı bir sıra işlər aparılmışdır. Mümkün həllər heuristik istifadə əsaslı olub SLA (xidmət səviyyəsinin razılaşdırılması) yanaşmasına uyğun aparılır. Tipik olaraq buluda sorğu gedəndə o bir neçə hissələrə bölünür. Zaman itkisini azaltmaq üçün paralel proseslərdən istifadə edilir. Bu prosesləri adətən 2 hissəyə bölürlər. 1) statik mərhələ - virtual maşınların qruplar halında kompyuterlərə yerləşdirilərək siniflərə bölünməsi 2) dinamik resurs yerləşməsinin aparılmsı Yəni virtual maşınları iş axınının dəyişməsinə uyğun miqrasiya edilməsinin mümkünlüyü. Bütün bunlara baxmayaraq növbənin gözlənməsi üçün hələ də bir sıra alqoritmlərin inkişaf etdirilməsi üzərində araşdırmalar aparılmaqdadır.

II.ƏDƏBIYYAT ICMALI

2.1.Ümumi analiz

Veb server mühitində iş yükünün artması səbəbi ilə əlaqədar olaraq bu sahədə elmi araşdırmalar böyük vüsət almışdır. 21-ci əsrin yeni nəaliyyətlərindən olan internetin inkişafı bu sahədə çalışan alimlərin istər riyazi, istərsə də texniki tərəfdən mövcud metodlar üzərində yeni metod və modelləri təklif etməsi ilə çoxlu sayda məqalələr dərc edilmişdir.

Veb serverin klasterində yüklənmənin balanslaşdırılması ilə bağlı olaraq Luis Aversa və Azer Bestavros [1] şəbəkədə gözləmə mövqeyində olan paketlərin yenidən serverə yönləndirilməsi üçün yeni prototip üzərində elmi araşdıma etmişlər. Onların bildirdiyinə görə mərkəzləşdirilmiş qovşaq sistemlərində sorğuların veb server daxilində hər bir hosta göndərilməsi artıq yüklənmə zamanı çox ləngiyir və hətta bəzən icra edilmir. Nəticədə gözləmədə olan paketlərin arada itkisi və ya yenidən göndərilməsi kimi problemlər ortaya çıxır. Tədqiqatçının əsas məqsədi düzgün üsul seçməklə hər bir hostun özündə digər qalan hostlar haqqında informasiya toplamaq və klaster hostları arasında dövri multikast istifadə etməklə yüklənmə haqqında informasiya paylamaqdır. Hədsiz yüklənmə zamanı TCP əlaqələrinin (paylanmış paketin) yenidən göndərilməsini təmin etməklə, veb server mühitində yüklənmənin balanslaşdırılmasını təmin etməkdir.

Parijat Dube və Rahul Jain [2] veb xidmətdən istifadə zamanı gözləməmə müddətinin azalması, müştəri məmnuniyyətinin qorunub saxlanması və ən əsası gözləmə zamanı əlavə pul ödəməmək üçün çox sinifli növbəlilik modellərinin cəlb edilməsi ilə vahid struktur modeli təklif etmişlər. Bu model çox sinifli növbəlilik üzərində qurulmuşdur. Hər hansı əməliyyatı icra edəcək istifadəçilərin ən optimal və xərcləri ən aşağı olan ehtimallı yolu seçməsi prosesi aşağıda göstərilmişdir. Rəqabətcil mühitdə çoxlu sayda təminatçılar öz istifadəçiləri üçün normal iş mühiti yaratmağa imkan verir. Hansı ki, bu növbədə olan istifadəçi üçün paralel multi sinif növbələrindən istifadə edilir bu da həmin istifadəçilərin məmnuniyyətini saxlamağa və növbədə gözləməyə görə əlavə pul ödəməmə halı yaranır.

Zhongju Zhang və Weiguo Fan [3] elmi məqaləsində veb server və veb səhifə arasında həddindən artıq yüklənmə nəticəsində istifadəçi sorğular yolda yarımçıq qalması, itkinin yaranması və burada istifadə olunan modellərin hazırki tələbatı ödəməkdə qarşılaşdığı çətinlikləri qeyd etmişdir. Paylanmış sistemlərdə veb serverin performansı daha effektiv olduğu aşkarlanmışdır. Xüsusi ilə bu daha az yüklənmiş mühitdə daha müsbət nəticələr vermişdir. Lakin yüklənmə ağır olanda, növbələşmə uzunluğu 2 sahə arasında kəskin fərq olur. Aparılmış simulyasiya eksperimentləri onu göstərir ki, bu model həm az, həm də çox yüklənmə zaman performansın ölçü vahidlərini təxmin etməyə imkan verir

Xəstəxanalarda tibbi informasiya daxili şəbəyə qoşulmuş tibbi avadanlıqlar vasitəsilə toplanır və sonra serverlərə ötürülür. Beləliklə, tibbi server sistemlərinin performansı yüksək keyfiyyətli xidmət səviyyəsinin təmin edilməsi üçün daha vacib rol oynayır. Ying-Wen Bai və Chien-Yung Cheng [4] bu-nunla bağlı tədqiqat aparmışdır. Tədqiqatın aparılmasında əsas məqsəd ən optimal növbəlilik şəbəkə modelindən istifadə edərək tibbi informasiya sisteminin performans indeksini qiymətləndirməkdir. Bu-raya, serverin cavab zamanının (response time) hər yüklənmə üçün ölçülərək ən az olanını seçilməsi də daxildir. Xəstəxana informasiya sistemi üçün yeni növbəlilik modeli təklif edilmişdir. Ehtimal nəzəriyyəsindən istifadə edilmiş, paralel və ardıcıl növbələrin birləşdirilməsi həyata keçirilmişdir.

Shinya Kitajima, Jing Cai və başqaları [5] statik vəziyyətdə seçilən metodun dinamiki olaraq serverdə növbələrin sırasının dəyişməsi, həmçinin sistemin vəziyyətinə və sorğunun son tarixinə görə sorğunun optimal işləməsi üçün metodun dəyişməsinin mümkünlüyünün yaranması məqsədi ilə LRT (Ən Az Cavab Zamanı) Metodunu irəli sürmüşlər. Bu metod cavab zamanına əsasən sorğu emal metodunu seçir. Server müştəridən sorğu qəbul edəndə, tələb əsaslı, müştəri əsaslı və əməkdaşlır metodlara uyğun onun cavab zamanını hesablayır. Sonra 3 metod arasından ən az cavab zamanı olanını seçib sorğunu emal edir. Təklif olunmuş metod müəllif tərəfindən simluyasiya mühitində yoxlanılmışdır. Lakin, bu metodu sorğu emalı tezliyinə əsasən dinamiki olaraq real vaxt rejimdə yoxlanılması nəzərdə tutulmuşdur. Eyni zamanda sorğu intervalı dinamiki olaraq dəyişən mühitlərdə də bu testin keçirilməsi planlaşdırılır.

Dinamik sistemlərdə müştəri sorğularının daha effektiv, vaxt itkisi olmadan və əlavə resurs tələb etmədən əldə edilməsi metodunun tətbiqi üzrə AV.Karthick, Dr. E.Ramaraj və R.Ganapathy Subramanian [6] tərəfindən elmi tədqiqat aparılmışdır. Təklif olunan metod (Multi Queue Job Scheduling) ən pik zamanlarda iş bölgüsünün növbələşmə ilə aparılması nəticəsində keyfiyyətinin artırılmasına kömək edir. Göndərilmiş istifadəçi tələbləri pik zamanların artması ardıcıllığı ilə sıralanır. Bu da müştəri məmnuniyyətini yüksəltməyə köməy edir. Çünki burada onların ehtiyacları tələblərinə uyğun olaraq fərqləndirilir.Bunun nəticəsində dinamiki dəyişən sorğular bütün mümkün və sistemin performans dəyərini azaltmayacaq dərəcədə ən doğru formada seçilir. Xidmət təminatçısı (service provider) gələn tapşırıqları növbə idarəçisinə yönləndirir. Növbə idarəçisi (queue manager) uyğun resursların yönləndirilməsini təmin edir. Burada onun əsas funksiyası klasterdəki bütün resursların düzgün istifadə edilməsinə nəzarətdir.

Mohamed Eisa, E. I. Esedimy, M. Z. Rashad [7] 4 moduldan ibarət model təklif etmişlər. Təklif olunan model tətbiqi olaraq yoxlanılmış və digər modellərə nisbətən daha yüksək istifadə dəyəri və cavab zamanı göstərmişdir. . İlk olaraq, fərqli nöqtələrdən qlobal planlamaya sorğular gəlir. Hər bir sorğu daxili kontrollerə komunikasiya şəbəkəsindən keçərək gəlir və sonra yerli növbəyə göndərilir. Qısaca desək, fərqli yerlərdən gələn sorğular Qlobal planlayıcıya ötürülərək daha sonra yerli planlayıcı tərəfindən qəbul edilir. Bu mərhələdə o növbənin sırasını təyin etməyə məsuliyyət daşıyır.

FİFO, Round robin kimi alqoritmlərin mövcudluğuna baxmayaraq dinamiki dəyişən mühitdə mövcud alqoritmlərinin optimallaşdırması məqsədi ilə P. Suresh Varma, Satyanarayana A, M V Rama Sundari [8] növbəlilik nəzəriyyəsini tətbiq edərək bufferin sayından asılı olaraq resursların yerləşdirilməsi üçün uyğun hesablama modellərini analzi etmişdir. Təklif olunan yol növbələşmə zamanını azaldır və istifadə və performans kimi bəzi məsələləri nəzərə alaraq daha effeltoiv nəticənin alınması müşahidə edilmişdir.

Kousik Dasgupta, Brototi Mandal, Paramartha Dutta, Jyotsna Kumar Mondal, Santanu Dam [9] bulud mühitində yük balanslaşdırılması əsaslı Genetik alqoritm üzərində yeniliklər edərək çoxlu sayda istifadəçi yararlanmağa çalışanda bu zaman serverlərdə yüklənmələrin qarşısını almağa xidmət edir.

Təklif olunan alqoritm 3 əməliyyatı icra edir: seçmə, genetik əməliyyat və yerdəyişmə. Bu üsulun üstünlüyü ondadır ki böyük həcmli boşluqları idarə etmə və mürəkkəb funksiyaların tətbiqedilə bilməsi imkanına malikdir.

2.2 Mənim Fikrim

Bu məqalədə araşdırılmış əsas tədqiqat sahəsi veb serverdə növbəlilik modellərinin analizi və yükləmə balanslaşmasını ən optimal formada icra edən metod və modellərin tədqiq üzərində dayanmışdır. Mənim fikrimcə, bu movzuyla bağlı ədəbiyyat icmalından belə nəticəyə gəldim ki, Kousik Dasgupta, Brototi Mandal və başqalarının [9] təklif etdiyi yük balanslaşdırılma əsaslı Genetik alqoritmi təyin edilmiş əsas effektivlik (KPİ) göstəriciləri üzrə ən yaxşı nəticə göstərməklə problemin həllində daha uğurlu nəticə əldə etmişdir. Tədqiqatda aparılmış təcrübələr real iş mühitində məhdud sayda istifadəçilərin veb server mühitində çoxlu sayda virtual maşınların xidmətə qoşulması ilə test edilmişdir. Müxtəlif sayda virtual maşınlardan alınan nəticələr göstərir ki, digər ənənəvi alqoritmlər Genetik alqoritmdən cavab zamanının yuxarı olması səbəbi ilə geri qalmaqdadır.

	25 virtual maşın	50 virtual maşın	75 virtual maşın
Genetik alqoritm	348.85 (ms)	345.54 (ms)	340.65 (ms)
Stoxastik təpəyə qalxma alqoritmi	354.35 (ms)	350.71 (ms)	346.46 (ms)
Round Robing	359.35 (ms)	356.93 (ms)	352.09 (ms)
FCFS alqoritmi	360.95 (ms)	359.97 (ms)	358.44 (ms)

Cədvəl 1. Genetik alqoritminin digər alqoritmlərlə cavab zamanına (KPİ) görə müqayisəsi

Tədqiqatçı 4 alqoritm arasında etalon kimi qoyduğu 350 milli saniyə normal cavab zamanı riyazi olaraq ödənildiyindən Genetik alqorimin problemin öhdəsindən daha yaxşı gəlməsini göstərir. Təklif olunan alqoritm 3 əməliyyatdan ibarətdir: seçmə, genetik əməliyyat və yerdəyişmə. Bu alqoritm biologiyada bildiyimiz addan götürülüb və yeni növbənin yaranması xromosomların peyda olması kimi xarakterizə olunur. Düstur olaraq zaman çətinliyini versək: Burada c – k sayda xromosomların yoxlama dəyəri, k –xromosomların sayı, m – xromosomun uzunluğu.

$$G = O\,[n1+(c \times k) + (n2 + 1)\,(m+m+m)]$$

3.NƏTİCƏ

Genetik alqoritmi dinamiki və paylanmış veb server mühitində digər ənəvi alqoritmlərdən fərqli olaraq sistemin gözləmə zamanını daha aşağı salaraq növbədə gözləyən müştərilərin pakek və sorğularının itki olmadan sürətli şəkildə mübidəsinə imkan verir. Tədqiqatçı [9] yükləmə balansı strategiyasını təklif etməklə verilən tapşırıqları minimum zaman intervalında icra etməklə həm müştəri məmnuniyyətinə qoruyur, eyni zamanda sistemin performansının aşağı düşməsinə şərait yaratmır.

ƏDƏBIYYAT SIYAHISI.

[1] Luis Aversa və Azer Bestavros, "Load Balancing a Cluster of Web Servers," Performance, Computing, and Communications Conference, 2000. IPCCC '00. Conference Proceeding of the IEEE International, pp. 24 – 29, Feb 2000.

[2] Parijat Dube və Rahul Jain, "Queueing Game Models for Differentiated Services," Game Theory for Networks, 2009. Game Nets '09. International Conference, pp. 523 – 532, 13-15 May 2009.

[3] Zhongju Zhang and Weiguo Fan, "Web server load balancing: A queueing analysis," European Journal of Operational Research. vol. 186, Issue 2, , pp. 681–693, 16 April 2008.

[4] Ying-Wen Bai and Chien-Yung Cheng, Computer-Based Medical Systems, 2004. CBMS 2004. Proceedings. 17th IEEE Symposium, pp.191 – 196, 24-25 June 2004.

[5] S.Kitajima, Jing Cai, Tsutomu Terada, Takahiro Hara, Shojiro Niszhio, "A Query Processing Mechanism Based on the Broadcast Queue for Broadcast Datab ase Systems," 2006 1st International Symposium on Wireless Pervasive Computing, pp. 1 – 6, 16-18 Jan. 2006.

[6] AV.Karthick, Dr. E.Ramaraj və R.Ganapathy Subramanian "An Efficient Multi Queue Job Scheduling for Cloud Computing," Computing and Communication Technologies (WCCCT), 2014 World Congress, pp. 164 – 166, Feb. 27 2014-March 1 2014.

[7] Mohamed Eisa, E. I. Esedimy, M. Z. Rashad, "Enhancing Cloud Computing Scheduling based on Queuing Models," International Journal of Computer Applications 2014, vol. 85 - Number 2.

[8] P. Suresh Varma, Satyanarayana A, M V Rama Sundari, "Performance Analysis of Cloud Computing using Queuing Models," Cloud Computing Technologies, Applications and Management (ICCCTAM), 2012 International Conference, pp. 12 – 15, 8-10 Dec. 2012.

[9] Kousik Dasgupta, Brototi Mandal, Paramartha Dutta, Jyotsna Kumar Mondal, Santanu Dam, "A Genetic Algorithm (GA) based Load Balancing Strategy for Cloud Computing," International Conference on Computational Intelligence: Modeling Techniques and Applications (CIMTA) 2013. vol. 10, pp. 340-347, 2013.

AÇIQ KODLU NÜVƏLƏR TEXNOLOGIYASI TƏMƏLINDƏ MÜASIR EMBEDDED SISTEMLƏRININ LAYLIHƏLƏNDIRILMƏSI VASITƏLƏRININ TƏDQIQI

NURLANA QASIM QIZI HÜSEYNOVA
Bakı Mühəndislik Universiteti
nhuseynova@beu.edu.az

XÜLASƏ

Açıq ilkin kodlu nüvələr (Open Cores) texnologiyasının əsas xüsusiyyətləri açıqlanır.FPGA İP- nüvələr təməlində strukturu rekonfiqurasiya edilə bilən Embedded sistemlərin layihələndirilməsi üçün ARM,Microsemi kimi aparıcı kompaniyalar tərəfindən yaradılan proqram mühitlərinin təyinatı və qarşılıqlı əlaqələri təhlil edilir. Açıq ilkin kodlu nüvələr texnologiyasını dəstəkləyən proqram təminatı kompleksi vasitəsilə Embedded sistemlərin layihələndirilməsinin ümumi strukturu təyin edilir.

SUMMARY

The main features of open-source Cores technology are described. The design and interconnection of software environments created by leading companies such as ARM and Microsemi are aalyzed to design embedded systems that can be reconstructed on the basis of FPGA IPcores. Is defined common structure of Embedded Systems Designing process that supports open codes technology.

Açar sözlər: *açıq ilkin kodlu nüvələr(Open Cores),* İP- nüvələr,SoC,FPGA, ASİC, *ARM,Microsemi, Firmware*

Açıq ilkin kodlu proqram təminatı (Open Source Software-OSS) texnologiyasının Embedded qurğuların layihələndirilməsi prosesinə tətbiqi istiqamətində aparılan tədqiqatların ilkin nəticəsi olaraq *açıq ilkin kodlu nüvələr(Open Cores)* texnologiyası yaradılmış və müasir dövrdə də geniş istifadə edilməkdədir[1]. Open Cores ən çox tanınan *on-line cəmiyyət* olub əsas məqsədi yaradılmış aparat-proqram məhsullarının tətbiqi sahə layihəçiləri üçün əlçatan olmasını və tələbdən asılı olaraq onların modifikasiya edilərək layihəyə asanlıqla daxil edilməsi kimi imkanları müxtəlif təyinatlı və çoxsəviyyəli virtual layihələndirilmə mühitləri vasitəsilə dəstəkləməkdən ibarətdir. Open Cores məhsullarının yaradılmasında əsas kriteriya kimi onların təkrar istifadə edilmə və dgər layihələrə çevik adaptasiya olunma kimi xüsusiyyətlərə malik olmasını göstərkəm olar. Bu xüsusiyyətlərin təmin edilməsində həlledici rol oynayan İP- nüvələr,SoC(Çip daxili sistemlər) və FPGA kimi texnologiyaların layihələndirmə prosesində tətbiqi hazırda müxtəlif tətbiqi sahələr üçün yüksək məhsuldarlıqlı,aşağı dəyərli qurğuların yaradılmasını mümkün etmişdir[2].

Ümumi halda İP(“intellectual property” –“intellektual mükəlləfiyyət”) nüvələri məntiqi, yaxud proqram kodu blokları olub FPGA (Field programming Gate array-tətbiqi sahə üzrə proqramlana bilən ventillər matrisi),yaxud ixtisaslaşdırılmış inteqral sxemlər ASİC (Application Specific integrated sircuits) texnologiyaları təməlində qurğuların yaradılması üçün istifadə edilir.Layihələndirilmiş strukturun digər tətbiqlər üçün yenidən istifadə edilməsinin (rekonstruksiya edilməsinin) vacib elementi kimi İP nüvələri bundan əvvəl layihələndidrilmiş komponentlərin aparat-proqram təminatlarının yığımından ibarətdir.İdeal olaraq İP nüvələri tam daşınan,yəni istehsalçıların ixtiyari arxitekturuna inteqrə edilə bilən olmalıdır .İP nüvələrinin nümunələri kimi universal asinxron qəbuledici/ötürücü (UART), mərkəzi prosessor(CPU),Ethernet kontrolleri,PCİ Express interfeys kontrolleri bloklarını göstərmək olar [3].

İP nüvələri 3 sinfə bölünür: sərt strukturlu(hard),yumşaq proqram təminatlı(firmware proqram kodu),proqramlı(software).Hard nüvələr IP sxemlirinin ASIC şəklində gerçəklənməsi olub digər arxitekturlara daşınma (rekonfiqurasiya edilmə) və çeviklik xüsusiyyətlərinin tam məhdud olması ilə fərqlənir. Firmware tipli nüvələr müxtəlif tətbiqlər üçün firmwar-nın müəyyən dərəcədə sazlanması yolu ilə rekonfiqurasiya edilə bilər.Soft-nüvələr daha çox çeviklik xüsusiyyətinə malik olub FPGA daxilindəki funksional bloklar və onların qarşılıqlı əlaqəsi şəklində HDL səviyyəsində tamamilə yenidən konfiqurasiya edilə bilər.

Açiq kodlu nüvələr texnologiyasi təməlində müasir embedded qurğuları və sistemlərin yaradılması istiqamətində ARM,Microsemi tərəfindən təklif edilən çox səviyyəli və çox funksiyalı

laylihələndirilmə mühitlərini göstərmək olar. ARM müxtəlif tətbiqi sahələrin tələblərinə cavab verən fiziki İP və prosessorların yaradılması üzrə qabaqcıl həllərin təhcizatçısı kimi fəaliyyət göstərir.Digər tərəfdən Free İP Project və Open Cores kimi bir sıra təşkilatlar müxtəlif İP nüvələrin birgə istifadəsi üçün yaradılmışdır.

ARM proqram paketləri kompleksinə[4,5] daxil olan layihələndirmə vasitələrinin təyinatı və xüsusiyyətlərini aşağıdakı kimi təhlil etməkolar:

ARM Design Start proqram paketi innovativ istifadəçi çiplərinin ,yaxud FPGA dəstəkli qurğuların layihələrinin yaradılmasını təmin edir. İstifadəçi çipləri,yaxud FPGA konstruksiyaları üçün İP nüvələrinə və digər resurslara bu layihələndirmə mühitindən müraciət edə bilər.

Design Start Eval paketi ARM MP32+FPGA arxitekturlu maketləyici lövhə ilə birgə istifadə edilərək Cortex-M prosessorları təməlində sistemlərin layihələrinin maketləndirilməsi üçün nəzərdə tutulmuşdur.Maketlənmə üçün ARM MP32+FPGA lövhəsi üzərində kifayət qədər böyük həcmli məntiqi bloklara və yaddaş həcminə malik FPGA və geniş çeşidli faydalı periferiya blokları vardır. **Design Start Eval** mühitindən istifadəçinin layihələndirdiyi SoC-lar mükəmməlləşdirilə,tədqiqat və tədris prosesi üçün dizayn edilərək prototipi (maketi) yaradıla bilər.Bu paket həmçinin maketləndirilən qurğunun proqram təminatının yaradılmasını da dəstəkləyir.

Design Start FPGA layihələndirmə mühitdən FPGA-lar üçün Cortex-M arxitekturunun İP nüvələrinə müraciət edilə bilər.

Design Start Pro paketi kommersiya tipli Cortex M0 və Cortex M3 prosessor təməlli SoC-ların layihələndirilməsini dəstəkləyir.

Design Start Physical İP proqram paketi istifadəçi SoC-larının layihələndirilməsini sürətləndirir.

Design Start for University proqram paketi tədris və tədqiqatlar üçün SoC-larının layihələndirilməsi və onların istehsalı prosesini dəstəkləyir.

Məlumdur ki, tətbiqi qurğuların aparat təminatı ilə effektiv işləyə bilən əməliyyat sistemi və drayverlərin yaradılması qurğunun layihələndirilməsi prosesində yerinə yetirilməlidir.Bu məqsədlə ARM tərəfindən proqram təminatının yaradılması üçün bir sıra virtual proqram mühitləri yaradılmışdır.Kiçik Cortex-M seryalı MK təməlli sensor qurğularından başlayaraq çoxnüvəli SoC təməlli serverlərə qədər qurğular üçün proqram təminatının yaradılması **ARM üçün C/C++ kompilyatorlar** vasitəsilə dəstəklənir.

ARM təməlli müasir elektron qurğularına (kardiostimulyatorlardan başlayaraq mobil telefonlara qədər) C/C++ kompilyatorunun hasil etdiyi daxili kodlarlar inteqrə edilir.

DS-5 layihələndirmə studiyası_ARM təməlli ixtiyari SoC-lara inteqrə edilmiş proqram təminatının yaradılması üçün bir sıra layihələndirmə vasitələri (redaktor, kompilyator, sazlayıcı) daxildir.

Microsemi FPGA layihələndirmə vasitələri kompleksi olaraq yüksək təhlükəsizlik və etibarlıq,az enerji sərfi kimi tətləblərə cavab verən tətbiqi layihələr yaratmağa imkan verən ən yeni texnologiyalar üzrə optimallaşdırılmışdır.Bu həllər sırasında aşağıdakı layihələndirmə vasitələrini göstərmək olar [6]:

Microsemi-nin FPGA VƏ SOC-ları.

Layihələndirmənin sistemli və ya qurğu (lövhə) səviyyəsində aparılmasından asılı olmayaraq Microsemi kompaniyası unikal , az güclü və enerjidən asılı olmayan texnologiya əsasında FPGA və SoC təməllində yüksək təhlükəsizlik və etibarlılıq tələblərini ödəyən sistemləri yaratmağa imkan verir. Yaradılan layihələr nəqliyyat , sənaye,mobil kommunikasiya, kosmik tədqiqatlar, kommersiya kimi sahələrinin tələblərinə cavab verir.

Microsemi İP nüvələri.

Microsemi yoxlanılmış və optimallaşdırılmış geniş İP-nüvələr yığımına malikdir ki, onlar Microsemi FPGA-lar və SoC-larla birgə istifadə edilir . İP-nüvələrin geniş yığımı Microsemi *Direct Cores* kimi,yaxud kənar layihəçilərin *Companion Cores* nüvələr kimi təşkil edilmişdir. Ümumi kommunikasiya interfeysləri, periferiya və prosessor elementləri Direct Cores-lar kimi əlçatandır.

Microsemi Polar Fire FPGA Family layihələndirmə kompleksinin strukturuna *Microsemi Polar Fire FPGA, sürətli interfeys protokolları və* Soft şəklində *funksional İP –lər*, təhlükəsizliyi təmin edən *Crypto Co-prosessor, konfiqurasiya edilən FPGA İP nüvələri və sistemli konrollerlər* kimi müxtəlif bloklar daxildir (şək.1).



Şək.1. Microsemi PolarFireFPGA kompleksli layihələndirmə sisteminin strukturu.

Əksər Microsemi İP blokları üçün drayverlər Fimware Catalog-dan seçilə bilər.Bunlar C-mənbəli olduğundan onları kompilyasiya edib istifadəçi proqramların qoşmaq mümkündür.Digər tərəfdən drayverlər periferiya bloklarının gerçəkləşdirilməsi əməliyyatlarındakı xırdalıqları tətbiqi proqram interfeysi (APİ) arxasında gizlətmiş olur.Odur ki,layihəçiyə yalnız periferiya bloklarını funksional olaraq təyin etmək lazım gəlir.

ARM və Microsemi layihələndirilmə vasitələrindən(proqram paketləri, Soft/ Firmware İP-nüvələrindən və aparatlı Demo-lövhələrindən) istifadə etməklə Embedded sistemlərin açıq kodlu nüvələr texnologiyası əsasında layihələndirilməsi prosesinin ümumi strukturunu şək.2 -dəki kimi göstərmək mümkündür.

Firmware catalog [7] avtonom icraedici proqram olub ARM Cortex M3/M1,Core 8051 prosessorları təməlində qurulan MP-lar üçün inteqrə edilmiş layihələndirmə vasitələrini (IDE) dəstəkləyir və Microsemi İP-nüvələrlə uzlaşan firmware-ların axtarışı və yaradılmasını sadələşdirir. Firmware kataloqu yeni f irmware-ların İnternetdən yüklənərək onların drive-da saxlanılmasını təmin edir. FPGA Microsemi layihəsində istifadə edilməsi üçün İP-nüvələr layihəyə Embedded İDE mühitindən yüklənə bilər.

Smart Fusion axınını dizayn etmək üçün hansı firmware-nın seçilməsi və generasiya edilməsi istifadəçi tərəfindən verilməsinə ehtiyac yoxdur.FPGA Smart Fusion və Smart Fusion SoC üçün Smart Design mühiti özü yaradılan İP üçün avtomatik olaraq firmware-nı verir.



Şək.2. Embedded sistemlərin açıq kodlu nüvələr texnologiyası əsasında layihələndirilməsi prosesinin ümumi strukturunu

ƏDƏBIYYAT SIYAHISI

1. The reference community for Free and Open Source gateware IP cores.2017 www.opencores.org
2. M.Rubini.Design of high performance system-on-chips using Field Programmable Gate Arrays (FPGA).International Conference on Communication and Signal Processing.2014.
3. Projects _ Open Cores. 2017. www.opencores.org
4. Introduction to Intel ® FPGA IP Cores.2018.Intel Corporation
5. Open Cores/EDA Tools.ARM Developer.2017, www.arm.com
6. Microsemi Libero SoC FPGA Design .2018/www.microsemi.com
7. Firmware Catalog.2018 / www.microsemi.com

AVTOMATLAŞDIRILMIŞ İNFORMASİYA SİSTEMLƏRİ (MÜHASİBAT UÇOTU)

DOS. ƏLİYEVA YEGANƏ MÖVSÜM, TƏDQİQATÇI-ASLANBƏY YEGANƏ RÜFƏT

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

yegiaslanbey@gmail.com

Xülasə:. Bu məqalədə avtomatlaşdırılmış informasiya sistemləri vasitəsilə idarəetmə uçotunun təşkili, aparılma qaydası, hesabatların tərkibi və strukturu informasiya istifadəçilərinin tələbləri çərçivəsində sərbəst formada müəyyənləşdirilməsi qeyd olunub.

Summary: This article outlines the organization of the management accounting, automated information systems, the composition and structure of the reports in a free form within the requirements of information users.

Açar sözlər: uçot informasiyası, AİS təşkili, mühasibatlıq proqramları, 1C.

Avtomatlaşdırılmış iş yeri (AİY)- avtomatlaşdırılmış informasiya sistemləri, avtomatlaşdırılmış idarəetmə sistemləri ilə istifadəçi arasında qarşılıqlı əlaqələrin informasiya, texniki, riyazi-proqram və təşkilati-hüquqi üsul, vasitə və prosedurları yığımıdır.

AİY-nin yaradılması zamanı əsas prinsiplərdən biri onun iqtisadi obyektlərin idarə edilməsində dəyişən şəraitə uyğunlaşmasıdır.

AİY-də mühasibat uçotunun işlənməsində aşağıdakı funksiyalar reallaşdırılır:

- ilkin sənədlərdən verilənlərin komputerə daxil edilməsi;
- daxil edilən verilənlərə nəzarət;
- informasiyanın təshih edilməsi;
- mətn, cədvəl, qrafik informasiyalarının emalı;
- ilkin uçot informasiyasının toplanması və müəyyən olunmuş dövr üçün saxlanması;
- sorğular üzrə informasiyanın alınması üçün ilkin informasiyanın məntiqi-riyazi emalı;
- alınmış nəticələrin displeyə, maqnit daşıyıcılarına, printerlərə və s. verilməsinə uyğun icmal hesabatlar;
- müəssisənin təsərrüfat maliyyə fəaliyyətinin xüsusiyyətləri və idarəetmənin tələbləri əsasında göstəricilər üzrə verilənlərin qruplaşdırılması;
- emal prosesinin müxtəlif mərhələlərində verilənlərin emalı və nəticələrin təqdimatı, opretaiv uçot informasiyalarının formalaşması;
- müəssisənin maliyyə-iqtisadi vəziyyəti üzrə qrafik və dioqramların qurulması;
- əlaqə kanalları vasitəsilə abonentlərə informasiyanın ötürülməsi.

Uçot informasiyası - uçot məsələlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan iqtisadi informasiyanın bir hissəsidir. Uçot informasiyası artıq baş vermiş hadisələri və təsərrüfat proseslərini xarakterizə edir. Bu informasiya sənədlərdə bütün resursların və təsərrüfat əməliyyatlarının müşahidəsi, ölçülməsi və sənədlərdə sistemləşdirilmiş qeydiyyatı zamanı yaranır. Müəssisənin bütün fəaliyyətinin nəticələrinin əldə olunması və qiymətləndirilməsinə xidmət edir. Uçot obyektləri uçot sənədlərində kəmiyyət və dəyər göstəriciləri vasitəsi ilə əks etdirilir.

Operativ idarəetmədə ilkin uçot və mühasibat uçotunun məlumatları istifadə olunur. Bu məlumatlar isə idarəetmənin orta və üst səviyyələri üçün informasiya formalaşdıran, informasiya təminatı yaradan uçotun kompleks avtomatlaşdırılmış sistemi ilə formalaşdırılır.

İdarəetmənin orta səviyyəsi bu məlumatı idarəetmənin təhlili və obyektin təsərrüfat fəaliyyətinin planalaşdırılması kimi funksiyalarının yerinə yetirilməsi üçün istifadə edir. Nəticəvi informasiyalar taktiki qərarların qəbul edilməsi yönümündə idarəetmənin yüksək səviyyəsinə ötürülür. [1,4]

Mühasibat uçotunun komputerləşdirilməsi 1950-ci illərin əvvəllərində hesablama maşınarında ilk tipik uçot layihələrinin işlənməsi ilə başlanılıb. Müasir dövr fərdi komputerlərin istifadəsilə mühasibat tapşırıqlarının reallaşdırılmasında kifayət qədər praktiki təcrübənin toplanması ilə xarakterizə olunur. Iqtisadiyyatın idarə olunmasının yenidən təşkili və bazar münasibətlərinin formalaşması nəticəsində fərdi komputerlərin bazasında mühasibat uçotunun komputer sisteminin layihələndirilməsi və yaradılması sahəsində iştirak edən sahibkarlıq strukturları (firmalar, korporasiyalar) yarandı.

Ümumilikdə mühasibat uçotunun avtomatlaşdırılmasının tarixi inkşaf xüsusiyyətlərinə nəzər saldıqda belə qənaətə gəlmək olar ki, müəssisələrdə mühasibat uçotu iki formada avtomatlaşdırılır;

- Mühasibat uçotu müəssisə daxilində ayrıca proqramlaşdırılır
- Mühasibat uçotu bütov bir AİS-nin alt sistemi kimi avtomatlaşdırılır.

Uçot informasiyalarının işlənməsində Avtomatlaşdırılmış İnformasiya Sistemlərinin (AİS) layihələndirilməsində məqsəd idarəetmə sisteminin təkilləşməsini və iqtisadi tapşırıqalrın informasiya texnologiyaları bazasında kompleks həllini təmin edən tədbirlərin işlənib hazırlanmasından ibarətdir. AİS-in təşkilində sistemli yanaşma əsas şərtdir.

AİS-nin təşkilinə sistemli yanaşma obyektə onun struktur bölmələri arasında müxtəlif informasiya əlaqələrinin olmasına baxmayaraq bütov bir vahid kimi baxılmasından asılıdır. AİS-də mühasibat uçotu bütöv sistemin əsas tərkib hissəsi kimi layihələndirilir.

Müəssisələrdə AİS-nin yaradılması iki yolla həyata keçirilə bilər;

Birincisi - AİS-nin öz işçiləri (proqramistləri) tərəfindən yaradılması. Bunun üçün müəssisədə komputer informasiya sistemi məsələləri ilə məşğul olan ixtisaslaşmış mütəxəssislərin olduğu struktur bölmənin olması və ya yaradılması vacibdir. Belə struktur bölmələrinin iri və orta həcmli müəssisələrdə olması məqsədəuyğundur. Lakin kiçik müəssisələrdə belə bölmələrin fəaliyəti qənaətbəxş deyildir.

İkincisi- AİS-nin ixtisaslaşmış müəssisələr vasitəsilə yaradılması. Son illərdə AİS-nin yaradılması sahəsində bütün işləri kompleks yerinə yetirən firmalardan məsləhət xidmətlərinin alınması geniş yayılmışdır. Bu kimi müəssisələr tərəfindən yaradılan AİS-nin səmərəliliyi daha yüksəkdir və informasiya emalının səmərəliliyini yüksəldir. [2]

Proqram təminatlarının hazırlanmasında vahid metodologiya olmamasına baxmayaraq bütün mühasibat uçotunun avtomatlaşdırılması ilə məşğul olan mütəxəssislər aşağıdakı vahid prinsiplərə əməl etməlidirlər.

– mövcud normativ hüquqi aktlara və vahid uçot metodologiyasına əməl olunması;
– müəssisənin miqyası;
– proqramın modullar əsasında tərtibi;
– daim təkmilləşdirilmələrin aparılması;
– mühasibat uçotunun avtomatlaşdırılmasında hər üç növ layihələndirmələrdən istifadə olunması.

Tarixə nəzər saldıqda görmək olar ki, fərdi komputerlərin tətbiqi ilə əlaqədar olaraq daha çox fərdi və tipik proqramlardan geniş istifadə olunub. Korporativ sistemlərin yaradılması və tətbiqi o müəssisələrdə tətbiq olunur ki, orada mühasibat uçotunun alt sistemləri qarşılıqlı fəaliyyət göstərir. Layihələndirmənin növlərinin seçilməsini adətən uçot məsələlərinin işlənməsi sahəsində savadlı kadrları olan ixtisaslaşmış müəssisələrin ixtiyarına buraxırlar. Belə təcrübə iri və orta həcmli müəssisələrdə tətbiq olunur. Kiçik müəssisələrdə bu təcrübə heç də hər zaman səmərəli nəticə vermir. Layihələrin seçilməsində əsas meyarlar aşağıdakılardır:

– müəssisənin miqyas və təsərrüfat-maliyyə fəaliyyətinin spesifik xüsusiyyətlərinin nəzərə alınması:
– əlavə yenidən işlənmələr tələb olunmadan müəssisənin konkret iş şəraitinə uyğunlaşdırılması;
– uçot tapşırıqların kompleks avtomatlaşdırılması;
– müəssisənin istehsal – maliyyə fəaliyyətinə istiqamətlənməsi
– mühasibat uçotunun yaxşılaşdırılması məqsədlərinə nail olunması;
– sənədləşmənin keyfiyyəti.

İşə salınan proqramda Konfiqurator və Отладчик rejimləri proqramın köklənməsi üçün istifadə olunur. Manitor rejimi istifadəçinin işinə nəzarət etmək üçün nəzərdə tutulub. Uçot işləri isə 1C müəssisə rejimində aparılır.



Proqramda yeni bazanın yaradılması üçün “əlavə etmək” (dobavit) düyməsindən istifadə edilir. [3]



ƏDƏBIYYAT

1) https://muhasib.az/Meqale/meqale.php?id=2
2) http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=81
3) Library.unec.az
4) ABBASOV İ.M., MƏMMƏDOV İ.A., CABBAROV A.S. "Mühasibat uçotu (sahələr üzrə)" – dərslik. Bakı, 2017 – 424 s.

YOL-NƏQLİYYAT SİSTEMİNİN ADAPTİV İDARƏ OLUNMASI

XASAYEVA NATAVAN MƏMMƏD QIZI

Azərbaycan Texniki Universitetinin doktorantı

xfazil605@gmail.com

XÜLASƏ

Texnologiyanın sürətlə inkşaf etdiyi bu dövrdə nəqliyyat sistemində olan bir sıra problemlər qaçınılmaz hala gəlmişdir. Belə ki, avtomobillərin sayının getdikcə artması yollarda yaranan tıxaclara və bu tıxaclardan yarana problemlərə gətirib çıxarır. Aydındır ki, bu problemlər insanlara mənəvi və maddi tərəfdəndə böyük ziyanlar vurur. Maddi tərəfi ondan ibarətdir ki,xeyli miqdarda benzin serfiyyatına səbəb olur. Mənəvi tərəfi isə insanların əsəblərinin pozulmasına və nəticə olaraq bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır. Nəqliyyat sisteminin adaptiv idarəsində əsas məqsəd yollarda olan tıxacların qarşısını almaq və işıqforların zaman göstəricilərinin düzgün nizamlanmaqdan ibarətdir. Yəni işıqforların vaxtlarının optimal müddətdə optimallaşdırdığı bir sistemdir. Məlum olan bu sistem mərkəzdən alınan məlumatları qiymətləndirir və buna uyğun olaraq idarəetməni həyata keçirir.

Açar sözlər: adaptiv tənzimləmə sistemi, nəqliyyat, nəqliyyat sıxlığı, işıqforlar, vaxtın optimallaşdırılması.

Bilirik ki, hər il müxtəlif rayonlaran şəhərlərə axın olur. Bunların bəziləri tələbələr bəziləri isə müxtəlif məqsəd üçün şəhərlərə axın edirlər. Bunun nəticəsində şəhərlərdə tıxaclar yaranır(Şəkil 1.). Bu isə öz növbəsində havanın çirklənməsinə, yanacaq istehlakının artmasına və digər problemlərər gətirib çıxarır. Aydındır ki, bu həm fiziki həm də hüquqi şəxslərə maddi tərəfdən baha başa gəlir. Buna səbəb şəhərlərdə düzgün planlaşdırılmamış işiqforlar və onların düzgün nizamlanmamış zamanlarıdır. Bu məsələyə həll olaraq nəqliyyatın adaptiv idarə olunması məsələsinə baxacayıq. Aydındır ki, adaptiv idarə dedikdə idarə olunan obyektin parametrlərinin dəyişməsindən və ya xarici təsirdən asılı olaraq, tənzimləyicinin parametr və ya strukturunu optimallaşdırma meyyarına və ya təlimata uyğun adaptasiya etməyə imkan verən idarəetmə üsulu başa düşülür. Uyğun üsulu icra edən sistemlər adaptiv idarəetmə sistemləri adlanır.

Şəkil 1.Şəhərlərdə tıxac problemi

Nəqliyyatın adaptiv idarə olunması sisteminin mahiyyəti aşağıdakı kimidir:

1) Bu vəya digər şəhərin yollarının hər bir kəsişmə nöqtəsində nəqliyyat axınları ilə bağlı məlumatlar real vaxtda xüsusi mərkəz tərəfindən toplanılır (Şəkil 2.) və mərkəzi kompüterə ötürülür.

Şəkil 2.Nəqliyyatin nəzarət- idarə mərkəzi

2) Kompüter hər keçiddə nəqliyyat axınındakı məlumatları özündə toplayır və müəyyən hesablamalar əsasında işıqforun optimal vaxtını müəyyənləşdirir (Şəkil 3.).



Şəkil 3. Nəqliyyatın adaptiv idarə olunması sistemi.

Bu adaptiv nəqliyyat nəzarət sistemi ən uyğun dövr uzunluğu, bölünməsi və bağlantıları seçilərək dayanacaqları, gecikmələr və səyahət vaxtını minimuma endirməyə kömək edir. İlk dəfə bu sistem Sidney, Avstraliya, 1970-ci illərdə Yollar və Dəniz Xidmətlərinin keçmiş hissəsi tərəfindən hazırlanmışdır və 1982-ci ildən bu yana Melburnda və Qərbi Avstraliyada 1983-cü ildən bəri istifadə edilmişdir. İlk müsbət nəticələrdən sonra bu nəqliyyat nəzarət sistemi bu problem ilə qarşı-qarşıya olan digər ölkələr və şəhərlərə tətbiq olumuşdur: Tehran, Yeni Zelandiya, Şanxay, Amman, Dublin, Oakland County, Minneapolis və Michigan bir neçə nümunədir.

Nəqliyyatın adaptiv idarə olunması fəlsəfəsini başqa sözlə aşağıdakı kimi göstərə bilərik:

- Hərəkəti trafik həcmini müəyyənləşdirir;
- Məlumatları axın dərəcəsinə çevirir;
- Optimal dövr uzunluğunu hesablayır;
- Faza mərhələsində optimal boşluqları hesablayır;
- Faza birləşmələrini müəyyənləşdirir.

Nəqliyyat sisteminin adaptiv idarəsinin bir sıra üstünlüklərini qeyd edək:

♦ Nəqliyyatın həcminin artmaması üçün kəsilən qovşaqlara mane olur və nəqliyyat axınını sürətləndirir və gecikməni azaldır.

♦ Mərkəzdən alınan məlumatları qiymətləndirir və qovşaqların siqnal müddətini real vaxtda optimallaşdırır.

♦ Tez bir zamanda trafik həcmindəki dəyişikliklərə və yeni vəziyyətə uyğun olaraq yeniləmə siqnalının vaxtlarına uyğunlaşır.

♦ Yol şəbəkəsində səyahət vaxtı və emissiya dəyərlərini azaldır.

ƏDƏBİYYAT

1. В.А. Жмудь, Д.О. Терешкин, О.В. Прыткова. Адаптивные Системы
i. Автоматического Управления. 2011 – № 1(63).– 23–40.
2. Q.Ə.Rüstəmov, A.T.Məmmədova. Optimal və Adaptiv İdarəetmə Sistemləri.
i. AzTU-nun mətbəəsi-2015, səh 100-107.
3. V.Ə.Məhərrəmov. Tənzimləyici. Azərbaycan Pespublikasının patent.İ 2003 №
i. 99/001569. Bakı. 2003
4. K. Fehon and R. Chong, "Adaptive Traffic Signal System for Cupertino California," 4*th Asia-Pacific Transporta-tion Development Conference*, April 18-20, 2003.
5. F. Hu, *et al*., "Field Evaluation of SCATS Control System in Las Vegas," *Proceedings of the* 11*th International Con f erence of Chinese Transportation Profess i on a l s*, 2011, pp. 3963-3973. doi:10.1061/41186(421)397.

ABSTRACT

During the rapidly evolving technology, a number of problems in the transport system have become inevitable. So increasing the number of cars leads to traffic jams and traffic jams. Obviously, these problems cause great damage to people morally and financially. The material side is that it generates a large amount of gasoline. The moral side leads to the disruption of the nervousness of people and, consequently, the emergence of a number of illnesses. The main purpose of the adaptive management of the transport system is to prevent traffic jams and to properly adjust the timing of the lights. This is a system optimized for the optimal time of lighting. This known system evaluates the information received from the center and implements it accordingly.

Key words: adaptive arrangement system, transport, traffic density, lighting, time optimization.

SƏNAYEDƏ İNNOVASİYALI-İNTENSİV İSTEHSALIN İDARƏ EDİLMƏSİNİN İNFORMASİYA TƏMİNATININ FORMALAŞDIRILMASI

Pərviz MƏMMƏDOV
Bakı Mühəndislik Universiteti
pmemmedov@beu.edu.az

Vüqar MURADOV
Bakı Mühəndislik Universiteti
vmuradov@beu.edu.az

Nameddin QURBANOV
nqurbanov@yahoo.com

XÜLASƏ

Sənaye müəssisəsinin idarə edilməsi, müəssisədə çalışan kollektivin və onun ayrı-ayrı üzvlərinin fəaliyyətinə məqsədyönlü və fasiləsiz təsirlər hesabına, məhsul buraxılışı proseslərinin ciddi koordinasiyasını nəzərdə tutur. Bu məqsədlə sənayedə innovasiyalı-intensiv istehsalının idarə edilməsinin adekvat informasiya təminatı formalaşdırılmalıdır. Məqalədə müvafiq aktual məsələlər tədqiq edilir.

Açar sözlər: informasiya təminatı, sənaye istehsalı, idarəetmə, intensivləşmə, innovasiya.

ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ УПРАВЛЕНИЯ ИННОВАЦИОННО-ИНТЕНЦИВНОГО ПРОМЫШЛЕННОГО ПРОИЗВОДСТВА

РЕЗЮМЕ

Управления промышленного предприятия предусматривает строгой координации процессов выпуска продукции, за счет целенаправленной и непрерывной влияний деятельности коллектива и ее отдельных членов. С этой целью необходимо сформировать адекватного информационного обеспечения для управления инновационно-интенцивного промышленного производства. В статье исследованы задачи такого порядка.

Ключевые слова: информационное обеспечение, промышленное производство, управление, интенцификация, инновация.

FORMING THE INFORMATION PROVISION OF THE INNOVATIVE-INTENSIVE PRODUCTION IN THE INDUSTRY

RESUME

The management of the industrial enterprises takes into account the serious coordination the production of the goods of the collective working in the enterprise, for the account of the purposeful and continuous impact on the activity of the members. For this purpose, the adequate information provision of the management of the innovative-intensive production should be formed. The appropriate actual problems are discussed in the article.

Key words: information provision, industrial production, management, intensity, innovation.

GİRİŞ

Müəssisənin ayrı-ayrı bölmələrinin qarşılıqlı əlaqəli, birgə fəaliyyəti, aparılmış tədqiqatlardan və qabaqcıl təcrübədən göründüyü kimi,idarəetmənin və onun informasiya təminatının səmərəliliyindən bilavasitə asılıdır. İnformasiya idarə olunan obyekt və idarə edən subyekt arasında dövr edərək hesabat göstəriciləri əsasında optimal qərarların hazırlanması və əsaslandırılmasına xidmət edir. Müəssisə səviyyəsində innovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin adekvat informasiya təminatı formalaşdırılması bir sıra aktual nəzəri-metodoloji və təcrübi problemlərin həllini tələb edir.

İdarəetmə strukturu və institusional yeniliklər.Sənaye istehsalının müəssisə səviyyəsində idarə edilməsini və deməli müvafiq informasiya axınlarının tənzimlənməsini müvafiq aparat həyata keçirir ki, bura da müəssisə rəhbərindən tutmuş sahə rəisi və ustaya qədər müxtəlif idarəedicilər zümrəsi daxildir. Sənaye müəssisələri, istehsalın profilindən asılı olarq fərqli struktura malik olsa da, əsasən direktor, baş mühəndis, sex rəisi, sahə rəisi, növbə rəisi, usta səviyyələrində strukturlaşmış idarəetmə sisteminə malikdir. Sənaye müəssisələrin təşkilati strukturunun geniş spektrli müxtəlifliyi şəraitində, onların istehsal –funksional strukturuna daxil olan – baş mühəndis, dispeçer, məhsulun keyfiyyətinə nəzarət, loqistika və satış, mühasibat, insan resursları və i.a şöbələri arasındakı informasiya əlaqələri xüsusi diqqətə layiqdir. Belə ki, istehsalın səmərəliliyi meyarları baxımından, məhz qeyd olunan funksional struktur, təcrübədən göründüyü kimimüəssisənin idarə edilməsində informasiya axınlarının (təşkilati-inzibati, iqtisadi, sosial-psixoloji xarakterli təsirləri reallaşdıran) optimal rejiminin qurulması üçün əlverişli ilkin şərait yaradır.

Belə ki, yuxarıda haqqında bəhs olunan idarəetmə strukturu:

- bazarın yüksək tezliklə dəyişən konyunkturunun və dövlət sifarişlərinin tələblərinə adekvat cavab verilməsi;

- daha az maddi, maliyyə və əmək məsrəflərilə, resurslardan istifadənin allokasiya effektinin reallaşdırılması və bir sıra digər imkanlardan istifadə etməklə daha çox məhsul istehsal edilməsi;

- istehsalın müxtəlif aspektlərdə, o cümlədən, təşkilati idarəetmə aspektindətəkmilləşdirilməsinin təmin edilməsi istiqamətində fəaliyyət göstərmək üçün kifayət qədər geniş imkanlara malikdir.

Həmin imkanlar idarəedicinin (menecerin)konkret predmet sahəsinə dair zəruri biliyi, şəxsi keyfiyyətləri və təcrübəsi, innovasiyalara aşıqlıq dərəcəsi, müəssisənin, o cümlədən idarəetmə strukturunun işçi heyətinin ixtisas səviyyəsi,informasiyanın zaman və məkan aspektində keyfiyyəti və s. amillərin təsiri altında formalaşır.

Sənayedə fəaliyyət inteqrasiyasının idarəetmənin informasiya təminatı, korporativ maraqların uzlaşdırılması prosesini xarakterizə etməyə imkan verməlidir. Haqqında danışılan imkanların reallaşdırılması kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Bu baxımdan, istehsalın

innovasiyalı-intensiv inkişafı nöqteyi-nəzərindən perspektivli hesab edilən institusional struktur qismində holdinqin informasiya təminatının formalaşmasına müxtəsər nəzər salmaq məqsədəuyğundur. Holdinqə daxil olan sənaye müəssisəsindəistehsalın idarə edilməsinin informasiya bazası holdinqin bütünmüəsisələrinin fəaliyyətini bu və ya digər dərəcədə əks etdirir. Belə yanaşma informasiya massivlərindəki təkrarlanmaları, informasiya itkisinə yol vermədən minimuma endirməyə imkan verir.

Məsələ ondadır ki, mühasibat və vergi uçotu holdinqə daxil olan bütün müəssisələri başdan-başa əhatə etsə də, hesabat hər bir müəssisə üzrə ayrı-ayrılıqda tərtib olunur. Haqqında bəhs olunan institusional mühitdə innovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatının formalaşdırılması təsərrüfat əməliyyatlarının qeydiyyatı üçün istifadə olunan sənədlərdə "susma əlaməti" üzrə daxil edilən göstəricilərin artması müşahidə olunur. Belə ki, növbəti sənədlərdə artıq dövriyyədə olan sənədlərdə əks olunmuş göstəricilərin analoqlarına (forma və kəmiyyət baxımından) istinad edilməklə, massivlər arasında əlaqələrin atması hesabına, onların ölçüləri kiçildilə bilər.

Bir məqamın da qeyd edilməsi zəruridir. Məsələ ondadır ki, sistemin mürəkkəbliyi, onun elementlərinin sayca çoxluğu ilə deyil, əsasən elementlər arasındakı əlaqələrin sayı və xarakteri ilə şərtlənir. Deməli təsərrüfat əməliyyatlarının qeydiyyatı üçün istifadə olunan sənədlərdə "susma əlaməti" üzrə daxil edilən göstəricilərin və istinadların artması müəssisənin informasiya sistemini arzuolunmaz dərəcədə mürəkkəbləşdirə bilər. Odur ki, massivlərin ölçülərinin kiçildilməsi məqsədilə onlar arasında əlaqələrin atmasının yuxarı həddi müəyyənləşdirilməlidir. Konkret halda, yuxarı həddin müəyyənləşdirilməsi, müəssisənin idarə edilməsində informasiya texnologiyalarından istifadə hesabına əldə edilən səmərənin, yalnız müəyyən hissəsinin, informasiya sisteminin "qənaətli təşkili" tədbirlərinə yönəltməyin yolverilən olması tezisinə əsaslanır.

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsində informasiya. İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatının səmərəliliyini şərtləndirən amillər sırasında, korporativ sistemin, sözün həqiqi mənasında vahidliyinin təmin edilməsi amilinin mühüm əhəmiyyəti qeyd olunmalıdır. Həmin sistem, məlum olduğu kimi, istehsalla yanaşı, işçi heyətin, hazır məhsulun hərəkətinin dəyər zəncirini və maliyyə resurslarının idarə edilməsini, buraxılan məhsulun həcminin artırılması və keyfiyyətinin yaxşılaşdırılması, onun rəqabət qabiliyyətini yüksəltməklə bazarda mövqeyinin möhkəmləndirilməsi meyarlarına əsasən vahid kontekstdə həyata keçirilməsini nəzərdə tutur.

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatının formalaşdırılması, konkret istehsal fəaliyyətinin özünəməxsusluğunu şərtləndirən aşağıdakı amilləri nəzərə almalıdır:

- sənayedə intensivləşmənin iqtisadi-texnoloji aspektləri, texniki və texnoloji yeniləşdirmənin səmərəliliyini əks etdirən informasiyaya, xüsusilə iqtisadi səmərəliliyin inkişafın texnoloji mühiti baxımından dəyərləndirilməsini nəzərdə tutan xüsusi yanaşma tələb edir;

- innovasiyalı-intensiv sənaye istehsalında rəqabət mühitinin doğurduğu risklər və onların neytrallaşdırılmasının iqtisadi və habelə sosial dəyərinin müəyyənləşdirilməsinin informasiya problemləri həll edilməlidir;

- innovasiyalı-intensiv sənaye istehsalında transaksion xərclərinin uçotu sistemi intensivləşmənin iqtisadi səmərəliliyinin adekvat münasibət meyarları baxımından formalaşdırılmalıdır. Bu zaman, resurs və məhsul bazarında potensial tərəf-müqabillər haqqında və müqavilələrin bağlanması üçün zəruri olan informasiya axtarışı, bürokratik maneələri və o cümlədən, opportunizm cəhdlərinə qarşı mübarizəyə məsrəflərini əks etdirən informasiya massivlərinin yaradılması tədbirlərinə önəm verilməlidir;

- innovasiyalı- intensiv sənaye istehsalının xarakteristikalarının baza parametrləri ilə müqayisəsi böyük həcmli və qarşılıqlı informasiya massivlərin yaradılmasını nəzərdə tutmalıdır. O cümlədən, kifayət qədər üzün müddət istismar edilən texniki vasitələri xarakterizə edən göstəricilər sistemi qurulmalı, yeni texnologiyalar səciyyələndirilməli,gözlənilən texniki-iqtisadi parametrlər dəqiqləşdirilməlidir;

- innovasiyalı sənaye istehsalının texniki-texnoloji baxımdan təkmilləşdirilmiş komponentlərinin və onların tətbiqi nəticələrinin müqayisəsi, ilk növbədə məhsul və proses innovasiyalarının məhsulun

keyfiyyətinə təsirini, xammalın məhsula çevrilməsi müddətini, xammalın və məhsulun qiymətlərində, resurslardan istifadə səviyyəsində və məhsulun çeşidində baş verən dəyişmələrixarakterizə edən informasiya massivlərinin müntəzəm yenilənməsini tələb edir.

Qloballaşma dövründə sənayedə rəqabət qabiliyyəti, həlledici dərəcədə innovasiyalarla, xüsusilə intellektual potensialın inkişafına yönəlik müvafiq fəaliyyətlə əlaqədardır. Bununla belə, təcrübədə, sənaye məhsulunun rəqabət qabiliyyətinin yüksəldilməsi üçün taktiki gedişlərə üstünlük verilməsinə daha tez-tez rast gəlinir. Araşdırmalar belə vəziyyətin, idarəetmədə inkişafın təcrübi meyarlarından istifadənin rahatlığı ilə əlaqədar olduğunu söyləməyə əsas verir. Digər və zənnimizcə daha əhəmiyyətli səbəb elmtutumlu məhsullara tədiyə qabiliyyətli tələbin, arzuolunan səviyyədə olmamasıdır.

Ölkənin emal sənayesi mütəxəssisləri ilə sorğuların və digər informasiyaların ilkin təhlili göstərir ki, sahədə elmtutumlu məhsullara tədiyə qabiliyyətli tələbin aşağı artım tempi, innovasiya fəaliyyətinin resursqoruyucu texnologiyaların geniş miqyasda tətbiqindəki problemlərlə əlaqədardır.Bu və digər səbəblərdən sənaye müəssisələrində mövcud idarəetmə strukturuna və onun informasiya təminatına yeni yanaşmalar obyektiv zərurətə çevrilir.

"Bu gün artıq sənaye müəssisələrində mövcud idarəetmə strukturunda əsaslı dəyişikliklər edilir, innovasiyaların axtarışına və tətbiqinə yönəlmiş idarəetmə strukturu formalaşır. Bu müəssisələrdə geniş restrukturlaşdırma işləri həyata keçirilir, çoxsaylı idarəetmə funksiyaları, operativ xətti rəhbərlik, strateji proqnozlaşdırma, marketinq, xarici iqtisadi əlaqələr, istehsalın və əməyin təşkili, idarəetmə qərarlarının icrasına nəzarət kimi funksiyalar şəklində birləşdirərək təşkilati strukturda öz əksini tapır"(1,s.231).

Sənaye müəssisəsində innovasiyalı-intensiv istehsalın idarə edilməsinin, o cümlədən innovasiyaların axtarışına və tətbiqinə yönəlmiş idarəetmə strukturunun informasiya təminatının formalaşdırılması məqsədilə qarşılıqlı əlaqəli aşağıdakı əlavə massivlərin yaradılmasını vəonların informasiya axınlarının tənzimlənməsi prosesində nəzərə alınmasını tələb edir:

- istehsal prosesinin zaman göstəriciləri (bir məmulatın hazırlanması müddəti; məmulat partiyasının hazırlanması müddəti; əməliyyat müddəti; əməliyyata hazırlıq və avadanlığın sazlama müddəti; məmulatın istehsal prosesində olduğu müddət; buraxılış qabiliyyəti və i.a.);
- istehsal prosesinin səmərəliliyinin bəzi nisbi göstəriciləri (normativlərlə müqayisədə iqtisadi səmərəlilik; istehsalın və əməyin elmi təşkilinin məhsuldarlığa təsiri);
- bilavasitə istehsal prosesinin texnoloji keyfiyyətinin göstəriciləri (qüsurluluq(balları) səviyyəsi; maşın, avadanlıq, axın xətti və sairənin sazlama indeksi;prosesin davamlılığı indeksi) və s.

Sənaye müəssisələrinin əksəriyyətində, bilavasitə istehsalın idarə edilməsinin iqtisadi üsullarının tətbiqi məqsədilə istifadə olunan informasiya bazasında - məsrəflər və resurslara qənaət, əmək məhsuldarlığı, məhsulun keyfiyyəti, stimullaşdırırcı təsirlərin xarakteristikaları daha böyük xüsusi çəkiyə malikdir. Artıq qeyd olunmuş təşkilati-inzibati, iqtisadi, sosial-psixoloji xarakterli idarəetmə təsirləri reallaşdıran informasiya axınlarında xüsusi mövqeyə malik təşkilati-inzibati idarəetmə üsullarının informasiya təminatında isə göstərişlər, əmrlər, sərəncamlar və bu kimi digər sənədlərin məzmununu təşkil edən informasiya üstünlük təşkil edir. Sonuncuların innovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsində oynadığı rola münasibət bildirmək üçün, onların hərəkətinə, müxtəsər də olsa nəzər salmaq məqsədəuyğundur.

İdarəetmənin informasiya təminatının formalaşdırılması. İlk növbədə, onu qeyd edək ki, sənaye müəssisəsində innovasiyalı-intensiv istehsalın idarəedilməsinin adekvat strukturunun fəaliyyətinin, kifayət qədər səmərəli informasiya təminatınınformalaşdırılmasında müxtəlif informasiya vahidlərininötürülməsi prosesinin səmərəliliyihəlledici rola malikdir. Məlum olduğu kimi, idarəetmə informasiyasının hərəkəti çoxvektorludur və onları şərti olaraq şaquli və üfüqi istiqamətli kimi fərqləndirirlər. İnnovasiyalı-intensiv sənaye istehsalın idarə edilməsinin şaquli informasiya axınları, başqa sözlə idarəetmə obyektindən idarəetmə subyektinə doğru informasiya axınlarında ümumiləşdirmənin, yuxarıdan aşağı, yəni, idarəetmə subyektindən idarəetmə obyektinə (idarəediciyə) yönəlmiş informasiya axınlarında isə konkretləşdirmənin üstünlük təşkil etdiyini qeyd etməliyik. Şaquli informasiya axınlarında:

- təsərrüfat subyektinin öz fəaliyyət dairəsində istifadə etməli olduğu rəsmi mənbələr, qanunlar, ölkə başçısının fərmanları, mərkəzi və yerli idarəetmə orqanlarının sərəncamları, yuxarı idarəetmə strukturlarının və müəssisə rəhbərliyinin əmrləri, təftiş və yoxlama aktları;

- müəssisə kollektivinin və onun ayrı-ayrı bölmələr üzrə yığıncaqlarının qərarları;

- əsas və köməkçi istehsalda texniki və texnoloji vəziyyəti əks etdirən sənədlər;

- müqavilələr, razılaşmalar, reklamasiyalar, arbitraj və məhkəmə orqanlarının qərarları və digər təsərrüfat-hüquqi xarakterli sənədlər;

- istehsalın faktiki vəziyyətinin və inkişaf imkanlarının qiymətləndirilməsi üçün, ümumi və ayrı-ayrı iş yerlərində aparılan xüsusi təhqiqatların, o cümlədən xronometraj, monitorinq və bu kimi digər tədbirlərin materialları;

- qabaqcıl təcrübənin öyrənilməsinə, tətbiqinə və yayılmasına dair çoxtərəfli informasiya mübadiləsinin sənədləşdirilmiş materialları və i.a.iştirak edir.

Üfüqi axınlarda isə, ilk baxışda bir qədər paradoksal görünsə də sənədləşdirilmiş informasiya böyük xüsusi çəkiyə malikdir. Zənnimizcə belə vəziyyət, sənayedə idarəetmə uçotunun formalaşma mərhələsində olması, transaksion məsrəflərin nəzərə alınmasının metodiki və başlıcası isə informasiya problemləri ilə əlaqədardır. Konkret halda, məhz informasiya təminatındakı problemlər ucbatından idarəetmə uçotu, özünün əsas funksiyasını, sözün tam mənasında icra edə, yəni idarəetmə prosesini uçotla, lazımi səviyyədə əlaqələndirə bilmir.

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatı, informasiyanın çevrilməsinin müxtəlif mərhələlərində yol verilə biləcək təhriflərin aradan qaldırılmasını nəzərdə tutur. Bu baxımdan texnoloji amillərin təsiri üzərində dayanmadan (bu barədə əvvəllər bəhs olunmuşdur), qeyd edək ki, idarəetmə prosesinin informasiya axınlarında təhriflərin aradan qaldırılmasında unifikasiya imkanlarından, hələ ki, arzu olunan dərəcədə istifadə olunmur.

Eyni idarəetmə funksiyalarını icra edən idarəetmə sənədlərinin tərkib və forma baxımından eyniləşdirilməsi prosesi kimi qəbul edilən unifikasiya, tətbiq edilən sənəd formalarının müxtəlifliyini azaltmaqdır. Təbii ki, belə olan halda:

-onların işlənməsinə əmək sərfi azalır;

- yaxın və ya oxşar funksiyaları yerinə yetirən müxtəlif sənəd dövriyyələrinin informasiya birgəliyi artır;

- sənədlərin informativliyini yüksəltmək imkanları genişlənir.

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatında innovasiyaların reallaşdırılmasına yönəldilmiş investisiyaların strukturunda baş verən dəyişikliklərin əks olunması obyektiv zərurətdir. Həmin dəyişikliklərin innovasiyaların maliyyələşməsi rejiminin çevikliyi ilə əlaqədar olduğunu nəzərə alaraq, müvafiq müşayiətedici informasiya massivinin yaradılması məqsədəuyğundur.

Sənayedə proses və məhsul innovasiyalarının xarakteristikası səviyyələr üzrə fərqləndirmə tələb edir. Belə ki, sahədə tətbiq edilən yeniliklər – biavasitə istehsal prosesindəki yeniliklər, texnoloji əlaqələrdə gerçəkləşən yeniliklər, iqtisadi texnologiyalarda, habelə maliyyə alətlərinin tətbiqində yeniliklər və əlbəttə ki, fəaliyyətin nəticəsində, başqa sözlə məhsulda ifadə olunan yeniliklər kimi fərqləndirilməlidir. Eyni zamanda, konkret sənaye müəssisəsinin profili və digər özünəməxsusluqları ilə şərtlənən yerli əhəmiyyətli yeniliklər də informasiya təminatında öz əksini tapmalıdır.

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatının formalaşdırılması prioritetlərindən biri innovasiyalara adekvat institutsional yeniliklərin nəzərə alınmasıdır. Müəssisə səviyyəsində innovasiyalı idarəetməyə adekvat institutsional mühitin yaradılması, müvafiq informasiya bazasından səmərəli istifadənin mühüm şərtlərindən biri sayılmalıdır.Sənayedə innovasiyalara açıq institutsional təminatın formalaşması, həmçinin innovasiyalara dəstək mexanizminin reallaşdırılmasının informasiya problemlərini də aktuallaşdırır. Odur ki, müvafiq informasiya münasibətləri, sahə və müəssisə xüsusiyyətləri ilə yanaşı, sənayenin innovasiyalıa idarə edilməsinə dəstək baxımından ümumi metodoloji əhəmiyyət kəsb edən müddəaların, formallaşma səviyyəsi imkan verdiyi dərəcədə, kəmiyyət xarakteristikalarına da aydınlıq gətirməlidir. Bu məsələ innovasiyalı sənaye istehsalının idarə edilməsi baxımından, xüsusilə aktualdır.

Müasir sənaye istehsalının səmərəliliyi biavasitə biznes proseslərin modelləşdirilməsinin informasiya təminatının mükəmməlliyindən asılıdır. Odur ki, müvafiq iyerarxiya siyahısının, məhsul, xidmət, keyfiyyətin idarə edilməsi və ümumilikdə təşkilati struktur modellərinin işlənib hazırlanmasına xidmət edən informasiya vahidləri innovasiyalı-intensiv sənaye istehsalının informasiya təminatında əhatə olunmalıdır.

Sənayedə sifarişçi və xidmət göstərən (autsorser) arasındakı davamlı əməkdaşlıq üçün müddət və büdcə məhdudiyyətləri nəzərdə tutulmur. Belə ki, autsorsinq sifarişçinin autsorserə ayrı-ayrı tapşırıqlar deyil, kifayət qədər geniş fəaliyyət meydanı verir. Bu zaman qarşıya qoyulan məqsəd xərcləri azaltmaqla yanaşı, sənayedə innovasiyalara açıq istehsal fəaliyyətini təmin etməkdir. Ümumiyyətlə isə, biznesin autsorsinq modeli "zəruri infrastruktura, texnologiyalara, yüksək ixtisaslı kadrlara malik şirkətlərə həvalə olunduğundan, işlərin keyfiyyətli icrasına və məsrəflərə qənaət olunmasına zəmanət verilir, podratçı təşkilatla məsuliyyətlərin bölüşdürülməsi maliyyə risklərini minimumlaşdırır; təşkilatın investisiya cəlbediciliyini yüksəldir. Belə ki, kənar icraçıların cəlb olunması, xüsusilə maliyyə funksiyasının autsorsinqi, firmanın "şəffaf" sistem qurmaq niyyəti haqqında bəyanat rolunu oynayır" (2,c.29).

Sənaye müəssisələrində autsorsinq, biznes funksiyalarının bölgüsü məsələlərini önə çəkməklə, ixtisaslaşmanın üstünlüklərini gerçəkləşdirir. Araşdırmalar göstərir ki, müəssisədə autsorsinq prosesinin təşkilati idarə edilməsinin adekvat informasiya təminatının formalaşdırılması baxımından aşağıdakı istiqamətlərin prioritetliyi məqsədəuyğundur:

- autsorsinqin tətbiqi haqqında qərar qəbulunun əsaslandırılması üçün istehsal-kommersiya məsrəflərini səciyyələndirən göstəricilərin sistemləşdirilməsi;

- autsorserlərin sifarişçi tələblərinə uyğunluğu meyarlarının dəqiqləşdirilməsi üçün informasiya massivlərinin yaradılması;

- autsorserə ötürülən və yayılması reqlamentləşdirilən informasiyanın kəmiyyət və keyfiyyət baxımından səciyyələndirilməsi.

NƏTICƏ

İnnovasiyalı-intensiv sənaye istehsalının idarə edilməsinin informasiya təminatının formalaşdırılması sahədə intensivləşmənin iqtisadi-texnoloji aspektləri, texniki və texnoloji yeniləşdirmənin səmərəliliyini əks etdirən informasiyaya xüsusi yanaşma tələb edir. Bu baxımdan, rəqabət mühitinin doğurduğu risklər və onların neytrallaşdırılmasının informasiya problemləri həll edilməli, transaksion xərclərin adekvat uçotu sistemi formalaşdırılmalı, yeni texnologiyalar səciyyələndirilməli, məhsul və proses innovasiyalarının məhsulun keyfiyyətinə təsirini, xammalın məhsula çevrilməsi müddətini, xammalın və məhsulun qiymətlərində, resurslardan istifadə səviyyəsində və məhsulun çeşidində baş verən dəyişmələri xarakterizə edən informasiya massivləri müntəzəm yenilənməlidir.

ƏDƏBIYYAT

1. Abdullayev K.X. Müəssisələrində idarəetmə innovasiyalarının tətbiqi istiqamətləri. Az.ETKTİ və Tİ, Elmi Əsərləri. №3, Bakı,2011, s. 230-234
2. Зуева А. А. Аутсорсинг как фактор повышения эффективности управления интегрированными формованиями. Международный сельскохозяйственный журнал, 2008, №1, с.26-31
3. Кулиев Р.А. Регулирование инвестиционный деятельности. Баку, АГЭУ, 2008, 308 с.
4. İsayev S.Z. İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi" Dərs vəsaiti. Bakı. 2010. 11.s.
5. Paşayev T.N. İnvestisiya və müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafında onun rolu. Lənkəran 2001. 7.s.

6. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti" – 2011. -120 s.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN AKTUAL PROBLEMLƏRİ VƏ MÜHAFİZƏSİ YOLLARI

N.K.NAĞIYEVA
"Naxçıvan" Universiteti
nigar.nagiyeva4@gmail.com

İnformasiya təhlükəsizliyinin təmin edilməsi sistematik, kompleks yanaşma tələb edir. Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə işlər aparılmalıdır. Cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması üçün zəruri olan tədbirlər kimi beynəlxalq hüquqi mexanizmlərin ciddi araşdırılması, milli normativ-hüquqi bazanın formalaşdırılması, təhlükəsizlik siyasətinin işlənilməsi və reallaşdırılması, xüsusi texnologiyaların tətbiqi, ölkə və korporativ səviyyədə informasiya təhlükəsizliyinin monitorinqi və menecmentinin aparılması, kadr hazırlığı, əhalinin maarifləndirilməsi və vətəndaşlarda informasiya mədəniyyətinin tərkib hissəsi kimi informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması məsələləri aktuallıq kəsb edir.

Açar sözlər: informasiya, təhlükəsizlik, şifrələmə, parol, identifikasiya

İnformasiya təhlükəsizliyi, məlumatın saxlanılmasında, emalında və ötürülməsində məxfiliyin, bütövlüyün və mövcudluğun qorunmasıdır. Siyasətin tətbiqi, təhsil, təlim və maarifləndirmə, texnologiya vasitəsilə əldə edilir

İnformasiyanın təhlükəsizliyi dedikdə informasiya sistemində saxlanılan və emal edilən informasiyanın mühafizəsi başa düşülür. İS-də informasiyanın mühafizəsi probleminə proqram və aparat vasitələrinin mühafizəsi problemi ilə birlikdə baxılması məqsədəuyğun hesab edilir, çünki İS-in fəaliyyət mühitinin əsasını proqram və aparat vasitələri təşkil edirlər. Proqramların və verilənlərin mühafizəsi üçün mövcud olan metodlar və vasitələr VB proqramları (VBİS, tətbiqi proqramlar, saxlanan prosedurlar və s.) və VB-də saxlanan verilənlər üçün də tətbiq edilə bilər.

İnformasiya digər əhəmiyyətli biznes aktivləri kimi hər hansı bir təşkilatın əhəmiyyətli bir aktividir, buna görə biznes ehtiyaclarına uyğun olaraq qorunmalıdır. Dünyada informasiya sektorunun artan gücünün nəticəsi olaraq məlumatlar getdikcə artan sayda təhlükələrə məruz qalır.

İnformasiya təhlükəsizliyi elektron məlumatların saxlanılması və nəqli zamanı məlumatların və onların bütövlüyünü ödəmədən icazəsiz girişdən məlumatların qorunması üçün təhlükəsiz informasiya platformasının yaradılması üçün bütün əsas səylərdir. Bunun yerinə yetirilməsi üçün Müvafiq təhlükəsizlik siyasəti müəyyən edilməlidir.

İnformasiya təhlükəsizliyi "İnformasiyanı zərərli olan hər hansı bir mühitdə istənməyən şəxslər tərəfindən məlumatın əldə edilməsinin qarşısını almaq üçün hüquqi texnologiyadan düzgün şəkildə istifadə edərək məlumatların qorunması" kimi başa düşülür.

İnformasiya təhlükəsizliyi dedikdə informasiyanın və informasiya mühitinin təsadüfi və ya düşünülmüş təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa düşülür. Belə təsirlər informasiyaya və ya informasiya obyektlərinə, həmçinin informasiya istifadəçisinə və sahibinə yolverilməz ziyanlar vura bilir.

İnformasiyanın mühafizəsi – informasiya təhlükəsizliyinin təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərdir [1].

Təhlükəsizlik Texnologiya qədər insanlar və bu insanların texnologiyadan necə istifadə etməsi ilə əlaqədardır. Təhlükəsizliyin məqsədi yalnız texnologiyadan düzgün istifadə etməkdir.

İnformasiya və dəstək prosesləri sistem və şəbəkələr kimi mühüm biznes proseslərdir. Rəqabət üstünlüyü, pul vəsaitlərinin hərəkəti, gəlirlilik, qanuni uyğunluq və kommersiya görünüşü üçün məlumatın təhlükəsizliyi tələb olunur. Kritik infrastrukturları qorumaq üçün informasiya təhlükəsizliyi həm dövlət, həm də özəl sektorlar üçün çox vacibdir.

Kompüter təhlükəsizliyi insanlara və sistemlərə birbaşa və dolayı yolla zərər verən sistemin fəaliyyətini pozan zərərli məqsədlərə qarşı hücumlar kimi tanınır.

Təcavüzkarlar hədəflərinə nail olmaq üçün çox müxtəlif üsullarla iştirak edən hücumları həyata keçirirlər. Hücum növlərini bilmək, düzgün təhlil etmək və lazımi tədbirləri müəyyən etmək informasiya təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir.

Mühafizə sisteminin qurulma prinsiplərini və hesablama sisteminin (HS) müxtəlif komponentlərinin (əməliyyat sisteminin, xidməti proqramların, VBİS-in, informasiyanın mühafizəsi üçün xüsusi qurğuların və proqramların) imkanlarını yaxşı bilməklə, İS-in zəif yerlərini qiymətləndirmək və məxvi informasiyanın mühafizəsini yaxşı təşkil etmək olar.

Şəbəkə rejimi kompüterlərdən istifadə edilmənin ümumi halı olduğundan, informasiyanın mühafizəsi probleminə baxarkən, adətən, kompüterlər arasında şəbəkə əlaqələrinin olması nəzərə alınır.

Hesablama sisteminin keyfiyyətli mühafizəsini təmin etmək üçün təkcə onun yerləşdiyi binanin mühafizəsini təşkil etmək və proqram mühafizə ' vasitələri qurmaq kifayət deyil. Hesablama sisteminin mühafizəsinin təşkilinə onun strukturuna, həll olunan məsələlərə, mühafizənin məqsədinə və imkanlarına uyğun kompleks yanaşma tələb olunur.

Mühafizə sistemini HS-in və onun informasiya-proqram təminatının yaradılmasına başlayarkən nəzərə almaq və həyat dövrünün bütün mərhələlərində reallaşdırmaq lazımdır. Lakin praktikada bir sıra səbəblər üzündən mühafizə sistemini HS və onun informasiya-proqram təminatı hazır olandan sonra yaradırlar. Yaradılan mühafizə sistemi çoxsəviyyəli olmalı və mövcud vasitələr, metodlar və tədbirlərin rasional təşkil edilmiş toplusundan ibarət olmalıdır. Hesablama sistemi bədəfkarlardan, istifadəçilərin və xidmətçi heyətin səriştəsiz əməllərindən mühafizə olunmalıdır.

Hesablama sisteminin təhlükəsizliyi bir və ya bir neçə potensial təhlükə nəticəsində pozula bilər. Təhlükə dedikdə hesablama sistemində saxlanan və emal olunan informasiyanın, o cümlədən, proqramların təhlükəsizliyinin pozulmasına gətirən, qəsdən və ya təsadüfən baş verən əməliyyat başa düşülür.

Təhlükələrin əsas növləri aşağıdakılardır:

1. HS-in resurslarından icazəsiz istifadə edilmə:

- verilənlərdən istifadə edilmə (surət çıxarma, dəyişdirmə, silmə, çap etmə və s.);

- proqramların surətlərinin çıxarılması və dəyişdirilməsi;

- sistemə həmlə etmə məqsədilə proqramların araşdırılması.

2. HS-in rezuslarından düzgün istifadə edilməməsi:

- tətbiqi proqramların əsas yaddaşın onlara aid olmayan bölmələrinə təsadüfən müraciət etmələri;

- disk yaddaşının sistem bölmələrinə təsadüfi müraciətlər;

- verilənlər bazasında səhvən dəyişiyliklər edilməsi (səhv verilənlərin daxil edilməsi, verilənlərin istinad tamlığının pozulması);

- istifadəçilərin və xidmətçi heyətin səhv hərəkətləri.

3. Proqram və aparat vasitələrində səhvlərin aşkar edilməsi.

4. Rabitə xətlərində və ötürmə sistemlərində verilənlərin ələ keçirilməsi.

5. Elektromaqnit şüalanmaların icazəsiz qeydə alınması.

6. Hesablama sisteminin qurğularının, informasiya daşıyıcılarının və sənədlərin oğurlanması.

7. Hesablama sisteminin komponentlərinin, informasiyanın ötürülmə vasitələrinin tərkiblərinin icazəsiz dəyişdirilməsi və ya sıradan çıxarılması.

Təhlükəsizliyin pozulmasının mümkün nəticələri aşağdakılar ola bilər: - məxvi məlumatın ələ keçirilməsi;

- sistemm məhsuldarlığının azalması və ya sistemin bütövlükdə dayanması;

- əməliyyat sisteminin yüklənə bilməməsi;

- maddi ziyan;

- faciəli nəticələr [2].

İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi Standartı üç başlıq altında məlumat təhlükəsizliyini araşdırır:

1. Gizlilik: Məlumatı icazəsiz girişdən qoruyur
2. Bütünlük: İnformasiyanın tam, ardıcıl və dəqiq olması
3. Mövcudluq: səlahiyyətli orqanlar tərəfindən tələb olunan məlumatların əldə edilməsi

İnformasiya təhlükəsizliyi idarəetmə sisteminin məqsədi bütün informasiya aktivlərinin məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin etmək və təşkilatdakı işin davamlılığını təmin etmək, işlərdə baş verə biləcək problemləri azaltmaq və yayılmış təhlükələrdən məlumatları qorumaq üçün qəsdən və ya istənməyən şəkildə xarici və ya xaricdən olan bütün təhdidlərdən qorunmaqdır [3].

İnformasiya təhlükəsizliyi idarəetmə sistemi TS ISO / IEC 27001 İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi Standartı və bu standartın tələblərinə cavab vermək üçün davamlı təkmilləşdirmə dövrü çərçivəsində bir proses kimi həyata keçirilməlidir. ISO / IEC 27001 İnformasiya Təhlükəsizliyi İdarəetmə üzrə beynəlxalq standartdır. Müstəqil qiymətləndirmə yolu ilə müstəqil informasiya təhlükəsizliyi idarəetmə sisteminin necə qurulacağını vurğulayır. Sistem, bütün maliyyə və məxfi məlumatları daha səmərəli şəkildə qorumaq, icazəsiz və qeyri-qanuni yolla mümkün olanı minimuma endirməyə imkan verir [4].

İki xüsusiyyət informasiya təhlükəsizliyi üçün çox vacibdir. Bu xüsusiyyətlərə autentifikasiyanı və appelliyasiyanın verilməsini aid etmək olar.

Autentifikasiya məlumat sahibinin kimliyinin gerçəklənməsi imkanını müəyyən edir.

Apellyasiyanın verilməsi isə məlumat sahibinin həqiqətəndə başqası deyil, o şəxs olduğunu sübut etməyə imkan verir. Autentifikasiya istifadəçi tərəfindən təqdim edilən identifikatorun əsl (həqiqi) olmasının yoxlanması prosesidir. Autentifikasiya (ingiliscə authentication) – real, həqiqi, müəllif anlamlarını verir.

Autentifikasiyanı müəlliflik (subyektə müəyyən hüququn verilməsi) və identifikasiya (subyektin ona məxsus identifakatoru ilə tanınması) ilə qarışıq salmaq olmaz.

Autentifikasiyaya aşağıda verilənlərin həqiqiliyinin sübut edilməsi prosedurlarını aid etmək olar.

Məsələn:

- İstifadəçinin həmin şəxs olduğunun yoxlanması. Bunun üçün verilənlər bazasındakı parol ilə istifadəçinin parolu tutuşdurulur;

- Yola salınmış elektron məktubların həqiqiliyinin yoxlanması. Bunun üçün göndərənin ona məxsus açarı ilə məktubun rəqəmsal imzası tutuşdurulur;

- Faylların kontrol məbləğləri ilə müəllif tərəfindən təqdim edilmiş faylların məbləğləri tutuşdurulur.

Apellyasiya (appellatio - latınca müraciət etmə anlamını verir) qanuni qüvvəyə minməmiş aktın müəyyən prosessual qanunvericiliyə uyğun ali hakim tərəfindən yoxlanma prosedurasıdır.

XX əsrin 70-ci illərinə kimi verilənlərin şifrələnməsi üsullarının yaradılması və öyrənilməsi ilə məşğul olan elm sahəsi və praktiki fəaliyyət kriptoqrafiya adlanırdı. İndiki zamanda elmin, texnikanın və praktiki fəaliyyətin bu sahəsi yaradıcılıq ilə əlaqəlidir, informasiyanın müdafiə sisteminin kriptoqrafik təhlilini və tətbiqini həyata keçirir.

Kriptoqrafik sistem dedikdə kriptoqrafik vasitələrdən istifadə etməklə avtomatlaşdırılmış informasiya sistemlərində və ya şəbəkələrdə informasiyanın təhlükəsizliyinin təmin edilməsini həyata keçirən sistem nəzərdə tutulur. Bəzən bu məqsədlə altsistemin şifrələnməsi, istifadəçinin identifikasiyası, elektron rəqəmsal imza və başqalarından da istifadə olunur.

Şifrləmə dedikdə, açıq mətn adlanan M başlanğıc məlumatının şifrələnmiş mətn (və ya şifrmətn) adlanan Mı formasına çevrilməsi başa düşülür. Nəzərə almaq lazımdır ki, əks çevirməni həyata keçirmək üçün açar adlanan əlavə informasiyaya malik olmaq lazımdır.

Bəzi istifadəçilər şifrələməni kodlaşdırma ilə səhv salırlar. Əslində bu proseslər arasında hiss olunacaq dərəcədə fərq vardır. Kodlaşdırmada da başlanğıc məlumatın başqa bir formaya çevrilməsi prosesi yerinə yetirilir, amma bu çevrilmədə məqsəd informasiyanın əlverişli ötürülməsi və ya əlverişli təhlil edilməsidir. Məsələn, xüsusi hazırlanmış mətn ikilik kod ilə kodlanır (yəni hər bir simvol 1 və 0 –ların ardıcıllığı ilə əks olunur). Məqsəd bu informasiyanı Elektron Hesablama Maşınında rahat təhlil etmək, lazım gəldikdə yaddaşda saxlamaqdır, çünki elektrik impulsları ardıcıllığı ilə əks olunan informasiyanı kabel vasitəsilə ötürmək rahat və əlverişlidir.

Müəssisələrdə effektiv informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə; Üst səviyyə rəhbərlər, maddi və mənəvi dəstək təmin edərək məlumat təhlükəsizliyi proseslərini əhatə etməlidir. İnformasiya təhlükəsizliyi praktikasının təşkilatların baş menecerlərindən və aşağı səviyyələrə yayılmasından çox vacibdir. Bu prosesi həyata keçirərkən ISO 27001 və digər məlumat təhlükəsizliyi idarəetmə standartları və memarlıqları böyük fayda gətirir. Təhlükəsizlik prosesləri qurulmalı, inkişaf etdirilməli, dəstəklənməli və saxlanmalıdır.

İnformasiya təhlükəsizliyinə uzunmüddətli və vizyoner görünən müəssisələrin əksəriyyəti bank sektoru, maliyyə sektoru, kommunikasiya və proqram təminatı şirkətləri, dövlət qurumları və böyük holdinqlərdən gəlir. Ancaq bu yanaşma ümumi ictimaiyyətə yayılmalı və cəmiyyətlərin zaman və bilikləri ilə əldə edilə bilən bütün ölçüləri olan bütün sahələri və qurumları əhatə etməlidir. Fərdi və cəmiyyətin gündəlik həyatında simsiz ADSL, İnternet, mobil telefon və s. İstifadəsi nəzərə alınmaqla, informasiya təhlükəsizliyi həllərinin yalnız iş məqsədləri üçün deyil, həm də fərdi istifadə üçün sürətlə genişləndirilməsi lazımdır [5].

Nəticədə informasiya və texnologiyadan istifadə etmədən fəaliyyət göstərən heç bir şirkət, təşkilat və s. ola bilmədiyindən, informasiya təhlükəsizliyi fərqli dərəcədə və səviyyədə olsa da, hər kəs üçün zəruri bir element halına gəlir. Heç bir risk tamamilə sıfıra endirilə bilməz, eyni sektorda çalışan iki fərqli şirkət, eyni mövzuda fərqli risk və zəifliklərə sahib ola bilər. Bu səbəbdən, hər bir müəssisə öz risk qiymətləndirmələrini və yanaşmalarını təqdim etməlidir və ya məsləhət verməlidir

Bir çox digər sahələrdə olduğu kimi, informasiya təhlükəsizliyində ən mühüm uğurlu amil istəkli məlumatlı insanlardır. İnformasiya təhlükəsizliyinin idarə edilməsinin əsas məqsədi informasiya təhlükəsizliyinin zamanla korporativ mədəniyyətə çevrilməsi olmalıdır. Ən təcrübəli informatika cinayətkarları təşkilatdan kənar hücumlara nisbətən daha riskli və zərərlidirlər; Unudulmamalıdır ki, müəssisədə zərərli və ya şüursuz, diqqətsiz işçilər var

İnformasiya təhlükəsizliyi idarə edilməsi, dəyişikliklərə uyğunlaşmaqla canlı saxlanmalı və davamlı inkişafa açıq olmalıdır. Məlumat təhlükəsizliyi təkcə texnologiya və ya kompüter təhlükəsizliyi deyil. İnformasiya təhlükəsizliyi; Insan, proses və texnologiya triosu harmoniya ilə birgə işləyən bir idarəetmə sistemidir. Xülasə olaraq, informasiya təhlükəsizliyi müntəzəm olmaq və şəxsi həyatda və iş həyatında rutin olmaq üçün bir prosesdir. Hətta informasiya təhlükəsizliyi və təhlükəsizlik təhdidləri məsələsində; insanların qorxu ilə deyil, məhəbbət və təhsil ilə qorxu qazana biləcəyini vurğulamaq lazımdır.

ƏDƏBIYYAT SIYAHISI

1. http://www.mikailnazli.com | Bilgi Güvenliği
2. S.Q.Kərimov, S.B.Həbibullayev, T.İ. İbrahimzadə İnformatika. Dərslik. S.Q.Kərimovun redaktorluğu ilə. - Bakı, 2011. - 434s.
3. P.Bowen, J.Hash, M.Wilson (2006). Information Security Handbook: A Guide for Managers, USA: NIST Publishing.
4. ISO International Organization for Standardization. (2005). ISO/IEC 27001:2005.
5. M.Swaminatha, C. R.Elden (2003). Wireless Security and Privacy: Best Practices and Design Techniques. Addison-Wesley.

ACTUAL PROBLEMS AND PROTECTION OF INFORMATION SECURITY

Information security needs systematic and complex approach. In this field conceptual, organization, scientifical, legislation and technical issues are the subjects to consider. As necessary measures to ensure information security of the society serious investigations of international legal mechanisms, formulation of national legal and regulatory framework, development and updating of security policies, application of special technologies, monitoring and management of information security at the country and corporate level, training of the population and enlightment of citizens also as an integral part of information culture issues of forming the information security culture are on the agenda.

Key words: information, security, encryption, password, authentication

İOT QURĞULARININ MÜASİR SOC ÇİPLƏRİ TƏMƏLİNDƏ LAYİHƏLƏNDİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

NURLANA QASIM QIZI HÜSEYNOVA
Bakı Mühəndislik Universiteti
nhuseynova@beu.edu.az

XÜLASƏ

Müxtəlif tətbiq sahələri üçün yaradılan "Əşyalar İnterneti"(İoT) sistemlərinin aşağı səviyyələrindəki funksional qurğulara olan tələblər təyin edilir.Strukturu rekonfiqurasiya edilə bilən və obyektə inteqrə edilmiş (Embedded) sistemlərin müasir "çip daxilində sistemlər"(SoC) və "tətbiq sahələri üzrə proqramlana bilən məntiqi matrislər"(FPGA) kimi texnologiyalar təməlində layihələndirilməsi xüsusiyyətləri açıqlanır.SoC FPGA arxitekturlarında "İntellektual Mükəlləfiyyət" (İP) nüvələrinin təyinatı və onların tətbiqi sahənin xüsusiyyətlərinə uyğun adaptasiya edilməsi imkanları araşdırılır.

SUMMARY

The requirements for functional devices at lower levels of IOT systems for different application areas are defined. Described the design features of the Embedded systems that are structurally reconstructed on the basis of modern "System on Chip" (SoC) and "Field programming Gate array" (FPGA) technologies. The assignment of the "intellectual property " (IP) cores in the SoC FPGA architecture and the possibility of adapting them to the specifications of the application field are investigated.

Açar sözlər: Əşyalar İnterneti - İoT, obyektə inteqrə edilmiş sistemlər- Embedded, çip daxilində sistemlər - SoC, tətbiq sahələri üzrə proqramlana bilən məntiqi matrislər - FPGA, İntellektual Mükəlləfiyyət - İP nüvələri, əmrlər sistemi mikroarxitekturu -İSA

Hazırda müxtəlif sahələrdə geniş tətbiq edilməyə başlayan "Əşyalar İnterneti" (IoT –"Internet of Things") texnologiyası əsasında yaradılan elektron sistemlərin "son kənar" düyünlərində yerləşən qurğular ("edge device") səviyyəsində infrastrukturun seçimi və onun müasir elektron çipləri bazasında reallaşdırılması aparat təminatı sahəsindəki mütəxəssislərin yerinə yetirməli olduğu əsas məsələlərdən biridir. İoT texnikasının müxtəlif tətbiq sahələrindəki obyektlərindən alınan məlumatların real zamanda toplanması , onların yüksək səviyyədə emalı və analizi ,eləcə də ötürülməsi kimi funksiyaları yerinə yetirən belə müasir ixtisaslaşmış qurğular obyekt daxilinə inteqrə edilmiş ("Embedded") olmaqla yanaşı, layihələndirilmə prosesində onların strukturunun və iş alqoritminin tətbiq sahəsinin tətləblərinə uyğun şəkildə sazlanması imkanı olmalıdır. Ənənəvi olaraq Embedded qurğular ixtisaslaşdırılmış mikroprosessorlar (MP) sinfinə aid edilən mikrokontrollerlər (MK), siqnalların rəqəmli emalı prosessorları(DSP), qrafik prosessorlar (GPU) təməlində qurulur və onların "yumşaq"proqram təminatı ("firmware") uyğun virtual laboratoriyaların (MPLAB İDE,AVR Studio,DSP-5) layıhələndirilmə mühitindən istifadə etməklə yaradılır.

Yüksək məhsuldarlıq,məlumatın real zamanda emalı və şəraitdən asılı olaraq avtomatik "qərar qəbul etmək" kimi xüsusiyyətlərə malik müasir "edge device"–lar üçün ixtisaslaşmış aparat və proqram təminatı kompleksinin yaradılmasında çip daxili sistemlər (SoC-"System on Chip") texnologiyası geniş tətbiq edilməkdədir. SoC çiplərinin heterogen arxitekturuna daxil olan müxtəlif sinifli prosessor nüvələri (ümumi təyinatlı CPU , xüsusi təyinatlı DSP və GPU blokları,müxtəlif sistemli və periferiya interfeys kontrollerləri) eyni zamanda işləyərək paralel hesablamaların gerşəkləşməsini təmin etmiş olur.Yəni, nəticə etibarilə yaradılacaq "edge device"–larda çoxaxınlı məlumatların ixtisaslaşmış və sürətli emalı təmin edilə bilər. Layihələndirilən qurğuların intellektuallığı,eləcə də onların daxili strukturunun tətbiqi sahəyə uyğun sazlana bilməsi kimi xüsusiyyətləri isə müasir SoC arxitekturuna inteqrə edilmiş FPGA ("Field programming Gate array"- "tətbiqi sahə üzrə proqramlana bilən ventillər matrisi") blokları vasitəsilə təmin edilir. FPGA texnologiyası məlumatın emalının məntiqi sxemlər səviyyəsində paralelliyini təmin etməklə yanaşı , müxtəlif funksional blokların daxili strukturunun parametrlər üzrə sazlanmasına imkan verir. Daxili strukturu FPGA texnologiyası hesabına "proqramlana" bilən belə ixtisaslaşdırılmış funksional bloklar(nüvələr) müasir SoC arxitekturunun "intellektual mükəlləfiyyəti" (İP-"intellectual property")

adlanır.İP - nüvələri həmin SoC-ların layihəçiləri tərəfindən yaradılan tipik və standart aparat-proqram("firmware") hissələri olsa da , müasir SoC arxitekturunun vacib komponenti olan FPGA blokları vasitəsilə onların tətbiqi sahənin tələblərinə yğun sazlanması mümkündür.İlk belə SoC-lara nümunə olaraq ALTERA firması tərəfindən layıhələndirilən ARM təməlli "Cyclon" arxitekturunu göstərmək olar[1]. FPGA texnologiyasının tətbiqi ilə daxili strukturu rekonfiqurasiya edilə bilən Cyclon çipləri təməlində elektron sistemlərinin yaradılması üçün İntel/Altera QUARTUS layihələndirmə mühiti mövcuddur[2].

QUARTUS proqram paketinə İntel FPGA İP kitabxanası daxildir ki, bu kitabxanadan bir sıra faydalı İP nüvələri əlavə lisenziya tələb edilmədən İntel QUARTUS Primary proqram təminatı mühitində tətbiqi layihə üçün avtomatik qurula bilər. Digər tərəfdən İP kataloqdakı standart İP-lərdən əlavə FPGA İP nüvələri də vardır ki,onları tətbiqi sahə üçün uyğunlaşdırmaq mümkündür. FPGA İP nüvələrinin müxtəlif tiplərinə misal olaraq sistemli (məsələn, DMA kontrolleri), DSP (məsələn,FFT,CİC tipli filtrləşmə blokları), interfeys protokolları (Ethernet,SPİ,İİC,CAN),müxtəlif tip yaddaş (DDR,Flash) interfeysi və kontrollerləri,prosessor kimi funksiyaları yerinə yetirən blokları göstərmək olar. Modifikasiya edilən və tətbiqi layihədə yeni qurulacaq FPGA İP nüvələrinin lisenziyalaşdırılması tələb edilir ki,onların tətbiqindən əvvəl proqramlı simulyasiya edilməsi və baxılan layihənin aparat təminatında yoxlanılması üçün İntel FPGA İP Evalution Mode rejimi istifadə edilir. Tətbiqi layihəyə belə optimallaşdırılmış və yoxlanılmış İP nüvələrinin daxil edilməsi yaradılan qurğunun alqoritmik cəhətdən etibarlılığını ,unifikasiya dərəcəsini artıraraq ümumi məhsuldarlığını yüksəltməyə imkan verir.

Bəzi FPGA İP modulları sazlanmadan ASİC ("Application Specific integrated sircuits") texnologiyası üzrə gerçəkləşdirilmiş olur.Buraya USB,USART,İİC interfeys kontrollerləri,RİSC CPU-lar aid edilə bilər.Proqramlaşdırıla bilən ixtisaslaşdırılmış prosessor (MK) üçün İP - nüvələrinin real MK nüvələrindən fərqi budur ki,onun tərkibindəki bəzi periferiya blokları tətbiqi sahə üçün lazım gəlmədikdə layihədən kənarlaşdırla ,eləcə də əlavə İP blokları (müxtəlif standartlı interfeys kontrollerləri) daxil edilə bilər.Məsələn NEO430 İP prosessor nüvəsi [3] real MSP430 MK-nin əmrlər sistemi ilə tam uzlaşır ,onun daxilindəki taymerlər,giriş/çıxış blokları və interfeyslər isə sazlanma prosesində digərləri ilə əvəz edilə bilər.

Yuxarıda qeyd edildiyi kimi İoT strukturundakı "edge device" –ların aparat-proqram təminatı kompleksi kimi yaradılması FPGA İP nüvələrinin layihəyə "hardware-firmware" kimi daxil edilməsini nəzərdə tutur.Buna görə də müxtəlif tipli İP modullarının tətbiqi sahə üçün adaptasiya edilməsi onların İP-kodlarının da modifikasiya edilməsini tələb edir. İntel QUARTUS proqram paketində FPGA İP nüvələrinin proqram təminatı VHDL,VERİLOG və C kimi dillərində təsvir edilə bilsə də , Embedded qurğunun daxili proqram yaddaşına yüklənən son firmware kodu , əsasən VHDL("Hardware Description Language")/VERİLOG dillərindən baxılan nüvələr üçün kompilyasiya edilmə nəticəsində hasil edilir. Çünki İP nüvələrin proqramının VHDL/VERİLOG dillərindən kompilyasiyası daha effektiv firmware kodunu təmin edə bilir.Ona görə də çox halda İP modulların sazlanması prosesi bu sahənin mütəxəssisləri tərəfindən yerinə yetirilməli olur.Bu isə qurğunun layihələndirilməsi prosesini çətinləşdirir.

Digər tərəfdən İoT infrastrukturu üçün yaradılan bütün qurğuların ekoloji cəhətdən təhlükəsiz işi və infrastrukturdakı digər qurğularla normal əlaqəsi təmin edilməlidir.Bu isə layihələndirilmə prosesində qurğu daxilində məlumat təhlükəsizliyini təmin edən blokların və ətraf mühtlə məlumat mübadiləsini müxtəlif formatda gerçəkləşdirilən interfeys modullarının yaradılmasını zəruri edir. Odur ki, standart protokollar üzrə yaradılmış və təcrübədə artıq yoxlanılmış uyğun İP modullarının layihəyə daxil edilməsi və onların proqram kodlarının tətbiqi şəratitə uyğun modifikasiya edilməsi lazım gəlir. Göstərilən bu faktorlar istifadə edilən İP modullarının layihədə *sazlana bilən "hardware-firmware"* kimi iştirakını zəruri edir.

İP modullarının istifadəçi layihəsinə modifikasiya edilə bilən *"hardware-firmware"* kimi asanlıqla daxil edilməsi ilə əlaqədar qeyd edilən problemin həlli istiqamətində atılan addımlar sırasında *açıq ilkin kodlu proqram təminatı* (Open Source Software-OSS) texnologiyasının [4] Embedded qurğuların layihələndirilməsi prosesində tətbiqi daha real görünməkdədir. Ümumi halda OSS texnologiyasının meydana gəlməsində əsas məqsəd əvvəl yaradılmış proqram təminatlarının ümumi məhsul kimi layihəçilər üçün əlçatan olması və onların modifikasiya edilərək aşağı dəyərlə layihəyə daxil edilməsi imkanının yaradılması olmuşdur.

Embedded qurğuların yaradılması prosesində OSS vasitələrinin tətbiqinin nəticəsi kimi istehsalçıların prosessor strukturuna alternativ olan *istifadəşi prosessoru* texnologiyasının yaranmasını göstərmək olar .Bu isə onunla əəsaslandırılır ki, tətbiq yönümlü qurğuların yaradılması üçün mürəkkəb və sərt mikroarxitekturlu istehsalçı -prosessorlarının istifadəsi real deyildir,çünki belə qurğular tətbiq sahəsi üçün çox spesifik olan xüsusiyyətləri daşıyır. *İstifadəçi prosessorlarının* layihələndirilməsi üçün baza kimi *RİSC-V arxitekturlu* İP prosessor nüvələrindən istifadə etmək mümkündür[5]. Belə İP nüvəsinin əmrlər sistemi (İSA) tətbiq sahəsinin tələblərinə uyğun olaraq modifikasiya edilməklə istifadəçi prosessor üçün yeni mikroarxitektur yaradıla bilər. RİSC-V tipli prosessorda İSA-nın modifikasiya edilməsi istiqamətində aparılan tədqiqatlar bir daha ona görə genişlənməkdədir ki, RİSC-V İP-nüvəsi lisenziyalardan kənar olduğundan aşağı dəyərli İSA –ya malik istifadəçi prosessorlarının yaradılması prosesi asanlaşdırılmış olur.Digər tərəfdən İoT qurğular üçün spesifik olan analoq siqnalların emalı kimi bloklarının istifadəçi prosessoru strukturuna daxil edilməsi müxtəlif DSP İP nüvələrindən istifadə etməklə mümkündür .

ƏDƏBIYYAT SIYAHISI

1. Cyclone FPGA Family. Altera Corporation.2003.pdf.
2. Introduction to Quartus II Software.Altera Corporation.2018.pdf.
3. S. Nolting, " NEO430 Processor"(MSP430-Compatible):Overview.2018, www.opensource.org
4. M.K.Borja.”Advantages of open source software”.2017. www.opensource.com
5. A.Cheikh.”The microarchitecture of multi-threaded RISC-V compliant processing core family for IoT end-nodes”.2018.pdf.

ОПРЕДЕЛЕНИЕ И ИСПОЛЬЗОВАНИЕ ФАЙЛОВ В ОПЕРАЦИОННЫХ СИСТЕМАХ

ФАРРУХ ДЖ. НАБИЕВ.

Магистр Бакинского Инженерного Университета

ferrux.nebiyev1@gmail.com

Ключевые слова: Си, бит, байт, флешка, ОС, ИТ.

Начиная данную работу я ставлю цель понять, каким образом файлы хранятся на компьютере. В первой главе я абстрактно расскажу что такое файл и зачем он нужен, далее постепенно перейдя к структуре, которую видит обычный пользователь. После буду рассматривать то, как располагается сам файл на жёстком диске. В конце приведу пример того как прочесть файл побайтно. Для этого буду использовать язык программирования Си. Таким образом я пройду весь путь от создания файла до его уничтожения.

Начну с самого лёгкого и попытаюсь ответить на вопрос: Что такое файл? Определения из разных источников говорят следующее:

Файл это именованная область данных на носителе информации.

Определение может быть непонятным, но немного подумав можно прийти к выводу что это очень даже понятно.

“Носитель информации” - это любой предмет который может хранить информацию - тетрадь, книга и т.д.

“Область данных” - из названия ясно что это область которая принадлежит данным, то есть определённое пространство в котором располагаются данные. Они не могут выйти из этой области и не могут никого впустить в неё. Таким образом делаем вывод что область данных это что то на подобии листа книги или главы из книги.

“Именованная” - ну это совсем просто, данное слово значит что, что-то проименовано, т.е. у него есть имя. На подобии названии главы из книги, или же номера страницы. Теперь рассмотрим наше определение ещё раз, забыв о программировании.

“Именованная область данных на носителе информации” - будь я человеком из древних времён понял бы что это не что иное как одна глава из книги, которая имеет конечное количество страниц! Ну вот мы поняли определение, теперь применим его к ИТ, и ответим на наш вопрос поставленный ранее:

Файл это место на жестком диске, флешке, карте памяти, которое имеет своё название и занимает определённое пространство.

Разобравшись с определением перейдём к структуре файла. Как всем известно у каждого объекта в мире есть своё строение, будь это облако, химическое соединение, дом, планета, одним словом — всё. И наши файлы не исключение. Они имеют своё строение о которых я попытаюсь рассказать как можно подробнее.

По строению файлы делятся на несколько видов.

Обыкновенный файл – фалы которые хранят определённое количество информации, в нашем случае они хранят биты. В обыкновенных файлах можно проводить три операции - удаление битов, перемещение, добавление нового бита.

Каталог – данный тип файла хранит в себе информацию о других файлах. То есть это не что иное как папка в которую мы можем зайти и увидеть сами файлы. Каталог очень гибок, в нём хранятся лишь описания файлов к которым мы можем перейти, сами файлы не хранятся в нём. Таким образом мы можем определить каталог и добавить в него несколько файлов. Каталог будет занимать очень мало места, так как в нём записаны лишь пути, в отличие от самих файлов. Он также может включать в себя другие каталоги формируя структуру похожую на дерево.

Жёсткая ссылка — файл который имеет несколько имён. То есть область которая может быть названа по разному но хранит одну и туже информацию. Более проще можно сказать, что это названия вещей на разных языках, то есть слово Book обозначает то же самое что и слово Kitab, таким образом эти названия вместе формируют файл жёсткой ссылки. После того как жёсткая ссылка определена, нельзя сказать какое имя было первым определением, а какое вторым, они равноправны.

Символьная ссылка — файл который ссылается на другой файл. При открытии данного файла он перенаправляет путь к другому файлу. Ссылки могут хранить путь к ссылкам, но не должен хранить путь к файлу хранящему путь к ней самой, иначе будет нарушена логика и файл будет перенаправлять поток формируя бесконечный цикл открытия файлов, интересно не правда ли?

Файловая система — основной каталог который определяется операционной системой. Отличается от других каталогов тем что её может изменять только сама операционная система. Обычный пользователь видит эти каталоги но как то изменять их не может. В ОС Windows пример каталога определённого системой это каталог «Рабочий стол», «Корзина», «Сетевые папки» и так далее. Всё это является файлами-каталогами, но так как они принадлежат ОС их всех вместе называют файловой системой.

Ну вот, всё что мы видим и с чем работаем на компьютерах это файлы! Нет ничего сверхъестественного. Всё храниться в виде файлов.

Так… Мы поняли что такое файл, поняли его структуру, теперь рассмотрим как он располагается на нашем жёстком диске.

Для того чтобы понять как файл храниться на жёстком диску нужно сперва понять что такое жёсткий диск и как он устроен. Жёсткий диск это устройство которое разделено на области. В каждой области есть несколько секторов. Именно в эти сектора и записываются файлы.

Файлы хранятся в виде последовательности блоков битов. Сперва в блок записывается размер блока файла, таким образом при чтении файла из жёсткого диска мы гарантируем что не

прочтём другие файлы. Прочтя то количество которое указано мы обрываем поток данных и тем самым определяем конец файла. Вот и всё что нужно знать о хранении файлов!

Далее рассмотрим кусок кода для обращения к файлу, написанным на самом быстром языке программирования.

```
#include <stdio.h>
#include <stdlib.h>

int main(int argc, char **argv)
{
        FILE *file;

        char file_name[] = "myFile.txt";

        int symbol;

        file = fopen(file_name, "r");

        while(1){

                symbol = fgetc(file);

                if(symbol == EOF){

                        if(feof(file) != 0){

                                printf("End\n");
                                break;

                        } else {

                                printf("Error\n");
                                break;

                        }
                }

                printf("%d", symbol);
        }

        fclose(file);
        return 0;
}
```

Первые две строки включают библиотеки с помощью которых мы можем работать с файлами и потоками вывода данных.

Для того чтобы прочесть файл мы запускаем бесконечный цикл, почему бесконечный? А потому, что мы изначально никогда не знаем размер файла! Да да, как и было сказано ранее файл сам содержит информацию о том сколько места он занимает. Разве это не шедеврально? Идеально продуманная структура файла предоставляет нам лишь информацию, всё что требуется сделать это просто её прочесть не волнуясь ни о чём другом.

Для начала с помощью fopen(*имя файла*, *режим чтения*) открывается файл с именем указанным в переменной file_name. fopen принимает два значения, имя файла и режим в котором мы хотим работать с файлом. В нашем случае r — значит «read», мы открываем файл чтобы его прочесть, любая попытка изменить что то в файле будет игнорироваться.

Функция while(1) запускает бесконечный цикл. Данный цикл будет продолжаться до тех пор пока в нём не будет вызвана функция break — прерывающая цикл.

fgetc(*файл*) — читает первые 8 битов из файла, так как в любой системе используются не сами биты а их совокупность из 8, формирующая байт. Таким образом можно сказать что

данная функция читает 1 байт информации из файла. Так как данная функция находиться в бесконечном цикле, она возвращает все байты определённые в пространстве файла.

EOF — уникальный идентификатор который обозначает конец файла. Данный символ возвращается когда жесткий диск прочитав всю информацию из файла, прерывает поток.

break срабатывает когда прочтённый символ равен EOF и выхоит из цикла while. Но это ещё не всё.

Так как мы обратились к файлу, ОС дала нам доступ на чтение файла, в результате файл занят нашей программой. Любая другая программа которая захочет обратиться к нашему файлу будет выдавать ошибку. Тут и возникает проблема с файловой структурой хранения данных. Любое обращение к файлу должно быть одно поточным. Увы решения нет, если мы хотим одновременно работать с одними и теми же данными нам нужно освободить занятый файл.

fclose(*файл*) — освобождает файл и даёт доступ к ней для других программ.

В этой работе я объяснил принципы работы над файлами, саму архитектуру файла, виды файлов, работу ОС с файлами, обращение к файлам из программ. В далнейшем могут быть рассмотрены одновременная работа с файлами и решение проблем доступа к ним.

ЛИТЕРАТУРА:

Robert S. Casey, et al. *Punched Cards: Their Applications to Science and Industry*, 1952.
Jerome H. Saltzer CTSS Technical Notes
Reference Guide — Hard Disk Drives — Early Disk Drives

TEXNOLOGİYANIN ELM SAHƏSİNƏ TƏSİRİ: ƏNƏNƏVİ VƏ YENİ TƏLİM METODARI

HACIYEVA ELMİRA NİZAMİ QIZI
Azərbaycan Turizm və Menecment Universiteti
Marketinq kafedrasının müəllimi
e.hajiyeva@atmu.edu.az

Xülasə. Məqalənin əsas məqsədi texnologiyanın elm sahəsinə böyük təsirini göstərməkdir. Məqalə, texnologiyanın tədris metoduna müsbət təsiri və rolunu təsvir edəcək. Texnologiya insanların təhsil almaq yolunu da dəyişmişdir. Elmi iş həmçinin ənənəvi və innovativ tədris metodlarını izah edir.

Açar sözlər: Texnologiya,Elm, Ənənəvi Təlim metodları, Yeni Təlim metodları.

Abstract. Purpose of this article is to show a great impact of technology on science. The paper will describe the positive influence and the role of technology on teaching methodology. The technology changed the way that people get education. The paper also explains the traditional and innovative ways of teaching methods.

Keywords: Technology, Science, Traditional, Innovative teaching methods.

Hal-hazırda dünyada texnologiyaların sürətli inkişafı bütün sahələrə olduğu kimi elm sahəsinə də öz təsirini göstərmişdir.Texnologiya yunan sözü olub,sənətə sistemli yanaşma deməkdir. Mənasından da göründüyü kimi, texnologiya təhsilin bir çox sahələrində düzənli sistem yarada bilib. Qədim zamanlarda təhsildə ənənəvi pedaqoji metodikalardan istifadə olunurdusa, indiki zamanda texnologiyalarsız təhsil ocaqlarını təsəvvür etmək mümkün deyil. Təhsildə yeni elektron sistemlərin quraşdırılması, vahid elektron bazaların mövcudluğu, proqramların yazılması, universitetlərdə modulların yaradılması və s. bütün bu yeniliklər texnologiya və elm sahəsini bir-biri ilə sıx əlaqələndirir.Təlim texnoloiyasının tarixi XX əsrin ortalarından başlamışdır. İlk dövrlərdə alimlər texnikanın, təhsilin bəzi mərhələlərində istifadəsinin tədris prosesinə daha yaxşı təsir edəcəyini söyləmişlər. Lakin hal-hazırda alimlər düşünür ki, texnologiyanın köməyi ilə insanlar müəllim və məktəbsiz istədiyi sahə üzrə biliklər əldə edə bilərlər.

Ənənəvi təlim.



Texnilogiyaların sürətli inkişafı bütün müəllimlər tərəfindən birmənalı şəkildə qarşılanmır. Bəziləri bunun əleyhinə olaraq vurğulayırlar ki, müəllimin əməyi mexanikiləşdirilmiş halda effektivliyini itirir və hesab edirlər ki, öyrətmək yalnız canlı insana məxsus xüsusiyyətdir. Bir faktı da unutmaq lazım deyil ki, texnologiyaların vasitəsi ilə qurulan təhsil sistemində yenə də müəllimlərin rolu böyükdür. Məhz metodist və müəllimlərin hazırladığı təlim proqramları texnologiya vasitəsilə xüsusi proqramlara yığılır və insanlar tərəfindən istifadə edilir. Ən böyük üstünlük texnika sayəsində təhsil sisteminin idarə edilə bilən olmasıdır.



Mənbə: www.shelbyanderson.org

Tətbiq olunan layihələr.

Modul sistemi. Yarandığı dövrdən indiyə kimi texnologiya bir çox mərhələləri keçib daha mükəmməl varianta gəlmişdir və sürətlə inkişaf edir. Bəzən bu sürətli inkişaf qısa zaman kəsiyində bir çox yenilikləri eyni vaxtda ortaya qoyur. Texnologiya və təhsil sisteminin birgə inkişafı nəticəsində bir çox təhsil müəssisələrində Modul sisteminin tətbiqinə başlanılmışdır. Modul sistemi tələbəyə təhsili müstəqil şəkildə öyrənməyi aşılayır, təhsildə istiqamət göstərir, vaxta qənaət edir, təbələrə rahatlıqla dərs materiallarından istifadəyə icazə verir və s. bu kimi imkanlar yaradır.

Distance Education (Məsafədən təhsil). Universitetlər artıq texnologiyaların köməyi ilə elm sahəsinə yanaşmalarını dəyişdirmişlər. İndiki zamanda dünyanın ən qabaqcıl universitetləri texnologiyaların köməyi ilə "Distance Education" və "Online Education" adı altında insanlara bakalavr və magistr təhsili oxumağı təklif edirlər. Bu ənənəvi təhsildən fərqlənir çünki bu zaman tələbə öz ölkəsini tərk etmədən seçdiyi sahə üzrə təhsilini bitirə bilər və sonda əlbəttə ki, öz diplomunu əldə edir. Universitetlər üstünlük olaraq bəzən daha məşhur müəllimləri proqramlara cəlb edirlər və yaxud ənənəvi üsulla yəni, əyani dərsləri keçən müəllimlər də internet üzərindən təhsilə cəlb oluna bilirlər.

Online courses (MOOC). Texnologiyanın yaratdığı digər bir böyük layihələrədən biri də insanlara istənilən sahə üzrə ödənişsiz kursların təşkilidir. Bu kurslar əsasən universitetlər və məşhur şirkətlər tərəfindən təşkil olunur. Qeydiyyatdan keçməklə eyni zamanda bir neçə kursa yazılmaq mümkündür və kurslar tam ödənişsizdir. Burada başlıca məqsəd kütləvi şəkildə təhsilin təbliğidir. İlk dəfə olaraq belə bir təklif Amerika Birləşmiş ştatlarının iki universitetinin birgə layihəsi nəticəsində meydana gəlmişdir.

Əməkdaşlıq prinsipi. Əməkdaşlıq prinsipi adlı sistem yaradılmışdır ki, bu sistem vasitəsilə Müəllim-şagird- valideyn hər üç tərəf təlim tədris prosesində iştirak edə bilir. Bu da öz növbəsində təhsildə idarəetməni və intizamı təmin edir.

Təhsildə texnologiyanın faydaları

1) İnternetin sayəsində dünyanın istənilən yerindən olan məlumatlara yiyələnmək olar.
2) Texnologiya vasitəsilə zamana qənaət mümkündür.

3) Texnologiya vasitəsilə tədris metodları yenilənmişdir. Proyektor və televizorlardan istifadə
4) Texnologiya vasitəsilə informasiya mənbələrinin sayı və çeşidi artmışdır.
5) Ödənişsiz təhsil proqramlarının onlayn istifadəsi.

Texnologiya köməyi ilə həyata keçirilən təhsil proqramlarının tərtibatı zamanı iştirak edən şəxslər aşağıdakılardır:



Texnologiyanın əvəzsiz rolu və məhz bu şəxslərin səyi nəticəsində təhsil sahəsində böyük layihələr ortaya çıxır.

Bir sözlə, elm sahəsi, texnologiyanın təsiri ilə tam başqa şəkil almışdır. Elm sahəsində alimlərin, tədqiqatçıların və tələbələrin işləri asanlaşmış, zəngin elmi məlumatlarla və materiallarla təmin olunmuşlar. Onu da vurğulamaq lazımdır ki, texnologiya insanların beyninin məhsuludur və tək texnologiya, insanların rolu olmadan, nəinki elm sahəsində hətta digər sahələrdə də nailliyyətlər əldə etmək mümkün olmazdı.

İSTIFADƏ EDILMIŞ ƏDƏBIYYAT SIYAHISI

1. **Archibugi D., Filippetti A. The Handbook of Global Science, Technology, and Innovation, J.Wiley &Sons. 124s.**
2. www.shelbyanderson.org
3. Miltiades. A.Boboulos. Automation and Robotics. UK, John Wiley, 2007, 272 s,
4. David. A. Jacobsen & Eggen.P.Methods for teaching. USA.Pearson,2009
5. Л.В.Сакун, В.М. Разуванов .“Маркетинг в туризме”, РИПО, 2014, 265 с.,

ELEKTRON TICARƏTİN AZƏRBAYCANDA İNKİŞAF PERSPEKTİVLƏRİ

ELÇİN SÜLEYMANOV
elsuleymanov@beu.edu.az

XƏYALƏ İBRAHİMOVA
khayala.hashimova@gmail.com
Bakı Mühəndislik Universiteti

XÜLASƏ

İnternet termin kimi, iki və daha çox kompüterin bir-biri ilə bağlanması nəticəsində meydana çıxan şəbəkə deməkdir. Sürətlə inkişaf edən internet texnologiyaları və internet fiziki şəxslər (müştərilər), biznes və ticarət tərəfdaşları arasında qarşılıqlı əlaqə yaradır, alıcıya öz evini tərk etmədən elektronik mühitdə alış-veriş etmək imkanı verir. Xüsusilə qərb ölkələri, Amerika və Yaponiyada geniş tətbiq olunan e-ticarət getdikcə Azərbaycanda da geniş yayılmağa başlamışdır. E-ticarət hər cür malın və xidmətin kompüter texnologiyası, elektron rabitə kanalları və müvafiq texnologiyalardan istifadə edilərək alınıb satılmasıdır.

Açar sözlər: elektron ticarət, elektron biznes, internet, Azərbaycan iqtisadiyyatı.

ABSTRACT

The Internet is a network that occurs as a result of connecting two or more computers together. Rapidly developing Internet technologies and the Internet create a relationship between individuals (customers), business

and trading partners, allowing the buyer to shop electronically without leaving his/her home. Especially in the countries of the Black Sea, America and Japan, e-commerce, which is widely used, has become widespread in Azerbaijan. E-commerce is the purchase and sale of all types of goods and services by computer technology, electronic communication channels and related technologies.

Key word. e-commerce, internet,Azerbaijan Economy.

Giriş

1990-cı illərdən etibarən, internetin, informasiya texnologiyalarının inkişafı və sürətlə yayılması iqtisadiyyatın bir sıra sahələrinə də öz təsirini göstərməyə başladı. İnternetin inkişafı ilə əlaqəli olaraq bir sıra biznes sahələrində, o cümlədən elektron ticarət sahəsindəki əməliyyatlarda səmərəlilik artmışdır. Nəticədə internet sahəsində baş verən dəyişikliklər istər firmalar, istər alıcılar, istərsə də kredit verən təşkilatlar arasında texnologiya əsaslı ticarət yaratdı. Bu ticarətin adı isə elektron ticarətdir. Elektron ticarət anlayışı 1980-ci illərdə meydana gəlsə də, ilk dəfə internet vasitəsilə alqı-satqı 1995-ci ilə təsadüf edir. Elektron ticarət – informasiya və internet resurslarından istifadə etməklə ticarətin aparılmasıdır. Dünyada bütün alış əməliyyatlarını internet üzərindən aparan, sırf elektron ticarətlə məşğul olan şirkətlərin sayı getdikcə artmaqdadır. Buna misal olaraq, “Amazon”, “E-bay”, “Alibaba” və s. şirkətləri göstərə bilərik. Avropanın, demək olar ki, əksər ölkələrində marketlər müştərilərinə elektron alış-veriş etmək imkanı yaradır. 2020-ci ildə qlobal e-ticarət həcminin 64 faizinin inkişaf etməkdə olan ölkələr tərəfindən yaradılması gözlənilir. Dünyada e-ticarət həcmi 400 milyard dollara çatmmışdır. E-ticarət böyüməyə davam edərək, 2020-ci ildə 1 trilyon dollara yaxınlaşacaq.

1. Elektron ticarət nədir?

E-ticarət, ənənəvi ticarət quruluşundan qurtulub, informasiya texnologiyasının hər aspektindən istifadə edərək ticarətlə bağlı bir çox problemi asan, rahat, sürətli, detallı və iqtisadi şəkildə həll etməyi hədəfləyən ticarət növüdür.

Elektron ticarət biznes sahələri, qurumları və şəxslər arasında ticarət əməliyyatlarını rəqəmsal olaraq həyata keçirən əməliyyatdır. Evinizdən çıxmadan, alacağınız məhsul haqqında məlumtları əldə edib sifariş vermək istəyirsiniz. Bu zaman sizin köməyinizə elektron ticarət çatır. Elektron ticarət texnologiya və internet istifadəçiləri üçün aşağıdakı şəraiti yaradır:

- Eyni anda hər yerdə olmaq;
- Sərhədləri aradan qaldıraraq, insanları və əməliyyatları dünyanın fərqli yerlərinə çatdırmaq;
- Beynəlxalq standartları ortaya qoymaq;
- Məlumat zənginliyi yaratmaq;
- Texnoloji vasitələri artırmaq;
- E-ticarət texnologiyanı fərdiləşdirməyə və yeniləmələrə icazə verir;

Elektron ticarət 1960-cı illərdən bəri ABŞ-da EDI (Elektron məlumat mübadiləsi) texnikasından istifadə edərək qeyri-açıq şəbəkələrin və yüksək xərclərin köməyi ilə pərakəndə və paylayıcı sektorda tətbiq olunurdu.(2) 1970-ci illərin sonlarından, telefon, televiziya və bənzər vasitələrin köməyi ilə kataloqlardan edilən satışlar da elektron ticarətə daxil edilməkdə idi. Amma bu cür elektronik ticarət çox məhdud səviyyədə qalmış və geniş populyarlıq əldə etməmişdir. Geniş auditoriyaya çıxış imkanı olan internetin 1960-cı illərin sonlarından qədər hərbi məqsədlər istiqamətində ABŞ-da ortaya çıxması iki yollu, sürətli və davamlı informasiya axını təmin etdiyi üçün bu istiqamətdə yeni imkanlar yaratmışdır.(3) İnternet ilk dəfə hərbi məqsədlər üçün istifadə edilsə də, daha sonra ictimai xidmətlər və akademik fəaliyyətlərə yönəldilmiş, ən sonda isə E-ticarətdə özünəməxsus yeri tapmışdır.

2. Elektron ticarətin növləri

Elektron ticarətin aşağıdakı növləri vardır:

B2C (Business- to Consumer- biznes- müştəri) elektron kommersiya sistemində satıcı rolunda şirkət, alıcı rolunda isə fiziki şəxs, yəni müştəri çıxış edir. Mal və xidmətlərin reallaşdırılması elektron vitrindən, vacib interfeys elementlərindən istifadə etməklə istehlakıçının özü ilə həyata keçirilir.

C2C (Consumer to consumer) sistemindən bir istehlakçı başqa istehlakçılara məhsul satdığı zaman istifadə edilir. İstehlakçılar arasındakı anlaşma 3-cü şəxsin- provayderin köməyi ilə həyata keçirilir.

C2B (consumer-to business) – istehlakçı –biznes. E-ticarətin bu növünə məhsul və ya xidmətləri təşkilatlara satan, həmçinin onlarla qarşılıqlı əlaqə quran satıcıları axtaran fərdi istehlakçının aid olduğu elektron ticarət növüdür.

G2G (government to government) – Hökumətin hökumətlə, hökumətin dövlət qulluqçuları ilə qarşılıqlı əlaqədə olaraq məqsədin kommersiya mənfəəti əldə edilməsi deyil, məsrəflərin azaldılmasından ibarət bir E-ticarət növüdür.

B2G (business to government) – İqtisadçılar biznes hökumət elektron kommersiya sisteminin inkişafının qlobal miqyasda işgüzar təcrübənin konseptual dəyişməsinə imkan yaradacağına daha çox inanırlar. Biznes hökumət e-ticarət sistemi şəxslərlə hökumət arasında baş tutur.

C2G (consumer to government) istehlakçı ilə hökumət arasında baş verir. Bu növ E-ticarət fiziki şəxslər və sosial təminat kimi dövlət orqanları arasında baş tutur.

3. Elektron ticarətdə təhlükəsizlik

İnternet istehlakçılara açıq şəbəkə mühiti təklif edir. Kredit kartının nömrəsinin oğurlanması, əngəllənməsi e-ticarətin iş həcmini məhdudlaşdıran mühüm amillərdəndir. E-ticarət fiziki müşahidə və nəzarətdən uzaq baş verdiyi üçün, qarşılıqlı təhlükəsizliyə əsaslanır. Buna görə e-ticarət şirkətləri informasiya texnologiyasının inkişafını strateji resurs və təşkilatın missiyasını araşdırmağa imkan verən bir fakt kimi görürlər.(4) E-ticarətdə informasiyanın qorunması üçün əsas həll effektiv təhlükəsizlik sistemlərinin həyata keçirilməsidir. E-ticarət ölkələr arasındakı sərhədləri aradan qaldıramaqla ticarəti qlobal səviyyəyə çatdırarara ticarətin həcminin artımına yardım edir. Bu halda, e-ticarət müəssisələri müştərilərlə olan əlaqələrində təhlükəsizlikə bağlı hər bir addımı doğru atmalı, təhlükəsizlik hücumlarının qarşısını alınmasına əhəmiyyət verməlidir.

Elektron ticarətin inkişaf etdirilməsi və yayılması baxımından bir sıra tənzimləmələr edilməlidir ki, baş verəcək hadisələr elektron ticarətə mənfi təsir göstərməsin:

- Texniki infrastrukturun yaxşılaşdırılması:

Texniki infrastuktura görə, ortaya çıxan problemlər açıq şəbəkələrə çıxışı e-ticarəti çox məhdudlaşdırmaqdadır. Sürətli, etibarlı, ucuz və hər kəsin istifadə edəcəyi bir açıq şəbəkə infrastrukturu olmadan, e-ticarətin faydalarından istifadə etmək mümkün deyil. İstifadəçilərin girəcəyi şəbəkə saytlarının adlarının (domain names) təsis edilməsi vacibdir.

- İstehlakçını və şəxsi məlumatları qoruyan tədbirlərin alınması: istifadəçilərin e-ticarət

sisteminə etibar etməsini təmin etmək vacibdir və istehlakçı hüquqlarının qorunması üçün əlavə hüquqi, inzibati tənzimləmələrə ehtiyac vardır.

- Elektron imzanın hüquqi qüvvəsinin olması: Elektron imzanın hüquqi qüvvəsini təmin etmədən, elektron mühitdə biznes müqaviləsi bağlamaq, demək olar ki, mümkün deyil.

- Vergiqoyma, ödəmə və çatdırılma üsullarının yaradılması: Xüsusilə beynəlxalq e-ticarətdə vergi ödənilməsi, ödəmə vasitələrinin yaradılması, gömrük prosedurasının sadələşdirilməsi və e-ticarətə uyğunlaşdırılması lazımdır.

- İntellektual mülkiyyət hüquqlarını qoruyan tədbirlərin görülməsi: E-ticarətdə, daha doğrusu açıq şəbəkələrdə, xüsusilə kompüter proqramlarının, şeir, roman, hekayə, rəsm kimi sənət əsərlərinin oğurlanması və s. hallarda intellektual mülkiyyət hüquqlarının qorunması vacibdir.

4. Elektron ticarətlə bağlı mövcud olan problemlərdən biri də vergilər üzrə mövcud olan problemlərdir:



Adətən e-ticarət əməliyyatlarında alıcılar tərəfindən əldə olunan mallara və ya xidmətlərə görə dolayı vergilərin müxtəlif vergi yurisdiksiyalarında fəaliyyət göstərən satıcılara ödənilmir, bu isə öz növbəsində e-ticarət vasitəsilə fəaliyyət göstərməyən satıcılara əlverişsiz şərait yaratmaqla vergi gəlirlərini azaldır. Bir çox dövlətlər satıcılar tərəfindən toplanmış vergilərin doğruluğuna şübhə ilə yanaşır.

Xüsusən beynəlxalq vergitutmaya dair yaranmış prinsiplər e-ticarətlə bağlı vergilərin hansı dövlətdə tutulmasını müəyyən edir, yəni şəxsin vergitutma məqsədləri üçün ölkədə rezident statusuna və ya sahibkarlıq yerinə malik olmasına baxılır. Buna baxmayaraq, e-satıcılardan hər hansı bir xüsusi dövlətdə sahibkarlıq yerinə malik olmaları tələb edilmir. Adi ticarətdən fərqli olaraq e-ticarət zamanı satıcıların istehlak bazarına yaxın olmaları vacib deyil. Əlavə olaraq, e-satıcılar asanlıqla sahibkarlıq yerlərini aşağı vergi dərəcələri olan ölkələrə keçirə bilirlər. Bir çox e-ticarətlər bir və ya digər dövlətdə yerləşə bilən internet səhifələrdən ibarətdir. Bunun üçün isə, vergitutma məsələləri adi ticarətdən fərqli olaraq e-ticarət üçün böyük rol oynayır. Belə ki, aşağı vergi dərəcələri olan dövlətlər e-satıcıları cəlb edərək digər dövlətlərin vergi gəlirləri üçün təhlükə yarada bilərlər.

E-ticarət kiçik və orta sahibkarlara malları və xidmətlərini dünya bazarına çıxarmağa imkan verir. Keçmişdə bu imkanlardan yalnız beynəlxalq (çoxmilli) şirkətlər faydalanırdılar. Bu imkanlar beynəlxalq ticarət ilə məşğul olan şirkətlərin sayını kifayət qədər artırmışdır. Bu inkişaf isə istehlakçıların ödənişlərinə beynəlxalq xarakter verir. Qeyd edilən inkişaf, vergi orqanlarını yeni problemlərlə üzbəüz qoymaqdadır. Vergi orqanları artmaqda olan xarici vergi ödəyiciləri ilə bağlı, yəni böyük xərclər doğuran xarici şirkətlərdən vergi borclarının yığılması ilə bağlıdır. Belə ki, e-satıcıların ölkə daxilində aktivləri olmadığı üçün vergi borclarının əmlak şəklində alınması mümkün olmur.(8)

Eyni zamanda, e-ticarət vergidən qaçma sxemlərinin nəticəsi ola bilər. Adi beynəlxalq əməliyyatlarda gömrük orqanları idxal və ya ixrac edilən malları yoxlaya bilir. E-ticarət əməliyyatları dövlət orqanlarının müşahidəsi xaricində olduğundan, gömrük orqanları bu əməliyyatlara müdaxilə edə bilmir.

5. Azərbaycanda elektron ticarətin inkişaf perspektivləri

Müstəqillik əldə etdikdən sonra Azərbaycan öz iqtisadiyyatını sürətli inkişaf etdirən liberal dəyərlərə əsaslanan bir sistemi formalaşdırmağa üstünlük verdi. Təbii resursların zənginliyinə görə ölkəyə xarici sərmayə əsasən neft sektoruna daxil olurdu. Azərbaycanın ixracatının 90 faizinə yaxın neft məhsullarının təşkili xüsusi ilə 2014-cü ildən neft qiymətlərinin azalması fonunda iqtisadiyyatın diversifikasiyası, sahibkarlığın və qeyri-neft sektorunun inkişafı Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölkədə vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" yaradılıb. 2005-ci il may ayının 10-da "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib.(7) Elektron ticarətlə bağlı tərəflərin bütün hüquq və vəzifələri, tərəflərin bütün məsuliyyətləri həmin qanunla tənzimlənir.

2016-cı ildə Azərbaycanda elektron ticarət dövriyyəsi 25 milyon 613 min manat, 2017-ci ildə isə 46 milyon 227 min manat olub. 2017-ci il BMT-nin Ticarət və İnkişaf Konfransının B2C elektron ticarət indeksində Azərbaycan 144 ölkə arasında 68-ci yerdədir.

Azərbaycanın yerləşdiyi əlverişli geostrateji mövqeyin beynəlxalq elektron ticarət məhsullarının poçt vasitəsilə daşınma və çatdırılması baxımından Azərbaycan poçtu ölkələrarası elektron ticarətin həyata keçirilməsi üçün regional tranzit poçt mərkəzi (HUB) kimi fəaliyyət göstərir.

Elektron ticarət - elektron platforma, elektron ödəniş sistemləri və logistika kimi 3 əsas meyar üzərindən inkişaf edir ki, yaranan problemlər də əsas elektron ödəniş sistemləri ilə bağlıdır. Son illərdə bu istiqamətdə böyük işlər görülməkdədir. 26 sentyabr 2018-ci ildə 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı

Prezident tərəfindən təsdiq olundu.(6)Virtual aləmdə biznesin inkişaf etdiyi bir dövrdə Azərbaycan sahibkarının həm ölkə daxilində, həm də xaricdə öz məhsullarını istehlakçılara təqdim etmək, rəqabətqabiliyyətliyinin yüksəldilməsi, resurslara qənaət olunması, bazarın əhatə dairəsinin genişləndirilməsi baxımından elektron ticarətin inkişaf etdirilməsində hökumət tərəfindən bir sıra islahatların aparılması mühüm məsələlərdən biridir. Çünki elektron ticarətin inkişafı sahibkarlığın tərəqqisinə dəstək göstərməklə yanaşı, sonda ölkəmizin iqtisadiyyatının davamlı yüksəlişinə öz töhfəsini

verəcəkdi E-ticarətin Azərbaycan iqtisadiyyatına təsiri, məhdudiyyətlərin daha az olduğu bir iqtisadi fəaliyyət növünü yaratmasıdır.(5) Bu təsir, əsasən sürətlə inkişaf edən informasiya-kommunikasiya texnologiyalarının səbəb olduğu nəticədir. Bu təsirləri 2 cəhətdən nəzərə ala bilərik:

1. Firmalar baxımından faydaları: İnternet sayəsində firmalar müştərilərinə dünyanın hər yerində 7 gün 24 saat xidmət edə bilirlər. İnternetdə virtual mağaza açmağın maya dəyəri real bir mağaza açmağın maya dəyərindən olduqca aşağıdır. Daha sürətli məhsul istehsalı, test edilməsi və müştəri tələblərinin müəyyən edilməsi mümkün olduğundan müştərilərin tələbləri daha tez təmin olunur. Səmərəli məhsul tanıtma, məhdudiyyətsiz əlaqə imkanları sayəsində, qlobal istehlakçı şəbəkəsilə firmalar yüksək satış həyata keçirə bilirlər.

2. İstehlakçılar baxımından faydaları: İstehlakçı, evindən, iş yerindən və ya hər hansı bir yerdən internetə qoşularaq zaman və məkan fərqi olmadan, hər zaman hər yerdən alqı-satqı həyata keçirə bilər. İnternetdə alqı-satqı asan və əyləncəlidir. İstehlakçı, internetdəki bir çox məhsul arasından özünə ən uyğun məhsulu müqayisə ilə seçir və sürətlə satınalma əməliyyatını həyata keçirir. Ümumiyyətlə e-ticarətin iqtisadi və sosial həyata aşağıdakı kimi təsir edəcəyi düşünülür:

a) Açıq şəbəkədə e-ticarət əməliyyatları, iqtisadi rabitəni çoxaldır. Bunun nəticəsində, xüsusilə kiçik və orta sahibkarlar və fərdi müştərilər, digər marketinq üsullarından daha asan və ucuz xərclə ticari fəaliyyətlər həyata keçirə biləcəklər.

b) E-ticarətin gedərək daha çox istifadə edilməsi. Bunun səbəbi, hamının istifadəsinə açıq olan və həmçinin heç bir təşkilata və ya şəxsə aid olmayan internet istifadə edilməsidir.

c) E-ticarət, mal və xidmətlərin istehsalı, paylanması və marketinqi ilə yanaşı hər növ məlumat mübadiləsinə yeni imkanlar açmaqdadır

d) Mal və xidmət bazarının strukturu e-ticarət ilə dəyişəcəkdir.

e) E-ticarət ilə, satıcı və alıcının şəffaf və ədalətli rəqabətə yaxın bir şəraitdə bir yerə gəlməsinə imkan verilərək, resursların daha səmərəli istifadə edilməsi təmin ediləcəkdir.

f) E-ticarətin, məşğulluğa təsiri də qaçılmazdır.

g) Yeni iş yerləri və savadlı olaraq ifadə edilən – kompüterdən istifadə edə bilən əmək qüvvəsinin formalaşmasına təsir edəcəkdir.

h) İnkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə olan yeni texnologiya ixracı, müəyyən qədər mədəniyət ixracını da özü ilə gətirəcəkdir.

Nəticə

Elektron ticarətin inkişaf etdirilməsi baxımından Azərbaycan hökumətinə iki əsas vəzifə düşür. Bunlardan birincisi; dövlətin əsas funksiyalarının icrası zamanı elektron ticarətin gətirdiyi imkanlardan istifadə edilməsidir. Bu çərçivədə; icra orqanları inzibati və xidməti funksiyalarını yerinə yetirərkən elektron hökumətin verdiyi imkanlardan istifadə etməli və inkişaf etdirməlidirlər. Əhalinin qeydiyyatı və şəxsi məlumatlarla əlaqəli xidmətlər, vergiqoyma və ödəmə, dövlətin mal və xidmət alması zamanı e-ticarətdən istifadə edilməsi buna nümunə göstərilə bilər. Dövlətin bu mövzudakı ikinci, amma birincidən daha önəmli vəzifəsi isə elektron ticarət üçün lazımi fiziki və hüquqi infrastrukturu yaratmaqdır. Elektron ticarətin fiziki infrastrukturunun qurulması müəyyən texniki təchizatdan asılı olduğuna görə, böyük miqyasda texnoloji yeniliklərdən təsirlənir. Müasir dövrdə olan texnoloji inkişaf səviyyəsi, elektron ticarətin fiziki infrastrukturunun hazırlanmasına çox müsbət təsir edəcək keyfiyyətdədir. Elektron ticarət üçün lazımi infrastrukturun yaradılması isə, fiziki infrastrukturdan daha çətin kimi görünür. Bunun ən önəmli səbəblərindən biri, ənənəvi ticarətdə istifadə edilən metod və vasiətələrin bir qisminin elektron ticarətə yaramaması, beləliklə də, mövcud qanunvericilikdə dəyişiklik məcburiyyəti, hazırlanmalı olan yeni hüquqi tənzimləmələrin digər ölkə qanunlarına da uyğun olması zərurətinə baxmayaraq bu mövzuda hər hansı bir beynəlxalq fikir birliyinə gəlinməməsi, texniki infrastrukturda olan bəzi problemlərin hüquqi problemlərə də səbəb olması kimi çətinliklər sayıla bilər. Son olaraq, e-ticarətin inkişafı istiqamətində həyata keçiriləcək dövlət siyasəti haqqında danışmaq olar. Çünki, özü də bir istifadəçi olan dövlətin bu mövzuda həyata keçirəcəyi hazırlıqların keyfiyyəti və sürəti ilə, texniki, inzibati və hüquqi tənzimləmələrdə həyata keçirəcəyi funksiyaları icra tərzi e-ticarətin ölkədəki inkişafına təsir edəcəkdir. Bu xüsusiyyətlər nəzərə alındıqda aşağıdakı amillərin vacibliyi ortaya çıxmaqdadır:

- Dövlət orqanlarında bu istiqamətdə həyata keçirilən işlər koordinasiya edilməli və bu sahədə özəl sektorla güclü əməkdaşlıq aparılmalıdır.(5)

-E-ticarət, qlobal informasiya cəmiyyətinin ayrılmaz bir parçası olduğuna görə, həyata keçirilən siyasətlər, texniki standartlar və tətbiqat vasitələri beynəlxalq normalara uyğun formada müəyyən edilməli, bu mövzuda tələsilməməlidir.

- Dövlət sektoru e-ticarətdən istifadəyə öyrəşməlidir.

- Bürolarda və ticarətdə kağız işlərindən elektron əməliyyatlara keçid bir proqram çərçivəsində həyata keçirilməlidir.

- Həyata keçiriləcək tənzimləmələrlə istifadəçilərin təhlükəsizliyi mütləq təmin edilməli, tərəflərin və vasitəçilərin məsuliyyəti aydın müəyyən edilməlidir.

Nəticə olaraq, elektron ticarət sahəsində həyata keçiriləcək dövlət siyasətinin tərkib hissələrini, müvafiq fiziki infrastrukturun hazırlanması və davamlı inkişaf etdirilməsi, dövlət və özəl sektorun tələblərinin müəyyən edilməsi və uğunlaşdırılması, və hüquqi bazanın yaradılması kimi göstərmək olar.

ƏDƏBIYYAT:

1. "History of the Internet: A Timeline"; (http://www.wnpl.alibrary.com/train/ tutorial/timeline.html). Giriş tarixi 4 oktyabr, 2018.
2. "History of the Internet"; (http://www.cs.rochester.edu/u/leblanc/internetcourse/ history.htm). Giriş tarixi 5 noyabr, 2018.
3. "The Internet"; (http://www.wuwien.ac.at:8082/rfc/rfc1462.hyx/rfc1462.3_b The_ bInterne). Giriş tarixi 10 noyabr, 2018.
4. Varian, Hal R., "The Information Economy: How Much Will Two Bits Be Worth in the Digital Marketplace?"; (http://sims.berkeley.edu/~hal/pages/sciam.htm). Giriş tarixi 12 mart, 2011.
5. Suleymanov, E "Electronic commerce and IT's probable effects on Azerbaijan Economy" Application of Information and Communication Technologies, 2009. AICT 2009. International Conference 14-16 Oct. 2009.
6. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı http://www.e-qanun.az/framework/40164
7. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az/alpidata/framework/data/10/f_10406.htm
8. "Elektronik Ticaret İliskilerin Rengini Belirliyor", Information Week, S. 15, 1998.

İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ TİBBİ KADRLAR HAQQINDA İNFORMASİYA MƏNBƏLƏRİNİN ARAŞDIRILMASI, TƏHLİLİ, ONLARIN XARAKTERİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

GÜLNAR KAZIMOVA

AMEA İnformasiya Texnologiyaları İnstitutu, Doktorant, Bakı, Azərbaycan

kazimova.gulnar90@mail.ru

Xülasə - informasiya cəmiyyətində tibbi kadr hazırlığı, Azərbaycanda tibbi kadr hazırlığı, dünyada tibbi kadrlar haqqında informasiya mənbələri, informasiya mənbələrinin xarakterinin müəyyənləşdirilməsi.

***Açar sözlər** – tibbi informasiya sistemləri, e-tibb, fərdi tibbi məlumatlar, Big Data.*

I. GİRİŞ

Səhiyyə sisteminin fəaliyyətinin nəticəsi və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti birbaşa olaraq tibbi personalın kəmiyyət və keyfiyyətindən asılıdır. Odur ki, tibbi kadr təminatının yaxşılaşdırılması və tibb işçilərinin peşəkarlıq səviyyəsinin artırılması hər bir ölkənin və bütövlükdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) xüsusi diqqət ayırdığı vacib məsələdir. Tibbi kadrlar dedikdə, həm də ota tibb işçiləri (feldşer, akuşer, tibb bacısı) nəzərdə tutulur.

Tibbi kadrın peşə vəzifələrini uğurlu yerinə yetirməsi onun intellektual potensialından, müəyyən peşəkar və şəxsi kompetensiyalara yiyələnmə dərəcəsindən, konkret iş yerində onlardan istifadə etməyə hazır olmasından, professional sahədə öz bilik və bacarığını təkmilləşdirmək və müntəzəm yeniləmək arzusu və bacarığından asılıdır. Tibbi verilənlərin həcmi və müxtəlifliyinin artması bir daha göstərir ki, Big Data dövrü məhz səhiyyə üçün yaranmışdır. Bunun ancaq informasiya sistemlərinin həyata keçirilməsi və qiymətləndirilməsi nöqteyi-nəzərindən deyil, həm də informatika sahəsində tədqiqatçıların və peşəkarların hazırlanmasında böyük təsiri vardır. Həkim qoyduğu diaqnoza tək tibbi ədəbiyyat mənbələri deyil, eyni zamanda öz şəxsi təcrübəsi, intuisiyası, rast gəldiyi presezentlər və s. təsirini göstərir.

Hazırda yüksək ixtisaslı kadr hazırlığına, tibb ixtisaslı mütəxəssislərin peşə, bilik və bacarıqlarının təkmilləşdirilməsinə, kadr təminatı və səhiyyənin keyfiyyət göstəricilərinin yüksəldilməsinə çox böyük önəm verilir.

Tibbi sferada kifayət qədər uğurlu nəticələri ilə irəlidə olan İngiltərə, Belçika, Almaniya, İrlandiya, İspaniya, Litva, Finlandiya, Avstraliya və Kanadada səhiyyə əmək bazarında insan resurslarının monitorinqi üçün zəruri mənbə - düzgün, etibarlı və yeni verilənlərin əldə edilməsini təmin edən informasiya bazasının yaradılması və aktual vəziyyətdə saxlanmasıdır.

Bu gün işçinin inkişafına az xərc çəkməklə ondan maksimum əvəz gözləmək, təşkilatın inkişafına nail olmaq olmaz. Tibbi kadrın peşəkar və bəzən də karyerada irəliləyişini stimullaşdıran gözləntilərini nəzərə almadan ondan vəzifə səlahiyyətlərinə yaradıcı yanaşma və yüksək keyfiyyətli əmək fəaliyyəti gözləmək olmaz.

II. TİBBİ KADRLAR HAQQINDA İNFORMASİYA MƏNBƏLƏRİ

XX əsrin 90-cı illərində tibbi cihazlar və aparatlarda dərin və önəmli dəyişikliklər baş verdi. Verilənlərin emalı zəminində texnologiyaların inkişafı, xəstəxana işçilərinin ixtisas səviyyəsinin yüksəlməsi, xəstələrin tələblərinin artması, xidmət təqdimi və onun modelinin keyfiyyətinin dəyişməsi və sığorta ödəmə metodlarının fərqli olması xəstəxanaların fəaliyyətində böyük dəyişikliyə və inkişafa səbəb olmuşdur.

Bulud texnologiyaları xəstəlik tarixçələrinin saxlanılması, xəstələrin monitorinqi, müalicə metodlarının daha səmərəli və effektiv şəkildə istifadə olunması, o cümlədən həmkarlarla məlumatların bölüşdürülməsi və analizi məqsədi ilə tibb sahəsində istifadə edilməyə başlamışdır.

Müəssisələr bulud texnologiyalarından istifadə etsələr, böyük məsrəf xərcləri tələb edən verilənlərin emal mərkəzlərinin yaradılması üçün tələb olunan kompüterlərin, yaddaş və hesablama sistemlərinin və proqram təminatlarının alının quraşdırılmasına ehtiyac yaranmayacaq.

Beləliklə, bulud texnologiyaları müxtəlif sahələrdə olduğu kimi tibb sahəsində də geniş istifadə olunur. Bu texnologiyalar, ilk növbədə həkimlər arasında operativ informasiya mübadiləsi sistemi sayəsində xəstələrə göstərilən xidmətlərin keyfiyyətini artırmağa imkan verir. Bunlar da səhiyyənin daha effektiv, təsirli, qənaətcil və operativ olmasına şərait yaradır.

Tibbi sosial şəbəkələr:

Sermo – həkimlər üçün nəzərdə tutulmuş sosial şəbəkə cəmiyyəti hesab olunur. ABŞ-ın 50 ştatından olan 68 ixtisası təmsil edən həkimlər bu şəbəkəni üzvüdürlər. Şəbəkə vasitəsilə onlar müalicə metodlarını müzakirə edir və ekspertlərlə konsultasiyalar aparırlar.

Doximity – bu şəbəkə 1996-cı ildə ABŞ-da qəbul edilmiş Tibbi Sığortanın Vərəsəliliyi və Hesabatlılığı haqqında Qanunun (HİPAA) şərhi üzrə ən güclü tibbi şəbəkə hesab olunur.

ABŞ və Kanadanın məşhur İnternet resursu olan *Student Doctor Network* saytı tələbələrə ali təhsil almağa, həkimlərə təcrübə keçməyəkömək edir. Bu saytın 40 mindən çox aktiv üzvü var. Əczaçılar üçün SHP Connect, PharmQD, The Pharmacist Society adlanan sosial şəbəkələr fəaliyyət göstərir. Tibb bacılarını bir araya gətirən ANANurseSpace, NursingLink və SocialRN sosial şəbəkələri də mövcuddur.

Bloqlar:

Bloq fərdi jurnal olub, informasiyanı, fikirləri, şərhləri və müxtəlif tipli hiper-əlaqələri özündə toplayan veb-saytdır. Həkimlərin əksər hissəsi bloqlardan digər səhiyyə işçiləri və ya cəmiyyətləri ilə əlaqə yaratmaq üçün istifadə edir. Məsələn Clinical Case bloqu.

Mikrobloqlar: Ən geniş yayılmış mikrobloq *Twitter-dir*. Tibbdə *Twitter*-dən konfranslarda müzakirələr və təqdimatların real vaxt rejimində reallaşdırılması, tələbə və müəllimlər arasında məlumat mübadiləsinin aparılması üçün istifadə edilir.

Vikilər: bu veb-saytda itifadəçilər tərəfindən mətn, multimedia, kontentlər yerləşdirilə və redaktə edilə bilər. Tibbi cəmiyyətdə Vikipediya daha geniş istifadə olunur. Vikipediya etibarlı mənbə olmasa da, əksər tibb işçiləri ondan istifadə edirlər. Vikipediyanın əsas xüsusiyyətlərindən biri Google axtarış sistemində məşhur olmasıdır.

Media-mübadilə saytları: bu saytların istifadəsi rahatdır, istifadəçiləri pulsuz qeydiyyatla təmin edir, eyni zamanda həm kompüter, həm də mobil qurğulardan daxilolma imkanı verir. Ən geniş yayılmış media-paylaşım saytı *Youtube*-dur. Bundan başqa The Doctors Channel-i də göstərmək olar.

Son illərdə sosial şəbəkələrin kütləvi istifadəsi peşəkar sosial cəmiyyətlərin inkişafına səbəb olmuşdur. Bunlara misal olaraq *Sermo, Doc2Doc, Ozmosis, Healtheva göstərmək olar*.

Linkedln İnternet resursu iş axtarışı və professional inkişaf üçün orta hesabla 1,5 milyon səhiyyə mütəxəssisinin qeydiyyatdan keçdiyi peşəkar sosial şəbəkə veb-saytıdır. Linkedln-dəki səhiyyə müəssisələri kateqoriyasına həkimlər, provayderlər, tədqiqatçılar, idarəetmə heyəti, əczaçılar və biotexniki işçilər və menecerlər daxildirlər.

Sosial şəbəkələrin fəaliyyətinin təhlili nəticəsində sosial mediadan sağlamlıqla bağlı tibbi məlumatların axtarışında 42%, xəstə insanlara mənəvi dəstək üçün 30%, şəxsi təcrübələrini qeyd etmək üçün 25%, tibbi forum və cəmiyyətlərə qoşulmaq üçün 20% baxış sayının olduğu müəyyən edilmişdir.

Səhiyyə işçiləri sosial mediadan potensial olaraq tibbi xərclərin azaldılması, tibbi yeniliklərin əldə olunması, xəstələrin motivasiyası, vətəndaşların informasiya ilə təmin edilməsi, tibbi xidmətlərin keyfiyyətinə dair vətəndaş məmnunluğu barədə məlumatların əldə olunması üçün istifadə edirlər. Orada həkimlər fikirlərini və tibbi hadisələri paylaşa, problemlərin həlli üçün diskussiyalar apara, referatlar yerləşdirə, tədqiqatlarını müzakirə edə və sata bilərlər.

QuantiaMd resursu vasitəsilə 4 mindən çox həkim arasında aparılan sorğu nəticəsində müəyyən edilmişdir ki, həkimlərin 90%-i sosial mediadan şəxsi fəaliyyəti üçün istifadə edir.

Həkimlərdən fərqli olaraq, əczaçılar sosial mediadan çox ləng istifadə edirlər.

Onlayn sosial media platformaları tibb bacılarına təhsil təcrübələrini artırmaqda kömək edir. Tibb bacılarının 53%-i sosial medianın məşhur saytı olan *Twitter*-dən istifadə etməklə kliniki vəziyyətlərdə qərarların qəbul edilməsi bacarığını inkişaf etdirir.

Beləliklə, pasiyentyönümlü tibbin,sosial medianın və İnternetin bir araya gəlməsi XXI əsrdə tibbdə yeni era açmışdır.

Onlayn cəmiyyətlərin bəzi sosial şəbəkələrində xəstələr tibbi vəziyyətləri barədə informasiya paylaşdıqları yerlərdə "data-sharing" adlanan platformaları yaradırlar və bu platformalar onların gəlirlərini artırmaq məqsədi daşıyır.

Xəstələrin əksəriyyəti aşağıdakı sosial şəbəkələrdən və sosial cəmiyyətlərin platformalarından istifadə edir: *Smart Patients, Stupidcancering, e-patients.net, Woman Heart Support Community, babycenter, Daily Strength, Facebook, Twitter/*

Kroudsorsinq – İnternet vasitəsilə çoxlu sayda insanla könüllülük əsasında əməkdaşlığın qurulması forması olaraq, onların potensialının hər hansı bir problemin həllində istifadə olunması vasitəsidir. Sosial şəbəkə mühitində kroudsorsinq texnologiyaları nadir xəstəliklərə düçar olmuş pasiyentlərə diaqnozun qoyulmasında effektli rol oynaya bilər. Yəni, kroudsorsinq müxtəlif tipli problemlərin və ya layihələrin həlli üçün sosial media mühitində minlərlə insan ağır xəstəliyə tutulmuş və sağalmış şəxslərin, keçmiş və fəaliyyət göstərən həkim-praktiklərin, ekspertlərin, müstəqil olaraq tibbi biliklərə yiyələnmiş şəxslərin biliyinə, mülahizələrinə və spesifik təcrübələrinə çıxış əldə etmək imkanı yaradır.

Həkimlər üçün sosial media, bir tərəfdən iştirakçılar arasında informasiya mübadiləsinin aparılması, toplanması və hazırlanması üçün güclü vasitədir, digər tərəfdən bütünlüklə auditoriyaya təsir etmək üçün güclü mənbə, üçüncüsü isə karyerada irəliləmək üçün resursdur.

Sosial media tibb müəssisələri üçün tibbi heyətin axtarışı və seçilməsi üçün ən rahat İnternet meydanıdır.

Sosial şəbəkələrin üstünlükləri ilə yanaşı, onların potensialını aşağı sala biləcək *risk faktorları* da vardır:

- Bəzi resurslarda uzun çəkən qeydiyyat prosesidir;
- Qeyri-peşəkar istifadəçilər tərəfindən keyfiyyətsiz kontentlərin real vaxt rejimində portallarda yerləşdirilməsi, aşağı səviyyəli, qeyri-peşəkar debatların aparılması;
- Tibbi informasiya bəzən istinadsız, natamam və qeyri-rəsmi olur. Bu da yüksək ixtisaslı müətəxəssisləri sosial şəbəkədən ayrılmağa vadar edir;
- Onlayn kommunikasiya zamanı həkimlərin şəxsi konfidensiallığının pozulması;

Dünya Səhiyyə Təşkilatı hər bir tibbi informasiyanın etibarlılığına zəmanət verən "Domen adlar və rəqəmsal ünvanların verilməsi üzrə İnternet Korporasiyası"nın məlumat bazasından istifadə edilməsini təklif edir. Pasiyentlər *Caring Bridge* portalından istifadə etməklə həkimləri ilə interaktiv ünsiyyət qura bilərlər.

NƏTİCƏ

İKT-nin inkişaf etdiyi ölkələrdə vətəndaşlar arasında şəffaf münasibətləri təmin etmək müəssisə və təşkilatlarda mühüm məlumatları bir yerə toplamaq və kollektiv şəkildə zənginləşdirmək üçün XXI əsrin əvvəllərindən başlayaraq **viki texnologiyalardan** geniş istifadə edilməyə başlandı.

Bütün aparılan tədqiqatların nəticəsində məlum olmuşdur ki, viki texnologiyaların e-tibdə tətbiqi aşağıda göstərilən səhiyyə sahəsində çox böyük əhəmiyyətə malik xarakterik xüsusiyyətlərin formalaşmasına səbəb ola bilər:

- tibbi xidmətlərin səmərəliliyinin yüksəlməsi;
- e-tibdə vahid informasiya və kommunikasiya mühitinin yaranması;
- əldə olunmuş informasiya əsasında xəstənin seçim azadlığı və qərarların qəbulunda iştirakı;
- həkim və xəstə arasında əməkdaşlıq prinsiplərinə söykənən yeni informasiya münasibətlərinin yaranması;
- xəstənin iştirakı ilə sənədləşmə işlərinin vaxtında və əhatəli aparılması;
- xəstələrin vəziyyətinin distant şəkildə daima nəzarətdə saxlanması;
- dünyanın aparıcı tibb mərkəzlərində məsləhətləşmələrin təşkili və mütəxəssislərin əməkdaşlığa cəlb edilməsi;
- müalicə üçün tibb müəssisəsinin düzgün təyini;
- fasiləsiz distant tibbi təhsil və yeni tibbi informasiyadan istifadə etməklə kadrların hazırlanması;
- tibb sahəsində yeni ixtiralarla bağlı informasiyanın tez əldə olunması.

Həkimlərin praktiki fəaliyyətində teletibbin istifadəsi aşağıdakı imkanları yaradır:

1) *Teletibbi konsultasiya* – nöqtə-nöqtə sxeminə əsasən aparılır.Xəstənin sahə həkimi ilə konsultant arasında əlaqə həyata keçirilir;

2) *Teletəlim* – tibbi kadrların hazırlanması sisteminə təlimin teletibbi metodlarının daxil olmasını təmin edir;

3) *Mobil teletibb* – məsafədən ev şəraitində müalicə prosesinin, tibbi yardımla bağlı suallar üzrə konsultasiyaların aparılmasına imkan yaradır;

4) *Ev teletibbi* – ev şəraitində müalicə kursu keçən xəstəyə məsafədn tibbi yardım göstərilir.

E-səhiyyə fərdmərkəzli yanaşma əsasında "həkim-pasiyent", "həkim-həkim", "həkim-tibb bacısı", "tibb müəssisəsi-tibb müəssisəsi" və digər qarşılıqlı münasibətlər sistemində distant interaktiv məsləhətləşmələri, məlumat mübadiləsini nəzərdə tutan tibbi informasiyanın paylanmış verilənlər bazalarının vəhdətidir.

Elektron Tibbi Kartının (ETK) tətbiqinin zəruriliyi pasiyentin sağlamlığı haqqında məlumatların dünyanın istənilən nöqtəsində əlçatan, ziddiyyətsiz və tam, operativ olması şərtlərinin ödənilməsinə əsaslanır.

Həkim ETK istifadə edərək, pasiyentin müalicəsi haqqında qərar qəbul etmək üçün lazım olan məlumata operativ çıxış əldə etmiş olur, ambulator kartların və xəstəlik tarixçələrinin doldurulmasına az vaxt sərf edir, pasiyentlə bilavasitə əlaqəyə daha çox diqqət verir. Nəticədə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti artır.

Deməli, aşağıdakı əsas nəticəyə gəlirik:

Səhiyyə menecerləri, tibb işçiləri, informasiya sistemlərinin yaradıcıları və müxtəlif maraqlı tərəflər də daxil olmaqla milli e-tibbin formalaşdırılması üçün səmərəli kadr hazırlığı sistemi yaradılmalıdır.

ƏDƏBİYYAT

1) "Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, 24 may 2016
2) Səhiyyə Nazirliyi – E-səhiyyə.gov.az saytı
3) "Magistrların respublika konfransı", SDU, 2016
4) İinformasiya Texnologiyaları İnstitutu - ict.az saytı
5) Wikipedia
6) Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya cəmiyyətində bazar iqtisadiyyatının transformasiyası məsələləri // İnformasiya cəmiyyəti problemləri, 2013, №2, s.31–41.
7) 2. Candace J.Gibson, H. Dominic Covvey. Clinical technologies. Chapter 5.1. Demystifying e-health human resources, 2011, pp.1403–1416,
8) http://www.irma-international.org/chapter/demystifying-ehealth-human-resources/53656/).
9) 3. Eardley T. NHS Informatics Workforce Survey. 2006, ASSIST: London, England, http://www.bcs.org/upload/pdf/finalreport_20061120102537.pdf
10) Məmmədova M.H, İsayeva A.M "Sosial media mühitində e-tibb fəaliyyəti", İnformasiya cəmiyyəti problemləri, Bakı 2018, №1. Səh 57-68
11) Resolution WHA58.28 eHealth In Fifty-eighth World Health Assembly/ Geneva. May 16-25. 2005

BLOK ZƏNCİRİ (BLOCKCHAİN) TEXNOLOGİYASI VƏ TƏTBİQ EDİLDİYİ SAHƏLƏR

ZÜBEYDƏ İMANOVA

Bakı Mühəndislik Universiteti

zimanova@beu.edu.az

XÜLASƏ

Günümüzdə texnologiyanın inkişafı və genişləndirilməsi bir sıra struktur dəyişikliyinə də gətirib çıxarmışdır. Blockchain əsasən qeydiyyatdan keçmiş verilənlər bazası və ya iştirakçı tərəflər arasında icra edilən və paylaşılan bütün əməliyyatlar və ya rəqəmsal hadisələrin ictimai dəftəridir. İctimai dəftərdəki hər bir əməliyyat sistemdəki iştirakçıların böyük çoxluğu tərəfindən yoxlanılır. Blok zənciri texnologiyası fərdi istifadəçilərə rəqəmsal şəxsiyyət ilə əlaqədar bugünə kimi bənzəri görülməmiş nəzarət imkanı yaradır. Dolayısı ilə qlobal açıq hesab dəftəri olan blockchain sadəcə kripto valyuta istehsalında deyil bir sıra fərqli sferalarda da saxlama, idarəetmə və depolama kimi fəaliyyətlər üçün istifadə edilməkdir.

Açar sözlər: Blok zənciri, kripto valyuta.

ABSTRACT

Today, the development and widespread use of technology has brought about many structural changes. A blockchain is essentially a distributed database of records, or public ledger of all transactions or digital events that have been executed and shared among participating parties. Each transaction in the public ledger is verified by consensus of a majority of the participants in the system. Once entered, information can never be erased. The blockchain contains a certain and verifiable record of every single transaction ever made. This white paper describes blockchain technology and some compelling specific applications in both financial and non-financial sector.

Key words: Block chain, cripto money.

Blok zənciri, orijinal adı ilə block chain, kriptoqrafiyadan istifadə edilərək bağlanan və təhlükəsiz hala gətirilən, bloklar adı verilən daima böyüyən qeydiyyat siyahısıdır. Rəqəmsal məlumatların kopyalanmasına deyil, paylanmasına zəmin yaradan blok zəncir, müasir internetin onurğası qəbul edilir. Kriptoqrafik olaraq təhlükəsiz bloklar zəncirində ilk tədqiqatlar 1991-ci ildə Stuart Haber və W. Scott Stornetta tərəfindən aparılmışdır. 1992-ci ildə isə bir neçə sənədin bir blokda toplanmasına şərait yaradan Merkle ağacları da dizayna daxil edilmişdir [4].

İlk blok zəncir 2008-ci ildə Satoshi Nakamoto adı şəxs və ya şəxslər tərəfindən yaradılmışdır. Növbəti il adı keçən şəxs və ya qrup tərəfindən son zamanların ən məşhur kripto valyutas; hesab edilən bitcoinin əsas komponenti kimi istifadə edilmiş və şəbəkə üzrə bütün əməliyyatlar üçün ictimai kitab rolu oynamışdır. Bir blok zəncirin istifadəsi ilə təhlükəsizlik məsələlərində ikiqat xərc (double spending) problemi aradan qaldırılmış oldu ki, bu da öz növbəsində bir sıra əlavə tətbiqlərin yaradılması üçün ilham qanağına çevrildi. 2017-ci ilin yanvar ayına qədər şəbəkə üzərində həyata keçirilən bitkoin blok zəncir əməliyyatlarının qovluq həcmi 100 GB-a bərabər oldu.

2014-cü ildə paylanmış blok zəncirinin məlumat bazasının yeni tətbiqləri mənasına gələn Blockchain 2.0 termini meydana gəldi. Bu tətbiq istifadəçilərinə daha mürəkkəb müqavilələr hazırlamağa şərait yaradan proqramlama dili olmaqla bərabər, həm də bir göndərmə aldıqda sertifikatları paylaşan və ya müəyyən səviyyəyə çatdıqda onları sahiblərinə avtomatik olaraq paylayan fakturalar yaradırdı. Blockchain 2.0 texnologiyalarının pul və informasiya hakimləri olaraq qəbul edilən güclü vasitəçilər olmadan dəyər alış-verişini mümkün edəcəyi hesab edilir [9].

Blok zəncir, bir neçə kompüterdə həyata keçirilən əməliyyatları qeyd etmək üçün istifadə edilən mərkəzi olmayan, paylanmış ctimai rəqəmsal dəftərdir. Beləliklə, şəbəkənin növbəti bloklarının dəyişməsi və şəbəkənin anlaşılmasəndan başqa daha əvvəl aparılan qeydiyyat dəyişdirilə bilməz [7]. Bu iştirakçıların əməliyyatları daha ucuz qiymətə təsdiqləməsinə və yoxlamasına imkan verir. Bir blok zəncir verilənlər bazası "peer-to-peer" şəbəkəsi və paylanmış zaman möhrü serveri istifadə edilərək müstəqil olaraq idarə edilir. Onlar kollektiv şəxsi mənfəətə əsaslanan kütəvi əməkdaşlıqla təsdiqlənirlər. Nəticədə iştirakçıların informasiya təhlükəsizliyi barəsindəki qeyri-müəyyənliyinin marjinal olduğu sağlam iş prosesi meydana gəlir (şəkil 1). Blok zəncir istifadəsinin ən əhəmiyyətli tərəfi ondan ibarətdir ki, o rəqəmsal varlığın sonsun sayda artırıla bilmə xüsusiyyətini ortadan qaldırır və həmin varlığın çoxaldıla bilmə miqdarını limitləyir. Hər bir vahidin dəyəri sadəcə bir dəfə ötürülə bilir və bu "double spending"-in uzun müddətdir davam edən probleminə həll yolu kimi qəbul edilir. Bəzi mənbələrdə blok zəncirlər dəyərin dəyişməsini qeydə alan protokol kimi qəbul edilir. Blok zəncir əsaslı dəyər dəyişmə sistemi ənənəvi üsullara nisbətən daha təhlükəsiz, daha sürətli və daha ucuz başa gələn hesab edilir [6].

Şəkil 1. Maliyyə transferlərində block chain texnologiyasının iş prinsipi



Mənbə: "Applied İnnovation Review", Issue№ 2, 2016.

Texniki baxımdan bloklar özündə bir Merkle ağacına kodlanmış etibarlı əməliyyatlar yığınını ehtiva edir. Zəncirdəki hər blokda özündən əvvəlki blokun kriptoqrafik hash funksiyası olur və iki bloku birbirnə birləşdirir. Bağlı bloklar bir zəncir meydana gətirir [1]. Prosesin iterativliyi özündən əvvəlki blokun bütünlüyünü, orijinal başlanğıc blokuna geri qayıtdığını təsdiqləyir. Bəzən eynizamanlı olaraq fərqli bloklar yaradılıb keçici şaxələnmə etmək mümkündür. Etibarlı hash əsaslı tarixə əlavə olaraq, hər hansı bir blok zəncir qiymətləndirmək üçün müəyyən bir alqoritmə malik olur. Beləliklə, daha yüksək dəyərlisi digərilərindən seçilə bilir. Zəncirə daxil edilməyən bloklar yetim bloklar adlanır. Şəbəkənin zəncirdə əlavə blok yaratması üçün tələb edilən vaxta blok müddəti deyilir [8]. Bəzi blok zəncirləri hər beş saniyədə yeni blok yarada bilir. Blok tamamlandıqda tərkibindəki məlumatları yoxlamaq və təsdiqləməq mümkün olur. Kripto valyutalarda bu, pul əməliyyatları reallaşdığı zaman praktiki olaraq reallaşır ki, bu da daha qısa blok müddəti və daha sürətli əməliyyat prosesi mənasına gəlir. Kripto valyutalardan nümunə göstərsək, blok müddəti Ethereum üçün 14-15 saniyə olduğu halda, Bitcoin üçün bu müddət 10 dəqiqədir [3].

"Hard fork" termini qayda dəyişikliyi mənasına gəlir. Belə ki, köhnə qaydalara görə təsdiqlənən proqramlar yeni qaydalar əsasında proqramlanmış blokları etibarsız olaraq tanıyır. "Hard fork" vəziyyətində yeni qaydalar əsasında işləyəcək bütün düyünlərin proqramları artırılmalıdır. Əgər, düyün qrupları fərqli proqramlar istifadə edərsə (köhnə və yenilənmiş olaraq), onda bu düyünlər aarsında bölünmə meydana gələcəkdir [2]. Məsələn, Ethereum, kodlaşdırılmasındakı çatışmazlıqlar ilə əlaqədar olaraq hücuma məruz qalmışdır. Şirkət, The DAO-dakı invertorların yenidən "birləşdirilməsi" üçün hard-fork etdi və nəticə etibarı ilə zəncirdə Ethereum və Ethereum Classic adlı iki şaxə meydana gəlmiş oldu. 2014-cü ildə isə əksinə, NXT cəmiyyətində baş verən milyon nxt-lik kripto valyuta oğurluğunun qarşısını almaq üçün hard-fork təklifi rədd edilmişdir.

Blok zəncirin təhlükəsizliyini təmin etmək üçün mərkəzsizləşdirmə də tətbiq edilir. Belə ki, informasiyanı peer-to-peer şəbəkə vasitəsilə depolayaraq, blok zənciri, onları üzləşəcəkləri bir sıra risklərdən qorumuş olur. Peer-to-peer blok zəncir şəbəkələrində hackerlərin yararlana biləcəyi mərkəzləşdirilmə ilə bağlı çatışmazlıqlar yoxdur. Eyni şəkildə mərkəzi qəza nöqtəsi də yoxdur. Mərkəzi məlumatlar daha rahat idarə edilə bildiyi üçün məlumat və datalar üzərində manipulyasiya etmək mümkündür.

Blok zəncirin təhlükəsizliyinin təmin edilməsi üçün açıq açar şifrələməsindən istifadə edilməkdə-dir. Bu uzun, təsadüfi kimi görünən rəqəmlər silsilərindən ibarət olub blok zəncirdəki bir adresdir. Şəbəkə üzərindən göndərilən dəyər markerləri bu adreslərə aid olaraq qeyd edilir. Gizlin açar isə sahibinin rəqəmsal aktivlərinə çıxış təmin edən təhlükəsizlik şifrəsi kimidir.

Bitcoinin arxasındakı texnalogiya birbirni tanımayan və ya birbirinə inanmayan insanların etibarlı bir dəftər meydana gətirməsinə imkan yaradır. Bunun kripto valyuta mövhümündən çox daha böyük təsirləri var. Blockchain texnologiyası iqtisadi və qeyri-iqtisadi sahələrdə rəqəmsal aktivlərlə əlaqədar onlayn əməliyyatları təsdiqləmək və qorumaq üçün ənənəvi olaraq etibarlı sayılan üçüncü tərəf rolunu ifa edir. Eyni məntiqlə, 1994-cü ildə Nick Szabo tərəfindən "Ağıllı müqavilələr" tətbiqi yaradılmışdır. Müqavilənin iştirakçı tərəflər arasında avtomatik olaraq tətbiq edilməsi uğurlu ideya hesab edilirdi. Ağıllı müqavilələrin tətbiqində blok zənciri texnologiyasından istifadə edilməsi müqavilələrdə qeydiyyat prosesini asanlaşdırmışdır [11].

Halhazırda dünyada blockchain texnologiyasından həm maliyyə, həm də digər sahələrdə geniş istifadə edilə bilər Bunlara misal olaraq aşağıdakı nümunələri göstərə bilərik:

a. Maliyyə sferasında:

1. Birjalar, şirkətlərin səhmlərinin ikincil bazarlarda ticarətinin təhlükəsizliyini təmin etmək və kliring xidməti göstərmək üçün blockchain texnologiyasından istifadə edə bilərlər. NASDAQ 2014-cü ildə özəl kapital müdaxiləsi üçün blockchain texnologiyasından istifadə etmişdir. Bu özəl şirkətlər və səhmlərin ilk dəfə bazara təqdim edilməsindən əvvəlki prosesdə (pre-İPO) investorlar arası münasibətlər üçün hazırlanmışdır.

2. Bir və ya bir neçə özünəməxsus xüsusiyyəti olan aktivlərin zərər görməsini və kopyalanmasını aradan qaldırmaq üçün onların qeydiyyatını blockchain texnologiyası vasitəsi ilə həyata keçirmək olar. Sığorta məsələlərində bu, mülkiyyət hüququnu yoxlamaq və əməliyyat tarixini izləmək üçün istifadə edilir. Fiziki və ya rəqəmsal əmlaklar (daşınmaz əmlak, maşın, fiziki aktivlər və s.) potensial olaraq blok zəncirində qeydiyyatdan keçə bilər. Mülkiyyət və əməliyyatların xronologiyası istənilən şəxs tərfindən , xüsusilə də sığortaçılar tərəfindən təsdiq edilə bilər.

3. Notarial qaydada sənədin etibarlılığının yoxlanılması prosesində istifadə edilə bilər. Bu mərkəzləşdirilmiş orqana olan ehtiyacı aradan qaldırar.

4. Musiqi sənayesində bu texnologiya müəllif hüquqları üzərində mülkiyyət haqlarının dəqiq və geniş paylanmasında ictimai dəftər rolu görür.

5. Dropbox, Google Drive və ya One Drive kimi bulud fayl depolama üsulları (sənədlər, fotoqraflar, videolar və s.) üçün təhlükəsizliyin təmin edilməsi, məxfilik və informasiya bazasına nəzarət məsələlərində məlumat bazalarının mərzəksizləşdirilməsi xüsusiyyətindən istifadə edilir [10].

Blockchain texnologiyası fərdi istifadəçilərə rəqəmsal şəxsiyyət ilə əlaqədar bugünə kimi bənzəri görülməmiş nəzarət imkanı yaradır. Dolayısı ilə qlobal açıq hesab dəftəri olan blockchain sadəcə kripto valyuta istehsalında deyil bir sıra fərqli sferalarda saxlama, idarəetmə və depolama kimi fəaliyyətlər üçün istifadə edilməkdir. Blockchain texnologiyasının fərqli sektorlara tətbiq edilməsində əhəmiyyətli addımlar atılmışdır:

- Beynəlxalq ticarətin asanlaşdırılması sahəsində texnologiyanın imkanlarından yararlanan İBM kompaniyası dünyanın ən böyük bankları arasında blockchain texnologiyası əsaslı rəqəmsal ticarət zənciri konsorsiomu qurmağa başlamışdır.
- Dünyanın ən böyük dəniz nəqliyyatı operatorlarından biri olan Maersk Line, beynəlxalq sularda gəmilərin və yüklərin (konteynerlərin) istismarında vaxt və xərcləri ödəmək üçün prosesin sürətləndirilməsi və sənədləşmə prosedurundan yayınmaq və strateji vaxt qazanmaq üçün blockchain texnologiyalarından istifadə etməyə başlamışdır.
- Walmart, Unilever, Nestle, Dole, Kroger və s. kimi dünyanın ən böyük qida nəhəngləri IBM ilə blockkain texnologiyası ilə ərzaq təhlükəsizliyi təchizat zəncirini izləmək üçün razılaşmışdır [5].

Blockchain texnologiyasının ümidverici kəşf olduğunu və sosial-iqtisadi sferada geniş tətbiq edildiyini yuxarıda qeyd etmişdik. Bütün bu müsbət xüsusiyyətlərə baxmayaraq, bu texnologiyanın tətbiqinin özünəməxsus riskləri də az deyil. Məsələn, blockchain texnologiyaları əsasında göstərilən xidmətin ölçülməsi məsələlərində çatışmazlıqlar qalmaqda davam edir. Əlavə olaraq, mövcud müqavilələri və ya iş sənədlərini yeni blockchain əsaslı metodologiyaya daşımaq mühüm daşınma xərcləri və vaxt tələb edən ciddi və yorucu prosesdir. Yeni dünyada Blockchain əsaslı əməliyyatlar Federal Ticarət Komissiyası və Qiymətli Kağızlar və Birja Komissiyası kimi dövlət orqanlarının yeni qanun, idarəetmə və nəzarət qaydaları tətbiq etməsi səbəbilə yavaşladıla bilər. Bu sahədəki çatışmazlıqlardan biri də Blockchain əməliyyatlarının xüsusiyyətlərindən qanunsuz pul köçürmələri və çirkli pulların yuyulmasında istifadə edilməsidir.

Nəticə

Blok zəncir texnologiyası, çıxış tarixi olaraq daha əvvəlki tarixə əsaslansa da kripto valyutaların xüsusilə də, bitcoin ilə populyarlıq qazanmışdır. Başqa sözlə bitcoin kripto valyutası blok zəncir texnologiyasının ən uğurlu və məşhur layihəsi olmuşdur. Ancaq blockchain texnologiyasının sadəcə kripto valyutata ilə sərhədləmək düzgün fikir olmazdı. Çünki, o mərkəzsizləşdirmə (mərkəzi idarəetmə sisteminə sahib olmama), anonimlik, etibarlılıq və davamlılıq kimi əhəmiyyətli xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər sayəsində, Blockchain texnologiyası köklü olaraq ənənəvi biznes konsepsiyasını çevirmək potensialına malikdir.

ƏDƏBIYYAT SIYAHISI

1. "Blockchains: The great chain of being sure about things". The Economist, 2015.
2. Amy Castor, "A Short Guide to Bitcoin Forks", 2017.
3. Antonio Madeira, "Why is Ethereum different to Bitcoin?" CryptoCompare, 2018.
4. Bayer, Dave; Haber, Stuart; Stornetta, W. Scott. "Improving the Efficiency and Reliability of Digital Time-Stamping", S. 329–334. doi: 10.1007 / 978-1-4613-9323-8_24, 1992.
5. Iansiti, M., Lakhani, K, “The Truth About Blockchain”, Harvard Business Reveiw, Vol. 95, No. 1, pp. 118-127, 2017.
6. Bheemaiah, Kariappa, "Block Chain 2.0: The Renaissance of Money", 2015.
7. Catalini, Christian; Gans, Joshua S., "Some Simple Economics of the Blockchain", SSRN 2874598 2874598, 2016.
8. Muhammed Ghayas, "Block Time" mean in cryptocurrency?" Quora, 2018.
9. Popper, Nathan, "A Venture Fund With Plenty of Virtual Capital, but No Capitalist". The New York Times, may, 2016.
10. Venkat, A., “Blockchains and APIs”, 2018.
11. Zheng, Z., Xie, S., Dai, H. N., Wang, H., “Blockchain challenges and opportunities: A survey”, 2016.

ELMİ ƏSƏRLƏRDƏ DİGƏR MƏNBƏLƏRDƏN İSTİFADƏ VƏ PLAGİAT PROBLEMİ

V. Ə. QASIMOV[1] , P. A. BABAYEVA[2]
Milli Aviasiya Akademiyası[1], Bakı, Azərbaycan
Bakı Mühəndislik Universiteti[2], Bakı, Azərbaycan
gasumov@yahoo.com[1] , pervine.babayeva@mail.ru[2]

XÜLASƏ

Məqalə hər hansı digər mənbələrdən məlumatların istifadə prinsipləri, onlara düzgün istinadın verilməsi qaydalarına həsr edilmişdir. Məqalədə, həmçinin, plagiat problemi, onun formalarına baxılır. Mənbələrə istinad verilmədikdə yaranan problem araşdırılır. Eyni zamanda plagiatın aşkarlanması məsələsi və mövcud antiplagiat sistemləri barədə məlumat verilmişdir.

Açar sözlər: plagiat, plagiatın formaları, copy and paste plagiatçılıq, sözdəyişmə plagiatlığı, plagiatlığın aşkarlanması, antiplagiat sistemləri.

ABSTRACT

The article focuses on the principles of using data from any other source, the rules for giving them the right to use it. In the article is also discussed the problem of plagiarism, its forms. If the source is not cached, the problem is investigated. At the same time, the issue of plagiarism detection and the existing antiplagiarism systems were reported.

Key words: *plagiarism, forms of plagiarism, copy and paste plagiarism, words exchange (manipulation) plagiarism, plagiarism detection, antiplagiarism systems*

GİRİŞ

İnformasiya texnologiyalarının sürətlə inkişaf etməsi günümüzdə müsbət tərəfləri ilə yanaşı bir sıra problemlərin meydana gəlməsinə səbəb olmuşdur. Belə ki, informasiya texnologiyalarının geniş yayılması ilə əlaqədar olaraq, hal hazırda internetdə, eləcə də elektron kitabxanalarda və digər məlumat bazalarında lazım olan avtoreferatı, dissertasiya işini, elmi məqaləni, dərsliyi, dərs vəsaitini, buraxılış və kurs işlərini, referatları və s. tapmaq imkanları yaranmışdır. Əgər əvvəllər hər hansı bir buraxılış işini yazmaq üçün kitabxanalarda onlarla kitabı araşdırmaq, oxumaq lazım idisə, hal hazırda bunu kompüterdən istifadə etməklə internet vasitəsilə asanlıqla yerinə yetirmək mümkündür. Elmi işçilər, magistrlər və tələbələr tərəfindən bu və ya digər mənbələrdən alınmış materialları cüzi redaktə etməklə, bəzən də eynilə olduğu kimi köçürməklə (copy-paste) öz adlarından yeni material kimi təqdim edirlər. Nəticədə plagiat əsər yaranır.

Plagiat – elmi əsəri yazan şəxsin istifadə etdiyi mənbənin müəllifinə istinad etmədən onun yazılarını bilavasitə öz işi kimi təqdim etməsidir [1].

Məqalədə elmi-pedaqoji fəaliyyət zamanı digər mənbələrdən istifadə prinsipləri, plagiat yaradan hallar, onların aradan qaldırılması yolları araşdırılır.

Mənbədən düzgün istifadə edilməsi

Təbii ki, elmi-tədqiqat və ya pedaqoji fəaliyyət zamanı, eləcə də tədris prosesində müxtəlif ədəbiyyatlara müraciət olunur, onlardan istifadə edilir, hətta onlardan müəyyən fikirlər götürülür. Elm və təhsil sahəsində əsərlər (monoqrafiya, elmi məqalə, dərslik, dərs vəsaiti, dissertasiya, buraxılış və ya kurs işləri) hazırlayarkən mətnin hər hansı bir hissəsi müəllifin öz şəxsi fikirlərindən, sözlərdən ibarət deyilsə, bu zaman istifadə olunmuş mənbəyə mütləq istinad göstərilməlidir. Plagiat təkcə sözlərlə məhdudlaşmır, bura həmçinin, şəkillər, qrafiklər, düsturlar, elmi nəzəri və ya praktik ideyalar və s. kötürülə bilən hər şey daxildir. Mənbədən istifadə zamanı bir sıra sözlərin, şəkil və ya qrafiklərin dəyişdirilməsi plagiat faktını aradan qaldırmır və mənbənin göstərilməməsi anlamına gəlməməlidir.

Plagiatçılıqdan yayınmaq üçün müəllif tərəfindən aşağıdakılara əməl edilməlidir [2]:

- ✓ Araşdırma zamanı öz ilkin fikirlərini qeyd etməli;
- ✓ Özünün olmayan, digər şəxslərin faydalı fikirlərdən, əsərlərindən istinad göstərməklə istifadə etməli;

✓ Digər mənbələrdən sitatları dəqiq istinadlar göstərməklə verməli;

✓ İstifadə edilmiş üsul və vasitələr, fikir və yanaşmalar, əldə edilmiş nəticələr barədə münasibəti (müsbət və ya mənfi məqamları, istifadə səbəblərini və s.) bildirməli;

✓ "Copy and Paste" əməliyyatından istifadə etməməli.

Plagiat anlayışı

Plagiat (plagiat latın dilində "plagium" - oğurlamaq) dedikdə özgə əsərin müəllifliyinin qəsdən (şüurlu surətdə) mənimsənilməsi və ya öz əsərində digərinin əsərindən istinadsız istifadəsi başa düşülür. Başqa sözlə, ***plagiat*** – elm, təhsil, incəsənət sahələrində başqasının əsərini özünün əsəri kimi vermək və ya müəllifi göstərmədən başqasının əsərindən istifadə etməkdir.

"Plagium" Qədim Roma hüququnda (hərfi mənada "oğurluq" deməkdir) azad insanın qul kimi satışını bildirirdi, cinayətkar bu etdiyinə görə qamçılama cəzasına (ad plagas) məhkum edilirdi. Sonralar bu sözdən "ədəbi mülkiyyətin oğurluğu" anlayışında – "plagium litterarium" istifadə edildi, oğru isə latın sözü "plagiator " ilə adlanmağa başladı. İndiki mənada "plagiat" sözü Avropa dillərində XVII əsrdə istifadə edilməyə başlamışdır. Dünyanın ən məşhur ensiklopediyası olan Britaniya Ensiklopediyasında ("Encyclopedia Britannica") plagiatçılıq belə ifadə edilir: Plagiatçılıq – digərinin işini qəbul edib, öz işi kimi təqdim etməsi hərəkətidir [3, 4].

Elmi plagiat – müəllifini, götürülmə mənbəyini göstərmədən başqasının elmi əsərini, kəşf və ixtirasını, səmərələşdirici təklifini, innovasiya məhsulunu tam və ya qismən mənimsəmək, yaxud özününkü kimi təqdim etməkdir.

Plagiatçılıq – müəllifin və ya ixtiraçının hüquqlarının pozulması növü olub, elm, təhsil, incəsənət sahələrində digər şəxsə məxsus əsərin, ixtiranın və ya səmərələşdirici təklifin mənbəyinə istinad etmədən öz adı altında tamamilə və ya qismən istifadəsinə və ya təqdim edilməsinə yönəlmiş fəaliyyətdir.

Piratçılıq. Müəllif hüququnun pozulması formasından biri də piratçılıqdır. Bura əsərin başqa şəxsin adı altında tam və ya qismən açıqlanması, yəni özgənin elmi, ədəbi, bədii və ya digər növ əsərini öz adı ilə nəşr etdirməsi, özgənin müəllifliyini mənimsəmə və ya mənbəyi və müəllifi göstərilmədən əsəri və ya onun bir hissəsini köçürməklə yeni əsərin yaradılması bu cür əsərlərin yenidən dərc edilməsi, qəzet, jurnal məqalələrinin və yayım təşkilatları üçün verilişlərin hazırlanması, şərikli müəllifliyə məcbur etmə və s. kimi fəaliyyətlər aid edilir [3].

Bu hüquq pozuntusundan zərər çəkənlər arasında elmi-texniki fəaliyyətlə məşğul olanlar xüsusi yer tutur. Belə ki, elmi-texniki fəaliyyətin nəticəsi olan müxtəlif kitablar, proqram təminatı vasitələri gəlir əldə etmək məqsədi ilə müasir İKT vasitələrinin köməyi ilə asanlıqla nüsxələnərək satışa çıxarılır. Hüquqi anlamda, piratçılıq – pirat məhsulun hazırlanması və yayılmasıdır. Pirat məhsul dedikdə isə, hüquq sahibinin razılığı olmadan hazırlanan və yayılan audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun və kitabın nüsxələri nəzərdə tutulur.

Plagiat müxtəlif fəaliyyət sahələrində rast gəlinir. Plagiatın rast gəlindiyi əsas fəaliyyət sahələri aşağıdakılardır:

- elm sahəsi – elmi-tədqiqat əsərlərində plagiat;
- təhsil sahəsi – tədris sənədlərində, pedaqoji fəaliyyətdə plagiat;
- ədəbiyyat sahəsi – bədii əsərlərdə plagiat;
- incəsənət – incəsənt əsərlərində plagiat;
- yeni informasiya texnologiyaları – proqram-texniki məhsulların işlənib hazırlanmasında plagiat;
- istehsal sahələri – müxtəlif məhsulların istehsalında plagiat;
- kütləvi informasiya vasitələri və digər yaradıcılıq sahələrində plagiat.

Plagiatın formaları

Praktiki fəaliyyətdə plagiatçılıq prosesini baş vermə üsullarına görə iki yerə bölürlər [3]:

- köçürmə plagiatçılığı – bunu çox zaman "Copy & Paste" plagiatçılığı adlandırırlar;
- dəyişiklik etməklə plagiatçılıq və ya intellektual plagiatçılıq.

Köçürmə plagiatçılığı (Copy and Paste). Sənəd (elm, tədris, bədii, incəsənət əsəri) hazırlayan şəxsin heç bir əməyi olmadan və ya cüzi əməyi olmaqla digər (mövcud) əsərin üzərində müəlliflik hüququnu mənimsəməsi prosesidir. Belə ki, bu halda bir və ya bir neçə mənbədən istifadə etməklə heç bir dəyişiklik etmədən və ya cüzi dəyişiklik yolu sənədlər tərtib edilir. Köçürmə plagiatçılığı ən çox rast gəlinən plagiat növüdür. Buna səbəb istənilən mətn redaktorlarında "Copy" (köçürmək) və "Paste" (yapışdırmaq, bitişdirmək) kimi əmrlərin olması və ondan istifadənin asan olmasıdır. Sənədi başqa müəlliflərin yazdıqları sənədlər əsasında yaratmaq istəyən hər kəs ilk növbədə bu üsuldan istifadə edir. Belə plagiat zamanı kompüter texnikasının imkanlarından istifadə prosesi xeyli asanlaşdırır və kütləviləşməsinə gətirib çıxarır.

Mənbədə dəyişiklik etməklə intellektual plagiatçılıq. Əsərdə müəyyən texniki dəyişikliklər aparmaqla yeni formada öz adından təqdim edilməsi prosesidir. Bu zaman sözlərin analoqları (sinonimləri, oxşarları, başqa dillərdə tərcümələri və s.) əvəz edilməsi, cümlələrin quruluşunun dəyişdirilməsi, xidməti sözlərin dəyişdirilməsi (çıxarılması, başqası ilə əvəz edilməsi, yenisinin daxil edilməsi) və əməliyyatlardan istifadə olunur. Bu növ plagiatçılığa ideya plagiatçılığı, tərçümə, çevirmə, dəyişikliketmə plagiatçılıqları aid edilir.

İntellektual plagiatçılıq aşağıdakı şəkillərdə həyata keçirilə bilər:

- sənəddə müəyyən dəyişikliklər aparmaq – sənəd üzərində manipulyasiya;
- digər dildə olan mənbələrdən məlumatların tərcümə yolu ilə mənimsənilməsi, yəni çevirmə və ya tərcümə;
- digər mənbələrdə olan sənədlərdəki ideyalardan istifadəyə görə plagiatçılıq, başqa sözlə mənbənin növündən və elmi istiqamətindən asılı olmayaraq onun əsasında duran ideyanın öz tədqiqat işində istifadəsi.

Sənədlər üzərundə manipulyasiya yolu ilə plagiatlıq aşağıdakı iki istiqamətdə aparılır:

- İzahlı sözdəyişmə plagiatçılığı – bu halda ilkin mənbədəki ideya yeni sözlərdən istifadə etməklə ifadə olunur. Bu zaman leksik (sənədin leksik strukturunu dəyişməklə ideyanın yeni şəkildə verilməsi) və morfoloji-sintaksis (sənədin cümlə quruluşunun dəyişdirilməsi və ya sənəddə sintaksis dəyişikliklər edilməsi) yanaşmalardan istifadə olunur.
- Ümumiləşdirici sözdəyişmə plagiatçılığı – sənədin əsas ideyasını saxlamaqla onun cümlələrinin dəyişdirilməsi yolu ilə yeni ideya kimi təqdim edilməsidir. Bu məqsədlə ilkin sənədin cümlələrinin parçalanması və ya birləşdirilməsi, ümumiləşdirmə üçün bir neçə cümlənin birləşdirilməsi, cümlələrin qısaldılması, sənədin və ya cümlələrin strukturunun dəyişdirilməsi, cümlələrdə istifadə olunan ifadələrin (söz birləşmələrinin, terminlərin, sinonimlərin və s.) dəyişdirilməsi, fikirlərin ixtisasa və ya məqsədə uyğunlaşdırılması və s. yanaşmalardan istifadə olunur.

Plagiatın aşkarlanması və plagiatçılıqla mübarizə üzrə

Müasir dövrdə plagiatçılıq hallarının aşkarlanması və qarşısının bütün dünya dövlətlərində olduğu kimi, Azərbaycanda da ciddi şəkildə qarşıya çıxır. Qeyd edildiyi kimi, bu istiqamətdə müəyyən addımlar atılmışdır, lakin demək olarki, heç bir nəticə alınmamışdır. Azərbaycanda digər ölkələrdə yaradılmış antiplagiat sistemlərindən istifadə olunur. Məşhur antiplagiat sistemlərinə nümunə kimi DOC Copy, Plagium, WCopyFind, Advego Plagiatus, ANTİPLAGİAT sistemi, Praide Unique Content Analyser, Double Content Finder, İstio.com və s. sistemləri göstərmək olar.

Bu sistemlərin bəziləri internetdə müəyyən məhdudlaşdırılmış xidmətləri təklif edir. Lakin tam həcmdə istifadə üçün həmin sistemlərin proqram təminatının və ya xidmətlərinin alınması zəruridir. Bəzi antiplagiat sistemləri isə tam kommersiya əsasında fəaliyyət göstərirlər və onların xidmətlərindən istifadə etmək üçün ödəniş etmək tələb olunur .

Əqli mülkiyyət oğurluğu olan plagiatçılıq ayrı-ayrı fərdlərin (elmi-pedaqoji, incəsənət işçilərinin, ədiblərin, jurnalistlərin və s.), təşkilatların problemi deyil, bu, həm də cəmiyyətin və dövlətin problemidir. Belə ki, plagiqata yalnız müəllif hüququnun pozulması, intellektual məhsula, elmi, bədii, yaradıcılıq fəaliyyətinə hörmətsizlik, onun mənimsənilməsi və özününküləşdirilməsi kimi baxmaq olmaz. Plagiat elm, təhsil, incəsənət və ədəbiyyat sahəsinə zərbə vurur, onların əsaslarını sarsıdır, ədalətsiz, məsuliyyətsiz, savadsız vətəndaşların formalaşmasına, cəmiyyətdə və dövlət strukturlarında önəmli mövqelər tutmasına gətirib çıxarır. Nəticədə bütövlükdə dövlətə və cəmiyyətə ciddi ziyan

vurulmuş olur. Ona görə də plagiatçılıq problemi ilə bütün səviyyələrdə – ayrı-ayrı fərdlər, təşkilatlar (elm və tədris müəssisələri) və dövlət səviyyəsində mübarizə aparılmalıdır [5].

Problemin ciddiliyi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planı"nın 6.4.6 bəndində "Azərbacan dilində antiplagiat sisteminin yaradılması" tədbiri nəzərdə tutulmuşdur. Tədbirin icra müddəti 2013-2016-cı illər, icrasına məsul qurumlar isə Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Müəllif Hüquqları Agentliyi müəyyən edilmişdir. Təəssüf ki, indiyədək Azərbaycan dilində antiplagiat sisteminin yaradılması faktı məlum deyil.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə 2013-cü ildə (icra müddəti 12 ay) AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu tərəfindən "Plagiatlıqla mübarizə texnologiyalarının elmi-nəzəri və texnoloji əsasları" adlı qrant layihəsi həyata keçirilmişdir. Layihənin məqsədi elmi istiqamətindən və iş fəaliyyətindən asılı olmayaraq, elmi tədqiqatla və intellektual fəaliyyətlə məşqul olan hər kəsi "intellektual mülkiyyətin" qorunması problemləri ilə məlumatlandırmaq, problemin həllinin elmi-nəzəri və texnoloji aspektlərinin araşdırılması olmuşdur.

Qeyd edilməlidir ki, plagiatçılıqla mübarizə sahəsində respublikada müəyyən elmi araşdırmaların aparılmasına baxmayaraq, hələ də Azərbaycan dili və Azərbaycan informasiya mühiti üçün bu sahədə elmi nəzəri və praktik nəticələr sistemi formalaşmamış, antiplagiat sistemi yaradılmamışdır.

Hazırda respublikanın ayrı-ayrı ali təhsil müəssisələrində digər ölkələrdə yaradılmış antiplagiat sitemlərindən müəyyən dərəcədə (formal şəkildə) istifadə olunur. Belə sistemlər qismində Polşanın "Plagiat.pl" şirkətinin "Strike Plagiarism" sistemini (təxminən 18 universitetdə tətbiq olunur), İngiltərənin "Turnitin" antiplagiat sistemini (3-4 universitetdə istifadə olunur), Rusiyanın "Antiplagiat" sistemini və s. misal göstərmək olar.

Elmi araşdırmalar göstərir ki, antiplagiat sistemlərinin effektivliyi və nəticəliliyi dilin qrammatikasından, morfoloji və sintaksis quruluşundan asılı olur. Ona görə də, əminliklə demək olar ki, Azərbaycan Respublikasında plagiatçılıqla effektiv mübarizə aparmaq üçün Azərbaycan dilinin xüsusiyyətləri nəzərə alınmaqla, ən müasir mətn təhlili alqoritmlərindən istifadə edilməklə milli antiplagiat sistemi yaradılmalıdır. Təbii ki, bu məqsədlə müvafiq elmi tədqiqatlar aparılmalı, digər ölkələrdə mövcud olan antiplagiat sistemlərinin iş prinsipləri, alqoritmləri araşdırılmalı, Azərbaycan dili üçün müvafiq alqoritmlər işlənilməli, sənədlər kolleksiyası yaradılmalıdır.

Bu səbəbdən respublikada indiyədək müdafiə edilmiş dissertasiya işlərinin, çap olunmuş monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin, dərc edilmiş məqalələrin, tezislərin, digər elmi və tədris-metodiki vəsaitlərin elektron formaya çevrilməsi, habelə onları özündə birləşdirən elektron bazanın yaradılması zəruridir. Bu bazaya yalnız son dövrlərdə ərsəyə gəlmiş əsərlər deyil, mümkün dərəcədə əvvəlki dövrlərə aid əsərlər də daxil edilməlidir. Bununla yanaşı, digər ölkələrdə yaradılmış analoji bazalara giriş hüququ əldə olunmalıdır. Yalnız bundan sonra Azərbaycan dilində səmərəli fəaliyyət göstərən antiplagiat sistemindən danışmaq olar.

Azərbaycan dili üçün antiplagiat sisteminin yaradılması

Azərbaycan dili üçün antiplagiat sisteminin məqsədi Azərbaycan dilində olan sənədlərdə digər (müxtəlif dillərdə olan) mənbələrdən götürülmüş mətn fraqmentlərinin aşkarlanması, plagiat faktının müəyyən edilməsi, müvafiq hesabatların hazırlanması texnologiyalarının reallaşdırılmasıdır. Onun qarısında duran vəzifə Azərbaycanda elmin, təhsilin, ədəbiyyatın və incəsənətin keyfiyyətini yüksəltməkdən, müfafiq sahələrdə düzgün qərarların qəbuluna dəstək verməkdən ibarətdir.

Funksional-alqoritmik əsası Azərbaycan dilində mətnlərin korrekt emalına zəmanət verən, sənədlərdə həm Azərbaycan, həm də digər dillərdə olan mətnlərdən götürülmüş fraqmentlərin tez və effektiv axtarılıb tapılmasını təmin edən unikal alqoritmlərdən, rahat, effektiv interfeysdən ibarət olmalıdır.

Antiplagiat sistemlərinin ümumi funksional-strukturu aşağıdakı şəkildə göstərilmişdir.

Azərbaycan dili üçün antiplagiat sisteminin yaradılması məqsədilə onun alqoritmik-proqram təminatının (mətnlərin emalı, indeksləşdirilməsi, sözlərin, ifadələrin və mətn fraqmentlərinin axtarılması, oxşar sənədlərin tapılması alqoritmləri, əlverişli interfeys və s.), linqvistik təminatının (Azərbaycan dilinin

elektron tezaurusu, elektron lüğətləri. sinonim sözlər bazası, stop-sözlər bazası və s.), Azərbaycan dilində olan elmi (dissertasiya, avtoreferat, məqalə, tezis, hesabat və s.) və tədris-metodiki (dərslik, dərs vəsaiti, metodiki vəsait, magistr və bakalavr işləri və s.) əsərlərin elektron bazasının – sənəd korpusunun yaradılması tələb olunur. Bununla yanaşı, İnternetdə mövcud olan saytların, informasiya sistemlərinin, məlumat bazalarının, elektron kitabxanaların indeksləşdirilməsi yolu ilə indekslər bazasının yaradılması, eləcə də internetdə fəaliyyət göstərən axtarış sistemlərinin (Google, Yandex və s.) indekslər bazalarının istifadə edilməsi zəruridir.



Antiplagiat sisteminin mümkün istifadəçiləri qismində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasını, Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən elm və təhsil müəssisələrini (universitetləri, akademiyaları, ali məktəbləri, elmi-tədqiqat institutlarını, kollecləri, kitabxanaları), Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarını və mərkəzlərini, kitabxanaları, digər naziriklərin və dövlət qurumlarının tabeliyində fəaliyyət göstərən elm və təhsil müəssisələrini (universitetləri, akademiyaları, ali məktəbləri, elmi-tədqiqat institutlarını, araşdırma mərkəzlərini, kollecləri, kitabxanaları), müstəqil fəaliyyət göstərən ali təhsil müəssisələrini (universitetləri və kitabxanaları), nəşriyyatları, elmi nəşrləri, kütləvi informasiya vasitələrini, informasiya agentliklərini və s. göstəmək olar.

Nəticə

Bugün plagiat məsələsi Azərbaycan üçün çox aktual problem olaraq qalmaqdadır. Hazırda Azərbaycanda digər ölkələrdə yaradılmış antiplagiat sistemlərindən istifadə olunur. Lakin bu, problemi kökündən həll etmir. Problemin ciddi şəkildə həll edilməsi üçün Azərbaycan dili üçün antiplagiat sisteminin yaradılması vacibdir. Antiplagiat sistemin yaradılması məqsədilə onun alqoritmik-proqram təminatı, linqvistik təminatı, Azərbaycan dilində olan elmi və tədris-metodiki əsərlərin elektron bazasının – sənəd korpusunun yaradılması tələb olunur.

ƏDƏBIYYAT

[1]. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, 9 iyul 2012-ci il, http://www.ru.president.az/articles/5361

[2]. Stephen Wilhoit, "Helping students avoid plagiarism" College Teaching Vol. 42, 1994, 161-164

[3]. R.M.Əliquliyev, N.B.Ağayev, R.M.Alıquliyev "Plagiatlıqla mübarizə texnologiyaları", Bakı 2015

[4]. Penn Treebank: www.cis.upenn.edu/~treebank

[5]. Liping Zhang, Dongsheng Liu, Yanchen Li, Mei Zhong "AST-Based Plagiarism Detection Method" Internet of Things Communications in Computer and Information Science Volume 312, 2012, pp 611-618

İFORMASİYA AXTARIŞININ QEYRİ-SƏLİS MODELİNİN İŞLƏNMƏSİ

V. Ə. QASIMOV[1] , S. N. NƏBİYEVA[2]
Milli Aviasiya Akademiyası[1], Bakı, Azərbaycan
Bakı Mühəndislik Universiteti[2], Bakı, Azərbaycan
gasumov@yahoo.com[1] , sevinc.nebiyeva95@gmail.com[2]

XÜLASƏ

Məqalə informasiya axtarışının qeyri-səlis modelinin qurulması məsələsinə həsr edilmişdir. Məqalədə informasiya axtarışının qeyri-səlis modeli verilmiş, model çərçivəsində informasiya massivində olan sənədlərin, axtarış sorğularının, mövzu kataloqlarının, terminlər çoxluqlarının, eləcə də onlar arasındakı münasibətlərin qeyri-səlis çoxluqlar və münasibətlər vasitəsilə təqdim olunması məsələsinə baxılmışdır.

Açar sözlər: informasiya axtarışı, qeyri-səlis model, qeyri-səlis axtarış sorğusu, sənədlərin qeyri-səlis təqdimatı, qeyri-səlis mövzu kataloqları.

ABSTRACT

The article is dedicated on the construction of a fuzzy model of information search. In the article, a fuzzy model of information retrieval is given, within the framework of this model, the task of presenting documents of the information array, search queries, thematic catalogs, sets of terms, also relations between them is considered using theory of fuzzy sets and relations.

Keywords: information search, information retrieval, fuzzy model, fuzzy search queries, fuzzy representation of documents, fuzzy temathic catalogs.

Giriş

Mütəxəssislərin fikrinə görə, internetdə fəaliyyət göstərən informasiya-axtarış sistemlərinin böyük əksəriyyəti hər hansı riyazi modelə əsaslanmır. Onlarda yalnız istifadəçinin daxil etdiyi sorğuya uyğun olan müəyyən sənədlərin tapılıb verilməsini təmin edən alqoritmlər reallaşdırılmış olur. Lakin axtarışın keyfiyyətinin yaxşılaşdırılması, məlumatın həcminin böyüklüyü, istifadəçi sorğularının axınının intensivliyi ilə bağlı məsələlərin həlli zamanı təcrübi alqoritmlərlə yanaşı nəzəri riyazi aparata əsaslanan axtarış modelinə (sadə olsa belə) zərurət yaranır [1-3].

Axtarışın modeli dedikdə əsasında hansı sənədlərin tapılması və nizamlanması barədə qərar qəbul etməyə imkan verən zəruri qaydaların yaradıldığı real vəziyyətin müəyyən sadələşdirilməsi başa düşülür. Model qəbul edildikdən sonra məsələnin həlli üçün zəruri olan parametrlər həqiqi mənalarını ifadə edir və başa düşülən olur.

İnformasiya axtarışı modelləri əsas dörd parametrlə xarakterizə olunur:

- sənədlərin və sorğuların təqdim edilməsi;
- sənədin istifadəçinin sorğusuna relevantlığının qiymətləndirilməsi üçün tətbiq olunan qarşılıqlı müqayisə üsulları;
- axtarışın nəticələrinin nizamlanması üsulları;
- relevantlığın istifadəçi tərəfindən qiymətləndirilməsini təmin edən əks əlaqə mexanizmləri.

Sənədlərin təqdim olunması, indeksləşdirilməsi, axtarış obrazlarının yaradılması, eləcə də reallaşdırılan informasiya axtarışı üsullarından və vasitələrindən asılı olaraq, informasiya axtarışının bir sıra modellərini fərqləndirirlər. Bütövlükdə bu modellərin effektivliyi qeyd olunan üsul və vasitələrin reallaşdırılmasının keyfiyyəti ilə müəyyən olunur.

İndiyədək informasiya axtarışının modelləşdirilməsi, səmərəliliyinin və intellektuallığının artırılması istiqamətində xeyli elmi-tədqiqat və təcrübi işlərin görülməsinə baxmayaraq, bu sahədə hələ də arzu olunan nəticələr əldə edilməmişdir. Bütün axtarış xidmətləri istifadəçilərin sorğularına cavab olaraq onların tələbatlarının ödənilməsi üçün daha münasib olan informasiya mənbələrinə istinadların siyahısını təqdim edir. Belə siyahıda lazımsız, istifadəçinin axtarış sorğusuna və tələbatına uyğun olmayan mənbələrə daha çox rast gəlinir. [1-3].

Effektiv informasiya-axtarış sisteminin (İAS) yaradılması üçün axtarış aparılan informasiya mühitini bütövlükdə öyrənmək, informasiya resurslarının tematik bölünməsi, indeksləşdirilməsi və axtarılması, sənədlərin və sorğuların təqdim olunması üsullarını işləyib hazırlamaq tələb olunur. Sənədlərin təqdim olunması, indeksləşdirilməsi, axtarış obrazlarının yaradılması, eləcə də reallaşdırılan informasiya axtarışı üsullarından və vasitələrindən asılı olaraq, informasiya axtarışının bir sıra modellərini fərqləndirirlər. Bütövlükdə bu modellərin effektivliyi qeyd olunan üsul və vasitələrin reallaşdırılmasının keyfiyyəti ilə müəyyən olunur [4-7].

İnformasiya axtarışının ümumiləşdirilmiş modelini aşağıdakı şəkildə vermək olar:

$$\{D, Q, F, R(d, q)\},$$

burada D – sənədlərin təqdimatları çoxluğu, Q – informasiya sorğularının təqdimatları çoxluğu, F – sənədlərin və sorğuların təqdimatlarının təhlili, qiymətləndirilməsi və müqayisəsi, onlar arasındakı münasibətlərin modelləşdirilməsi vasitələri, $R(d,q)$ – nizamlama funksiyasıdır. $R(d,q)$ funksiyası hər bir $d \in D$ sənədinə və $q \in Q$ sorğusuna qarşı həqiqi ədədlər qoyur, $q \in Q$ sorğusuna görə $d \in D$ sənədinin axtarış nəticəsində verilmiş sənədlər çoxluğunda sırasını müəyyən edir

Məqalədə informasiya axtarışının qeyri-səlis modelinə baxılır. Qeyri-səlis model qeyri-səlis çoxluqlar və münasibətlər nəzəriyyəsinin köməyi ilə informasiya resurslarını təqdim etməyə, indeksləşdirməyə, istifadəçi sorğularına daha relevant olan sənədləri tapmağa, informasiya resurslarının tematik profilini müəyyənləşdirməyə, habelə terminlərin sinonimlərindən və assosiativ sözlərindən ibarət lüğətləri istifadə etməklə tematik kataloqları avtomatik surətdə yaratmağa və mövcud tematik kataloqları təkmilləşdirməyə imkan verir. Bu məqsədlə model çərçivəsində Belman-Zadə yanaşmasından istifadə edilir. İnformasiya axtarışının qeyri-səlis çoxluqlar və münasibətlər nəzəriyyəsinə əsaslanan modelində sənədlər və terminlər çoxluqları, eləcə də onlar arasındakı qeyri-səlis münasibətlər nəzərə alınır [1,2,8,9].

İnformasiya axtarışının qeyri-səlis modeli

Tutaq ki, $D = \{d_i\}_I$ – İnternet şəbəkəsinin informasiya fəzasında olan sənədlər çoxluğudur. Kitabxana-informasiya sistemlərinə analoji olaraq, bu çoxluğu tematika üzrə müvafiq alt çoxluqlara (tematik kataloqlara) bölmək tələb olunur. Burada tematik kataloqlar dedikdə tematik profilləri ilə müəyyən olunan təsnifat istiqamətləri çoxluğu başa düşülür. Tematik kataloqları $K = \{K_l\}_L$ kimi işarə edək. Hər bir tematik kataloq özünün profilinə uyğun olaraq, məxsusi deskriptorları, yəni terminləri, açar sözləri və ya digər leksik vahidləri ilə xarakterizə olunur [7,8].

K_l tematik kataloqunun profilinin tematik istiqamətini xarakterizə edən terminlər çoxluğunu T_l^K ilə işarə edək. Qeyd olunmalıdır ki, bu çoxluqlar öz aralarında qismən kəsişə bilər:

$$T_i^K \cap T_j^K \neq \varnothing, \forall\ i \neq j.$$

Sistemdə istifadə olunan bütün tematik profilləri müəyyən edən terminlər çoxluqlarının çoxluğu axtarış sisteminin ümumi terminləri çoxluğunu təşkil edir. Əgər axtarış sisteminin ümumi terminləri çoxluğunu $T = \{t_j\}_J$ ilə işarə etsək, onda aşağıdakı düsturu yaza bilərik:

$$T = \bigcup_{l=1}^{L} T_l^K .$$

Qeyd olunmalıdır ki, axtarış sistemlərində terminlər çoxluğu qismində istənilən universal biblioqrafik təsnifatlandırıcı, məsələn, UOT – universal onluq təsnifatlandırıcı (rusca УДК), KBT – kitabxana biblioqraf təsnifatlandırıcı (rusca ББК) və s. istifadə oluna bilər. Terminlər çoxluğunun yaradılması üçün digər yanaşma da mümkündür. İnternetin çoxsaylı müasir İAS-ın əsasında duran bu yanaşmanın məğzi terminlər çoxluğunun, yəni təsnifatlandırıcının indekslər və ya metaverilənlər bazaları şəklində axtarış sisteminin özü və ya onun administratoru tərəfindən sistemin fəaliyyəti prosesində yaradılmasından və doldurulmasından ibarətdir.

Sadəlik üçün fərz edək ki, sistemin terminlər çoxluğuna daxil olan $t_j \in T$, $\mathrm{j} = \overline{1, J}$ terminlərinin sinonimləri və assosiativ sözləri vahid çoxluğu təşkil edir. Elementləri arasındakı münasibətlər qeyri-

səlis münasibətlər şəklində müəyyən olunan sinonimlər və assosiativ sözlər çoxluğunu $S = \{s_v\}_V$ kimi işarə edək.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, informasiya axtarışını aşağıdakı şəkildə təqdim etmək olar [1,2]:

$$I_R = \{K, D, T, Q, R\},$$

burada *K*, *D* və *T* çoxluqları yuxarıda təsvir edilmişdir. I_R – informasiya axtarışının istifadəçiyə təqdim olunan nəticəsi olub, informasiya mənbələrinin adları, ünvanları və digər rekvizitlərindən ibarət vektor (siyahı) şəklində təqdim olunur. *Q* – istifadəçi sorğusudur. $R = \{R^D, R^K, R^S, R^Q\}$ – qeyri-səlis münasibətlər çoxluqları çoxluğudur. Bu çoxluq "sənəd-termin" (R^D), "tematik kataloq-termin" (R^K), "termin-sinonim" (R^S) və "sorğu-termin" (R^Q) şəklində münasibətləri müəyyən edir.

Qeyd olunmalıdır ki, burada baxılan və gələcəkdə baxılacaq bütün çoxluqlar qeyri-səlis çoxluqlardır. Əks halda, yəni hər hansı çoxluq qeyri-səlis olmasa, bu hal xüsusi qeyd olunacaqdır.



Şək.1 İnformasiya axtarışının qeyri-səlis modelinin qraf şəklində təsviri

Şəkil 1-də informasiya axtarışı istiqamətlənmiş qraf şəklində təsvir olunmuşdur. Bu qrafın təpələri yuxarıda qeyd olunan çoxluqları, qövsləri isə bu çoxluqlar arasındakı münasibətləri göstərir. Bu qrafda informasiya axtarışının qeyri-səlis modelinə daxil olan bütün çoxluqlar və münasibətlər öz əksini tapmışdır.

Tematik profillər və terminlər çoxluqları arasındakı münasibətləri müəyyən edən çoxluğa tematik rubrikator kimi baxmaq olar. Yuxarıda qeyd olunduğu kimi, hər bir tematik profil müəyyən terminlər çoxluğu ilə təyin edilir. Burada deyirlər ki, bu terminlər verilmiş tematik profili təsvir edirlər. Məlumdur ki, bəzi terminlər yalnız bir tematik profilə, digər terminlər isə bir neçə tematik profilə aid (relevant) ola bilər.

Tematik rubrikator *LxJ* ölçülü qeyri-səlis relyasion matris şəklində təqdim olunur. Bu matrisin sətirləri tematik profillərə, sütunları isə terminlərə uyğun olur.

Beləliklə, tematik rubrikatorları aşağıdakı kimi təqdim etmək olar:

$$K_l = \{t_j \,/\, \varphi_{t_j}(K_l)\},\ l = \overline{1,L},\ j = \overline{1,J}\ ,$$

burada $\varphi_{t_j}(K_l)$ – t_j termininin K_l tematik kataloquna relevantlığı (daxil olması) dərəcəsini müəyyən edən funksiyadır. Başqa sözlə, $\varphi_{t_j}(K_l)$ terminin tematik profilə daxilolma (mənsubiyyət) funksiyasıdır.

Tematik profillər çoxluqları ilə terminlər çoxluqları arasındakı R^K münasibəti aşağıdakı kimi müəyyən edilir:

$$R^K = \{r_l^K\}_L,$$

$$r_l^K = \{\varphi_{t_j}(K_l) : T \times T^K \to [0,1]\},\ l = \overline{1,L},\ j = \overline{1,J}.$$

R^K və R^S matrislərinin elementlərinin qiymətləri ilkin mərhələdə İAS-ın yaradılması zamanı müəyyən edilir. Bunun üçün ekspert qiymətləndirilməsi üsulundan istifadə oluna bilər. Sistemin fəaliyyəti prosesində $\varphi_{t_j}(K_l)$ funksiyasının qiymətləri adaptasiya olunur, yəni korrektə edilir.

İndi isə qeyri-səlis modelin köməyi ilə indeksləşdirilmiş sənədlərin axtarış sisteminin indekslər bazasında təqdim olunması prinsiplərinə baxaq. Yuxarıda qeyd olunduğu kimi, indeksləşdirmə prosesinin nəticəsində informasiya fəzasının hər bir sənədinə qarşı T çoxluğundan bir sıra terminlər, yəni onun alt çoxluğu qoyulur. Bu terminlərin hər bir sənəd üçün vaciblik dərəcələrini göstərən çəki əmsalları həmin terminlərə mənimsədilir.

d_i sənədinin terminləri (açar sözləri) çoxluğunu T_i^D (bu çoxluq da qeyri-səlis çoxluqdur) ilə işarə edək. Hər bir sənədə münasibətdə terminlərin çəki əmsalları bu terminlərin T_i^D çoxluğuna daxilolma funksiyası ilə müəyyən edilir. Bu funksiya [0,1] intervalında qiymətlər alır. Onun qiyməti terminin çoxluğa daxilolma dərəcəsini göstərir. Belə ki, "1" qiyməti terminin çoxluğa tamamilə daxil olduğunu, "0" qiyməti isə onun bu çoxluğa aid olmadığını göstərir.

Qeyd olunmalıdır ki, bütün T_i^D alt çoxluqları normallaşdırılır, yəni T çoxluğunun bu alt çoxluqlarda olmayan terminləri onlara əlavə edilir, lakin həmin terminlərin daxilolma funksiyalarının qiymətləri sıfır qəbul olunur.

Beləliklə, D sənədlər çoxluğunu IxJ ölçülü qeyri-səlis relyasion matris şəklində təqdim etmək olar. i sətri ilə j sütununun kəsişməsində yerləşən element t_j termininin d_i sənədi üçün çəkisini müəyyən edir və $\omega_{t_j}(d_i)$ kimi işarə olunur:

$$d_i = \{t_j / \omega_{t_j}(d_i)\},\ i = \overline{1,I},\ j = \overline{1,J}.$$

Eyni zamanda t_j termini ilə d_i sənədi arasındakı münasibət aşağıdakı kimi təyin edilir:

$$R_i^D = \{\omega_{t_j}(d_i) : T \times T^D \to [0,1]\},\ i = \overline{1,I},\ j = \overline{1,J},$$

$$R^D = \{R_i^D\}_I,$$

burada $\omega_{t_j}(d_i)$ – t_j terminin T_i^D terminlər çoxluğuna daxilolma funksiyasıdır. Onun qiyməti sənədlərin indeksləşdirilməsi zamanı hesablanır. R^D münasibətlər çoxluğunu ədəbiyyatlarda çox vaxt W ilə işarə edirlər.

Nəticə

İnformasiya axtarışının qeyri-səlis modelində sənədlər, tematik kataloqlar və sorğular çoxluqları terminlər çoxluğu vasitəsilə təqdim edilməsi, eləcə də bu çoxluqlar arasındakı münasibətlərin təsviri qeyri-səlis çoxluqlar və münasibətlər nəzəriyyəsi əsasında həyata keçirilir. Burada sənədlərin, tematik kataloqların və sorğuların terminlər vasitəsilə təsviri, yəni onların mövzu sahələrinin müəyyən olunması, sorğuların tərtib edilməsi zamanı yol verilən qeyri-müəyyənliklər əsas götürülür. Məhz bu amillər sənədlərin indeksləşdirilməsinin, tematik profillərinin müəyyən edilməsinin və qeyri-dəqiq tərtib edilən sorğuya görə aparılan axtarışın nəticələrinə bilavasitə təsir edir.

ƏDƏBIYYAT

1. Qasımov V.Ə. İnformasiya axtarışı üsulları və sistemləri. Dərslik. Bakı: MTN-in MTBI-nin Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2015, 288 s.
2. Касумов В.А. Методы информационного поиска в компьютерных сетях с сверхнасыщенными информационными ресурсами. Монография. Баку: Элм, 2004, 208 с.
3. Храмцов П. Моделирование и анализ работы информационно-поисковых систем Internet. // Открытые Системы. Москва. №6. 1996. http://www.osp.ru/os/1996/06/46.htm.
4. Байков В. Интернет. Поиск информации. Продвижение сайтов. Санкт-Петербург: БХВ, 2000. 288 с.
5. Панйр Дж. Вероятностные модели в информационно-поисковых системах. // "Nachr. Dok.". 1986. 37. №2. с.60-66.
6. Дубинский А.Г. Некоторые вопросы применения векторной модели представления документов в информационном поиске. // Управляющие системы и машины. 2001. №4. стр.77-83.
7. Дубинский А.Г. Факторы, влияющие на качество информационного поиска // Системный аналіз та інформаційні технології: Зб. тез доп. Міжн. наук.-практ. конф. студ., аспірантів та молод. вчених. - К.: НТУУ "КПІ", 2001. Ч.2. стр.43-48.
8. Касумов В.А. Методы информационного поиска в Internet на основе нечетких отношений предпочтения. // Автоматика и Вычислительная Техника. Рига. Выпуск №4. 2003. стр.71-78.
9. Касумов В.А. Моделирование информационного поиска в Интернет на базе нечетких знаний. // Автоматика и Вычислительная Техника. Рига. Выпуск: №2. 2002. стр.49-61.

MƏLUMATIN İNSTENSİV İŞLƏNMƏSİNİN TEXNOLOGİYALARI

HÜMBƏTOV ŞAMIL NIZAMƏDDIN OĞLU

"Naxçıvan" Universiteti

shumbetov@nu.edu.az

XÜLASƏ

Məlumatların intensiv işlənməsi, əsasən böyük həcmli məlumatları emal edə bilən tətbiqi proqramlar sinifinə fokuslanıb. Elmi-texniki hesablamalardan sosial şəbəklərə qədər müxtəlif tətbiq sahələrində meydana gələn informasiyanı effektiv şəkildə saxlamaq, əl yetənli eləmək, indeksləmək və analiz etmək lazımdır. İnformasiya həcminin zamanla böyük nisbətdə artması bu işi çətinləşdirir. Paylanmış hesablamalar *(distributed computing)* miqyaslana bilən və səmərəli yaddaş arxitekturaları və məlumatların hesablanması və işlənməsi üçün daha effektiv şərait təmin etməklə bu kimi məsələlərin həllinə kömək edir. Məlumatın intensiv işlənməsində paralel və paylanmış texnologiyalardan istifadə edilsə də, məlumatların təqdimat forması, səmərəli alqoritmin seçilməsi və miqyaslana bilən infrastruktur hələ də aktual problem kimi qalır.

Bu məqalədə məlumatların intensiv hesablanmasının xarakteristikası, böyük həcmli məlumatların istehsalı zamanı yaddaş və məlumatların işlənməsi zamanı meydana gələn problemlər təsvir olunur.

Açar sözlər – Big Data, Data Intensiv Computing, GFS, GPFS, Cloud Computing

ABSTRACT

Data Intensive Computing (DIC) focuses on a class of applications that deal a large amount of data. Several application fields, ranging from computational science to social networking, produce large volumes of data that need to be efficiently stored, made accessible, indexed, and analyzed. These tasks become challenging as the quantity of information accumulates and increases over time at higher rates. Distributed computing is definitely of help in addressing these challenges by providing more scalable and efficient storage architectures and a better performance in terms of data computation and processing. Despite this fact, the use of parallel and distributed techniques as a support of data intensive computing is not straightforward, but several challenges in the form of data representation, efficient algorithms, and scalable infrastructures need to be faced.

This article characterizes the nature of data-intensive computing and presents an overview of the challenges introduced by production of large volumes of data and how they are handled by storage systems and computing models.

Key Words: Big Data, Data Intensiv Computing, GFS, GPFS, Cloud Computing

1. Giriş

Məlumatın intensiv işlənməsi, megabayt-petabayt diapazonunda böyük həcmli məlumatların istehsalı, manipulyasiyası və təhlili ilə məşğul olur [1]. Məlumat yığını *(dataset)* termini əsasən bir vəya daha çox tətbiqlə əlaqəli informasiya elementlərinin identifikasiyası üçün istifadə olunur. Məlumat yığınları əsasən böyük həcmli məlumatların əldə edilməsi, saxlanması və indekslənməsini yerinə yetirən yaddaş infrastrukturunda saxlanılır. Məlumatları təsnifatlandırmaq və axtarışı asanlaşdırmaq üçün metadata adlanan infromasiya bitləri məlumat yığınına əlavə olunur.

Hesablama elmləri *(computational science həmçinin scientific computing vəya scientific computation)* kompleks problemləri anlamaq və həll etmək üçün qabaqcıl hesablama üsullarından istifadə edən sürətlə artan multidisiplinar bir sahədir. Bu, bir çox fənnlərin əhatə etdiyi bir elm sahəsidir, burada təbiət sistemlərini anlamaq üçün modellərin və simulyasiyaların inkişafı nəzərdə tutulur. Məhz bu elm sahəsində məlumatların intensiv işlənməsi daha aktualdır. Belə ki, hər saniyə yüzlərlə gigabayt həcmində səmanın xəritəsi şəkil formatında çəkilir və bu il ərzində petabaytlara çatır.

Bioinformatika *(bioinformatics)* bioloji məlumatları başa düşmək üçün metod və proqram vasitələrini inkişaf etdirən bir fənlərarası sahədir. Fənlərarası bir elm sahəsi olaraq, bioinformatika bioloji məlumatları təhlil etmək üçün özündə biologiya, kompüter elmləri, informasiya mühəndisliyi, riyaziyyat və statistika kimi elmi sahələri birləşdirir. Bioinformatika, riyazi və statistik üsullardan istifadə edərək bioloji sorğuların *in silico (bioloji təcrübələrə istinad etməklə "kompüterdə və ya kompüter simulyasiyası vasitəsilə" həyata keçirmək)* analizlərində istifadə edilir. Bioinformatika tətbiqləri, terabayt məlumatları ehtiva edən məlumat bazalarıdır.

Zəlzələ simulyatorları Yer kürəsində baş verən bütün təkanları qeydə almaqla kütləvi miqdarda məlumat emal edirlər.

Elmi hesablamalar ilə yanaşı İT sənayesinin bəzi sahələrində məlumatların intensiv işlənməsinə ehtiyac var. İstənilən telekommunikasiya şirkəti üçün müştəri məlumatları 10-100 terabayt arasındadır. Bu məlumat həcmi sadəcə faktura hesabatları düzəltmək üçün deyil, həm də şirkətin müştərilərə daha yaxşı xidmət etmələri üçün ssenarilər, tendensiyalar və marketinq yanaşmaların müəyyən edilməsi üçün istifadə edilir.

Global mobil məlumat trafiki 2016-cı ildə 7 EB olduğu halda 2021ci-ildə 7 dəfə artaraq ayda 49 EB olması gözlənilir [2].

IT sahəsinin nəhənglərindən olan Google`da gündəlik axtarışların sayı 3,5 milyard illik isə 1,3 trilyon axtarışa bərabərdir [3].

Sosial şəbəkələr və oyunlar məlumatın intensiv işlənməsini real tətbiq edən sahələrdəndir. Facebook Hive yaddaş anbarında 300 PB məlumatı 800 min cədvəllərdə yerləşdirir. Güngə 4 PB məlumat emal edir, 600 min sorğu və 1 milyon MapReduce əməliyyatı yerinə yetirir [4]. Sosial oyun platforması Zynga orta hesabla 87 milyona yaxın aylıq aktiv istifadəçi sayına çatıb. Zynga gündəlik istifadəçilərdən 6 mindən çox fərqli hesabat növləri və 15 min *ad hoc* sorğular qəbul edir. Analitiklər, məhsul menecerləri, mühəndislər və biznes inkişaf qrupları məhsulları optimallaşdırmaq və təkmilləşdirmək üçün bütün bu məlumatlardan istifadə edir [5].

2. Məlumatın intensiv işlənməsinin xarakteristikası

Məlumatın intensiv işlənməsi heç də hər zaman böyük həcmli məlumatların işlənməsində istifadə olunmur həm də hesablama intensivliyinin xüsusiyyətlərini nümayiş etdirir [6].

Məlumatın intensiv işlənməsi tətbiqləri bir neçə terabayt və petabayt həcmli məlumat yığınlarını idarə edir. Məlumat yığınları bir neçə formatda və müxtəlif yerlərdə paylanmış şəkildə olurlar. Belə tətbiqlər məlumatları transformasiya və sintez mərhələləri də daxil olmaqla çox səviyyəli analitik analiz edirlər. Emal tələbləri məlumatın həcmi ilə düz mütənasibdir və asanlıqla paralel işlənə bilir. Onlara həmçinin, məlumatların idarə olunması üçün səmərəli mexanizm, filterasiya, sintez, effektiv sorğu və paylanmağa ehtiyac var [6].

3. Məlumatın intensiv işlənməsinin problemlər

Emal olunan, analiz edilən və yaddaşda saxlanılan böyük həcmli məlumatları paylanmış şəkildə işləmək üçün ənənəvi həllərdən fərqli infrastruktur və ara proqramlar tələb olunur. Məsələn, məlumatın

yerləşdiyi yer əhəmiyyətli dərəcədə vacibdlidir, belə ki, terabaytlarla məlumatın yer dəyişməsi yüksək performanslı hesablamalarda maneə törədə bilər. Məlumatların bölünməsi, həmçinin məzmun replikasiyası və miqyaslana bilən alqoritmlər məlumatın itensiv işlənməsi tətbiqlərinin performansını yaxşılaşdırmağa kömək edir.

Ian Gorton və digər müəlliflər məlumatların intensiv hesablanmasında aşağıdakı problemləri göstərmişlər [6]:

- Kütləvi məlumat yığınlarını emal və axtarış edə bilən miqyaslanan alqoritmlər;
- Kompleks, heterogen və paylanmış məlumat mənbələrini idarə etmək üçün miqyaslaya bilən yeni metadata idarəetmə texnologiyaları;
- Yüksək performanslı hesablama platformalarında yaddaşdakı bir neçə terabayt həcmində məlumat strukturlarına daha yaxşı çıxış təmin etmək;
- Yüksək performanslı, yüksək etibarlı və petabayt səviyyəsində paylanmış fayl sistemləri;
- Məlumatlardan imza yaratma üsulları və məlumatların azaldılması və sürətli emalı;
- Proqram təminatının mobilliyinə yeni yanaşmalar: belə ki, alqoritmlər məlumatların yerləşdiyi yerdə icra oluna bilər, başqa bir emal sahəsinə məlumatı köçürmək çox bahalı prosesdir;
- Tədqiqat və simulyasiya üçün yüksək sürətli şəbəkələrdən və elmi alətlərdən gələn gigabayt həcmli məlumat axınının işlənməsi və analizi üçün xüsusi hibrid arxitektura;
- Analitik konveyrləri tez formalaşdırmaq üçün müxtəlif platformalarda işləyən proqram modullarının birləşməsini asanlaşdıran elastik və yüksək səmərəli proqram təminatlarının inteqrasiya metodları;

4. Məlumatın intensiv işlənməsinin texnologiyaları

Məlumatların intensiv işlənməsi əsasən böyük həcmli məlumatlarla işləyən tətbiqlərin inkişafı ilə bağlıdır. Buna görə də yaddaş sistemləri və proqramlaşdırma modelləri məlumatların intensiv işlənməsini dəstəkləyən texnologiyaların təbii təsnifatını təşkil edir.

4.1. Yaddaş sistemləri

Verilənlər bazası idarəetmə sistemləri müxtəlif növ tətbiqlər üçün yaddaş xidməti göüstərir. Bloqlar, veb səhifələr, proqram təminatı logları və sensorlardan gələn struktursuz məlumatların kəskin artmasıyla, ənənəvi relyasiya modeli böyük həcmli məlumatları analiz etmək üçün uyğun həll variantı görsənmir. Verilənlər bazası və verilənlər bazası idarəetmə sistemləri sahəsində tədqiqatlar gələcək üçün yeni imkanlar açır. Bu dəyişikliklərə aşağıdakı faktorlar təsir edir:

- *Big Data populyarlığının artması*. Böyük miqdarda məlumatların idarə edilməsi artıq nadir hadisə deyil, belə ki: elmi hesablamalarda, korporativ tətbiqlərdə, multimedia əyləncələrdə, təbii dilin emalında və sosial şəbəkə analizində istifadə olunur. Böyük həcmli məlumatlar idarə olunmasında yeni və daha səmərəli üsullar tətbiq edilir.
- *Məlumat analizinin biznes sahəsində artan əhəmiyyəti*. Məlumatların idarə olunması xərc kimi nəzərə alınmır, onlar kommersiya mənfəətinin əsas elementi hesab olunur. Bu facebook kimi populyar sosial şəbəkələrdə istifadəçi profillərini, maraqlarını və insanların əlaqələrini idarə olunmasında tətbiq olunur. Bu zaman emal olunan məlumat miqdarı, analiz üçün yeni texnologiyalar və yanaşmalar tələb edir.
- *Məlumatların bir neçə formada olması*. Yuxarıda qeyd edildiyi kimi, məlumatlar heterogen təbiət nümayiş etdirir və bir neçə forma və formatda olur. Strukturlu məlumatlar ənənəvi tətbiqlərin və sistemlərin davamlı istifadəsi nəticəsində artır, lakin texnologiyanın və platforma kimi İnternetin inkişafı hər kəsin məlumat əldə edə biləcəyi bir imkan verir. Bu məlumatlar əsasən struktursuz və təbii olaraq relyasiya modelinə uyğun olmur.
- *Hesablama üçün yeni yanaşmalar və texnologiyalar*. Bulud texnologiyası istifadəçilərin lokal mövqelərində hər hansı bir proses, proqram, verilənlərin daxil edilməsi və ya servis infrastrukturu lazım olmadan alınacaq xidmətin təmin olunmasını əhatə edən informasiya xidmətidir. İstifadəçilər istədikləri xidmətdən öz aparatlarında heç bir infrastrukutur yaratmadan istifadə edə bilirlər. Bulud texnologiyası internet texnologiya xidmətləri üçün əsası internet protokollarına əsaslanan yeni bir xidmət servisi olaraq xarakterizə olunur. Bu sistem sayəsində proqramlarla həyata keçirilən bir çox texnoloji əməliyyat artıq

internet üzərindən virtual olaraq həyata keçirilir. Bu İnternetlə birlikdə məsafədən asılı olmayaraq öz fayl və ya informasiyalarımızla əldə etmək və onlarla işləməyə bilməkçün bir texnikadır. Onlayn qurulan şəbəkə bazalı vasitələr və üsullar vasitəsiylə şəbəkə fliterləri bir çox proqramın bir yerə yığıldığı və kompüterlər arası əməliyyat edilə bilən bir sahəyə çevrilmişdir [7].

Bütün bu amillər məlumatların idarə edilməsində yeni texnologiyaların ehtiyacını müəyyənləşdirir. Bu verilənlər bazası texnologiyaları və məlumatların idarə edilməsinə daha bütüncül bir yanaşma ilə yanaşı yeni bir araşdırma gündəmini nəzərdə tutur, eyni zamanda relational modelinə alternativ (və ya tamamlayıcı) yerlər qoyur. Xüsusilə, faylların şəklində xam məlumatların idarə olunması, paylanmış obyekt mağazaları və NoSQL hərəkatının yayılması üçün paylanmış fayl sistemlərində irəliləyişlər, məlumatların intensiv hesablanması üçün dəstəklənən əsas istiqamətləri təşkil edir.

Bütün bu faktorlar məlumatların idarə olunmasında yeni texnologiyalara nə qədər ehtiyac olduğunu göstərir. Struktursuz faylların idarə olunması, NoSQL-in yayılması, paylanmış fayl sistemlərinin inkişafı, məlumatların intensiv hesablanması üçün əsas istiqamətlər təşkil edir.

4.2. Yüksək performanslı paylanmış fayl sistemləri və yaddaş buludları

Məlumatların idarəetmə sistemlərində paylanmış fayl sistemi əsas təşkil edir. Onlar faylları yaddaşda saxlamaq və daha sonra yazıb oxumaq üçün interfeys təmin edirlər. Bu fayl sistemləri böyük hesablama klasterlərində, superkompüterlərdə, parallel arxitekturalı sistemlərdə və yaddaş və hesablama buludlarında istifadə olunur.

4.2.1. Lustre

Lustre paralel paylanmış fayl sistemi olmaqla böyük miqyaslı klaster hesablamalarda istifadə olunur. Luster kompüter klasterlərinin bir parçası kimi on minlərlə müştəri qovşağı, yüzlərlə server, on petabaytlarla yaddaş və ümumi məlumatı ötürmə qabiliyyəti 1TB/sn olan fayl sistemidir. Bu xüsusiyyətlər Luster fayl sistemini meteorologiya, simulyasiya, neft və qaz, həyat elmləri, media və maliyyə kimi sənaye sahələrində olan böyük məlumat mərkəzləri olan müəssisələr üçün əlverişli bir seçimdir [8].

4.2.2. IBM General Paralel Fayl Sistemi (GPFS)

GPFS, RS/6000 superkompüter və Linux hesablama klasterlərinə dəstək verən IBM tərəfindən hazırlanmış yüksək performanslı paylanmış fayl sistemidir. GPFS, akademik tədqiqatlar nəticəsində ortaya çıxan və özü-özünü bərpa edəbilən çox platformalı paylanmış fayl sistemidir. GPFS paylaşılan disklər konsepsiyasına əsaslanır, burada disklər toplusu bir sıra kommutasiya üsulu ilə fayl sistemi qovşaqlarına əlavə olunur. Fayl sistemi, bu infrastrukturu istifadəçilərə şəffaf edir və böyük həcmli faylları bir sıra disklərə paylayır, replikasiya zamanı faylları əlyetənlik artır. Bu infrastruktur ilə system yüksək bant genişliyi ilə və məlumatların tutarlığını itirmədən petabaytlarla yaddaşı dəstəkləyə bilər. Digər tətbiqlərlə müqayisədə, GPFS bütün fayl sisteminin metadatasını yayır və ona şəffaf giriş təmin edir, beləliklə, bir səhv nöqtəsini aradan qaldırır.

4.2.3. Google Fayl Sistemi (GFS)

GFS - Google hesablama buludunda paylanmış tətbiqlərin icrasını dəstəkləyən yaddaş infrastrukturudur. Sistem, səhvlərə qarşı tolerant, yüksək səviyyəli, standart Linux əməliyyat sistemləri üzərində paylanmış fayl sistemidir. GFS xüsusilə Google-un tətbiqləri üçün paylanmış yaddaş ehtiyaclarına görə dizayn edilib. GFS klasteri çoxlu qovşaqlardan ibarətdir. Bu qovşaqlar iki növə bölünür: *Master* və çox sayda *Chunk* servers. Hər bir fayl sabit ölçülü parçalara bölünür. Chunk serverləri bu parçaları saxlayır. Hər bir hissə yaradılmış vaxtda master node tərəfindən unikal 64 bit etiketini təyin edir və faylların tərkib hissələrinin məntiqi təsvirləri saxlanılır. Hər bir faly hissəsi şəbəkədə bir neçə dəfə təkrarlanır. Varsayılan olaraq üç dəfə təkrarlanır, lakin bu konfiqurasiya edilə bilər. Yüksək tələbə malik olan fayllar daha çox replikasiya ola bilər [9].

4.2.4. Amazon Simple Storage Service (S3)

Amazon (S3), Amazon tərəfindən verilən onlayn yaddaş xidmətidir. Daxili detalları açıqlanmasa da, sistemin yüksək performansılə, etibarlı, elastik və limitsiz yaddaş həcminə və aşağı xərclərə sahibdir. Sistem, Amazon Web Services (AWS) hesabına qoşulan bucket üçün boş bir saxlama sahəsi təklif edir. Hər bir bucket birdən çox obyekt saxlaya bilər, hər biri unikal bir əsasla müəyyənləşdirilir. Obyektlər unikal URL ünvanı ilə indentifikasiya olunur və HTTP vasitəsi ilə nümayiş olunur, beləliklə çox sadə get-put semantikaya imkan verir.

Obyektlərin görünüşü və əlçatanlığı AWS hesabları ilə əlaqələndirilir və bir bucket sahibi onu digər hesablara və ya ictimaiyyətə görünməyə imkan verə bilər. Məhdud müddət üçün hər kəsə ictimai giriş imkanı verən identifikasiya edilmiş URL'leri də müəyyən etmək mümkündür [10].

Bu yaddaş sistemlərinin nümunələrindən başqa, burada müzakirə olunan modellərə oxşar arxitektura olan paylanmış fayl sistemləri və yaddaş buludları da mövcuddur. S3 istisna olmaqla bütün qovşaqların təsnif edilə biləcəyi iki əsas rolları müəyyən edən bütün sistemlərdə ümumi arxitektura göstərmək mümkündür. Metadata və ya master qovşaqları faylların və ya fayl parçalarının yerləşdiyi yer barədə məlumatları ehtiva edir, lakin köləlik qovşaqları saxlama sahəsinə birbaşa daxil olmaq üçün istifadə olunur. Arxitektura fayl sisteminə daxil olmaq üçün sadə bir interfeys təmin edən müştəri kitabxanaları tərəfindən tamamlanır və bu, POSIX spesifikasiyasına tamamilə uyğun gəlir. Bütün bu müxtəlif tətbiqatlar üçün ümumi olan ən vacib aspekt faylara tolerant və yüksək səviyyəli yaddaş sistemləri təmin etmək qabiliyyətidir.

Nəticə

Bu yazıda, xüsusilə Big Data məlumatların intensiv tətbiqlərinin idarə edilməsini dəstəkləyən yaddaş həllərini müzakirə etdik. Ənənəvi olaraq, əlaqələr modelinə əsasən verilən verilənlər bazası sistemləri, böyük miqdarda məlumatların idarə edilməsi üçün əsas həlldir. Göründüyü kimi, çox böyük miqdarda struktursuz məlumatlara gəldikdə, relyasiya tipli verilənlər bazası praktiki olmayıb və zəif performans göstərir. Alternativ və daha effektiv həllər paylanmış fayl sistemləri və yaddaş sistemləri əsasında əsas anlayışları əhəmiyyətli dərəcədə nəzərdən keçirmişdir.

ƏDƏBIYYAT

[1]. R.Moore,T.A.Prince,M.Ellisman., Data-Intensive Computing and digitall libraries.11, New York,USA : ACM, Nov. 1998, Communications of the ACM, Vol. 41, pp. 56-62.

[2]. Cisco Visual Networking Index: Global Mobile Data Traffic Forecast Update, 2016–2021 White Paper. Cisco. [Online] March 2017. https://www.cisco.com.

[3]. Google Search Statistics. Internet live stats. [Online] November 2018. http://www.internetlivestats.com/.

[4]. J.Wiener, N.Bronson. Facebook's Top Open Data Problems. Facebook Research. [Online] October 2014. https://www.research.fb.com.

[5]. Average monthly active users (MAU) of Zynga games from 3rd quarter 2012 to 3rd quarter 2018 (in millions). The portal for statistics. [Online] November 2018. https://www.statista.com.

[6]. Data-Intensive Computing in the 21st Century. I.Gorton,P.Greenfield,A.Szalay,R.Williams. 4, s.l. : Computer,IEEE, 2008, Vol. 41.

[7]. Bulud texnologiyası. Vikipediya. [Online] Noyabr 2018. https://az.wikipedia.org.

[8]. Lustre (file system). Wikipedia. [Online] November 2018. https://en.wikipedia.org.

[9]. The google file system . S.Ghemawat,H.Gobioff,S.T.Leung. NY, USA : Proceedings of the 19th ACM symposium of operating systems principles , October 2003 .

[10]. R. Buyya,Ch. Vecchiola,S.T.Selvi. Mastering Cloud Computing, Foundations and Applications Programming. s.l. : Elsevier, 2013 .

BULUD TEXNOLOGİYALARININ İNKİŞAF KONSEPSIYALARI

CƏFƏROV ZƏFƏR ƏLI OĞLU, HƏSƏNOV RAUF ƏLƏSGƏR OĞLU

Azərbaycan Texniki Universiteti

zafar.cafarov@bk.ru

Giriş. İnformasiya texnologiyalarının (*Information Technology*, IT) "İnfrastruktur Aktiv kimi" (*Infrastructure as an Asset*) paradiqmasının səmərə aspektləri üzrə bir sıra çatışmayan cəhərləri mövcuddur. Rəqabət üstünlükləri əldə etmək üçün qiymətli vaxt və maliyyə məsrəfləri hesabına yaradılan ənənəvi IT infrastrukturu müəssisənin inkişafı üçün zəruri olan xərclər hesabına fəaliyyət

göstərir. IT infrastrukturun və iri məlumat mərkəzləri (*data centers*) üzrə avadanlıqların yerləşdirilməsi üçün geniş yer ayrılması, 24/7/365 rejimdə istismar olunması üçün bahalı əmək resursları ilə bağlı xərclər tələb edilir. Hesablama gücü və məhsuldarlığı uzun müddət ərzində tam istifadə olunmur. "Yaşıl hesablama" (*Green Computing*) konsepsiyasının tətbiqi üzrə manelər yaranır. Platforma lizensiyası və proqram təminatının təkmilləşdirilməsi problemləri yaranır. IT xidmətlərinin mənfəətini də dəqiq müəyyən etmək çətindir. "Bulud hesablaması" (*Cloud Computing*, CC) isə IT infrastrukturu üçün autsorsinq forması hesab edilir və müəssisənin IT üzrə fəaliyyətini məsrəf (xərc) modelindən rəqabət davamlığı mənbəyinə yönəldir. Müəssisə IT infrastuktru üzrə ənənəvi "planlaşdırma – quraşdıma – fəaliyyət" strategiyası yeni bir "təchizatçı tapmaq - inteqrasiya qurmaq – idarə etmək" prosesi ilə əvəz olunur. Bu model müəssisənin fəaliyyət proseslərinə dərhal reaksiya verməyə və IT taktikasını daha çevik müəyyən etməyə imkanlar yaradır. Klassik bulud istifadəçilərdən kifayət qədər uzaqlarda yerləşir və tətbiqi proqramları bulud əlaqələrindən tam asılıdır. Əsasını "damcı" (*Drops*) konsepsiyası təşkil edən Duman Hesablaması (*Fog Computing*, FC) verilənləri istifadəçiyə ən yaxın yerlərdə yerləşdirmək, şəbəkə gecikmələri və hesablamalar zamanı məlumatların ötürülməsi ilə bağlı bütün mümkün maneələri aradan qaldırır. Təqdim olunan işdə "atmosfer" (*atmosphere*) texnologiyaları əsasında IT infrastrukturunun inkişaf perspektivlərinə baxılır [1,2,3].

"Bulud"konsepsiyasının "səbəb-nəticə" əsasları. Yeni servisə yönəlik CC modelləri texniki inkişaf üzrə yaradılmış səbəblərin nəticəsi hesab edilir. Bu kauzal proseslər arasında aşağıdakı konsepsiyalar xüsusi yer tutur [4]: yüksək kompüter məhsuldarlığı (çox-nüvəli, -prosessorlu hesablama sistemləri) və etibarlı və imtinaya davamlı «*bıçaq*» (*ing., blade*) serverlərin inkişafı; verilənlərin saxlanması mərkəzləri (*Data Centers*) və şəbəkələrinin (*Storage Area Network*, SAN), ehtiyata malik disk masssivləri (*Redundant Array of Independent Disks*, RAID) texnologiyalarının yaranması; proses-yonlü idarəetmə imkanı verən infrastuktur konsilidasiyası; virtuallaşma texnologiyaları (virtual infrastruktur yaratmaq üçün proqram təminatı).

"Bulud" sisteminin terminal modelləri. "Cloud computing" konsepsiyası **i**nformasiya-kommunikasiya texnologiyalarının Mainframe, ARPAnet və İNTERNET şəbəkələri üzrə növbəti inkişaf mərhələsi hesab edilir (şəkil 1).



Şəkil 1. «Bulud» texnlogiyasının inkişaf dinamikası

"Cloud computing" sistemini oxşar cəhətlərinə görə "mainframe" ilə müqayisə edirlər. Onların arasındakı əsas fərq "bulud" texnologiyasında hesablama məhsuladrlığı və əməliyyatlar həcminin nəzəri cəhətdən məhdud olmamasıdır. İkinci fərq: terminallar mainframe üzrə yalnız məsələnin emala başlanması və istifadəçi ilə interaktiv əlaqə yaranmasına xidmət edir. "Bulud" sistemində isə terminal hesablama resurslarının qlobal sistemini idarə edən "kompüter beyni" kimi fəaliyyət göstərir. Hipervizor (*Hypervisor*) müxtəlif istifadəçilərə icarə olunan (*multi-tenant*) virtual hesablama resurları təşkil (*resource pooling*) edir (şəkil 2). Bu servis bulud platformalarında tətbiq olunur və "masaüstü xidmət" (*Desktop as a Service*, DaaS) adlanır (şəkil 3).



Şəkil 2. Virtula terminalın tərkibi Şəkil 3. «Bulud» terminal sistemi

Bulud sisteminin əsas xüsusiyyətlərindən biri resursların eyni vaxtda birdən çox istifadəçiyə təqdim ediləcəyi və yük dəyişikliyi ilə aralarında paylanmasından ibarətdir. Server üzərində artan yük ilə, texnologiya virtual sistemdən avtomatik olaraq zəruri resursları ayırır, fiziki avadanlığın məcburiyyətlə istifadə etmək deyil, boş rejimdə qalmasının qarşısını alır (şəkil 4). "Bulud" sisteminin elmentar modeli «istifadəçi» və ya «xarici» (*ing., front-end*) və «daxili» (*ing., back end*) hissələrdən ibarətdir. Həmin modeli müxtəlif fəaliyyət səviyyələrində yerləşən iki fəza müstəvisinin çoxluğu kimi təsvir etmək olar (şəkil 5).





Şəkil 4. "Bulud"elastikliyi Şəkil 5. " Bulud"modeli

Bu iki element arsında rabitə telekommunikasiya şəbəkəsi, əksər hallarda İnternet vasitəsilə təşkil olunur. *Front-End* vasitəsi ilə istifadəçi hər yerdə və hər vaxt sistemlə qarşılıqlı əlaqə qurur. Bu hissə müştəri və ya müəssisə kompüterlərinin buluddan istifadə etmək üçün tələb olunan proqramlardan ibarətdir. Daxili hissə faktiki buludun özüdür Bu hissədə xidmət buludlarını yaradan proqramlar, kompüterlər, serverlər və yaddaş sistemləri yerləşir. "*Middleware Control*", "*Hypervisor*" və ya *"Virtual machine monitor"* kimi adlandırılan xüsusi proqram vasitəsilə bulud texnologiyasının xidmətlərini təqdim edən kompüterlərin birgə (virtual serverlərin) fəaliyyəti təmin olunur. Bu proqram sistemin fəaliyyətində avadanlıqların vəziyyətini monitirinq edir, cari məsələlər üçün tələb olunan fiziki resurları ayırır və yükü balanslaşdırır. Milli Standartlar və Texnologiya İnstitutu (*National Institute of Standards and Technology,* NIST) bulud sisteminin aşağıdakı vacib xarakteristikallara (*essential characteristics)* malik olmasını tövsiyyə etmişdir (şəkil 6):

- Tələbə görə özünəxidmət (*self service on demand*), istifadəçi xidmət təchizatçısı (*provider*) nümayəndəsi ilə əlaqə saxlamadan server vaxtı, məlumatların giriş və emal sürəti, saxlanılan verilənlərin həcmi və digər virtual resurslar (şəkil 7) kimi hesbalama ehtiyaclarını müstəqil olaraq idarə edir.
- şəbəkəyə universal (genişzolaqlı) çıxış (*broad network access*), xidmət telekommunikasiya şəbəkəsi üzrə istifadə edilən terminal növündən asılı olmayaraq təqdim edilir;



Şəkil 6. Bulud sisteminin vacib xarakteristiləri Şəkil 7. Virtual resurslar

- resursların birləşdirilməsi (*resource pooling*), təchizatçı (*provider*) xidmət təqdim etmək üçün müntəzəm dəyişən tələbatlar üzrə çoxlu sayda istifadəçi arasında potensialın dinamik bölüşdürülməsi üçün resursları birləşdirir.

- elastiklik (*elastic computing*) - çevik konfiqurasiya və ya genişləndirilmə imkanı, təchizatçı ilə qarşılıqlı əlaqə qurmağına əlavə məsrəf edilmədən xidmətlər istənilən vaxt avtomatik rejimdə təqdim oluna, azaldıla və genişləndirilə bilər;
- istehlakın mühasibatı (*measured service*) - qiymətləndirilmiş xidmət (billinq), təchizatçı istehlak olunan resursları zəruri təfsilat səviyyəsində avtomatik olaraq qiymətləndirir və bu məlumatlar əsasında istehlakçılara təqdim olunan xidmətlərin həcmini hesablayır.

Duman Hesablaması (*Fog Computing***,** FC**) konsepsiyası.** "Fog Computing" termini 2011-ci ildə Cisco şirkətinin vitse-prezidenti Flavio Bonomi tərəfindən təklif olunmuşdur. O, "Cloud Computing" ilə müqayisədə "Fog Computing" konsepsiyasını şəbəkə hüdudlarına qədər genişlənmiş "bulud" təsvir etmişdir. Texnoloji cəhətdən, Fog Computing konsepsiyası serverlərinin şəbəkə sərhədinə qədər yerləşdirilə bilən paylanmış (bulud) data mərkəzləri ilə sıx bağlıdır. Data mərkəzləri kiçik (konteyner, modul və ya mobil) ola bilər ki, bu da böyük data mərkəzlərinin "hissələri"dır. Beləliklə, "Fog Computing"in mühüm cəhəti son istifadəçilərə yaxınlıq və onların hərəkətliliyinə dəstəkdir.

«Fog Computing» - «hesablama, yaddaş və bulud mərkəzləri ilə son terminallar arasında şəbəkə xidmətləri təqdim edən yüksək virtuallaşma səviyyəsinə malik platformadır (şəkil 8). Şəkil 9-dan görünür ki, duman yerə yaxın yerləşmiş buludu təsvir edir.



Şəkil 8. Cloud Fog platforması Şəkil 9. Dumanın atmosfer təsviri

Bu texnologiya bulud (*cloud*), duman (*fog*) və damla (*drops*) konsepsiya kimi "atmosfer hadisələrini" bir araya gətirir. Duman konsepsiyası əvəzi deyil, əksinə bulud modelinin ideya davamı və inkişafı hesab olunur. FC sayəsində hesablamalar və verilənlərin coğrafi olaraq sıx bir şəkildə paylanmasını da təmin etmək mümkündür. Duman hesablamaları ideyası, verilənləri istifadəçiyə ən yaxın yerlərdə yerləşdirmək, şəbəkə gecikmələri və məlumatların ötürülməsi ilə bağlı bütün mümkün maneələri aradan qaldırmaqdır. Bu, müştərilərlə əlaqə keyfiyyətini yüksəldir və daha təhlükəsiz edir. Fog Computing texnologiya bir neçə səbəbdən faydalıdır. Birincisi, "böyük verilənləri" daha sürətli və effektiv şəkildə təhlil etməyə imkan verir. İkincisi, şəbəkə administratorları tam şəbəkə infrastrukturunu qurmadan yerli istifadəçi tələbatını təmin edə bilər. Bundan əlavə paylanmış duman hesablamaları verilənlərin hətta fəal infrastruktur genişləndirilməsilə real zaman rejimində təhlili mümkün olur. Fog Computing istifadəçilərə paylanmış hesablamalar üçün məhsuldarlıq, yaddaş, verilənlər və servislər təqdim edir. Mücərrəd "duman"ın əsasını fiziki təcəssüm ilə "damla" (*Drops*) konsepsiyası təşkil edir. "Damla" daxili yaddaş, məlumat ötürülməsi üçün interfeys və "Mesh" formatlı simsiz rabitə çipi yerləşdirilən bir mikrokontrolleri təsvir edir.

Çip bir neçə il iş üçün kifayət edən batareyadan enerji alır. yə sahibdir davam. Ona müxtəlif təyinatlı giriş və çıxış qurğuları qoşula bilər. Fəzada koordinatları, temperaturu, işıq, radiasiya və gərginlik kimi parametrləri müəyyən etmək üçün müxtəlif sensorlar da bu cür çiplərə qoşula bilər.

"Drops" məxsusi verilənlərini istifadəçiyə yaxın məsafədə yerləşdirməklə məlumatların ötürülməsi üzrə mümkün gecikmələri aradan qaldırır. Dumanı təşkil edən hər bir damla öz ünvanına və hesablama gücünə malik olan ayrıca sensor və (və ya) aktuatordur. "Damla"-çip sayəsində bulud sistemlərindəki verilənləri təcrid etmək və istifadəçinin yaxınında saxlamaq mümkündür. Bütün qovşaqlar üzrə verilənlərə nəzarət edərək Duman hesablamaları verilənlərin emalı sistemini istifadəçi üçün paylanmış bulud platformasına çevirir. CC modelində əsas funksiyalar şəbəkə qovşaqlarından toplanmış verilənlərin mərkəzləşdirilmiş bazasında yerinə yetirildiyi üçün, bulud və perferiya arasında rabitə kanalın buraxılıcıq qabiliyyətində asılıdır. Fog Computing ideya müəlliflərinin fikrinə görə, bu fəaliyyətin əhəmiyyətli bir hissəsinin "yerlərə" ötürülməsi qərarlar qəbulunun, "böyük verilənlər" (*big data*) təhlilnin sürətini artıracaqdır (şəkil 10). Mərkəzləşdirilmiş "bulud" və paylanmış "duman" bir-birini inkar etmir, əksinə tamamlayır.

1) Cloud 2) Fog

Şəkil 10. Cloud və Fog modellərin müqaisəsi

Strateji mənada , Foggy Computing, əşyalar internetinin (İnternet of Things) gələcək hər şey (kainat) (*Internet of Everything (Universe)*) və bilik internetinə (*Internet of Knowledge*) keçid mərhələsidir (şəkil 11).



Şəkil 11. İnternetin inkişaf konsepsiyası

Nəticə. Beləliklə, Foggy Computing hesablama buludların təkamülündə növbəti addımdır və yüksək sürətli məlumatların lokal işlənməsi ilə yeni İT imkanları açır. Bu, qismən avtonom rejimdə öhdəsindən gələ biləcək fərqli bir tətbiq arxitektura tələb etsə də qabaqcıl texnologiya buludlardan enərək və yerə yaxınlaşacaq.

ƏDƏBIYYAT

[1] Ardelt, M., Dölitzscher, F., Knahl, M. and Reich, C. (2011) Sicherheitsprobleme für IT-Outsourcing durch Cloud Computing, HMD - Praxis der Wirtschaftsinformatik, 48, 281, 62-70.

[2] Armbrust, M., Fox, A., Griffith, R., Joseph, A.D., Katz, R., Konwinski, A., Lee, G., Patterson, D., Rabkin, A., Stoica, I. and Zaharia, M. (2010) A View of Cloud Computing, Communications of the ACM, 53, 4, 50-58.

[3] Lenk, A., Klems, M., Nimis, J., Tai, S. and Sandholm, T. (2009) What's Inside the Cloud? An Architectural Map of the Cloud Landscape, In: Kamal Bhattacharya, Martin Bichler, Stefan Tai (Eds.), Proceedings of the ICSE Workshop on Software Engineering Challenges of Cloud Computing, May 23, Vancouver, Canada, IEEE, 23-31.

[4] Buyya, R., Yeo, C.S., Venugopal, S., Broberg, J. and Brandic, I. (2009) Cloud Computing and Emerging IT Platforms: Vision, Hype, and Reality for Delivering Computing as the 5th Utility, Future Generation Computer Systems, 25, 6, 599-616.

[5] [Cloud Security Alliance (2011) Security Guidance for Critical Areas of Focus in Cloud Computing V3.0. [Online] https://www.cloudsecurityalliance.org/guidance/csaguide.v3.0.pdf

XÜLASƏ

Məqalədə *Cloud Computing* texnologiyasından istifadənin, habelə şəbəkə texnologiyasının yeni Fog Computing növünün müzakirəsi aparılır. Bəzi cloud computing və Fog Computing texnologiyalarının bəzi funksiyaları təhlil edilir. Fog Computing konsepsiyasının tətbiqinin zəruriliyi dəqiqləşdirilir.

Açar sözlər: şəbəkə infrastukturu, virtuallaşdırma, “bulud” texnolologiyası, “duman” hesablaması, “damla” konsepsiyası

ABSTRACT

In the article the questions of use of cloud technologies, as well as a new type of network technologies Fog Computing. Provides some features of the «cloud» Computing and «Fog» Computing. Concretized necessity of Fog Computing.

Key words: network infrastructure, virtualization, cloud technology, Fog Computing, "drop" concept

TƏHLÜKƏSİZLİK TESTİNƏ GİRİŞ

t.f.d AZƏR İMANQULİYEV
ƏFSANƏ KAZIM QIZI KƏRIMOVA
Bakı Mühəndislik Universiteti
ekerimova@std.beu.edu.az

Xülasə - Proqram təhlükəsizliyi testi proqram təminatının təhlükəsizliyini və etibarlılığını təmin etmək üçün vacib bir üsuldur. Bu yazı ilk növbədə proqram təminatı təhlükəsizliyi testinin təsvirini və təsnifatını müzakirə edir, proqram təminatının təhlükəsizliyinin test üsullarını və vasitələrini geniş şəkildə araşdırır. Əlavə olaraq müxtəlif metodların və tətbiqlərin üstünlüklərini, mənfi cəhətlərini analiz edir və nəticələndirir, təhlükəsizlik test vasitələrinin təsnifatını təqdim edir.

Abstract - Software security testing is an important way to ensure software security and faith. In this paper, firstly discusses the definition and classification of software security testing, and investigates methods and tools of software security testing broadly. Then it analyzes and concludes the advantages and disadvantages of different method and the scope of application, presents a classification of security testing tools.

Açar sözlər - Təhlükəsizlik testi, təhlükəsizlik amilləri, təhlükəsizlik testi profili və s.

1. Giriş

Təhlükəsizlik testinin məqsədi sistemin təyin edilmiş təhlükəsizlik hədəflərinə və ya təhlükəsizlik tələblərinə cavab verib-vermədiyini müəyyən etməkdir. Təhlükəsizlik testi profili proqram dövrünün başlanğıc səviyyəsindən, məsələn tələblərin təsviri və təhlili, dizayn , tətbiq və yoxlama ilə başlayaraq müxtəlif mərhələlərdə həyata keçirilir. Bu işdə testerin perspektivindən proqram təminatının inkişafında təhlükəsizlik testinə diqqət yetirməliyik və məqsədimiz təhlükəsiz və möhkəm proqram üçün başlanğıc nöqtəsi olaraq təhlükəsizlik testinin təqdim edilməsini təmin etməkdir [1]. Bu təhlükəsizlik testi profili ilə bağlı əsas terminologiya və konsepsiyaları təqdim edir. Təklifdə təhlükəsizlik testi tələblərini harada və necə toplandığını və üç müxtəlif təhlükəsizlik testini müzakirə edəcəyik: funksional test, performans testi və düzgünlük (güclülük) testi. Təhlükəsizlik testi sistemin təhlükəsizlik zəifliklərini aşkar etmək, onun məlumatlarını və resurslarını mümkün hücumçulardan qorunduğunu müəyyənləşdirməyi hədəfləyən bir proqram testidir [2].

Təhlükəsizlik testində nəzərə alınması lazım olan dörd əsas diqqət sahəsi var.

A. Şəbəkə Təhlükəsizliyi

Bu, şəbəkə infrastrukturunda təhlükəsizlik zəifliklərini axtarmağı ehtiva edir.

B. Sistem Proqram Təminatı Təhlükəsizliyi

Bu tətbiqin bağlı olduğu müxtəlif proqramlarda (əməliyyat sistemi, verilənlər bazası sistemi və digər proqramlar) təhlükəsizlik zəifliklərinin dəyərləndirilməsini əhatə edir.

C. İstifadəçi yönümlü proqram təhlükəsizliyi

Bu müştərinin (brauzer və ya hər hansı bir alətin) manipulyasiya edilə bilməməsini təmin etməyə yönəlikdir.

D. Server yönümlü proqram təhlükəsizliyi

Bu, server kodunun və onun texnologiyalarının istənilən müdaxilədən qorunmaq üçün kifayət qədər möhkəm olduğundan əmin olmağı gərəktirir.

Təhlükəsizlik testlərinin bir çox növləri mürəkkəb addımlar və fərqli düşünməyi tələb edir, lakin bəzən yuxarıdakı kimi ən ciddi təhlükəsizlik risklərini tapmaqa kömək edən sadə testlərdir. Proqram təminatı təhlükəsizliyi proqramın zərərli bir hücumun qarşısında dayanıqlı davranmasıdır.

Təhlükəsizlik testi ilə əhatə olunması lazım olan altı əsas təhlükəsizlik anlayışı[3] [4]:

- Məxfilik - Məlumatın alıcıdan başqa tərəflərə açıqlanmamasına qarşı qoruma təmin edən bir təhlükəsizlik tədbiridir. Təhlükəsizliyin təmin edilməsinin yeganə yolu deyildir.
- Bütövlük - İnformasiyanın bütünlüyü, məlumatın icazəsiz tərəflər tərəfindən dəyişdirilməsin-dən qorunmasını ifadə edir

- Kimlik Doğrulama - Bu bir şəxsin kimliyini təsdiqləyərək, bir məhsulun mənşəyini izləyərək, məhsulun qablaşdırma və etiketləmə iddialarının nə olduğunu və ya bir kompüter proqramının etibarlı olduğunu təmin edə bilər.
- İstifadəyə hazırlıq - İnformasiya və kommunikasiya xidmətlərini lazım olduğunda istifadə üçün hazır olmalı və məlumat ehtiyac olduğunda səlahiyyətli şəxslərə təqdim edilmək üçün hazır saxlanılmalıdır.
- Səlahiyyət vermə - Bir şəxsin xidmət almaq və ya əməliyyatı həyata keçirməsinə icazə veriləcəyini müəyyənləşdirmə prosesi. Giriş Kontrolu (Access Control) - icazənin nümunəsidir.
- İnkar edilməzlik - Rəqəmsal təhlükəsizliklə əlaqəli, inkar edilməzlik mesajını göndərib və qəbul etdiyini iddia edən tərəflər tərəfindən göndərildiyini və qəbul edildiyini təmin etmək mənasına gəlir. İnkar edilməzlik mesaj göndərənin daha sonra mesajı göndərdiyini və alıcının mesajı qəbul etməyini inkar edə bilməyəcəyini zəmanət altına almağın bir yoludur.

2. Proqram Təhlükəsizlik Testi Profili

Təhlükəsizlik tələblərinin, risk təhlilinin, dizaynın, tətbiqin və testin inkişaf dövrü mərhələlərinə inteqrasiya edilməsi və ya başqa sözlə bütün optimal təhlükəsizlik testlərinin müəyyənləşdirilməsi və sənədləşdirilməsinə dair strukturlaşdırılmış prosesə təhlükəsizlik testi profili deyilir.

Təhlükəsizlik testinin profillənməsi və minimum boşluqlar və dizayn çatışmazlığı olan proqramları hazırlamaq üçün istifadə edilməsi, ən çox istifadə edilən əməliyyatların ən çox sınaqdan keçirilməsini təmin etmək üçün sınaqdan keçirilmiş proqramın əməliyyat profilinə əsaslanır [5]. Bu formada davamlı və təkrarlanan bir testlə gizli təhlükəszlik pozulması halları, müəyyən bir mühitə qarşı təhlükəsizlik zəiflikləri və pis məqsədli xətaların təhdidi müəyyən edilə bilər və azaldıla bilər.

3. Təhlükəsizlik Risk Analizi

Bu bölmədə ilk olaraq təhlükəsizlik hədəflərinin necə əldə ediləcəyini və sonra təhlükəsizlik hədəflərini ortaya qoyaraq təhlükəsizlik baxımından uyğun bir nəticə çıxarmaq üçün təhlükəsizliyin test profilini tətbiq edərək təhlükəsizlik tələblərini necə əldə edə biləcəyimizi müzakirə edəcəyik.

A. Zərərin müəyyən edilməsi

Personal məlumatlarına ən azı aşağıdakı mümkün zərərləri vardır:

- HI1: icazəsiz açıqlama.
- HI2: icazəsiz dəyişiklik
- HI3: istifadə edə bilməmə

B. Təhlükəsizlik hədəfləri

Müvafiq zərəri müəyyənləşdirdikdən sonra, bu tətbiq üçün təhlükəsizlik hədəflərini təyin etmə, müvafiq zərərlərin qarşısının alma addımını atmalıyıq [6]:

4. Təhlükəsizlik Hədəflərindən Təhlükəsizlik Testi Profilinə

Təşkilatın təhlükəsizlik hədəflərini müəyyən bir məhsul üçün əldə etdik və dəyərləndirdik. Bu hədəflərin, təhlükəsizlik testi kimi ifadə edilə bilməsi üçün sistemin mümkün davranışları yəni funksional tələbləri, təhlükəsizlik test profilini asanlıqla yaratdığımız funksional tələblər üzərindəki məhduiyyətlərlə əlaqəli olmalıdır [7].

Təşkilatın təhlükəsizliyə dair hədəfləri onları idarə etməyi çətinləşdirən bəzi xüsusiyyətlərə malikdir [8]:

6. Psychrometric chart, https://en.wikipedia.org/wiki/Psychrometrics#Psychrometric_charts, Retrieved 11.12.2018.
7. Coşkun, Turgay & Turhan, Cihan & Arsan, Zeynep & Gökçen Akkurt, Gülden. (2017). The Importance of Internal Heat Gains for Building Cooling Design. Journal of Thermal Engineering. 3. 1058-1062. 10.18186/thermal.290260.
8. Givoni, Baruch, Passive and Low Energy Cooling of Buildings, Van Nostrand Reinhold, New York, 1994.
9. Jan F. Kreider. Handbook of Heating, Ventilation, and Air Conditioning. CRC Press, Dec 26, 2000

ƏNƏNƏVİ İSLAM ŞƏHƏRSALMASININ AKTUAL KULTUROLOJİ MAHİYYƏTİ

ORUCOV SABIR HIDAYƏT OĞLU

Bakı Mühəndislik Universiteti Memarlıq və inşaat kafedrasının müdiri

XÜLASƏ

Min illərlə formalaşmış şəhərlər müxtəlif etnik mənsubiyyətli toplumların ictimai münasibətlərinin təzahürü saya biləcəyimiz şəhərlərin formalaşması özünəməxsus qanunauyğunluqlarla zənginləşmişdir. Əslində şəhərin plan-məkan strukturu müxtəlif həyati proseslərin, mənəvi-psixoloji münasibətlərin tənzimləyicisi rolunu oynayan mürəkkəb canlı orqanizmdir. Bu baxımdan, müsəlman şəhərsalma ənənələrimizin mövcud müasir memarlıq və şəhərsalmanın müsbət istiqamətdə inkişaf etməsində müstəsna rolu ola bilər. Bu nöqteyi-nəzərdən ənənəvi islam şəhərsalma nümunələrinin plan-məkan quruluşundakı yığcamlıq, bütövlük, hissə və bütövlük, məkan və sosial məzmun arasındakı yüksək səmərəli bağlılıq müasir memarlıq şəhərsalma elmində təqdirə layiq sayılmalıdır. Ənənəvi islam şəhərinin canlı orqanizmlərə xas olan "özünümüdafiyə" "özünüinkişafetdirmə" və "özünüidarəetmə" kimi xüsusiyyətləri müasir memarlıq şəhərsalma elminin keyfiyyətcə yeni müstəviyə daşıya bilər.

SUMMARY

Historical cities take a special place in the cultural and physical heritage. Cities are materialized and perpetuated mirrors, reflecting human relations, social and political processes that emerge as a result of a centuries-long lifestyle of entire society.

This is not a coincidence that the humanitybrought to the modern scientific judgement the three traditional maxims of city planning- Far Eastern, eastern Islamic and European.

Considering modern tendencies of the architecture all over he world towards the implementation of bionic methods, the study of traditional Islamic towns that resemble a living organism becomes very important. In the formation of plan-place structure of traditional Islamic towns besides the influence of the world-views of medieval thinkers, the role of the social, psychological and life processes was of the big importance. This is shown by the historical manuscripts were saved until nowadays and the Haigilik methods of Islamic city planning.

The definition of "mehelle", which stands for the "region", has its conclusive role in the plan-place structural content of traditional Islamic town.

The traditional Islamic towns are showing complex human interaction and are their materialized mobile structure. As we see the uniqueness of traditional Islamic towns can be explained by the unity of plan-space and social-functional structures-the main components.

Today our main goal is to turn the traditional Muslim town into an object of a detailed securitization.

Açar sözlər: Şəhərsalma, ənənəvi müsəlman şəhəri, forma, məzmun, məhəllə

Min illərlə formalaşmış şəhərlər özlərinin dünyəvi və bəşəri dəyərlərinə görə kosmoloji mahiyyət kəsb edirlər. İnsanlar etnik, kulturoloji, ümumiyyətlə ictimai mənsubiyyətlərinə görə müxtəlif coğrafi şəraitlərdə toplumlaşaraq şəhərlərin formalaşmasına şərait yaratmışlar.

Sosial təbəqələrin müxtəlif etnik və s. mənsubiyyətli toplumların idarə edənlərlə idarə olunanların ictimai münasibətlərinin mühit təşkilinin təzahürü saya biləcəyimiz şəhərlərin formalaşması özünəməxsus qanunauyğunluqlarla zənginləşmişdir. Bununla belə, forma və məzmun bağlılığına görə bəşər tarixində üç əsas klassik şəhərsalma modeli formalaşmışdır. Bunlardan biri Böyük Çinin bütpərəstlik mədəniyyətinin yaratmış olduğu Uzaq Şərq, ikincisi xristianlığın formalaşdırdığı Qərb və sonuncu isə İslam mədəniyyətinin güzgüsü sayıla biləcək ənənəvi müsəlman şəhərsalma nümunələridir. Bəşəriyyətin keçmiş olduğu ictimai formasiyalara uyğun olaraq ilk məskunlaşmalar zamanı insanlar təbiətlə tam vəhdətdə, qorunmaq nöqteyi-nəzərdən açıq, qapalı, örtülü strukturlu sığınacaqlarda yaşamağa çalışmışlar. Onlar həm həyati təminat, həm də qorunmaq baxımından münasib plan-məkan və həcmi fəza strukturları yaratmağa çalışmışlar. Beləliklə də, qəbilə-ictimai birliyinin mühit təşkilini təmin edən alaçıqlı, qapalı, örtüklü və mağara tipli şəhərciklərin formalaşması dövrləri başlanmışdır. Tədricən ictimai şüurun artması, yaxın toplumların birləşməsi, ictimai münasibətlərin dərinləşməsi və qarşılıqlı asılılığın artması, idarəetmənin məişət yaşam müstəvisindən ortaq maddi və mənəvi dəyərlər müstəvisinə keçməsi ilə əlaqədar insanlar "toplum-yuvasalma" halından birləşdirici məzmun daşıyan mərkəzi strukturlu şəhərlər qurmağa başladılar.

Müxtəlif coğrafi şəraitlərdə min illərlə inkişaf edən şəhərlərdə fərqli mədəniyyətlər arasında ziddiyətlərin artması, qarşılıqlı münasibətlərdə istismarın güclənməsi, dövlətlərin yaranması, ən nəhayət, təbəqələşən, dərinləşən sosial-ictimai münasibətləri tənzimləyə biləcək şəhərçilik prinsiplərinin planlı şəhərlərin formalaşmasına gətirib çıxardı. Qeyd etmək lazımdır ki, sözü gedən "Uzaq Şərq" və "Xristian Qərb" şəhərsalmasının mənşəyində istismarın kulminasiya nöqtəsi sayıla bidəcək Quldarlıq ictimai formasiyası durduğundan bu tip şəhərlər özlərinin avtoritar düşüncəyə, total idarəetməyə şərait yarada biləcək zahiri nizamlılığı, kontrast ölçülü-biçimli həcmi fəza xüsusiyyətləri ilə fərqlənmişlər. Ənənəvi İslam şəhərləri isə bunun əksi olaraq bir tərəfdən feodal üsulu idarəsinin, ictimai münasibətlərinin, digər tərəfdən isə islam mənəvi-psixoloji münasibətlərinin əsas prinsiplərinin üzərində qurulmaqla özünün təbiətə bağlılığı monolit strukturda daha insani həcmi-fəza mühit sisteminə malik olması ilə fərqlənmişdir. Təbii ki, sözü gedən mühitin yüksək harmonik sosial-ictimai münasibətləri təmin edəcək hala gəlməsində yüzillərlə İbn-Sina, ibn Həldun, Əl Fərrabi və s. bu kimi orta əsr alimlərinin cilalamış olduqları elmi-nəzəri tədqiqatların böyük rolu olmuşdur.

Təəssüflə qeyd etmək lazımdır ki, müasir memarlıq elmində memarlıq və şəhərsalma mühitinin sosial-psixoloji tənzimləyici rolu diqqətdən kənar qalmışdır. Təbiətin bütün canlı orqanizmlərində olduğu kimi istənilən memarlıq şəhərsalma strukturunda da forma və məzmun arasındakı üzvi əlaqələrin sistemli şəkildə tənzimlənməsinə şərait yaradılmalıdır. Yeri gəlmişkən müxtəlif təyinatlı memarlıq tipləri çərçivəsində bu məsələ bu və ya digər səviyyədə öz həllini tapmışdır. Çünki, istənilən memarlıq tipi bir-biri ilə sistemli şəkildə bağlanmış, funksional, sosial- psixoloji tələbata uyğun pərdələnmiş həcmi və plan-məkan mühitlərindən ibarətdir. Prinsip etibarilə ənənəvi islam şəhəri monolit struktura malik olduğundan bu keyfiyyətləri bütövlüklə şəhər səviyyəsində saxlaya bilmişdir. Burada həm strukturu təşkil edən elementlər, həm də ordan bir-birinə bağlayan "koridorlar" birmənalı sosial-funksional məzmunun formalaşmasına xidmət edir. Ənənəvi islam şəhərinin vizual məzmunun-da asanlıqla görünməyən sosial, etnik və s. təbəqələşmə şəhərin ümumi həcm-fəza strukturu vasitəsilə canlı orqanizmlərə xas pərdələnmiş şəkildə birləşdirilmişdir. Bunu müsəlman şəhər orqanizminin hüceyrəsi sayıla biləcək ənənəvi yaşayış evinin mühit həllində aydın görmək olar. Burada görmək olar ki, qadınlarla kişilərin ehtiyac olunan pərdələnməsi girişdə asılmış incə və qalın səsli dəmir-döymə "zənglərdən" başlamış xüsusi mühit həllinə malik giriş dəhlizinə ayrı-ayrılıqda bağlanmış (qadınlar və kişilər üçün nəzərdə tutulmuş) daxili həyətlərə qədər mühit təşkili öz həllini tapmışdır.

Göründüyü kimi şəhərin plan-məkan, həcmi-fəza strukturu müxtəlif funksional təyinatlı həyati proseslərin, mənəvi-psixoloji münasibətlərin tənzimləyicisi rolunu oynayan mürəkkəb canlı orqanizmdir. Bu baxımdan, heç şübhəsiz bəşəri əhəmiyyət kəsb edən müsəlman şəhərsalma ənənələrimizin mövcud problemlərimizin həllində və müasir memarlıq və şəhərsalmanın müsbət istiqamətdə inkişaf etməsində müstəsna rolu ola bilər. Unutmaq olmaz ki, böyük şəhərlər bir qayda olaraq əksər ictimai, iqtisadi, mədəni, ekoloji ziddiyyətlərin əsas mənbəyidir. Həmişə olduğu kimi bu gün də şəhərlər insan münasibətlərinin, ictimai-siyasi, kulturoloji proseslərin maddiləşmiş təzahürü, güzgüsü olaraq qalır və tək bir şəxsin şüurunun bəhrəsi kimi deyil, bütöv bir cəmiyyətin yüzillərlə qurduğu və quracağı dünyəvi, kosmik varlıqdır. Bununla belə təəssüfləndirici haldır ki, ənənəvi islam şəhərsalma prinsiplərindən fərqli olaraq qloballaşan dünyamızda şəhərlərin inkişafında insan və cəmiyyətin mənəvi-psixoloji dəyərləri nəzərə alınmadıqca bir tərəfdən inşani münasibətlər zəifləyir, xırdalanır, digər tərəfdən isə ifrat dərəcədə çox və qarışıq informasiya şəraitində problemlərimiz də qloballaşır. Unutmaq lazım deyildir ki, şəhərlərimiz nə qədər böyüsə də şəhər strukturunun müxtəlif məhəlli səviyyələrində insani, milli və bəşəri-mənəvi dəyərlərimizi qorumaqla bütövlükdə şəhərlərimi-zin mənəvi ruhunu saflaşdırmaq olar. Bu nöqteyi-nəzərdən ənənəvi islam şəhərsalma nümunələrinin plan-məkan quruluşundakı yığcamlıq, bütövlük, hissə və bütövlük, məkan və sosial məzmun arasındakı yüksək səmərəli bağlılıq müasir memarlıq şəhərsalma elmində təqdirə layiq sayılmalıdır.

Avropa tipli müasir şəhərlərimizdən fərqli olaraq ənənəvi müsəlman şəhər strukturları qabaqca-dan müəyyən olunmuş sərt biçimli plan əsasında deyil, təbiətin və həyatın fundamental qanunları çərçivəsində formalaşmış, tənzimlənmiş və zaman-zaman inkişaf etmişdir. Forma və məzmun baxımından bu tip şəhərin əsasım təşkil edən "məhəllə"lərin həlledici, həyati tənzimləyici rolu vardır. Əksər hallarda məhəllərin adlan şəhərin ayrı-ayrı hissələrinin sosial, təbii-landşaft və plan- məkan mühitlərinin göstəricisi kimi zahirən qapalı həyati proseslərin kodlaşdırılmış ifadəsi yükünü daşıyır. Ənənəvi müsəlman şəhərsalmasının bu tip xüsusiyyətləri onun "Xəlqilik" prinsipləri əsasında

qurulduğunu göstərir. Təbii ki, müasir şəhərlərin hazırkı sürətli inkişafı, artan şəkildə mexanikləşən infrastrukturu, yüksək templə universallaşan memarlıq və tikinti texnologiyaları ənənəvi şəhər strukturlarının_olduğu kimi tətbiqi imkanlarının mümkünsüzlüyünü göstərir. Bununla belə hansı itirilmiş ənənəvi memarlıq şəhərsalma prinsiplərinin bu gün də öz mənəvi dəyərlərini qərbə nisbətən daha çox qoruyub saxlamış müsəlman ölkələri üçün aktual olaraq qaldığını aydınlaşdırmaq yerinə düşərdi. Bunun üçün şəhər mühitində sosial məzmunla vəhdət təşkil etmiş sistemli şəkildə əlaqədar olmuş, lakin həyət tipli qapalı mühitin qərb və müsəlman şərq nıədəniyyətiərindəki şəhərsalma təkamülünə nəzər salmaq kifayət edər. Bu inkişaf qərbdə tədricən üstünlüyü həcmlərin tərtibatına, şəhər strukturunda böyük əhəmiyyət kəsb edən həcmlər arası mühitin isə o qədər də nəzərə alınmaması ilə müşayət olunduğu halda, şərqdə bunun tam əksini görmək olur.

Ənənəvi müsəlman şəhərinin monolit strukturunda sözün əsl mənasında memarlıq və şəhərsalmanın bütün forma və məzmun yükünü qapalı həyətlər götürürlər. Bu günkü anlamda qəbul olunmuş fasadları əsasən qapalı həyətin perimetri boyu görmək mümkündür. Ənənəvi dalanları və monolit struktura bölən koridor tipli küçələri də nəzərə alsaq bu cür mühit sistemi nəinki şəhərin sosial məzmununa harmonik səviyyədə uyğunluğu, hətta yüksək dərəcədə müsbət mikroiqlim xüsusiyyətləri ilə də fərqlənirlər. Burada təbiətin və cəmiyyətin fundamental qanından nəzərə alınmaqla yanaşı insanın_təbiətində olan intuitiv keyfiyyətlər şəhər strukturunun bütün səviyyələrində sözün əsl mənasında "insanlığın yuvası" qurulmasına şərait yaratmışdır. Elmi və dünyəvi aspektdən təbii ki, belə bir yüksək harmonik nəticə orta əsr islam elmi və mədəniyyətinin intibah dövrünün xüsusiyyətlərinə bağlıdır. Sözü gedən dövrlərdə formalaşan monolit strukturlu islam şəhərinin elmi də özünün "monolit"liyi ilə fərqlənirdi. "Nümunəvi şəhər modeli" kimi bir əsər yaratmış Aristotelin "Musiqinin qanunları" kitabına şərh yazmış dövrünün böyük riyaziyyatçısı, şairi Əl Fərrabi şəhəri "orqanizm" adlandırması heç də təsadüfi deyildir.

Müasir dövrümüzdə şəhərsalmanın fundamental problemləri, İslamın İntibah dövründən fərqli olaraq kəmiyyətin keyfiyyətə keçməsi baxımından konseptual ümumiləşdirmələrin daim gecikməsi, kəmiyyətin keyfiyyət üzərindəki "üstünlüyü" ilə izah oluna bilər. Bunun əksi olaraq mürəkkəb avtomatik texnoloji sistemlərin inkişafında isə kəmiyyətin keyfiyyətə keçməsi metodları daha çox inkişaf etdiyindən cəmiyyətin mədəni-mənəvi münasibətləri sistemində paradoksal_ziddiyətlər çoxalır. Burada elmə məlum olan sağlamlıq və insan psixikası nöqteyi-nəzərdən ifrat kompüter və insan münasibətlərinin cəmiyyətin inkişafındakı neqativ nəticələrini qeyd etmək kifayətdir. Əslində burada fundamental problem təbiətin ən unikal, ən birləşdirici "sahibi" olan insanın_daim təbiətdən "uzaqlaşdırılması, "anası" təbiətin "düşməninə" çevrilməsidir. Millətlərin, dinlərin, mədəniyyətlərin neqativ qarşılaşmalarının da kökündə əslində bu fundamental problem durur. Təbiətin hökmü ilə yaranmış hər bir varlığın yaşamaq haqqı vardır. Bu baxımdan XIX, XX əsrlərdə Qərb və Şərq mədəniyyətlərinin bir-birinə qarşı durmuş olduqları zamanlarda ənənəvi islam şəhərlərinin "qayçılanmalarına" dağılmasına ehtiyac yox idi. Əksinə, özünün təbiətə oxşarlığı, bağlılığı ilə fərqlənən, bəşəri əhəmiyyət kəsb edən, unikal ənənəvi islam səhərinin sonrakı dövrlərdə də öz təkamülünü davam etdirməklə müasir şəhərsalma elminin təcrübəsinin inkişafına öz töhfəsini vermiş olardı.

Ənənəvi islam şəhərinin bütün canlı orqanizmlərə xas olan "özünümüdafiyə" "özünüinkişafetdirmə" və "özünüidarəetmə" kimi xüsusiyyətləri müasir şəhərsalmaya bütövlükdə tətbiq edilə bilməsə də yeni məzmunlu əlaqələndirici plan-məkan strukturları yaratmaqla iri məhəlli səviyyələrdə reallaşdırmaq olardı. Yeri gəlmişkən, şaquli inkişafa meylli futuroloji istiqamət götürən müasir şəhərsalmaya orqanizm tipli ənənəvi strukturların tətbiqi daha əhəmiyyətli olardı. Burada sadəcə olaraq yaradılacaq plan-məkan, həcmi-fəza strukturların mümkün səviyyəyə qədər sosial- funksional məzmunu insanın mənəvi-psixoloji dəyərlərə uyğunlaşdırılıması əsas prinsip olaraq qəbul olunmalıdır. Bu fikrin müxtəlif səviyyələrdə tətbiqini anlamaq üçün Qərb və Şərq arasındakı fərqli yanaşmanın sxematik modellərinə (şəkil...) baxmaq lazımdır. Burada iki fərqli - bir tərəfdən açıq mühitdə nizamlı şəkildə düzülmüş doqquz qapalı həcmlərdən, digər tərəfdən isə monolit kütlədə yerləşdirilmiş doqquz həyət tipli boşluqlardan ibarət olan strukturun sosial məzmunla əlaqələndirilmiş mühit təşkili həllinə diqqət vermək lazımdır. Birinci halda strukturun hər bir vahidi üçün ətraf mühit mücərrəd əlaqələrin birmənalı tənzimlənməsi mümkünsüz olduğu, ikincisində isə fərqli sosial məzmunların fərqli mühit təşkili imkanları aydınca görünür. Buradan məlum olur ki, şəhərin müxtəlif səviyyəli iç-məhəlli strukturlarında ətraf mühit adlandırdığımız bölümün əlaqələndirici sosial-psixoloji mahiyyəti müasir şəhərsalmada öz konseptual həllini hələ də tapmamışdır. Qərb şəhərsalma mədəniyyətinin müasir şəhərsalmada mükəmməl inkişafını, mədəni və mənəvi həyatımızda böyük rolunu

gördüyümüz rekreasiya xarakterli parkların və ənənəvi monolit islam şəhərsalma strukturunda qapalı daxili həyətləri bəzəyən yaşıllıqların əhəmiyyətini diqqətdən qaçırmamaqla, əlaqələndirici ətraf mühitin memarlıq şəhərsalma elmində ciddi tədqiqat obyektinə çevrilməsi lazımdır. Bu nöqteyi- nəzərdən ənənəvi islam şəhərsalmasının ayrı-ayrı struktur səviyyələrinin ideal modellər çərçivəsində interpretasiya variantları müasir islam şəhərsalma modelinin hazırlanması istiqamətində ciddi elmi istiqamət kimi qəbul oluna bilər. Bu cür model təbii ki, müasir şəhər həyatının aktiv komponentlərindən sayılan maşın və mexanizmlərin, texnoloji proseslərin nəzərə alınması ilə həyata keçirilə bilər. Burada müasir memarlıq elminin diqqətindən kənar qalmış ənənəvi dalanvari kommunikasiya strukturlarının prinsipial xüsusiyyətləri daha çox əhəmiyyət kəsb edir. Monolit ənənəvi şəhər strukturuna mücərrəd orqanizmə bənzətsək, bu, barmaqları bir-birinə sıx birləşmiş insan əlini xatırladar. Ənənəvi islam şəhəri modelini inkişaf etdirmək və müasir şəhərin aktual insan-maşın qarşıdurması problemini həll etmək kontekstində sözügedən "əl" modelində barmaqları aralamaqla bir-birinə dalanvari daxil olmuş maşın və insan münasibətlərinin şəhərdaxili sintezini qurmaq mümkündür. Bu cür sistem iri məhəlli səviyyələrdə tətbiq olunması mümkün olduğu kimi, sayca çoxaldılmış belə sistemlər arasında yeni forma və məzmun əlaqələrini qurmaqla məsələnin daha geniş çərçivələrdə həllinə nail olmaq olar (Şəkil 2). Bu baxımdan şəkil 2-də göstərilmiş şəhər modeli müasir şəhərsalmanın mövcud qanunlarını, plan-məkan, həcmi-fəza kompozisiya prinsiplərini tətbiq etməklə ənənəvi islam şəhərinin prototipi kimi qəbul oluna bilər. Burada hər biri dörd yığcam yerləşmiş yaşayış məhəlləsindən ibarət olan dörd iri şəhər bölümləri funksional zənginləşdirilmiş geniş rekreasiya bölümləri ətrafında birləşdirilmişdir. Təbii ki, bu ideal biçimdə təqdim olunan şəhər modeli yerin landşaft və relyef xüsusiyyətlərini nəzərə almaqla müxtəlif kompozisyon biçimlərlə də həll oluna bilər. Qloballaşan dövrümüzün inteqrasiyaya, universal prinsiplərin qəbul olunmasına doğru getdiyi bir zamanda_bu tip şəhərsalma modeli çərçivəsində həm müsəlman Şərqinin və həm də Qərbin bəşəri memarlıq və şəhərsalma dəyərlərini bir araya gətirmək və dünyəvi elmi müstəviyə qaldırmaq mümkündür.

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATIN SIYAHISI:

1. Al-Sayyad N. Cities and Caliphs: On the Genesis of Arab Muslim Urbanism. Greenwood Press, Westport, USA.1991.
2. Bosworth C.E. Historic cities of the Islamic world / C.E. Bosworth. BRILL, 2007. P. 615.
3. Salma Khadra Jayyusi, Renata Holod, Attilio Petruccioli, Andre Raymond. The city in the Islamic world, Vol.1. 2007.
4. Вебер М. Город. Пг., 1923; Вебер М. Образ общества. Избранное. М., 1994,
5. Воронина В.Л. Ислам и архитектура (на примере Средней Азии) // Архитектурное наследство. М., 1984. №32,
6. Ртвеладзе Э.В. Цивилизации, культуры, государство Средней Азии. Ташкент, 2005;
7. Стародуб Т.Х Мусульманский средневековый город (термин и архитектурное выражение). // Город как социокультурное явление исторического процесса. М., 1995. С. 170-171.;
8. Стародуб Т.Х. Эволюция типов средневековой исламской архитектуры. Автореферат на соиск. Степени доктора искуствоведения. М., 2006,
9. S.H. Orucov. Концепция пространство традиционного мусульманского города. "Elm və təhsil" Bakı – 2009.

ƏNƏNƏVİ MEMARLIQ VƏ İNŞAAT SƏNƏTİ ÜSLUBLARININ TƏDQİQİNDƏ GƏNCƏ İMAMZADƏ ABİDƏSİNİN ƏHƏMİYYƏTİ

HƏSƏNOV ELNUR LƏTİF oğlu

Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutu

el-hasanov@mail.ru

XÜLASƏ

Elmi əsərdə ilk dəfə olaraq ölkəmizin qədim elm və mədəniyyət mərkəzi olan Gəncə şəhərinin orta əsr abidəsi – İmamzadə ziyarətgahının ənənəvi milli memarlıq və inşaat sənəti üslublarımızın tədqiqində mənbə kimi əhəmiyyəti öyrənilmişdir.

Açar sözlər: Gəncə, Azərbaycan, ənənəvi sənətkarlıq, memarlıq, İmamzadə abidəsi.

Abstract: In the scientific work for the first time the historical significance of the medieval monument Imamzadeh tomb complex as an important source was studied in research of ancient architectural features of Ganja – one of the old scientific and cultural centers of our country.

Keywords: Ganja, Azerbaijan, traditional craftsmanship, architecture, Imamzadeh monument.

Mühüm tarixi abidə olan Gəncə İmamzadəsi özünün bir çox səciyyəvi, unikal xüsusiyyətləri ilə seçilir. Tarix boyu müqəddəs ziyarətgah kimi müsəlman dünyasında əhəmiyyətli mövqeyə malik olmuş İmamzadə türbəsi həm də Gəncədə yüksək şəhər mədəniyyəti xüsusiyyətlərinin göstəricisi olmuşdur.

Gəncə şəhərinin təqribən yeddi kilometrliyində yerləşən bu müqəddəs kompleks qədim (yaxud köhnə) Gəncənin xarabalıqları yaxınlığındadır. Kərpicdən inşa olunmuş imam türbəsinin ətrafında tədricən tikilmiş məscid, sərdabə, həmçinin digər türbələr, karvansara tikililəri (yaxud karvansaraya bənzəyən evlər), yardımçı bina tikililərindən ibarət bu möhtəşəm dini kompleksin ətrafına daş və kərpicdən hasar çəkilmişdir.

Bundan əlavə, İmamzadə kompleksinin daxilində əsasən XVIII-XIX əsrlər bədii daşyonma sənəti ustaları olan xəttat-həkkakların, eyni zamanda nəqqaşların mühüm sənətkarlıq əsərlərini, epitafiya nümunələrini, həmçinin insanların dini dünyagörüşlərini, təsəvvürlərini əks etdirən məzarüstü abidələri özündə qoruyub saxlamış geniş bir ərazini əhatə edən qəbiristanlıq mövcuddur. Kompleksin ən qiymətli abidəsi, heç şübhəsiz düzbucaqlı plana malik olan İmamzadə türbəsidir. Türbənin üzəri rəngarəng kaşılı, kərpic örtüklü günbəzlə tamamlanır [10, s. 6-8].

Gəncə İmamzadə kompleksinin ən mühüm xüsusiyyətləri, unikal keyfiyyətləri içərisində onun tarixi-epiqrafik abidə kimi əhəmiyyətinin səciyyələndirilməsi çox zəruridir. Ümumiyyətlə, bu müqəddəs ziyarətgahın epiqrafik sənət incisi kimi xarakterizə olunması həm də onun tarixi mənbə olaraq təqdim edilməsinə əsas verir.

Epiqrafika yunanca "epiqraphe" kitabə mənasını ifadə edir. Bu, daş, metal, saxsı, həmçinin digər materiallar üzərində, əsasən qədim və orta əsrlər dövrünə aid yazıların toplanması, nəşri və şərhini ehtiva edən ayrıca elmi sahə anlamında işlənir. Müasir dövrümüzdə də ayrı-ayrı mənbələr, ədəbiyyatlarda ən qədim kitabə nümunələri məhz epiqrafik abidələr adlandırılır [18, s. 45]

Gəncə İmamzadəsinin tarixi-epiqrafik abidə kimi əhəmiyyətini şərtləndirən mühüm cəhətlərinin təsnif edilməsi onun şəhərin qədim dövr tarixinin araşdırılmasındakı mənbə olmaq funksiyası ilə birbaşa bağlıdır Əvvəla, Gəncənin məhz şəhər olaraq xronoloji yaşının müəyyən edilməsində bu dəyərli tarixi abidənin əhəmiyyəti kifayət qədər böyükdür. Xalq arasında həm də "Göy imam" adlandırılan bu müqəddəs ziyarətgahın VIII əsrdə ucaldılması, türbənin inşa edilməsi və əsrlərlə əhali tərəfindən mühafizə olunması artıq Gəncənin yüzilliklərə istinad edən şəhər mədəniyyəti mərkəzi kimi formalaşmasına dəlalət edir [15, s. 6705-6708].

İmamzadənin tarixi, arxeoloji baxımdan ayrı-ayrı xüsusiyyətlərinin araşdırılmasına xidmət etmiş müxtəlif mənbələrdə, elmi əsərlərdə qeyd olunduğu kimi, türbənin günbəzinin daxili səthində tikinti daşının üzərində əks etdirilmiş "Bu şərəfli cənnət bağçası 120 il babasının ona salam olsun – hicrətindən sonra vəfat etmiş İmam Məhəmməd Baqir (Bağır) oğlu-ona salam olsun – Mövlana İbrahimin türbəsidir" yazısı artıq hicri təqvimlə 120-ci il, miladi təqvimlə 739-740-cı il ərəfəsində Gəncənin çox böyük, möhtəşəm tikililəri, abidələri ilə seçilən şəhər olduğunu təsbit edir. Çünki, sahəcə kiçik, əhalisinin sayı çox olmayan bir şəhərdə İmamzadə kimi əhəmiyyətli, memarlıq nöqteyi-nəzərdən çox dəyərli, nəfis bir abidənin ucaldılması qeyri-mümkün olardı [4; 11].

Bundan əlavə, Gəncə İmamzadə türbəsi şəhərin qədim ərazisində, xarabalıqları yaxınlığında yerləşir. Beləliklə, Gəncə şəhərinin ərazi, məkan baxımından tarixi yerdəyişmələrinin daha dəqiq müəyyən edilməsində də İmamzadə kompleksinin mənbəşünaslıq dəyəri danılmazdır. Abidənin müasir dövrümüzdə qədim Gəncə ərazisində yerləşməsi isə onun elmi tədqiqinə münasib şərait yaradır, maddi mənbələrin qorunması, mühafizə olunması, həmçinin müvafiq arxeoloji qazıntı tədbirlərinin, tarixi, etnoqrafik araşdırmaların effektiv surətdə həyata keçirilməsinə münasib imkan vermiş olur. Haqqında bəhs edilən epiqrafik mənbələrdə Gəncə tarixinin olduqca mühüm məqamları ehtiva olunmuşdur. Bu kitabələrdəki tarixi faktlar, öz növbəsində Gəncə İmamzadə kompleksinin şəhərin ümumi inkişafındakı mövqeyini, əhəmiyyətini təsbit etməklə yanaşı, eyni zamanda Gəncədə çoxəsrlik, təmənnasız xeyriyyəçilik ənənələrinin də mövcud olduğunu, müxtəlif tarixi mərhələlərdə həyata keçirildiyini sübuta yetirir. Bununla yanaşı, qeyd olunan epiqrafika nümunələri həm də Gəncədə memarlıq, sənətkarlığın çox qədim dövrlərdən etibarən formalaşdığını, zaman keçdikcə əvvəlki ənənələrə istinad etmək şərtilə yeni-yeni xüsusiyyətlərlə

zənginləşdiyini, beləliklə də şəhər mədəniyyəti ünsürlərinin (elementlərinin) çox əski tarixi dönəmlərə əsaslandığını göstərir. Gəncə İmamzadəsinin epitafiya nümunələrinin, qədim qəbir abidələrinin, məzarüstü xatirə komplekslərinin ən böyük tarixi əhəmiyyətə malik olan xüsusiyyətləri sırasında Gəncənin, bütövlükdə xalqımızın qədim dini görüş və təsəvvürlərinin, axirət dünyası ilə bağlı inam və inanclarının tədqiq olunmasına şərait yaratması qeyd edilə bilər. Gəncə İmamzadəsi, onun ətrafında mövcud olan çoxsaylı, müxtəlif tarixi mərhələləri əks etdirən və bu səbəbdən də bir-birindən kifayət qədər fərqlənən, amma bir çox ümumi cəhətlərə malik olan məzarlar, həmçinin qəbirüstü tikililər (abidələr) xalqımızın, o cümlədən də Gəncə əhalisinin etnoqrafik ənənələrinin, dəfn adət və mərasimləri ilə bağlı təsəvvür və ayinlərinin elmi-nöqteyi nəzərdən təfsilatlı surətdə araşdırılmasında dəyərli mənbə kimi çıxış edir. Bu baxımdan sərdabələr xüsusi əhəmiyyətə malik olan abidələrdir [5; 8].

Gəncə İmamzadə kompleksində şəhərin nüfuzlu, tanınmış nəsillərinin sərdabələri və qəbirləri saxlanılır. Şeyxzamanlılar nəslinin sərdabə kompleksi bu baxımdan xüsusilə fərqlənir. Dahi Şeyx Nizami nəslinin davamçıları hesab edilən bu şəcərənin nümayəndələri ilə yanaşı, Axund Hüseyn Pişnamazzadənin də sərdabəsi, o cümlədən digər bir çox nüfuzlu şəxslərin qəbir abidələri də Gəncə İmamzadəsinin unikallığını nümayiş etdirən mühüm faktlardandır. Eyni zamanda, Gəncə İmamzadə abidəsinin şəhərimizin tarixinin araşdırılmasında malik olduğu ən mühüm mənbəşünaslıq cəhətləri arasında onun yerli memarlıq, bədii sənətkarlıq ənənələrinin olduqca dəyərli elementlərini özündə ehtiva etməsi qeyd olunmalıdır. Belə ki, Gəncə İmamzadə türbəsi və onun ətrafında yaradılmış müxtəlif kompleks-memarlıq tikililəri çox önəmli tarixi, eyni zamanda epiqrafik abidələrdir. Gəncə İmamzadəsinin unikallığını, memarlıq abidəsi kimi təkrarsızlığını şərtləndirən bir neçə mühüm amil mövcuddur:

Əvvəla, nəzərə almaq lazımdır ki, Gəncənin sənətkarlıq, memarlıq ənənələri çox qədim tarixi köklərə malikdir. Bunu xüsusi əminlikə qeyd etmək üçün Gəncə İmamzadə türbəsinin, eyni zamanda kompleksin ərazisində yerləşən tikililərin, həmçinin qəbir və qəbirüstü abidələrin inşası zamanı islam memarlığı, sənətkarlığı ilə yanaşı, qədim ənənələrə istinad edən və bizim soykökümüzlə bağlı türk sənətkarlığı elementlərinin də nəzərə alınmasına diqqəti yönəltmək zəruridir. Bundan əlavə, Gəncə İmamzadə türbəsinin unikallığını şərtləndirən digər bir mühüm xüsusiyyət onun inşası, həmçinin sonradan təmir və bərpa olunması zamanı müsəlman memarlığı ünsürlərinə xüsusi əhəmiyyət verilməsidir. Ümumiyyətlə, Gəncə İmamzadəsi zəngin mənəvi, eyni zamanda mədəni dəyərləri özündə əks etdirən möhtəşəm Şərq müsəlman dünyasının ən mütərəqqi, dəyərli cəhətlərinə sahib olan Azərbaycan xalqının yaratdığı və onun peşəkar sənətkarlarının zəkasının məhsulu olan inci kimi çox əvəzsizdir. Gəncə İmamzadəsi çox böyük bir coğrafi arealda təmsil olunan və ümumi bir dini, mədəni dəyərlərə sahib olan İslam dünyasının çoxəsrlik mədəniyyətinin sənətkarlıq xüsusiyyətlərinin mühafizəçisi kimi əslində tarixi mənbə rolunu oynayır. Bununla yanaşı, İmamzadə Gəncənin yalnız ölkə və yaxud region miqyasında deyil, bütövlükdə müsəlman sivilizasiyası çərçivəsində xüsusi çəkiyə, əhəmiyyətli mövqeyə malik bir mədəniyyət mərkəzi, şəhər olaraq mühüm siyasi, iqtisadi, mədəni dəyərlərin yaşadıcısı (qoruyucusu) kimi seçildiyini nümayiş etdirir.

Çünki, əvvəla Gəncə İmamzadə türbəsinin, onun günbəzinin, eyni zamanda ətrafda əsasən XIII-XIV əsrlərdən etibarən inşa edilmiş, XVII-XVIII əsrlərdə yenidənqurma, abadlaşdırma tədbirləri nəticəsində yeni tikilmiş türbələr, günbəzlər, ətrafdakı tikililərin üzərində məhz yerli sənətkarların yaratdıqları dəyərli sənətkarlıq elementləri bu baxımdan xüsusi əhəmiyyəti ilə fərqlənir. Stalaktit (yaxud müqərnəs) nümunələri, günbəzlərin üzərinin müxtəlif üsullarla işlənməsi, onların xarici səthləri ilə yanaşı, həm də daxili hissələrinin ayrı-ayrı sənətkarlıq elementləri ilə bəzədilməsi qeyd olunan qədim memarlıq, sənətkarlıq ənənələrinin əyani göstəricisidir. Gəncə İmamzadəsinin mühüm tarixi mənbə rolunu oynaya bilən sənətkarlıq sahələri içərisində xüsusi əhəmiyyətə malik olan həkkaklıq, nəqqaşlıq sənətləri də fərqlənir. Qeyd olunan sənət sahələri Gəncə İmamzadəsinin həm türbənin özünün daxili hissəsində, həm də onun ətrafında olan tikililərdə müşahidə olunan elementləri ilə seçilir. Bundan əlavə, İmamzadə kompleksinin ərazisindəki ayrı-ayrı qəbirlərdə, həmçinin məzarüstü abidələrdə də bəhs edilən sənət sahələrinin dəyərli nümunələri qorunub saxlanılmışdır. Səkkizinci əsrdə şahzadə İbrahimin vəfatından sonra ucaldılan İmamzadə türbəsi tədricən şəhər, ölkə və bütövlükdə beynəlxalq səviyyəli ziyarətgaha çevrilməyə başladı. İnsanlar da öz, növbəsində axın-axın gələrək bu əvəzsiz məkanı ziyarət edir və nəticədə zaman keçdikcə Gəncə İmamzadəsi islam dünyasının şöhrətli ziyarətgahlarından birinə çevrilir [4; 11].

Gəncə İmamzadə kompleksinin ziyarətgah kimi tanınması təsadüfi xarakter daşımamışdır. Daha doğrusu, şəhər artıq böyük bir tarixi müddət ərzində "İmam Hüseyn" şəhəri kimi tanınmışdır. Bu baxımdan da istər Gəncənin yerli əhalisi, istərsə də kənardan bu müqəddəs ziyarətgaha baş çəkməyə gələnlər

Məhəmməd Peyğəmbər (ə.s.) nəslinin nümayəndələrinin adı ilə bağlı olan bu şəhərin toxunulmazlığı, müqəddəsliyini özləri üçün dönə-dönə təsdiq etmişlər. Eyni zamanda, bu fakt öz-özlüyündə Gəncənin artıq islam dininin ilkin intişar tapdığı tarixi dövrlərdə, daha dəqiq deyilsə, VII-VIII əsrlərdə özünün möhtəşəmliyi, qədim şəhər mədəniyyəti ünsürlərinə malik olması ilə fərqlənən böyük bir şəhər olduğunu sübuta yetirir. Həmçinin, bəhs olunan faktoloji dəlil Gəncədə əhalinin çox əski tarixi mərhələlərə istinad edən etno-mental dəyərlərə, dini baxışlara sahib olduğunu, məhz bu səbəbdən də onların qeyd edilən milli, dini dəyərlərin mühafizə edilərək nəsildən-nəslə ötürülməsinə, irsən yaşadılmasına şərait yaratdıqlarını göstərir. Bütün qeyd olunan tarixi həqiqətlərə istinad edən məqamlar Gəncə İmamzadə kompleksinin məhz epiqrafik sənət abidəsi kimi səciyyələndirilməsinə xidmət edir. Çünki İmamzadənin epiqrafik xüsusiyyətləri bəzi abidələrdə olduğu kimi fraqmental xarakterli deyildir. Bu əvəzsiz abidənin epiqrafik göstəriciləri kompleks səciyyəlidir. Belə ki, istər türbə, onun ətrafındakı tikililər, istərsə də qəbiristanlıqda olan məzarlarda bu elementlərə təsadüf olunur. Məhz bu səbəbdən də Gəncə İmamzadə kompleksi Azərbaycanın çox dəyərli tarixi-epiqrafik abidəsi, sənət, memarlıq incisi hesab edilir [6, s. 13-14].

Təsadüfi deyildir ki, məhz epiqrafika nümunələrinin mövcud olması sayəsində Gəncə İmamzadəsi yalnız tarixi bir tikili olaraq səciyyələndirilmir. Epiqrafik kitabələrin aşkar edilməsi, çoxsaylı epitafiya nümunələrinin həkk olunduğu məzar abidələrinin olması İmamzadə kompleksinin çox böyük tarixi mənbəşünaslıq əhəmiyyəti ilə seçilən epiqrafika xəzinəsi kimi tanınmasına imkan verir. Burada mövcud olan dəyərli sənətkarlıq, memarlıq nümunələri həm də qədim Gəncənin tarix boyu hər zaman yüksək mədəni, mənəvi dəyərlərin mühafizə edildiyi, müxtəlif sənət sahələrində yüksək dərəcədə inkişafın ardıcıl olaraq davam etməsi sayəsində bu sahələrdə peşəkar ixtisaslaşmasının gücləndiyi bir mərkəz olduğunu təsdiq edir. Eyni zamanda, bəhs olunan əvəzsiz sənət örnəkləri Gəncə İmamzadəsinin əsrlər ərzində yalnız dini tikili, çoxlu sayda mömin insanların gəlib yad etdiyi ziyarətgah kimi tanınmadığını, həm də onun zəngin tarixi keçmişə malik dəyərli tarixi-epiqrafik abidə olduğunu əyani surətdə təsbit edir. Gəncə İmamzadə kompleksinin bütün bu sadalanan maddi və eyni zamanda mənəvi göstəricilərinin ən mühüm, əhəmiyyətli xüsusiyyəti bu müqəddəs məkanın tarixi abidə olaraq səciyyələndirilməsinə şərait yaratmaqla bərabər, həm də onun ölkəmizin, xalqımızın etnoqrafiya tarixinin elmi baxımdan tədqiq edilməsində dəyərli mənbə kimi malik olduğu rolu diqqətə çatdırmasıdır [2, s. 74; 5, s. 133].

Gəncə İmamzadə türbəsi özünün çox yüksək keyfiyyətlilik və eyni zamanda, zahiri gözəllik cəhətləri ilə fərqlənən memarlıq, bədii sənətkarlıq elementlərinə malikdir. Əvvəla, bunu İmamzadə kompleksinin timsalında izləmək mümkündür. İnşa olunma tarixi və yaxud da bərpa, təmir edilməsi ayrı-ayrı mərhələlərə (dövrlərə) aid olsa da, kompleksin bütün abidələri ümumi bir vəhdət təşkil edir. Kompleksin əsas tərkib hissəsi türbə binası və qəbiristanlıqdan ibarətdir. Bununla yanaşı, əsas türbə günbəzi ilə bərabər ətrafda daha yeddi günbəzin, məscidin, karvansara tipli evlərin, abidəyə giriş darvazası üzərindəki günbəzin (sayca doqquzuncu günbəz), ornamentləri və kitabələri olan başdaşılarının, sərdabə-türbə tipli qəbirüstü abidələrin, hovuz və digər yardımçı tikililərin mövcudluğu Gəncə İmamzadəsinin möhtəşəm arxitektur quruluşunu nümayiş etdirir.

İmamzadə türbəsinin xarici görünüş baxımından ən çox nəzəri cəlb edən əlvan mavi, yaşıl rəngli kaşılarla (kaşı lövhələri ilə) bəzədilmiş yaraşıqlı günbəzi (baş günbəz) və onun silindrik gövdəsidir. Üz çəkidə, əsasən mavi rəngə malik olan kaşılar işlədilmişdir. Bunlar da ümumi bir fon təşkil edir. Burada mövcud olan paxlava və başqa fiqurlu bəzəklər tünd bənövşəyi rəngdədir. Eyni zamanda, tək-tək yaşılvari rəngi ilə seçilən kaşılara da rast gəlinir [14, s. 54].

Abidənin ayrı-ayrı hissələri də, öz növbəsində unikal sənətkarlıq, memarlıq quruluşu ilə diqqəti cəlb edir. Ümumiyyətlə, cənub-şərq fasadının birinci mərtəbəsini üç tağ təşkil edir. İki kənar tağ çatma olub, yarım kərpic dərinliyində taxçalardan ibarətdir. İkinci mərtəbəyə gəldikdə isə, o da üç çatma tağlıdır. Xarici görünüşü baxımından eyvana bənzəyir. Bundan əlavə, fasadın cənub tərəfinin aşağı (yaxud alt) mərtəbəsində çatmatağlı qapı vardır. Bu qapı vasitəsilə pillələrlə ikinci mərtəbəyə çıxmaq mümkündür. Qapının üst hissəsində yarımkərpic dərinlikdə çatmatağlı taxça düzəldilmişdir. Fasadın qərb tərəfinin yalnız yuxarı hissəsi görünür [6, s. 12].

İmamzadə türbəsinin ən dəyərli cəhətləri sırasında onun daxilində kitabələrin mövcudluğu faktı xüsusi qeyd olunmalıdır. Türbənin birinci mərtəbəsinin mərkəzi hissəsinin (xanəsinin) şimal-qərb tərəfindən çatma tağın yuxarı hissəsindəki hörgüdə ərəb hərfləri ilə yazılmış kitabə yerləşdirilmişdir. Haqqında bəhs edilən kitabə mühüm bədii sənətkarlıq nümunəsi kimi əhəmiyyətlidir. Bunu şərtləndirən yalnız bu

kitabənin epiqrafik nümunə olması deyildir. Eyni zamanda kitabə, həm də zərif, ustalıqla işlənilməsi nöqteyi-nəzərdən Gəncədə ayrı-ayrı sənətkarlıq sahələrinin, xüsusilə də xəttatlıq, nəqqaşlıq sənətlərinin yüksək səviyyədə inkişaf etdiyini əyani surətdə sübuta yetirir [4; 11-12]. Gəncə İmamzadə abidəsinin çox dəyərli sənətkarlıq, memarlıq nümunələri demək olar ki, onun hər bir guşəsində mövcudluğunu nümayiş etdirir. Bu müqəddəs ziyarətgahın darvazası da bu baxımdan dəyərli sənətkarlıq nümunəsi hesab edilə bilər. Belə ki, Gəncə İmamzadəsinin əsas darvazası xaricdən (daha doğrusu çöl, bayır hissədən) bir növ zəfər tağını xatırladır. Onun mərkəz hissəsində enli və uca tağ, bunun hər iki kənarında isə iki yarusdan ibarət taxçalar olan pilonlar yerləşir. Çatma tağlı taxçalar gözəl formalı stalaktitlərlə bəzənmişdir [10, s. 7-9].

Qeyd etmək lazımdır ki, bu taxçalar plana görə yarım səkkizkünclüdür. Burada çox mühüm məqama diqqət yetirilməsi vacibdir. Belə ki, yuxarı yarusla aşağı yarusun mütənasibliyi çox mühüm sənətkarlıq xüsusiyyətləri ilə fərqlənir. Yuxarı yarus aşağı yarusdan alçaqdır və münasib olaraq 1:1, 618 "qızıl" nisbətindədir. Darvazanın mərkəz hissəsi eksentrik iki çatma tağla əmələ gələn, portal tipində inşa olunmuşdur. İçəri (daxili) tağın yuxarısında, pəncərə hissələrində qılınc tutan, gəcdən düzəldilmiş iki şirin qabarıq şəkildə təsvir edilməsi hələ XX əsrin əvvəllərində İmamzadə haqqında qələmə alınmış elmi əsərlərdə öz əksini tapmışdır [17, s. 373]. Bundan əlavə, Gəncə İmamzadə kompleksinin sənətkarlıq (xüsusilə də bədii sənətkarlıq) və memarlıq baxımından diqqətəlayiq elementləri sırasında stalaktitlərin mövcudluğu əhəmiyyətli hesab edilir. Bir sıra mənbələrdə Gəncə İmamzadə kompleksi ilə yanaşı, Şah Abbas (yaxud Cümə) məscidi kimi bir çox maddi mədəniyyət nümunələrində müqərnəslərin olmasına dair məlumatlar, əslində, stalaktit nümunələrinin mövcudluğunu təsdiq etmiş olur [3, s. 14].

Beləliklə, Gəncənin və bütövlükdə ölkəmizin qədim ənənələrə malik memarlıq, sənətkarlıq sahələrinin tədqiqində İmamzadə ziyarətgahı kimi abidələrin, dəyərli maddi-mədəniyyət nümunələrinin mənbəşünaslıq əhəmiyyəti yüksəkdir.

ƏDƏBİYYAT

12. T.Burton-Brown Excavations in Azerbaijan, 1948. London, 1951. 248 p.
13. N.M.Guliyeva, E.L.Hasanov. About ethnographic-archaeological research of some handicraft branches of Ganja during XIX - XX centuries. Progressive scientific explorations - 2012: Proceedings of the 8th International scientific-practical conference. Prague, 2012, p. 73-75.
14. F.M.Əhmədov Gəncənin tarix yaddaşı. Bakı: Şirvannəşr, 1998, 328 s.
15. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 1, iş 17.
16. Н.М.Кулиева, Э.Л.Гасанов. О развитии художественной керамики в древней Гяндже. Вопросы общественных наук: социология, политология, философия, история. Материалы международной заочной научно-практической конференции. Новосибирск, 2011, с. 132-135.
17. E.L.Hasanov. Basic craftsmanship branches of Ganja of the second half of XIX - beginning of XX centuries as a historic-ethnographical source. 社会科学と人文科学のアジアジャーナル. 大山、日本 (Asian Journal of Social Sciences and Humanities), vol. 3, Number 3, Oyama (Japan), 2014, p. 9-14.
18. Azərbaycan incəsənəti. VIII cild, Bakı: Elm, 1959. 276 s.
19. E.L.Həsənov. Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.
20. A.N.Mustafayev Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 2001. 232 s.
21. E.L.Hasanov Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vědecko vydavatelské centrum «Sociosféra-CZ» (Czech Republic), 2018, 110 p. ISBN 978-80-7526-323-0.
22. M.S.Nemət. Azərbaycanda pirlər. Bakı, 1992, 120 s.
23. M.S.Nemətova Əsrlərin daş yaddaşı. Bakı, 1987, 248 s.
24. Е.М.Пещерова. Гончарное производство Средней Азии. М-Л.: 1959, 350 с.
25. J.W.Quasebarth, E.L.Hasanov. Typical ornamental characteristics of ceramic wares of Ganja for the ancient period. Economy, technology, education and prospects for 2014. Malmö, 2014, p. 53-55.
26. E.L.Hasanov. Innovative basis of research of technologic features of some craftsmanship traditions of Ganja (On the sample of carpets of XIX century). International Journal of Environmental and Science Education, 2016, number 11 (14), p. 6704-6714.
27. Путешественники об Азербайджане. т. I, Баку, 1961, 141 с.
28. E.L.Hasanov Aspetti Culturali della Ricerca delle Tradizioni Artigianali di Ganja dei Secoli XIX-XX. Mediterranean Journal of Social Sciences, Rome (Italy), March 2015, vol. 6, № 2, Supplement 1, p. 372-375.
29. C.Ergenekon. Tempe keçe sanatında geleneksel süsleme üsulları ve günümüzde bu saneye yönelik yeni yaklaşımlar. Azərbaycan xalçası və xalq tətbiqi sənəti mövzusunda III Beynəlxalq simpoziumun materialları. Bakı: Elm, 2005, s. 45-46.

MƏSAFƏDƏN ZONDLAMA SİSTEMLƏRİNDƏ ENERJİNİN TƏSNİFATİ

ƏHƏDİ YUSİF MƏMMƏDAĞA OĞLU

Bakı Mühəndislik Universiteti Memarlıq və inşaat kafedrasının müəllimi

XÜLASƏ

Məsafədən zondlama sistemləri sənayenin və kənd təsərrüfatının bir çox sahələrində tətbiq edilən bir sistemdir. Sistemin əsas iş prinsipi obyektlərlə fiziksəl təmas etmədən əşyalar haqqında məlumat toplamağa deyilir. Bu sistemin yardımı ilə ekoloji problemlərin həlli, dəniz çirklənmələri, ətraf mühitin araşdırılması və bir çox digər sahələrdə yaranan problemlərin həllində istifadə olunur.

SUMMARY

Remote sensing is a system which is applied in a majority of fields of industry and agriculture. The main princical of the systrem is the acquisition of information about an object or phenomenon without making physical contact with the object.Ecological problems, marine pollution, the investigation of environment and the problems which appear in other fields are solved by means of this system

Açar sözlər: Məsafədən zondlama, enerji, passiv sistem, ətraf mühit, hava

Məsafədən zondlama, obyektlərlə fiziksəl təmas etmədən əşyalar haqqında məlumat toplamağa deyilir. Lakin bu mövzu çox genişdir. Ona görə də bu sahənin hər bir metoduna, tətbiq sahəsinə baxaq. İlk olaraq onu qeyd edək ki, bu sahə proqram təminatı və avadanlıqlardan salıdır. Məsafədən zondlamada, avadanlıqlar məlumatları toplayır, proqram təminatları isə toplanan məlumatları sistemləşdirir və analizlərini həyata keçirir. Burada insan faktorunun rolu metodikaların və texnologiyanın hazırlanmasına və planlaşdırılmasına istiqamətləndirilib. Bu metodda obyektlərə zərər verilmir, onlara toxunulmur, sadəcə müəyyən məsafədən fiziki və kimyavi qanunlara əsaslanaraq obyektlər haqqında məlumatlar toplanılır. Məsafədən zondlama əsasən ölçmə metodudur. Bu və ya fərqli metodlarla ölçmələr aparılır. Nəticədə obyektlər barəsində müəyyən məlumatlar əldə olunur. Burada əsas prinsip – elektromaqnitik şüaların və spektrin obyektlər tərəfindən udulması və əks olunmasıdır. Bununla əlaqədar geniş məlumat veriləcəkdir.

Məsafədən zondlama yer üzünün, atmosferin son zamanlar inkişaf etdirilən – yeraltı məlumatların toplanması ilə məşğul olmaqdadır. Məsafədən, heç bir təmas olmadan troposferin vəziyyəti və parametrələri barəsində məlumat toplayaraq hava nəqliyyatının təhlükəsiz hərəkətinə zəmin yaradır. Bu sahənin ən böyük üstünlüyü, böyük sahələr haqqında sürətli məlumat toplama, yanına getmək mümkün olmayan obyektlər haqqında araşdırma aparma, analiz etmə və nəticə çıxartma qabiliyyətinin olmasıdır.

Məsafədən zondlama müəyyən qədər bahalı bir sahədir, xüsusi ilə kosmik məlumatları. Buna baxmayaraq, xərclərin müqayisəli təhlili və alınan nəticələr zondlamanın yüksək iqtisadi effektivliyini sübut edir. Ayrıca, məsafədən zodlama məlumatlarının, xüsusilə meteoroloji peyklərin, yerüstü və havadan radar peyklərinin istifadəsi, təbii fəlakətlərin qarşısını almaq və təhlükəli meteoroloji hadisələri aradan qaldırmaqla minlərlə insan həyatını xilas edilməsində əvəzsiz rola sahibdir. Buna görə də aparıcı dünya dövlətlərində bu sahə durmadan inkişaf etdirilir və yeni metodlar tətbiq edilir.

1. **Məsafədən Zondlamanın əsas tətbiq sahələri.**

- Hava və İqlim (yağış, bulud, külək, radiasiya və s.)
- Ətraf mühit elementləri (aerozollar, qazlar, atmosfer elektrikləri, nəqliyyat, maddələrin atmosferində yenidən bölüşdürülməsi)
- Okeanlar və dənizlər (dəniz dalğaları, cərəyanlar, su miqdarı, buzlaqlar)
- Torpaq sahəsi (bitki örtüyü, geoloji tədqiqat, təbii ehtiyatlar, relyef).
- Məsafədən Zondlama vasitəsi ilə əldə edilən məlumat elm, texnologiya və iqtisadiyyatın bir çox sahələri üçün vacibdir. Bu məlumatın potensial istehlakçılarının sayı daim artmaqdadır.

1.1. Məsafədən Zondlamadan Uçuş təhlükəsizliyini təmin etmək məqsədi ilə aşağıdakı sahələrdə istifadə olunur:

- Meteorologiya, klimatologiya və atmosfer fizikası (hava proqnozlaşdırılması üçün əməliyyat məlumatları, temperatur profilinin müəyyənləşdirilməsi, atmosferdə təzyiq və su buxarının tərkibi, küləyin sürətinin ölçülməsi və s.)
- Peyk naviqasiyası, rabitə, radar müşahidələri və radio naviqasiya,
- Hava limanlarında və hava yollarında hava proqnozları, dolu, göy gurultulu fırtına, turbulentlik, küləyin yerdəyişməsi, mikro partlayış və buzlanma kimi təhlükəli meteoroloji hadisələrin sürətli aşkarlanması.

2. Məsafədən Zondlama Peykləri.

- SPOT-5
- ENVİSAT-1
- İkonos
- Quickbird
- RerraSAR-X
- Lidar Texnologiyaları
- Aster
- Hyperion
- Və.s.

3. Məsafədən Zondlamanın Təsnifatı.



3.1. Platformalar

- Yer Platformaları:
- Çox dəqiq məlumat lazım olduğu zaman istifadə olunur,
- Məlumat alınan sahə olduqca kiçikdir,
- Məlumatın dəqiqliyi yüksəkdir.

3.2. Aero Platformalar:

Uçan aparatlara sensonral quraşdırılaraq icra edilməkdədir,

3.3. Peyk Platformaları:

Kosmik aparatlara quraşdırılan sensorlar vasitəsi ilə icra edilməkdədir.

3.4. İstifadə olunan enerjiyə görə:

Passiv sistemlər – hər hansı bir enerji istehsal etmədən, sadəcə günəş enerjisinin obyektlər tərəfindən əks olunmasına əsaslanan bir sistemdir.

Aktiv sistemlər - sistemin daxilində istehsal olunan enerjini göndərir və geri dönən generjini toplayaraq görüntü əldə edir

4. Məsafədən Zondlama Sistemlərinin əsas Mərhələləri

Bütün təsnifatlardan aşlı olmayaraq məsafədən zondlama sistemləri 7 əsas mərhələdən ibarətdir.

a) Enerji mənbəyi sistemin əsas elementidir. Elektro maqnetik enerji məlumat toplanacaq obyektin üzərinə göndərilir.

b) Mənbədən çıxan enerji yer üzərindəki obyektlərə dəyərək geri dönür və sensorlara gəldikləri zaman daima atmosferlə qarşılıqlı təsirə məruz qalır.

c) Elektromaqnetik enerji yer üzərindəki obyektlərdən geri döndükləri zaman əldə olunan məlumatlar bizə obyektlər haqqında geniş təsəvvür yaradır.

d) Sensorlar yer üzərindəki obyektlər tərəfindən udulan, əks olunan enerjini qeydə alırlar.

e) Yazılan bütün məlumatlar yerdəki mərkəzlrə rəqəmsal olaraq göndərilir və görüntü formatına çevrilir.

f) Əldə olunan görüntülər müəyyən məqsəd doğrultusunda məlumat əldə etmək üçün kompüter və proqram təminatları vasitəsi ilə analız edilir və nəticələndirilir.

g) Son mərhələdə isə aparılan analizlər və əldə olunan nəticələr vasitəsi ilə problemin həlli tapılır.

Bundan başqa, Məsafədən Zodlama sistemlərinin əsas elementləri aşağıdakılardır:

- Enerji qaynağı olan – Günəş,
- Raiyasiya və Atmosfer faktorları,
- Radiyasiya və Yer kürəsi,
- Sensorlar,
- Yer stansiyası,
- Məlumatlar və analiz,
- Proqram təminatı

5. Peyk Platformalı Sistemlərin üstün cəhətləri.

- Məlumatların sürətli əldə olunması,
- Böyük sahələrin daha ucuz olması,x
- Məlumatlar rəqəmli olduğuna görə istənilən vəziyyətə gətirilməsi,
- Dünyanın istənilən yeri barəsində məlumatın əldə olunması,
- İstənilən zamanda yeni məlumatların əldə olunması.

6. Optik Məsafədən Zondlamanın təməlləri

- Elektromaqnetik enerji fəzada bir obyektdən digərinə hərəkət etməsini müəyyən edər. Məsafədən Zondlama sahəsi əsasən bu prinsip üzəridə qəraqlaşıbdır.
- Elektromaqnetik şüa bir mənbədən sıxan dalğalar kimi izah edilə bilər.
- Bütün obyektlər müəyyən formada enerji yayarlar və başqa obyektlərdən gələn enerjinin bir hissəsini udaraq, digər hissəsini əks etdirirlər.
- Məsafədən Zondlama sistemlərinin məntiqi obyektlərin udduğu və əks etdirdiyi enerji miqdarının ölçülməsinə əsaslanır.
- Məsafədən Zondlama -obyektlər haqqında məlumat əldə etmək üçün enerjinin obyektlər arasındakı qarşılıqlı təsirini araşdırmaqdır.
- Elektromaqnetik enerjinin transferi, elektromaqnitik dalğalar tərəfindən icra edilməkdədir.

Elektromaqnetik dalğaların 3 əsas xüsusiyyəti vardır.

- Dalğa uzunluğu (wavelength)
- Şiddəti (amplitude)
- Frekansı (frequency)

Dalğa uzunluğu (λ) ilə frekans (v) arasındakı bağlantı aşağıda qeyd edilmişdir.

$C = \lambda v$

Elektro maqnetik spektrum (EMS) qamma şualarından başlayaraq, radio dalğalarına qədər uzanan geniş bir aralıqda təyin olunur.

Elektro maqnetik spektrumun tam sərhəddi mövcud deyildir. Məsafədən Zondlama sensorları bir və ya daha çox spektrumla işləyə bilirlər.

Spektral sahə	**Dalğa uzunluğu**
Qamma şüaları	<0.03 nm
X şüaları (Rentgen)	0.03 -300 nm
Ultra bənövşəyi şüalar	0.30- 0.38 nm
Gözlə görünən	0.38 -0.72 nm
İnfra qırmızı	0.72 – 1000 nm
Mikro dalğa və radio dalğaları	>1000

- Planckın elektro maqnetik teoriyasına görə yüksək enerji səviyyələri uzun dalğalarla təmin edilirlər. Yer üzərində bir obyekdən əks olunan mikrodalğa enerjisini ölçmək , aşağı enerji səviyyələrinə nisbətən ölçmək daha çətindir. Deməli, infraqırmızı şüaları müəyyən etmək daha asandır.
- Məsafədən Zondlama zamanı yer üzərindəki obyektlərdən əks olunan elektro maqnetik enerjinin ölçülməsinə əsaslanaraq, obyektlərin enerji mənbələri arasındakı qarşılıqlı əlaqəni müəyyən edir.

Günəş yer üçün elektromaqnit enerji mənbəyidir. Yerdəki obyektlərdən əks olunan elektromaqnetik enerjinin miqdarı müvafiq obyektin xarici istilik xüsusiyyətləri ilə qiymətləndirilməkdədir. Günəşin elektromaqnetik enerjisinə əsaslanan bu sistemlərə Məsafədən Zondlama terminologiyasında passiv Məsafədən Zondlama sistemləri deyilir. Passif sistemlərin öz enerjisi olmadığı üçün günəş enerjisinin mövcudluğundan asılıdır.

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATIN SIYAHISI:

1. F.J. Rundquist and J.A. Harrington 1986 “On Defining Remote Sensing” Photogrammetric Engineering and Remote Sensing, Vol. 52, No. 9, pp. 1507-1511.
2. A.P. Cracknell 2007 Introduction to Remote Sensing Second Ed CRC Press, Boca Raton, USA.
3. S.Aranof 2005 Remote Sensing for GIS Managers ESRI Press California USA
4. “Temel Uzaqdan Algılama” Prof.Dr. N. Musaoğlu

ÇOXMƏRTƏBƏLİ KARKAS BİNANIN DİNAMİKİ PARAMETRLƏRİNİN TƏYİNİ

HƏSƏNOV HÜSEYN FAİQ OĞLU. MƏMMƏDLİ TURAL ŞAKİR OĞLU

Azərbaycan Memarlıq və İnşaat Universiteti

huseyn57-1992@mail.ru

Açar sözlər: *Seysmik dayanıqlıq, qurğuların dayanıqlığı, sistemin sərtliyi, sərbəst rəqslər, rəqsi hərəkət.*

Key words: *seismic stability, stability of devices, system hardness, fluent oscillation, oscillation movies.*

AzDTN 2.3-1 “Seysmik rayonlarda tikinti”-yə görə Azərbaycan Respublika-sının ərazisi orta və güclü zəlzələlər ehtimal olunan regiondur. Ona görə də ərazimizdə və ona bitişik bölgələrdə baş verə biləcək seysmik hadisələrin xarakteri və əsas parametrləri haqqında məlumatların əldə olunması, eyni zamanda istismar olunan binaların seysmik dayanıqlığını müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bina və qurğuların dayanıqlığını öyrənmək üçün dinamiki tədqiqatların aparılması vacibdir.

Binaların yükdaşıyıcı sistemin sərtliyinə, kütləsinə, həndəsi ölçülərinə və formasına əsasən sərbəst rəqslərinin periodunun nəzəri hesablaması mühüm bir fərziyəyə əsaslanır.

Hal-hazırda Bakı şəhərində inşa edilmiş çoxmərtəbəli binaların dinamiki parametrlərinin təyin edilməsi mühüm məsələlərdən biridir. Binaların dinamiki parametrlərini eksperimental metodlarla təyin edərək alınan nəticələrin normativ dinamiki parametrlərlə müqayisəsi əsasında onların zəlzələyə davamlığı və vəziyyəti haqqında müəyyən rəyə malik olmaq olar və bu məsələ müasir dövrün aktual problemlərindən biridir [1-9].

Dinamiki sınaqların aparılması və nəticələrin analizi tikinti aparılmış ərazinin seysmikliyinin, bina yerləşən ərazinin qruntunun və müxtəlif mərtəbələrinin zəlzələ rəqslərinin periodunun təyin edilməsinə, alınmış peridlarının qiymətinin konstruktor hesabatındakı qiymətlərlə müqayisə edilməsinə, binaya təsir edən zəlzələ yüklərinin qiymətləndirilməsinə və konstruktor hesabatlarının dəqiqləşdirilməsinə imkan verir.

Bina, Bakı şəhəri, Yasamal rayonu, Yeni-Yasamal-1, bina 6 c ünvanında yerləşir. Binada iki səviyyədə zirzəmilər layihələndirilmişdir. Bu zirzəmilər işçilərin avtomobillərinin dayanacağı kimi istifadə olunacaqdır. Bina planda düzbucaqlı şəklində olmaqla kənar oxları arasındakı ölçüləri 36,6x17,0 m-dir. Bina 1 girişlidir. Binada texniki mərtəbə də layihələndirilmişdir. Yaşayış binası 16 mərtəbəlidir-15 mərtəbəsi yaşayış, 1-ci mərtəbə isə qeyri-yaşayış sahəsi üçün nəzərdə tutulmuşdur. Yaşayış binasının ümumi görünüşü aşağıda verilmişdir (Şəkil 1).

Binanın konstruktiv sxemi-monolit dəmir-beton rabitəli-çərçivə sistemi qəbul edilmişdir. Çərçivənin yük daşıyan elementləri-sərtlik diafraqmaları, rigellər, sütunlar, örtük tavası monolit dəmir-betondandır. Betonun sinfi B25, armaturun sinfi AIII, xamutlar A I qəbul edilmişdir.

Binanın bünövrəsi-monolit dəmir-betondan, qalınlığı 160sm. olan sal tava formasında layihələndirilmişdir. Bünövrə altı hazırlıq qatı-qalınlığı 10 sm. olan B7,5sinfi beton qatı qəbul edilmişdir. Binanın örtükləri, dam və mərtəbə arasında qalınlığı 16 sm. olan monolit dəmir-beton tavalardan ibarətdir. Divarlar-zirzəminin birinci səviyyəsində qalınlığı 200 mm. olan monolit dəmir-betondan, 2-ci səviyyəsində M50 markalı mişarlanmış əhəngdaşından, yerüstü hissədə isə boşluqlu kərpicdən M50 markalı sement-qum məhlulu ilə hörülmüşdür. Pilləkən marş və meydançaları monolit dəmir-betondan "Z"-vari həll edilmişdir. Binanın fəza sərtliyi və dayanıqlığı monolit dəmir-beton karkas və mərtəbəarası örtüklərin birgə işi ilə təmin edilir.

Birinci mərtəbənin hündürlüyü 4,20m., yaşayış mərtəbələrinin hündürlüyü isə 3,30m., təşkil edir. Damdan atmosfer sularının axıdılması üçün daxili borulardan istifadə olunub.

Binanın rəqsi hərəkətənin dinamiki parametrlərinin və bina konstruksiyalarında zədələrin yerinin aşkar edilməsi üçün "Struna-3" tipli səyyar diaqnostik kompleksinin köməkliyi ilə sınaq işləri aparılmışdır.

Binanın dinamiki parametrlərinin eksperimental üsulla təyin edilməsi üçün bina yerləşən ərazinin qruntunun üzərinə yükvurma qurğusunun köməyi ilə binanın X və Y (uzununa və eninə) istiqamətində zərbələr endirməklə həyata keçirilmişdir.

Binanın rəqsi hərəkəti müxtəlif mərtəbələrdə yerləşdirilmiş seysmoqəbuledicilər tərəfindən qəbul edilir və naqillərin köməyi ilə seysmoqəbuledicilərlə əlaqələndirilmiş kompüterdə qeyd edilir. Alınmış seysmoqramlardan istifadə etməklə binanın rəqsi hərəkətinin periodu, tezliyi və binanın konstruksiyalarında uzununa dalğanın yayılma sürəti təyin edilir.

Aparılan sınaqlar nəticəsində binanın X,Y və Z oxları istiqamətində rəqslərin spektrləri alınmış və analiz edilmişdir. Bina yerləşən ərazinin qruntunun üzərinə yükvurma qurğusunun köməyi ilə zərbələr endirməklə və külək təsirindən sınaqlar aparılarkən binanın rəqsi hərəkətinin periodu (T) binanın eninə,Y istiqamətində **T_Y=0,99** san., uzununa X istiqamətində **T_X=0,99** san., Z istiqamətində isə **T_Z=0,98** san., və qruntun üstünlük təşkil edən periodu **0,16-0,18** san. alımışdır. Binanın rəqsinin spektrlərinin analizinə və təhlilinə görə alınmış eksperimental sərbəst rəqslərinin periodunun verilmiş metodikaya görə hesablanmış normativ rəqslərinin periodu ilə müaqayisəsi göstərdi ki bu periodlar bir-birindən X oxu üzrə orta hesabatla 4,0%, Y oxu üzrə isə 4,8% fərqlənirlər.

Şəkil 1. Binanın müxtəlif istiqamətlərdən ümumi görünüşü

Binanın X və Y istiqamətinə vurulan zərbədən yaranan rəqsi hərəkətin qurulmuş spektrləri aşağıda verilmişdir (Şəkil 2).



Şəkil 2. Binanın mərtəbələri boyunca sərbəst rəqslər. X oxu üzrə rəqslər. fayl: asinaq1y3x

Aparılmış sınaqlar nəticəsində aşağıdan yuxarıya binanın mərtəbələri üzrə seysmik dalğanın yayılma sürətinin dəyişməsi azdır. Bu da onu deməyə əsas verir ki, betonun möhkəmliyinin aşağıdan yuxarıya kimi dəyişməsi cüzidir. Başqa sözlə, betonun markası binanın hündürlüyü boyunca demək olar ki, dəyişmir. Alınan eksperimental nəticələrə görə seysmik qüvvələr hesablamaq üçün istifadə edilən $\boldsymbol{\beta}$ əmsalı binanın uzununa istiqamətdə $\boldsymbol{\beta}$=1,030 eninə istiqamətdə isə $\boldsymbol{\beta}$=1,030 təşkil edir.

Çoxlu sayda təsadüfi təbiət hadisələri və sair (zəlzələ, vibrasiya, güclü külək, əlavə yükləmə) nəticəsində binanın dinamiki patrametrləri dəyişir. Ona görə də müəyyən zaman keçdikdən sonra həmin bina üçün dinamiki sınaqların təkrar olunması və alınan dinamiki parametrlərin əvvəlki parametrlərlə müqayisəsi böyük əhəmiyyət kəsb edə bilər. Bu da yaşayış binasının müəyyən müddət istismar edildikdən sonra zəlzələyə davamlığının yenidən qiymətləndirməyə imkan verər.

ƏDƏBİYYAT

1. "MƏNZİL" K/M. Bakı şəhəri, Yasamal rayonu, Yeni-Yasamal-1, bina 6 c ünvanında tikilmiş yaşayış binası yerləşdiyi sahədə yerinə yetirilmiş mühəndisi-geoloji tədqiqat işləri. Hesabat, Bakı, 2005
2. "NES" MMC. "Bakı şəhəri, Yasamal rayonu, Yeni-Yasamal-1, bina 6 c ünvanında tikilmiş yaşayış binası yerləşən tikinti sahəsinin seysmik balının dəqiqləşdirilməsi haqqında" Heasabat. Bakı, 2004.
3. Məmmədov Ş.Ə., İsmayılov X.K. Bina və qurğuların dinamiki parametrlərinin eksperimental təyin edilməsi haqqında. "Gobustone" məsaməli beton blokların istifadəsinin təşkilati-texnoloji problemləri mövzusundakı elmi-praktik konfransın materialları, Bakı, 26 noyabr, 2015-ci il, səh.62-66.
4. Ликвидация последствий Ташкентского землетрясения. Ташкент: Издательство «Узбекистан», 1972-246с.
5. Мамедов Ш.А., Тахмазов Ф.И. Некоторые результаты анализа поведения материалов и каркасных зданий с диафрагмой жесткости при ударных и вибрационных сейсмических воздействиях. Естественные и технические науки,№ 3(41), Москва, 2009, стр.435-441.
6. Мамедов Ш.А., Тахмазов Ф.И. Экспериментальное исследование динамических параметров высотных каркасных зданий при вибрационных сейсмических нагрузках. Материалы международной научно-технической конференции «Современные проблемы механики», Ташкент, 23-24 сентября, 2009, стр.352-355.

XÜLASƏ:

Məqalədə Bakı şəhərində inşa edilmiş çoxmərtəbəli karkas yaşayış binasının eksperimental metodla dinamiki parametrlərinin təyin edilməsi öyrənilir. Bina yerləşən ərazinin qruntunun üzərinə yükvurma qurğusunun köməyi ilə zərbələr endirməklə binanın müxtəlif mərtəbələrində əmələ gələn rəqslərin parametrləri təyin edilir.

SUMMARY:

The article studies defining of the dynamical parametres of the multi-storied carcass building constructed in Baku by experimental method. The parametres of the oscillation formed on the different floors by blowing on to the ground floor of the building with the help of the loading device are determined.

THE ARCHITECTURAL FEATURES OF HILTON HOTELS THAT MAKE THIS HOTEL CHAIN SPECIAL AND INFLUENCE ON ITS SUCCESS

KHURAMAN SEYIDOVA

Baku Engineering University, engineering faculty,

department of architecture and engineering

khuraman.seyidova@gmail.com

Abstract: The article deals with the history of hotels, classification of hotels, the description of Hilton Hotels and Resorts. The issues of architectural features of Hilton Hotels as the reflection of history, local culture, the influence of geographical location, creation of HDS, and description of its design principles and standards are investigated.

Xülasə: Bu meqalədə otellerin yaranma tarixi, onların təsnifatı, Hilton Oteller zəncirinin təsviri kimi məsələlər yer almışdır. Bununla yanaşı Hilton Oteller zəncirinin yerli tarixi, mədəni irsi aks ettirən, cografi mövqenin təsiri altinda formalaşan memari xüsusiyyətləri, HDS-in yaranması, onun layihələndirmə prinsipləri və standartları kimi məsələlər tədqiq edilir.

Key words: hotels, chain hotels, Hilton Hotels, architectural features, modules and design standarts.

A hotel is a commercial establishment that provides lodging, meals and other alternatives of services. Offering hospitality for travelers dates back to the earliest civilizations. The Greeks developed thermal baths for rest and recuperation, the Romans built mansions to provide accommodation for travelers on government business. Later, caravanserais appeared, providing a resting place for caravans along Middle Eastern routes. In medieval times cloisters and abbeys provided travelers with accommodation.

Nowadays, the hotel industry includes all categories of establishments from inexpensive guesthouses to luxurious 5 star hotels and plays a great role in our life. Hotel industry, which tries to meet a changing society's needs and demands, has meanwhile developed into a highly complex branch of the economy. Hotels vary in size, function, and cost. They are classified according to different criteria: the size or number of rooms, the Target Market for which the hotels can be classified as business, airport, suites, residential, resort, casino, convention and conference , micro stay, boutique hotels, Levels of services. The last criteria according to which the hotels are classified is Ownership and Affiliations. There are two types of hotels. Independent and chain hotel. Independent Hotels which do not have any relationship to another hotel regarding policies, procedures, marketing or financial obligations. Chain hotels usually imposes certain minimum standards, rules, policies and procedures to restrict affiliate activities. In general the more centralized the organization the stronger the control over the individual property. Some chain have strong control over the architecture, management and standards of affiliate properties. Others concentrate only on marketing, advertising .

A chain hotel, Hilton Hotels & Resorts formerly known as Hilton Hotels is one of the leading global hospitality company, which is spanning the lodging sector from luxury and full-service hotels and resorts to extended-stay suites and focused-service hotels, and has got its own design methods that make this chain unique, and successful from architectural point of view. The company's portfolio includes fourteen world-class global brands and an award winning customer loyalty program, Hilton Honors. With more than 570 locations in 109 countries across 6 continents, Hilton provides an authentic and contemporary experience for both business and leisure travelers. Locations are in major city centers, near airports, convention centers, and popular vacation destinations around the world. From inaugural balls and Hollywood award galas to business events and days to remember, Hilton is where the world makes history, closes the deal, arranges special occasions .Hilton Hotels support the design and delivery of truly exceptional properties that delight the guests, and reflect the unique cultures of the geographical locations, the hotels are located in. Professionals across 16 locations have the advantages of a global presence as well as the benefits of local resources, skills, and expertise. Hilton team provides the programs and resources to help ensure that properties conform to uniformly high standards and are current with relevant product selections.

These remarkable hotels with their unique character provide authentic experiences reflective of the destinations they are in, and try to follow principles of contextually and culturally sensitive designs informed by the landscape and the urban development of the locality. Accordingly, the design process are mainly based on a comprehensively researched understanding of the cultural, economic and geo-climatic context .Hilton London Bankside – a modern representation of Hilton in London is a shining example, as it takes inspiration from the heart of London. Bankside's destination bar is located on the site of a renowned Victorian essence factory and pays homage to its heritage by serving signature cocktails with homemade aromatics, infusions and bitters. The 'penny wall', made up of 16,800 pennies, reflects the site's former use as a warehouse to store five pound notes for the Bank of England.

Curio Collection by Hilton is a prime example of the uniqueness reflecting of the location which ensures the preservation of art deco features to highlight the 'Golden 20s' era. Mixing old with new, the cosmopolitan concept for the hotel was inspired by the ocean-liners of the German-owned HAPAG, specifically the SS Cap Polonio, built in Hamburg in 1914. Most noticeable in the hotel's Restaurant Stadt, the space features heavy chandeliers and wood paneling.

The decor of Hampton Inn by Hilton Hotel Halifax is influenced by the surrounding Maritime region, with uses of blues and greens throughout the property, and abstract images evoking feelings of the sea. Additionally, Hampton Inn is seen as a lighthouse brand and a beacon of hospitality, a clear and natural fit for the Maritime region given its naval and fishing heritage.

To preserve local cultures and traditions and to reflect the history of the places, the hotels are located in is one of the main architectural features of Hilton Hotels. Through its facilities and decorations the chain incorporates the cultural essence of places highlighting the values and expressing local features. Without losing its identity and with special emphasis on innovation, the use of local design elements, such as artwork which mark an important moment in time, furniture from local workshops or the preservation of historical artifacts allow to make unique design and at the same time enables the local economy to be activated. For this purpose over the past five years, Hilton has significantly expanded its dedicated team of experts focused on the architecture and design of each property. The team works collaboratively across the

entirety of Hilton's portfolio covering a diverse array of locations, brands and projects. By working with local designers and consultants, Hilton's design and architecture team ensures that each hotel not only encapsulates an all-important sense of place and the DNA of its brand, but showcases the very best of each location. Canopy by Hilton Reykjavik City Centre (Iceland); Hilton London Bankside (United Kingdom); Conrad Dublin (Ireland); Hilton Paris Opera (France); and Reichshof Hamburg, Curio Collection by Hilton (Germany) are examples for it. Each of the five hotels is a testament to this approach, from preserving historical features to creating interiors that reflect the local destination. Another experience is the 164-room Conrad Osaka, designed by Tokyo-based Hashimoto Yukio, shuttles guests to the 40th-floor arrival lobby, which is surrounded by wraparound views of the city and 20-foot-tall pieces of art, abstractions of the gods of thunder and wind. Throughout, there are notable Japanese flourishes, like a chandelier fashioned from delicate origami swans nestled together to appear as a solid piece of glass, as well as individually painted washipaper, a 15th-century art that morphs into wall coverings.

Hilton Hotels & Resorts, today created Hilton Design Studio (HDS), a new cutting-edge online tool that transforms the way in which owners, developers and design firms implement the brand's forward-thinking design narrative. HDS represent not only a design solution, but it is developed in a way that allows Hilton to closely monitor user behavior and anticipate emerging trends in each region of the world. HDS enable Hilton to easily and quickly update brand-approved options that respond to the needs of owners and guests. One of the goal is to provide guests an engaging experience by sub-dividing the lobby into eight key zones:

- *Arrival, where a Hilton Host welcomes the guest.*
- *Location Gallery, a transition zone that offers a sense of place with locally inspired artwork, or sculpture.*
- *Welcoming & Check-in, a place for private transaction that is stress-free and quick.*
- *Library, where guests can collect information and engage with the Hilton Concierge.*
- *Gathering, located adjacent to Check-in, a space for guests to gather and relax.*
- *Salon, where guests can enjoy a snack and simply meet.*
- *Refreshment, an 18-hour experience that effortlessly transforms from daytime coffee house to a nighttime bar.*
- *Shop, a place to quickly grab food or beverages to go, or enjoy in the lobby or guest room.*

The Hotel Design Standards have been prepared by HDS to communicate hotel product standards for the design of Hilton Hotels and Resorts. The Brand Standards document outlines the foundation and spirit of the product and service requirements, and from the Brand Overview, governs the application of the Design Standards. Design Standards are organized into Modules to facilitate the integration of design requirements into the design process which provide design**,** criteria, general material requirements that facilitate the development of the final design and documentation.

Site / Building Exterior	Food Production Facilities
Public Spaces	Laundry & Housekeeping
Food & Beverage	Elevators / Escalators
Recreation Facilities	Hotel Support Systems
Function Spaces	Loss Prevention
Engineering & Maintenance Space	Fire Protection
Guest Accommodations	Retail Spaces
Administration & Associate Facilities	Life Safety

HDS has prepared specific Brand signage and graphics standards. A comprehensive, integrated, project specific signage and graphics program is required that complements and reinforces the architectural and functional features of the hotel to identifying devices and graphics for the following:Directional & Information Graphics

Project design teams are required to submit the document and presentation submissions listed in the Technical Services Agreement (TSA). Typically, the submissions include site plans, facility program, building plans and renderings, models, elevator studies, energy / life cycle analysis, interior design plans and renderings and display boards.

Each one of Hilton's luxury projects include richly detailed narrative about 120 pages, "We deliver in person to the owner, designers, and decision-makers," says Traxler. The design approach is no less intense. "We march through the guest journey from the time they walk in the door until they make their way into the room. Each of the different key components of the hotel is broken down, and we describe what it is we're trying to achieve there," he continues. Then, there are the localized briefs, in which designers tackle questions about the neighborhood's past and future before it flows into the concept design stage. Working with the right designers is key, especially while Canopy is forging its path. Select firms from across the globe were chosen for deep brand immersions, culminating in partnerships with Toronto's Studio Munge, London's ACME, and Coral Gables, Florida-based EoA.

As mentioned above, Hilton Hotels and Resorts have locations in many countries including Azerbaijan. Baku, the first hotel in Azerbaijan was built in the center of the city and brought legendary Hilton Hotels & Resorts hospitality to the region for the first time, including the first eforea: spa at Hilton in the European region. The hotel is situated on the coast of the Caspian sea, a short walk along the Caspian Sea Boulevard to historical 12th-century city walls of Icheri Sheher. The hotel provides significant conference and events space with 18 meeting rooms which can accommodate up to 196 guests and a grand ballroom which seats up to 738 guest's theatre style or 460 for a dinner event. Manuel Avila, general manager, Hilton Baku, said, "The architecture of Hilton Baku has provided us with a wonderful opportunity to showcase the glorious sights of the city and surrounding coastline as a key feature and selling point of the hotel. Set against this stunning back drop we have created a truly unique hospitality environment that will be matched by the quality of the facilities and level of customer service on offer."

REFERENCES

1. "Hilton Worldwide Holdings Inc. 2017 Annual Report (Form 10-K)". sec.gov. U.S. Securities and Exchange Commission. February 2018
2. "Hilton At-a-Glance" (PDF). Hiton Worldwide. December 31, 2017
3. "Hilton Brands | Global Hospitality Company" (HTML). Hilton. September 30, 2018.
4. "The Largest Private Companies". Forbes.com. 2010
5. "Hilton Worldwide Holdings Inc. Schedule 14A". Securities and Exchange Commission. 2016
6. Yu, Hui-Yong (October 24, 2016). "Blackstone's Search for Real Estate Buyers Keeps Ending in China". Bloomberg.com.
7. "Hilton Worldwide Holdings Inc. Schedule 14A". Securities and Exchange Commission. 2017
8. What to Expect from Hilton's New Canopy Hotel Brand , Condé Nast Traveler. 2014

AZƏRBAYCANDA SOSIAL MƏNZILLƏRIN INŞASI; DÜNYA TƏCRÜBƏSI KONTEKSTINDƏ

HƏSƏN ƏHMƏD RAFAEL OĞLU SADIQOV

FHN TTNDA - Azərinşaatlayihə İnstitutunun memarı; AMEA Memarlıq və İncəsənət İnstitutunun doktorantı.

XÜLASƏ

Açar sözlər: mənzilə artan tələbat, iqtisadi yüksəliş, səmərəli fəaliyyət, davamlı inkişaf, sərfəli ipoteka, dünya təcrübəsi, münasib qiymətli mənzillər

Məqalədə sosial mənzillərin inşası sahəsində dünyanın təcrübəsi də nəzərə alınaraq Azərbaycan reallığında sərfəli mənzil inşa edə bilməkdən bəhs edilir. Bu münasibətlə məqalədə Azərbaycan Prezidentinin bu sahəyə diqqətinin əlaməti olaraq verdiyi fərmana və əl çatan qiymətlə satılan mənzillərə ehtiyacı olan ölkələrin də təcrübəsinə istinad edilmişdir.

SUMMARY

Construction of social housing in Azerbaijan; in the context of world experience.

The article deals with the ability to build affordable housing in Azerbaijan's realities, taking into account world experience in the field of social housing construction. In this regard, the article refers to the decree issued by the President of Azerbaijan as a sign of attention to this field and the experience of the countries in need of apartments sold at affordable prices.

Mən 2010-cu il Bakı şəhər 1 saylı məktəbin rus bölməsini, 2014-cü ildə AzMİU memarlıq fakultəsinin Bakalavr pilləsini (ingilis bölməsi), 2016-cı ildə həmin fakultənin magistr pilləsini (azərbaycan bölməsi) bitirmişəm. 2017-ci ildə AMEA-Memarlıq və İncəsənət İnstitutunun doktoranturasına daxil olmuşam. Əməkdar memar, professor Sabir Orucovun rəhbərliyi altında "Azərbaycanda sosial yaşayış komplekslərinin davamlı inkişafı"mövzusunda dissertasiya işinin üzərində çalışıram. Hazırda FHN TTNDA Azərinşaatlayihə İnstitunda memar olaraq çalışıram.

2018-ci ildə dissertasiya işimin mövzusuna dair yazdığım 2 məqalə ilə konfranslarda iştirak etmiş, etdiyim məruzələrə görə sertifikatlar almışam.

Maraq dairəmə elmlə məşğul olmaq, boş vaxtlarımda ilahiyyata və fəlsəfəyə aid materiallarla tanış olmaq daxildir.

Azərbaycan əhalisinin mənzilə sahib olmaq imkanlarının artırılması iqtisadi inkişafın dəstəklənməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yüksəlməsinə, iqtisadi canlanmaya və yeni iş yerlərinin açılmasına səbəb olacaq, o cümlədən ipoteka bazarının daha da inkişafına şərait yaradacaqdır **[1;12]**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması artan mənzil tələbatı fonunda tikinti sektorunu stimullaşdırmaq məqsədi daşıyır. Mənzil İnşaatı Dövlət Agentliyi Azərbaycanda mənzil fondunun inkişafı məqsədilə uyğun qiymətə mənzil təminatı layihələri hazırlayacaq və mənzil bazarının səmərəli fəaliyyətinə şərait yaradan əsas mexanizmlərin (dövlət dəstəyi, layihə resurslarının birləşdirilməsi, özəl sektor tərəfdaşlarının iştirakı və ipoteka bazarının səmərəliliyinin təmin edilməsi) formalaşdırılması və həyata keçirilməsini təşkil edir. Agentliyin tabeliyində olan "MİDA" MMC tikinti layihələrində sifarişçi qismində çıxış edərək, çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə yaradılmışdır. 2020-ci ilədək strateji baxışda ölkədə mənzil ehtiyacının ödənilməsi və bu məqsədlə yaşayış binalarının və müvafiq sosial infrastrukturun (məktəb, xəstəxana, uşaq baxçası və s. tikililər-H.S.) inşasında Mənzil İnşaatı Dövlət Agentliyinin mövqeyinin gücləndirilməsi, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışda şəhərlərin əsaslı və planlı şəkildə yenidən qurulması, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda isə rayonlarda da uyğun qiymətə mənzil sektorunun davamlı inkişafı ilə bağlı çatışmazlıqların aradan qaldırılmasını nəzərdə tutaraq fəaliyyət göstərir. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmaqla, 2020-ci ilədək olan dövr üçün Azərbaycan Respublikasının uyğun qiymətə mənzil təminatı sahəsində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

1. uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi;

2. mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi;

3. uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi.

Uyğun qiymətə mənzil təminatı üzrə strateji məqsədlərə nail olmaq üçün hər bir prioritet üzrə müxtəlif hədəf indikatorlarından ("MİDA" MMC tərəfindən təhvil verilmiş mənzillərin sayı, mənzillərin orta inşaat müddəti, alıcıların sayı və s.) istifadə edilməsi nəzərdə tutulur. **[3;3]** Əsas strateji məqsədlərə Azərbaycan vətəndaşlarının, xüsusilə də aşağıgəlirli ailələrin mənzil şəraitinin daha da yaxşılaşdırılması, tikinti sektorunda rəqabət mühitinin artırılması və sektorun inkişaf dinamikasının davamlılığının təmin edilməsi, eləcə də bu istiqamətdə dövlət siyasətinin icrasının təmin edilməsi daxildir. 2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş hədəflərin reallaşması nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in birbaşa 168 milyon və dolayı 81 milyon manatadək artacağı, tikinti sektorunda 10 minə yaxın yeni iş yerinin yaradılacağı proqnozlaşdırılmış və bu hissə-hissə həyata keçirilməkdədir. Belə ki, bu niyyətlə planlaşdırılmış layihələrin həyata keçirilməsi təxminən 900 milyon manat həcmində investisiya qoyuluşu tələb edir ki, bu gün bu xərclər dövlət və özəl resursların hesabına həyata keçirilir.

Qeyd etmək isəyirik ki, mənzillərin satışında "uyğun qiymət" anlayışı dünyanın müxtəlif ölkələrinin təcrübələrində fərqli şəkildə izah edilir. Bundan əvvəlki tədqiqat işimizdə biz öyrəndik ki, mənzilin alınması üçün çəkilən xərcin ailənin gəlirinin 40-50 faizindən çox olmaması əksər ölkələrdə qəbul olunmuş standartdır **[2;45]**. Aparılan hesablamalara görə, bu gün dünyanın inkişaf etməkdə olan, eləcə də inkişaf etmiş ölkələrində təxminən 330 milyon ailə uyğun qiymətə keyfiyyətli mənzil almaq problemi ilə üz-üzədir və bu göstərici getdikcə artmaqdadır**[3;6]**. Belə ki, beynəlxalq təcrübədə mənzil xərclərinin azaldılması və əhalinin standartlara cavab verən mənzillərə ehtiyacının ödənilməsi üçün əsasən aşağıdakı dörd istiqamətə diqqət yetirilir:

1 *uyğun qiymətə mənzillərin tikintisi üçün əlverişli torpaq sahələrinin müəyyənləşdirilib ayrılması;*

2 *mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin çəkilməsi ilə bağlı dövlət dəstəyi mexanizmlərinin tətbiq edilməsi;*

3 *tikinti prosesində səmərəliliyin təmin edilməsi;*

4 *maliyyələşdirmə mexanizmlərinin və benefisiarların seçilməsi (maliyyə təminatçısı-H.S.)*

Torpaq xərcləri mənzil xərcinin əhəmiyyətli hissəsini təşkil etdiyindən, "həmçinin mənzilin yerləşdiyi ərazi mənzilin keyfiyyətinə və sakinlərin yaşayış səviyyəsinə ən çox təsir edən faktorlardan olduğundan" **[4;14]**, münasib ərazidə uyğun qiymətə torpaqların əldə olunması və mənzil tikintisi üçün istifadə edilməsi mənzil tikintisi agentlikləri üçün müstəsna əhəmiyyət kəsb edir. Bu məsələnin həllinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, Türkiyədə uyğun qiymətə mənzil təklif edən müvafiq qurum – TOKİ (toplu konut idaresi-H.S.) dövlətdən əldə etdiyi və ya əvəzləşdirdiyi torpaqlardan özəl podratçılarla birlikdə uyğun qiymətə mənzillərin inşası üçün istifadə edir. Bu zaman TOKİ həm ƏDV güzəştlərindən faydalanır, həm də torpaq vergisindən azad edilir. Bundan əlavə, boş qalmış və ya təyinatı üzrə istifadə olunmayan torpaqların istifadəyə verilməsi məsələsinə də dövlətdə xüsusi diqqət ayrılmalıdır. Məsələn, Çin Xalq Respublikasında bir il ərzində təyinatı üzrə istifadə olunmayan torpaqlara dəyərinin 20 faizi qədər vergi tətbiq edilir, iki il ərzində istifadəsiz qalmış torpaqlar isə müsadirə edilə bilər. Oxşar tədbirlər Filippində və Braziliyada da tətbiq edilir. Hətta Nyu-York kimi əhalisinin sıx məskunlaşdığı şəhərdə də yaşayış üçün zonalaşdırılmış torpaqların 10 faizi istifadəsizdir və şəhər meriyası bu torpaqları aşağıgəlirli əhali qrupları üçün uyğun qiymətə mənzillərin tikilməsi məqsədilə istifadə etmək niyyətindədir. Sinqapur kimi məhdud əraziyə sahib bir ölkədə də torpaqların idarə olunması çox mühüm məsələdir. Hazırda əhalisinin sayı çox olub ərazisi az və yararsız olan bir çox dövlətlərdə torpaqlar dövlət nəfinə əhalinin xeyri üçün götürülür. Məsələn dövlətə məxsus torpaqlar Sinqapur ərazisinin 90 faizini təşkil edir. Belə ki, bu ölkədəki qanunlar dövlətə torpaqları bazar dəyərindən daha aşağı qiymətə almağa imkan verir ki, bu torpaqlar da tikinti məqsədilə mənzil inşaatı ilə məşğul olan dövlət agentliyinə ötürülür. "Torpaqların birləşdirilməsi" üsulunda qonşu ərazilərdə yerləşən torpaqlar birləşdirilərək orada mənzillər tikilir və yekunda torpaq sahibləri ilə, təqdim etdikləri torpağın həcminə müvafiq olaraq, əmlak əvəzləşdirilməsi aparılır. Bu üsul həmçinin Yaponiyada, Cənubi Koreyada və Hindistanda da istifadə olunur. Tikinti üçün torpaq sahələrinin müəyyənləşdirilməsi zamanı nəzərə alınmalı olan mühüm faktorlardan biri bu sahələrdəki infrastrukturun, xüsusilə də nəqliyyat xətlərinin keyfiyyətidir. Honq Konqda son 40 il ərzində tikilmiş yeni yaşayış məskənlərinin şəhər mərkəzi ilə birləşdirilməsi üçün dəmiryol xətlərinin salınmasına xüsusi diqqət yetirilmişdir. **[5]** ABŞ-ın Denver şəhərində uyğun qiymətə mənzil inşaatı ilə yeni nəqliyyat xətlərinin tikintisi paralel aparılır. Əsasən inkişaf etmiş ölkələrdə tətbiq edilən enerjiyə qənaət tədbirləri vasitəsilə mənzil xərclərinin kifayət qədər azaldılması təmin olunur. ABŞ-da və Böyük Britaniyada mənzillərə tətbiq edilən tələblər sayəsində enerji xərclərində 20-30 faiz qənaətə nail olunmuşdur. Bundan əlavə, Böyük Britaniyada təmirlə bağlı ev sahiblərinə həvəsləndirmələr və yardımlar verilir **[5].** Bundan əlavə, tikinti prosesinin optimallaşdırılması yolu ilə xərclərdə ciddi azalmalara nail olmaq olar. Bu istiqamətdə təklif olunan ən vacib innovasiya tikinti prosesinin sənayeləşdirilməsidir. Bu zaman nəzərdə tutulan tikintinin mümkün qədər böyük hissəsinin tikinti sahəsindən kənarda və əvvəlcədən həyata keçirilməsi nəzərdə tutulur. Cənubi Afrika Respublikasında uyğun qiymətə mənzil layihəsində tikinti sahəsində əməliyyatların miqyası bu üsulla 25-30 faizə qədər azaldılmışdır. Beynəlxalq təcrübəyə əsasən, bu yolla xərcləri 30 faizədək, layihənin tamamlanma müddətini isə 50 faizədək azaltmaq mümkündür**[6]**. Nəzəri cəhətdən, tikinti prosesində sənayeləşmə sürətini zəiflədən 2 əsas amil vardır: irihəcmli investisiyaya ehtiyac və irihəcmli tələbata ehtiyac. Bu ehtiyaclar kiçik tikinti şirkətləri tərəfindən qarşılana bilmir. Lakin mərkəzləşdirilmiş dövlət agentliyi hər iki tələbi qarşılaya bilər. Məsələn, mərkəzləşdirilmiş material tədarükçüsü yaratmaqla, Böyük Britaniyada xərclərə 30 faizə yaxın qənaət edilmişdir. Maliyyələşdirmə imkanlarının genişləndirilməsi də sağlam mənzil bazarının yaradılmasında başlıca amillərdəndir. Bir çox ölkələrdə potensial benefisiarların qarşılaşdığı başlıca çətinlik maliyyə çatışmazlığıdır. Hədəf sosial qrupların gəlir səviyyəsinin orta göstəricidən aşağı olması faktı da onlara təqdim olunan kreditlərin (yüksək riskli kreditlərin-H.S.) faizinin yüksək olması ilə nəticələnir. ABŞ-da, Hindistanda və bir sıra başqa ölkələrdə qeyd olunan risk premiumunun azaldılması üçün ipoteka kreditlərinin dövlət tərəfindən sığortalanması həyata keçirilir. Bundan əlavə, benefisiarların mənzil xərclərinin azaldılmasının digər yolu ipoteka kreditləri təklif edən kredit təşkilatlarının maliyyə qaynaqlarına çıxış imkanlarının genişləndirilməsidir. Malayziyada milli ipoteka təşkilatı digər kredit təşkilatlarına tətbiq edilən bir sıra qaydalardan və

məhdudiyyətlərdən azad edilmişdir. Nəticədə, bu təşkilat aşağı faizlə ipoteka krediti təklif edə bilir. ABŞ və Böyük Britaniyada mənzil xərclərinin azaldılması məqsədilə uyğun qiymətə mənzil tikintisi layihələrində iştirak edən şirkətlərə aşağıfaizli kreditlər və vergi güzəştləri tətbiq etməklə, mənzil qiymətlərinin daha da aşağı salınması hədəflənir. Uyğun qiymətə mənzillərin satışından əlavə, Niderland Krallığı və ABŞ-da müəyyən meyarlara cavab verən şəxslər üçün kirayə mənzil imkanı da təklif olunur və onlara kirayə haqqının ödənilməsində dövlət tərəfindən yardım edilir. Türkiyədə isə benefisiarlar müəyyən edilmiş müddətdə kirayə haqqı ödədikdən sonra mənzilin sahibinə çevrilirlər **[6]**

Uyğun qiymətə mənzil təminatı üzrə mövcud vəziyyət hazırda Azərbaycanda mənzilə sahiblik faizi beynəlxalq standartlarla müqayisədə çox yüksək olsa da, yeni mənzil bazarında, xüsusilə də Mənzil İnşaatı Dövlət Agentliyinin hədəf qruplarının iştirakçısı olduğu seqmentlərdə tələb təklifi üstələyir. Odur ki, bir daha vurğulamaq istərdik ki, Azərbaycan əhalisinin mənzil sahibi olmaq imkanlarının artırılması iqtisadi inkişafa, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə, iqtisadi canlanmaya və yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, o cümlədən ipoteka bazarının inkişafına şərait yaradacaqdır. Azərbaycanda Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması, mənzil təminatına artan tələbatı nəzərə alaraq, mənzil tikintisi sahəsində inkişafı stimullaşdırmaq məqsədi daşıyır.

Əhalisi sıx və adambaşına düşən yaşayış sahəsi kiçik olan, habelə iş yeri mərkəzlərinin, nəqliyyat və müvafiq sosial infrastrukturun mövcudluğu və yüksək urbanizasiya səviyyəsi ilə səciyyələnən ərazilər uyğun qiymətə mənzil təminatında prioritet sahələr kimi müəyyən edilmişdir**[5]**. Uyğun qiymətə mənzil təminatı layihələrinin icraolunma ardıcıllığının müəyyən edilməsi zamanı əlavə meyar kimi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən müvafiq proqramlar çərçivəsində dövlət orqanları, təşkilatları və müəssisələrinin işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərin social-məişət problemlərinin həlli, habelə əhalinin digər az və ortagəlirli sosial qruplarının payı nəzərə alınmalıdır. Uyğun qiymətə mənzillərin əlçatanlığının artırılması ölkə daxilində inkişafı gücləndirəcək və iqtisadi canlanma yaradacaqdır. Azərbaycanda uyğun qiymətə mənzil təminatından yararlanmaq imkanlarının artırılması və daşınmaz əmlak bazarının sabitliyi təmin ediləcəkdir. Nəticədə, yerli və xarici investorlar tərəfindən bu sahəyə daha inamla investisiya qoyuluşu təmin ediləcəkdir. Mənzil İnşaatı Dövlət Agentliyi aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərəcəkdir:

1. *təşkilatın işçi heyətinin və əsas imkanlarının formalaşdırılması;*
2. *ilkin fəaliyyət mərhələsində aşağıriskli layihələrin müəyyən edilməsi;*
3. *əhalinin sıx yerləşdiyi və tələbatın yüksək olduğu yerlərdə mənzil tikintisinin həyata keçirilməsi;*
4. *mənzil təminatı ilə bağlı yeni siyasətin həyata keçirilməsi üçün hüquqi bazanın formalaşdırılması və səlahiyyətlərin Mənzil İnşaatı Dövlət Agentliyinə aydın şəkildə ötürülməsi;*
5. *əsas strategiyanın müəyyən edilməsi və milli mənzil təminatı planının (dövlət proqramının) layihəsinin hazırlanması;*
6. *gələcəkdə şəhərlərin əsaslı şəkildə yenidən qurulması və məhəllələrin abadlaşdırılması layihələrinin həyata keçirilməsi.*

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATIN SIYAHISI:

1. Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, 2011.
2. Sadıqov H.R. Abşeron şəraitində yaşayış komplekslərinin davamlı inkişafı. Bakı, AzMİU, 2016.
3. Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi. (Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmişdir) Bakı, 2016
4. Талыбов А.М. Градостроительные проблемы населенных мест Азербайджана. Баку, 2011
5. Азизов А.М. Проблемы населенных пунктов Азербайджана в условиях устойчивого развития. Журнал: Урбанизм №6, Баку, 2004

İnternet resursu:

6. www.globalhousingindicators.org (2018-ci il 9 noyabrda götürülüb)